Reabilitasiya kartının bir sıra parametrlərinin əsasında hazırlanmış sual kitabçası xəstələrin bir sıra sosial-psixoloji xüsusiyyətlərini, sosial-iqtisadi vəziyyətini, xəstəliyin gedişini, əsas müalicə növlərinin intensivliyini və xəstənin onlara münasibətini qiymətləndirməyə imkan verir [2].

Şəxsi yetkinliyi qiymətləndirmək üçün xüsusi şəkildə təşkil olunmuş individual söhbət, müsahibədən istifadə olunmuşdu. Bu söhbət xəstələrin dəyişkən şərtlərdə həyati situasiyalara cəlb olunması ilə əlaqədar idi.

Tətbiqi proqramlar paketinin (tezliklərin hesablanması, faktor analizi, reqression analiz və s.) istifadəsilə əldə olunmuş məlumatların emalı, hesablanması aparıldı.

Əldə olunmuş məlumatlar onu göstərir ki, depressiv vəziyyətli qadınlar həyati dəyərlərin seçimində özünəməxsusluqları ilə seçilirlər. Orta hesabla birinci yeri fiziki və psixi sağlamlığın dəyəri tutur: xəstələrin 55.9%-u onu birinci yerə qoyur, və yalnız 7.4%-i onu son beş yerə qoyur. İkinci yerdə sevginin dəyəri, üçüncüdə - xoşbəxt ailə həyatının, dördüncüdə - dünyada və ölkədə əmin-amanlıq, beşinci yerdə isə maraqlı iş durur. İyerarxiyada axırıncı yeri "həzz" dəyəri tutur.

Normanın müəyyənləşdirilməsi üçün 90 nəfər sağlam qadından ibarət kontrol qrupu da tətqiq edilmişdi. Norma ilə müqayisədə xəstələr həyati məqsədlərin seçimində daha az konformludurlar. Kontrol qrup üçün ümüminsani maraqların, dünyada və ölkədə əmin-amanlığın prioritet məna kəsb etdiyi halda, xəstələr üçün ən əsas vasitəsiz-şəxsi xarakter daşıyan "sağlamlıq" dəyəridir. Xəstələr sağlamlığı bütün digər məqsədlərin reallaşdırılması üçün əsas şərt hesab edirlər.

Yoxlananların terminal və instrumental dəyərlərin seçimi nəticəsində faktor analizi aparıldı. Xəstələrin və kontrol qrupdakı sağlam insanların

seçdikləri ilk üç faktor analiz edildi. Sağlam insanların seçdikləri ilk üç faktor dəyər-məqsədlərdən ibarət idi: müstəqillik, fəaliyyət və idraka istiqamətlənməni göstərir. Xəstələrdə birinci və üçüncü faktorlar dəyər-vasitələrdən ibarət idi. Yalnız ikinci faktor yaxın ətrafda emosional dayaq axtarışıyla əlaqəli olan dəyər-məqsədlərdən (xoşbəxt ailə həyatı və sevgi) ibarət idi. Birinci faktoru başqalarının fikir və baxışlarına qarşı səbirlilik, səhvləri bağışlamaq, digərlərinin zövq və vərdişlərinə hörmət etmək bacarığı təşkil edir. Üçüncü faktoru özündə və başqalarında olan çatışmazlıqlarla barışmazlıq (dəyər-vasitə) təşkil edir. Üçüncü faktor deməyə imkan verir ki, depressiv halda olan xəstələrdə dəyər-vasitələr həyati məqsədlərə çatmaq üçün xidmət etmirlər.

28 xəstənin cavablarından 115 əlamətin korrelyasion analizi aparıldı. Xəstə üçün müxtəlif həyati dəyərlərin əhəmiyyətliliyi, bərpaedici müalicəyə münasibəti və reabilitasiyanın uğurluluğu arasında korrelyasion əlaqələr aşkar edildi. Sağlamlığın vacibliyini dərk edən xəstələr individual psixoterapiyaya ($r = 0.48$, $p<0.01$) və əmək terapiyasına ($r = 0.51$, $p<0.01$) daha yaxşı münasibət bəsləyirlər. Onlarda qospitalizasiya müddəti də qısa olur ($r = -0.4$, $p<0.05$). Sağalmağa yönəlmələri onları müalicə prosesinə aktiv qoşulmalarına təhrik edir. Bunun nəticəsində də reabilitasiyanın effekti artır.

Daha çox maddi rifaha önəm verən xəstələrdə xəstəxanadan buraxılarkən aşağı səviyyəli remissiya müşahidə olunmuşdur ($r = -0.41$, $p<0.05$). Xəstələrdə maddi rifaha oriyentasiya şəxsiyyətin yetkinləşməməsinin əlamətidir. Normada şəxsiyyətin yetkinliyi "ictimai hörmət", "möhkəm iradə", "işlərdə effektivlik" kimi geniş ictimai məna kəsb edən dəyərlərin seçimilə əlaqəlidir.

Əldə olunan klinik və eksperimental-psixoloji materialın təhlili həyati konsepsiyaların iki modelini ayırd etməyə imkan verir. Birincisi şəxsiyyətin yetkinliyilə seçilir. Dəyərlər sistemində ən vacib yeri sağlamlıq tutur, "maddi rifah" və "həzz" dəyərləri ikinci planda durur. Bu konsepsiya ailəyə yaxşı münasibətlə, geniş ünsiyyət dairəsiylə və boş vaxtların aktiv keçirilməsiylə xarakterizə edilir. Məhz buna görə də belə xəstələr reabilitasion təsir üçün daha açıqdırlar; onlarda qısamüddətli qospitalizasiya və yüksək səviyyəli remissiya müşahidə olunur [3].

İkinci konsepsiya üçünsə şəxsiyyətin yetkinliyinin aşağı səviyyəsi, öz sağlamlığına diqqətsizlik, xəstələrin komforta və vaxtın səmərəsiz, qayğısız keçirilməsinə oriyentasiyası, habelə ailəyə pis münasibət, dar ünsiyyət dairəsi xarakterikdir. Belə xəstələr reabilitasion təsir üçün nisbətən qapalıdırlar; onlarda uzunmüddətli qospitalizasiya və aşağı səviyyəli remissiya müşahidə olunur [4].

Motivlər sistemində "özünə yönəlmə" üstünlük təşkil edən xəstələrlə reabilitasiya işində xüsusi yanaşma lazımdır. Bir tərəfdən, xəstənin şəxsiyyətinin formalaşması üçün, sosial normaların mənimsənilməsi üzrə iş aparılmalıdır. Digər tərəfdən, "jeton" sisteminin geniş istifadəsiylə, ətrafın təsiri

metoduyla xəstələrin davranışını korreksiya etmək üçün səyləri cəmləşdirmək lazımdır [5].

Ədəbiyyat

1. Ануфриев А.К. Патология общего чувства и аффективные расстройства с эквивалентами. – В кн.: Психосоматические расстройства при циклотимных и циклотимоподобных состояниях. М., 1979г., 8-24с.
2. «Аффективные расстройства; диагностика, лечение, реабилитация». Под ред. Кабанова М.М. Л., 1988г., 164с.
3. Днепровская С. В. Значение клинических и социально-психологических характеристик для реабилитации больных затяжными депрессиями. – В кн.: Реабилитация больных психозами. М. 1999г.
4. Зейгарник Б. В. Патопсихология. М., 1986.
5. Узунова В.Г. Ценностные ориентации личности как фактор восстановления активной жизнедеятельности при вынужденном нарушении привычного образа жизни. Автореф. канд. дис. М. 1998.

## Ценностные ориентации и их значение для проведения сстановительной терапии с больными аффективными расстройствами.

Для изучения связи ценностной сферы больных депрессиями с эффективностью реабилитационных воздействий было обследовано 45 больных с депрессивными состояниями в рамках маниакально-депрессивного психоза. Больные – женщины, средний возраст – 34 года. Лица, имеющие высшее и незаконченное образование составили 43,5%, остальные больные имели среднее специальное образование. Ведущим в клинической картине был тревожно-депрессивный синдром.

Для изучения ценностных ориентаций больных использовался адаптированный вариант методики М. Рокича, состоящий из списков ценностей-целей и ценностей-средств по 18 наименований в каждом.

Полученные данные позволяют говорить о том, что больные женщины с аффективными расстройствами отличаются своеобразием в выборе жизненных ценностей.

## Valuable orientations and their value for carrying out of regenerative therapy with sick affective frustration.

For studying of communication of valuable sphere sick depressions with efficiency of rehabilitation influences had been surveyed 45 patients with depressions within the limits of an is maniacal-depressive psychosis. Patients –

women, middle age – 34 years. The persons having the higher and incomplete education have made 43,5 %, other patients had average vocational education. The disturbing-depressive syndrome was the leader in a clinical picture.

For studying of valuable orientations of patients the adapted variant of a technique M.Rokicha consisting of lists of values-purposes and values-means on 18 names in each was used.

The obtained data allows to say that sick women with affective frustration differ an originality in a choice of vital values.

## İNKLÜZİV BAĞÇA VƏ İNKLÜZİV MƏKTƏBLƏRDƏ XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN TƏHSİLİ

Sayadova Zəminə
BDU-nun II kurs magistrantı
Z_Sayadova@mail.ru

*Açar sözlər:* inklüziv təhsil, inklüziv məktəb, inklüziv bağça, xüsusi qayğıya ehtiyacı olan uşaqlar.
*Ключевые слова:* инклюзивное образование, инклюзивные школа, инклюзивные садик, дети со специальными нуждами.
*Keywords*: inclusive education, inclusive school, inclusive kindergarten, children with special needs.

Təhsil sosial təcrübənin insanlar tərəfindən yığılaraq yeni gələn nəsilə ötürülməsidir. Uşağın dünyaya gəlişi ilə sosial və bioloji qarşılıqlı təsir prosesi başlayır. Qarşılıqlı təsir və onun uşağa olan təsiri ətraf mühitin xarakterindən və uşağı əhatə edənlərdən asılıdır. Şəxsiyyətin formalaşmasında rol oynayan sosial situasiyanın mürəkkəbliyi ailəyə, cəmiyyət və eləcə də təhsil sisteminə təsirsiz ötüşmür. Uşaqların məktəbə qəbul edildiyi vaxtdan etibarən valideynlərin sosial və maddi vəziyyətlərindən, coğrafi yaşayış mövqeyindən, etnik və cinsi mənsubiyyətindən, valideynlərin həyat fəaliyyətinin xarakterindən ( işləyən, işsiz və s.) asılı olmayaraq məktəbə qəbul olunan uşaqların fiziki, psixi, mədəni və təhsil baxımından hazırlıqlı olması tələb olunur. Fasiləsiz təhsil sisteminə keçid zamanı bunlardan çox şey asılıdır. Bu sistem qanunauyğun olaraq öz əsasını məktəbəqədər təhsildən götürür ki, bu müəssisələrdə verilən təhsil peşəkar tərbiyəçilər tərəfindən uşağın psixi və fiziki inkişafında olan tələbatları nəzərə alaraq, elmi cəhətdən hazırlanmış proqram əsasında məqsədyönlü şəkildə təşkil edilir [7,3]. Son illər dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərini düşündürən məsələlərdən biri də sağlamlıq, sosial, psixi və fiziki imkanları məhdud olan şəxslərin təhsilidir. Son zamanlar sağlamlıq imkanları məhdud olan şəxslər üçün təklif olunan təhsil xidmətlərindən biri də inklüziv təhsildir. İnklüziya sağlamlıq imkanları

məhdud olan uşaqların öz güclərinə inamı artırmağa, həmçinin, onları digər uşaqlarla birgə məktəbdə təhsil almağa stimullaşdıran cəhddir. Bir çox ölkələrdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar tipik uşaqlar ilə birlikdə ümumtəhsil məktəblərində təhsil alır. Bu cür inteqrasiyaya inklüziv təhsil deyilir. İnklüziya xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumtəhsil məktəblərinə sadəcə olaraq daxil olması deyil. İnklüziv sinif mühitində təlim hər bir uşağın yoldaşları ilə birlikdə tədris prosesində iştirak etmə hüququnu nəzərdə tutur [1, 13].

Xüsusi qayğıya ehtiyacı olan uşaqların tipik həmyaşıdları ilə birgə təlim- tərbiyə üçün hazırlıq baxımından məktəbəqədər tərbiyə müəssisələrinin işinin yenidənqurulması, tərbiyəçi kadrların təkmilləşdirilməsi və s . sahələrdə axtarışlar yeni dövrün tələbidir. Təcrübə göstərir ki, məktəbə hazırlıqlı gələn uşaqlar, o cümlədən , müəyyən çatışmazlıqları- görməsi, eşitməsi, intellektual inkişafı problemli, dayaq-hərəki aparatının yüngül və ya orta səviyyəli qüsurları və s. olan uşaqlar birgə təşkil olunmuş təhsil və başqa növ fəaliyyət zamanı yeni şəraitə daha tez alışır, yoldaşları ilə ünsiyyət yaradır, proqram materialının mənimsənilməsində daha az çətinlik çəkirlər. Sonralar isə məktəbin ictimai həyatında fəal iştirak edir, şən, gümrah şəxsiyyət kimi böyüyürlər [3,61].

Məlumdur ki, məktəbəqədər yaş dövründə uşaq şəxsiyyətinin inkişafının bünövrəsi qoyulur. Məhz uşaq bağçalarında düzgün təşkil edilmiş təlim–tərbiyə nəticəsində uşaqlarda kollektivçilik, əmək vərdişləri, davranış, etik və əxlaqi keyfiyyətlər, dünya haqqında ilkin təsəvvürlər formalaşır və inkişaf edir.

İnklüziv komponentli bağçalarda uşaqlar bir sıra çətinliklərlə rastlaşırlar. Bunlardan ən başlıcası qrupda özləri kimi olmayan uşaqlarla qarşılaşmalarıdır. Belə uşaqlara uyuşma, ünsiyyət yaratma prosesi çox ağır keçir. Bu prosesə tez alışma tərbiyəçi–müəlliminin qrupda münasibətlər sistemini necə qurmasından asılıdır. Bu münasibətlər düzgün təşkil edildikdə uşaqlar bir-birinə tez alışır, asanlıqla ünsiyyət yaradır, birgə fəaliyyət iştirakçısı olurlar; düzgün qurulmadıqda isə hər iki tərəf üçün–həm tipik , həm də xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün çox ağır keçid yaranır [ 5,166].

Təcrübə göstərir ki, erkən müdaxilə və məktəbəqədər təhsil xidmətləri almış uşaqlar məktəbə daha uğurla adaptasiya olur [1, 22]. Bugün təklif olunan təhsil xidmətlərinə əsasən deyə bilərik ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların xüsusi məktəblərdə oxumasına ehtiyac yoxdur. Beləki, onlar daha keyfiyyətli təhsil almaq və cəmiyyətə, ictimai həyata uyğunlaşmaq üçün ümumtəhsil məktəblərinə və bağçalara gedirlər. Belə uşaqların tipik yaşıdları ilə birgə təhsil və tərbiyəsi tipik uşaqlarda tolerantlıq və məsuliyyətlilik hissini gücləndirir. Son zamanlar təhsil sistemində tətbiq olunan innnovativ yanaşmalardan biri də xüsusi qayğıya ehtiyacı olan uşaqların tipik yaşıdları ilə birgə təhsili, yəni inklüziv təhsildir. İnklüziv təhsil sosial vəziyyətindən, irqi və milli mənsubiyyətindən, fiziki və əqli bacarıqlarından asılı olmayaraq hər bir uşağa bərabər şəkildə təhsil almaq, inkişaf etmək və öz təhsil ehtiyaclarını

ödəmək imkanı verir. İnklüziv təhsilin prinsiplərini aşağıdakı kimi ifadə etmək olar: 1.Ümumtəhsil müəssisələrinin rəhbərliyi və müəllimləri xüsusi qayğıya ehtiyacı olan uşaqları onların fiziki, sosial, emosional və intellektual inkişafından asılı olmayaraq qəbul edir və bu uşaqların inkişafı üçün onların ehtiyaclarına uyğun psixo-pedaqoji şərait yaradır. 2. İnklüziv təhsil ideyasını tətbiq edən məktəb və bağçaların rəhbərliyi və müəllim heyəti tədris prosesinin mərkəzi fiquru olan xüsusi qayğıya ehtiyaclı uşağın digər yoldaşları ilə qarşılıqlı əlaqəsinin mexanizmlərinin təhlilində və pedaqoji prosesin idarə olunmasında ciddi köməyə ehtiyac duyurlar. 3. İnklüziv təhsil mühiti yalnız uşaqlar üçün deyil, həmçinin böyüklər üçün də açıqlıq və əməkdaşlıq imkanı yaradır. Belə ki, ümumitəhsil məktəblərində və bağçalarında inklüziv təhsil ideyasını dəstəkləyən və əməkdaşlıq edən iştirakçılar nə qədər çox olarsa burada təhsil alan uşaqların da uğurları bir o qədər çoxalar [ 4, 75].

Son dövrlər inkişaf etmiş ölkələrin əksəriyyətinin təcrübəsində "Uşaq bağçası -Reabilitasiya mərkəzi - Məktəb" modelindən istifadə edilir. Məktəbəqədər müəssisələrdəki peşəkarlarla məktəb müəllimləri arasında olan bu sıx əlaqə uşaq haqqında daha çox məlumat toplamağa, ona uyğun seçilmiş inkişaf və təlim proqramı ilə tanış olmağa imkan verir. Bu zaman uşaq məktəbə qəbul edilməmişdən əvvəl məktəbəqədər müəssisədə çalışan tərbiyəçilər xüsusi qayğıya ehtiyacı olan uşaq barədə məktəb müəllimlərinə informasiya verirlər. Bu informasiyaya xüsusi qayğıya ehtiyacı olan uşağın inkişaf səviyyəsi, diaqnozu barədə informasiya və onun potensial imkanları barədə məlumatı göstərmək olar [ 6, 49].

Tədris ilinin əvvəlində məktəb rəhbərliyi birinci sinifdə tədris aparacaq müəlimlərlə görüşlər keçirir. Müəllimlərə məktəbin birinci sinfinə qəbul ediləcək uşaqlar və onların inkişaf xüsusiyyətləri barədə məlumat verilir. Daha sonra müəllimlərə məktəbəqədər müəssisələrdə məşğələlərdə iştirak edərək həmin uşaqları fəaliyyət zamanı müşahidə etmək imkanı verilir. Əldə olunmuş informasiyalar əsasında tərbiyəçilər, müəllimlər və mütəxəssislərin birgə müzakirələri nəticəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün fərdi tədris planı tətbiq edilir. Müəllim və uşaqların məktəbə daxil olana qədər tanışlığı və ünsiyyətdə olması ümumilikdə təhsil prosesində müvəffəqiyyətin təminatı hesab olunur.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlar məktəbəqədər təhsil xidmətləri almadıqda məktəbdə təhsil alarkən onlar üçün seçilmiş tədris planı risk altında ola bilər. Belə ki, bu zaman müəllimlər uşaqlar haqqında ətraflı informasiyaya malik olmurlar. Uşağın xüsusiyyəti, bacarıqları və inkişaf səviyyəsi barədə informasiya məhdudiyyəti ilə üzləşən müəllimə digər uşaqlara tətbiq etdiyi tədris standartlarını həmin uşağa da tətbiq edir. Bu zaman tələblər və uşağın imkanları arasında ziddiyyət yaranır. Bu ziddiyyətin nəticəsində təlim motivasiyasının zəifləməsi, təlimdə çətinlik və uşaqda özünəinamsızlıq yaranır[6, 32].

İnklüziv təhsil komponentli məktəblərdə və bağçalarda çalışan müəllim və tərbiyəçilər professional pedaqoji hazırlıqla və biliklərlə yanaşı xüsusi psixoloji, tibbi və sosial biliklərə də malik olmalıdırlar. Bunları aşağıdakı kimi qeyd etmək olar:

-inklüziv təhsil nədir və o ənənəvi təhsil sistemindən nə ilə fərqlənir?

-uşağın şəxsi və yaş inkişafının xüsusiyyətləri və psixolji qanunauyğunluqları barədə biliklər;

-tədris prosesinin formalaşdırılması üçün psixoloji və didaktik metodlar barədə biliklər;

- müxtəlif üsullardan istifadə etməklə tədris mühitinin mühüm iştirakçıları ilə qarşılıqlı pedaqoji münasibətlər qurmaq bacarığı [ 7, 5].

Bundan başqa mövcud stereotiplərin dəyişdirilməsi və ya aradan qaldırılmasında, inklüziv komponentli mühitdə müəllimin peşəkar mövqeyinin möhkəmləndirilməsində treninqlər, pedaqoji –psixoloji konsiliumlar, ustad dərsləri mühüm rol oynayır.

Ədəbiyyat

1. "İnklüziv təhsil". Peşəkarlar üçün metodik vəsait, Bakı, 2010.
2. N. Ulutaşdemir " Engelli çocukların egitimi", Ankara, 2007
3. S. Qasımov, E. Kərimova, İ. Sultanova, F. Ağayeva " İnklüziv təhsil", Bakı, 2006.
4. *S. Stubbs"Inclusive Education - Where there are few resources"* published by the Atlas Alliance, Oslo, 2002.
5. Ş. Bilir "Özürlü Çocuklar ve Eğitimleri" , Hacettepe Üniversitesi Çocuk Gelişimi ve Eğitimi Bölümü Yayınları, Ankara, 1999.
6. Основные принципы инклюзии -http://obrazovanie.perspektiva-inva.ru
7. Т.Ж. Калдыбаева-Социальные проблемы дошкольного образования в Казахстане, Автореф. дис. Алматы, 2000

Resume

The article says about inclusive education and inclusive schools and kindergartens, and its value for children with special needs. The author notes that at the core of inclusive education is put ideology that excludes any discrimination against children, which ensures equal treatment of all people, but also creates special conditions for children with special educational needs.

Резюме

В статье говорится об инклюзивном образовании, инклюзивных садик и инклюзивных школ, и его ценность для детей с особыми потребностями. Автор отмечает, что в основу инклюзивного образования положена идеология, которая исключает любую дискриминацию детей,

которая обеспечивает равное отношение ко всем людям, но создаёт особые условия для детей, имеющих особые образовательные потребности.

## KİÇİK MƏKTƏBLİ YAŞ DÖVRÜNÜN XÜSUSİYYƏTLƏRİ

Hüseynova Elnarə,
ADPU-nun II kurs magistrantı

*Açar sözlər:* kiçik məktəbli, kiçik qrup, təlim motivləri.
*Ключевые слово:* младший школьник, малый групп, образовательные мотивы.
*Key words:* younger schoolboy, small group, motives of education.

Tədris həyatının ilk günlərində uşaq yeni təəssüratlarla o qədər zəngin olur ki, hətta məktəbə müəyyən hazırlıqdan sonra gələn uşaqlarda da tipik olmayan davranış tərzi müşahidə etmək olar. Psixoloqlar məktəb həyatının başlanğıcında şagirdlərin davranışına təsir edən bir sıra faktlar müəyyən etmişlər. Bu faktorlardan ən birinci bütün günün rejiminin kəskin dəyişməsi qeyd olunur ki, bu da uşaqların yorulmasına səbəb olur. Əlavə yorğunluğu həm də məktəbdə uşağın mütəmadi olaraq gərgin əqli fəaliyyətlə məşğul olması gətirir. Halbuki, bağçada uşağın günü əyləncəli oyunlarla keçirdi. Uşağa həmçinin yeni qarşılıqlı münasibətlər təsir edir. Əvvəlcə, uşaq daha çox təlim fəaliyyəti ilə məşğul olur, sinif yoldaşları ilə az əlaqəyə girir. Bu səbəbdən də bəzən özünü yad hiss edir. Uşaq bağçasında isə kollektiv oyunlarında həmişə yaşıdları ilə əlaqədə olurdu. Bunlardan başqa müəllim şəxsiyyəti də uşağa təsir edən amillərin sırasında önəmli yer tutur. Məktəb illəri bütünlükdə (xüsusilə də kiçik məktəbli yaş dövrü) müəllim şəxsiyyəti ilə əlaqəlidir. Uşağa münasibətdə pedaqoq mövqeyi bağça tərbiyəçisinin mövqeyindən fərqlənir. Tərbiyəçi ilə münasibətlər daha "intim" xarakter daşıyır. Tərbiyəçi uşaqlar üçün sanki valideyn funksiyalarını yerinə yetirir. Müəllimlə münasibətlər isə daha çox təlim fəaliyyəti üzərində qurulur və sanki işgüzar münasibətləri xatırladır. Şagird bu zaman özünə nəzarət etməyi, davranışını nizamlamağı bacarmalıdır. Bu isə kiçik məktəbli yaşlı uşaqlarda bir qədər gərginlik yaradır.

Kiçik məktəblilər çox vaxt məktəb kollektivindən kənarda olurlar. Onlar belə böyük kollektivdə özlərini köməksiz körpə kimi hiss edirlər. Bağçada digər uşaqlarla onlar arasında yaş fərqi çox olmurdu. Bunların hamısı uşağın davranışına təsir edir. Bəzən bağçadakı tərbiyəçilər məktəbə gəlir, öz şagirdlərini müşahidə edirlər. Onlar dəcəl uşaqların sakit, utancaq və əksinə, sakit uşaqların çox coşğun olduqlarının şahidi olurlar. Məktəblinin ümumi vəziyyəti onda psixi proseslərin necə cərəyan etməsində də öz əksini tapır. Kiçik məktəblilərdə, xüsusilə də birinci sinif şagirdlərində diqqətin həcmi çox dar olur, diqqətin davamlılığı isə olduqca az olur. Birinci sinif şagirdi diqqətini tamamilə müəllimin

fəaliyyətinə yönəldə bilər və bu zaman ətrafdakılar bütövlükdə diqqətdən kənarda qalar. Bununla yanaşı, hər hansı gözlənilməz parlaq qıcıqlandırıcı onun diqqətini çox tez təlim fəaliyyətindən yayındıra bilər. Hafizədə də bəzi xüsusiyyətlər nəzərə çarpır. Bəzən birinci sinif şagirdləri müəllimlərinin adını, onun xarici görünüşünün ən əsas elementlərini, öz siniflərinin harada yerləşdiyini, partalarının hansı olduğunu unudurlar.

Bu dövrdə hələ də uşağın həyatında məktəbəqədər yaş dövrünün tələbatları üstünlük təşkil edir. Yəni, oyun fəaliyyətinə tələbat saxlanılır. Bu səbəbdən başlanğıcda şagirdlərdə təhsilə qarşı maraq yaratmaq, mürəkkəb təlim fəaliyyətini daha da asanlaşdırmaq üçün didaktik oyunlardan dərsdə istifadə olunmalıdır. Məktəbəqədər yaş dövründəki kimi kiçik məktəbli yaş dövründə də hərəkətə olan tələbatın ödənilməsi uşağın vacib ehtiyaclarındandır. Çox vaxt bu, şagirdin diqqətini dərsə yönəltməsinə mane olur, uşaqda sinifdə hərəkət etmək arzusu yaranır. Bir çox uşaqlar bu arzularını dərs müddəti ərzində boğur və tənəffüsdə xüsusi hərəkətlilik nümayiş etdirirlər. Onlar tənəffüsdə o qədər sürətlə qaçırlar ki, yorulurlar və bununla da dərsdə öz iş qabiliyyətlərini aşağı salmış olurlar. Buna görə də müəllim bağça tərbiyəçisi kimi uşaqların asudə vaxtını düzgün təşkil etməyi bacarmalıdır. Müəllim tənəffüslərdə hərəkətli oyunlar təşkil etməli, eyni zamanda dərs zamanı uşaqlara müəyyən qədər hərəkət etməyə imkan verməlidir. Tədricən zahiri maraqlar uşaqlarda daxili motivləri formalaşdırır, zamanla təlim motivləri təşəkkül tapır. [3, s.135]

Şagirdlər təlim fəaliyyətinə yiyələnərkən təlim motivləri də müvafiq olaraq inkişaf edir. Adətən birinci sinif şagirdləri hələ öz sevimli fənlərini ayırd edə bilmirlər. Onlar bir neçə fənnin adını sayırlar və birinci yerdə tədris vasitələri ilə onlara daha çox əyləncəli gələn fənnin adını qeyd edirlər. Bu sırada birinci yerləri çox zaman rəsm, əmək, bədən tərbiyəsi dərsləri tutur. Çünki bu dərslərdə onlar əqli fəaliyyətlə məşğul olmur, konkret predmetlərlə praktik olaraq fəaliyyətdə olurlar. Bu, təfəkkürün inkişafına səbəb olan amillərdəndir. İkinci sinifdə şagirdləri maraqlandıran fənlərin dairəsi daralır. Üçüncü sinifdə adətən bir qədər də azlaraq iki və bəzən bir sayına bərabər olur. Bu zaman uşaqları artıq fənnin məzmunu, onun mahiyyəti maraqlandırır. [2, s. 123]

Kiçik məktəbli bir şəxsiyyət kimi daha çox ünsiyyətdə formalaşır. Məktəbəqədər yaşla müqayisədə kiçik məktəb yaşı dövründə uşağın ünsiyyət dairəsi daralır, onun üçün birinci növbədə müəllim şəxsiyyəti dəyərlidir. Məhz müəllim şagirdi təlim fəaliyyətinə daxil edir və onu bu fəaliyyətə qoşur. Kiçik məktəb yaşlı şagirdlər üçün müəllim heç bir şərtsiz avtoritetdir. Buna görə də onlar ilk olaraq həmyaşıdları ilə deyil, müəllimlə ünsiyyət qurmağa meyl edirlər. İlk vaxtlarda kiçik məktəbli öz sinif yoldaşlarını da müəllim vasitəsilə qavrayır. Dərs vaxtı müəllim şagirdi qiymətləndirəndə, onun uğurunu və ya müvəffəqiyyətsizliyini qeyd edəndə sinif yoldaşlarının diqqətini onlara yönəldir. Bu səbəbdən də aşağı sinif şagirdlərində öz həmyaşıdlarını mənəvi keyfiyyətlərinə əsasən qiymətləndirmək böyük məktəbli yaş dövrünə nisbətən çox

aşağı səviyyədə olur. Hələ kollektiv bağları çox nəzərə çarpmır. Münasibətlər və əlaqələr məhz təlim fəaliyyətində yaranmağa başlayır. Məsələn, müəllim məktəblilərə qrup şəklində icra olunmalı tapşırıqlar verir. Qruplarla iş zamanı şagirlər bir-biri ilə ünsiyyət qurmağa başlayır.

İkinci və üçüncü tədris ilində şagirdlərin sinif kollektivinə münasibətləri dəyişir. Bu dəyişikliklər ilk öncə təhsilə yeni münasibətlə – müəllim şəxsiyyətinin birinci ilə nisbətən bir qədər arxa plana keçməsi ilə bağlıdır. Əvəzində isə birlikdə biliklərə yiyələndiyi, ictimai işlərdə, oyunlarda, yarışlarda iştirak etdiyi sinif yoldaşları ilə daha sıx əlaqələrlər qurulur. Yavaş-yavaş sinif kollektivində qarşılıqlı münasibətlər mənəvi keyfiyyətlərin qiymətləndirməsi əsasında qurulmağa başlayır, davranışlar da bu baxımdan təhlil olunur. Uşaqlar öz həmyaşıdlarının şəxsiyyətinin bu və ya digər tərəflərini getdikcə daha dərin anlamağa başlayırlar. Bununla da kiçik məktəbli yaş dövrünün sonlarından etibarən şagirdlərdə öz həmyaşıdları ilə ünsiyyətə xüsusi maraq, sinif qrupunun kollektivə çevrilməsi, həmrəylik hissinin inkişafı aydın müşahidə olunur. Göstərilən xüsusiyyətlərin lazımi səviyyədə inkişafına müəllimin fəaliyyəti çox böyük təsir edir. Buna görə də müəllim daim şagird şəxsiyyətinin inkişafı üçün çalışmalı və gözəl nümunə olmalıdır. [1, s. 227]

Ədəbiyyat:

1. M.Həmzəyev "Pedaqoji psixologiya", "Maarif" nəşriyyatı, Bakı – 1991, 293 s.
2. Гамезо М.В., Петрова Е.А., Орлова Л.М. "Возрастная и педагогическая психология" — М.: Педагогическое общество России, 2003. — 512 с.
3. Б.С.Волков, Н.В.Волкова «Готовим ребенка к школе», Питер, 2008, 192 с.

Резюме.

Особенностьи младше возрастных школьников.

В статье рассказывается о психологических особенностях младших школьников. Рассматривается перемены ежедневного режима младшего школьника и воздействие этого на их обучение. Подчеркивается хорошая психологическая атмосфера и высокая познавательная успеваемости младших школьников при интерактивном обучении.

Summary.

Particularity younger age schoolboy.

In article is told about psychological particularity primary school children. It is considered change the daily regime of the junior classes' children and influence this on their education. Good psychological atmosphere and high cognitive progress school children are emphasized with interactive education.

# UŞAQ ŞƏXSİYYƏTİNİN İNKİŞAFININ ƏSAS MƏRHƏLƏLƏRİ

Abdullayeva Təranə
ADPU-nun II kurs magistrantı

*Açar sözlər:* ünsiyyət, uşaqlıq dövrü, sosial təlabatlar.
*Ключевые слово:* общительность, период детства, общественные требования.
*Key words:* sociability, childhood period, social demands.

Uşaq həyatının ilk 6-7 ilində psixososial inkişafda çoxcəhətli və əhəmiyyətli psixoloji dəyişikliklər baş verir. Təzahür edən yeni psixoloji törəmələr, psixofizoloji funksiyaların müəyyənləşməsi, xüsusilə ünsiyyət və fəaliyyət sferasının formalaşması uşağın bir şəxsiyyət kimi inkişafı baxımından çox mühüm amillər kimi dəyərləndirilərək xarakterizə oluna bilərlər. Uşağın psixoemosional, koqnitiv və sosial inkişafı əlverişli psixoloji mühit yaratmaqla gələcək şəxsiyyətin ilkin təzahürlərinin təşəkkülü üçün əlverişli şəraitin yaradılmasını təmin edirlər. Məhz bu yanaşmaya istinadən məktəb yaşına çatmamış uşaqlarda şəxsiyyətin psixogenetik inkişafı ilə əlaqədar məsələlər müzakirə predmeti kimi ön plana çəkilə bilər.

Aparılmış psixoloji tədqiqatların nəticələri göstərir ki, çağalıq dövründə psixi inkişafla şəxsiyyətin inkişafı ayrı-ayrı xətlər üzrə istiqamətlənir. Canlanma kompleksi psixi hadisə olsa da belə, bu hadisə bilavasitə xarakter daşıyır. Uşaq həyatının birinci ilinin ikinci yarısında təzahür edən sosial vasitələşmə ünsiyyət vasitələrinin differensiallaşdırılımış qeyri-verbal ekspressiv vasitələrin seçilməsində ifadə olunur. Ekspressiv vasitələr çağanın psixi təzahürlərinin bütövlükdə birləşərək ifadə olunmasını təmin edir. Təbii ki, çağalıq dövrünün ikinci yarısında müşahidə olunan vasitələşmə çox bəsit və bilavasitə xarakter daşıyır. Alətdən istifadə olunmadığından uşağın davranışı situativ xarakter daşıyır. Natural proseslərdən fərqli olaraq alətli proseslərdə istifadə olunan pretmetlər onların ictimai funksiyalarının nəzərə alınmasına əsaslanır.

Körpəlik dövründə əməkdaşlığa meyl (ilk növbədə yaşlı ilə), cisimlərdən vasitəli şəkildə istifadə olunması heç də uşağın aktiv fəaliyyətə təlabatının olmasına dəlalət etmir. Uşaq üçün daha cox vital təlabatlar və ünsiyyətə olan təlabat mühüm əhəmiyyət kəsb edir. Psixoloji müşahidələr və aparılan təhlil göstərir ki, körpəlik dövründə sosial təlabatlar və onların konkret ifadəsi olan emosional əlaqələrə olan təlabatlar üstünlük təşkil edirlər. Uşaq emosional əlaqələr vasitəsilə yaşlı ilə əməkdaşlıq edir və onun rəhbərliyi altında mikrososial mühiti mənimsəməyə başlayır. Uşaq yaşlını yamsılamaq yolu ilə mikromühiti mənimsəyir və özünü yaşlı kimi müstəqil aparmağa cəhd göstərir. Müstəqilliyə meyl uşağın psixi inkişafının və davranışının mühüm istiqamətinə çevrilməyə baılayır ki, bunun da təsiri altında –mən –özüm –mövqeyi tədricən

formalaşır. Yaranmış psixoloji şərait uşaq şəxsiyyətinin inkişafının yeni mərhələyə daxil olmasına dəlalət edir. Bu zəmində uşaq özünün aktivliyini təşkil etmyə və bununla da müstəqilliyini təsdiqləməyə çalışır və ətrafdakılarla münasibətini tənzim edən çox mühüm olan bir prinsipə çevrilir.

Psixoloji müşahidələr göstərir ki, körpəlik dövründə uşağın müstəqilliyə meyli onun mikromühitə yiyələnmə baxımından sosial imkanlarının məhdud olduğundan obyektiv olaraq ziddiyyətli vəziyyət yaradır. Başqa sözlə, uşağın müstıqilliyə olan təlabatı ilə onun imkanları arasında ahəngdar uyğunluq mövcud olmur. Yaranmış bu uyğunsuzluğun fonunda –üç yaşın böhranı – təşəkkül tapır (L.S.Vıqotski, B.Elkonin və b.). Psixoloji böhran uşağın yaşlılarla münasibətini gərginləşdirir və onun emosional rahatlığını pozur. Neqativizm, tərslik, istıdiyi kimi hərəkət etmək cəhdi və ətrafdakıların tələblərinə biganəlik uşağın davranışını özünəməxsus istiqamətə yönəldir və bu əsasla –uşaq-yaşlı münasibətlərin xarakterində dəyişikliklər baş verir.

Məktəbəqədər yaş dövründə nitqlə bağlı işlərin müəyyənləşməsi xüsusi əhəmiyyət kəsb edir. Bu işlər müstəqil olmaqla xarici əşyavi işləri qabaqlamağa imkan verir. Uşaq nitq vasitəsilə izahat verməyə aktiv meyl edir. Söz vasitəsilə izahat vermək bacarığı uşaqda düşünmə qabiliyyətinin formalaşmasını təmin edir. Məhz bu əsasda uşaq başqa adamların hərəkət və işlərini,o cümlədən predmetlərin obrazlarını dəyişdirir və yenidən qurur. Bütün bunlar uşağın süjetli-rollu oyunlarında aktiv şəkildə ifadə olunur.

Oyun fəaliyyəti özünün aparıcı rolunu saxlamaqla uşağın inkişafının sosial situasiyasına əsaslı surətdə təsir göstərir. Uşaq insanlar arasında mövcud olan qarşılıqlı sosial normaları mənimsəməklə yanaşı müəyyən əxlaqi təsəvvürələrədə nail olur. Bu prosesdə,şübhəsiz ,oyun fəaliyyəti çox mühüm əhəmiyyət kəsb edir. Təsadüfü deyildir ki, görkəmli rus psixoloqu D.B.Elkonin oyun fəaliyyətini uşağın əxlaqi inkişafının ən mühüm mənbəyi kimi qiymətləndirir. Oyun şəraitinin təsiri altında uşaq öz mənini dərk edir və özünü, hərəkət və davranışını başqaları ilə müqayisə edir və eyniləşdirir.(3.s105)

Məktəbəqədər yaş dövründə uşağın inkişafında əsaslı dəyişikliklər baş versə də belə, bu dövrdə qarşılıqlı münasibətlərin sosial normalarının mənimsənilməsi aparıcı mövqeyə malikdir. Uşaq sosial normaları mənimsəyərək cəmiyyətin bir üzvü kimi vəzifələrini yerinə yetirməyə doğru istiqamətlənir. Uşaq öz davranış və münasibətlərini müvafiq sosial tələblərin təsiri altında tənzim etməyə çalışır.(2.s.48) Uşaq sosial motivasiyaya yiyələnməklə qarşılıqlı münasibətlərin sosial normalarını mənimsəyir və bu zəmində yaşlıların qiymətləndirici mühakimələrinin rolu yüksəlir. Sosial baxımdan mövcud olan tələblərə uyğun gəlməyə olan təlabat məktəbəqədər uşaqlıq illərində aparıcı mövqeyə malik olur.

Məktəbəqədər yaş dövründə bir sıra əsaslı psixoloji törəmələrin təzahüründə rollu oyunun mühüm əhəmiyyəti vardır. Rollu oyunlar prosesində başqasının halına acımaq qabiliyyəti inkişaf edir və uşaq başqa oyun

iştirakçılarının emosional vəziyyətlərinə bələdləşir və bununla əlaqədar daxili mütəəssirlik hissini keçirir. Rollu oyunların təsiri altında uşaq rolla bağlı qaydaları mənimsəyir və onda ilkin refleksiyaların təzahürləri müşahidı olunur. Bu əsasda iki yeni tipli psixoloji törəmədə təşəkkül tapır: a) uşaq özününbilavasitə xarakterli arzularını şüurlu surətdə qəbul olunmuş məqsədlərə tabe etməyə nail olur, b) uşaq davranışın sosial normalarını aktuallaşdırmağa və həmin normaları ifadə etməyə çalışır.

Beləliklə, yuxarıda aparılan araşdırmalardan aydın olur ki, uşağın istər motivasiya və istərsə də intellektual baxımdan məktəbə hazır olmasında oyun fəaliyyətinin mühüm əhəmiyyəti vardır. Məhz oyunun təsiri altında təlim fəaliyyətinin asası qoyulur. Uşağın sosial inkişafı,onun sürətlə sosiallaşması və müxtəlif xarakterli sosial hisslərin və emosiyaların formalaşması məktəblə, oxumaqla bağlı dəyərlərin mənimsənilməsi üçün əlverişli psixoloji zəminin yaradılmasını təmin edir.(1.s.60) Bütün bunların təsiri altında məktəbə daxil olan uşaq yeni sosial situasiya şəraitində inkişaf etmək imkanına malik olur. Yaranmış yeni inkişaf şəraitinin imkanlarının reallaşdırılmasında kiçik məktəblinin təlim fəaliyyətinin pedaqoji və psixoloji prinsiplər əsasında qurulmasının mühüm əhəmiyyəti vardır.

ƏDƏBİYYAT.

1. Çələbiyev N.7. Uşaq psixologiyası. ADPU-nun nəşri. Bakı, 2005, 365 s.
2. Quliyev E.M.Uşaq və yaş psixologiyası Testlər. ADPU-nun nəşri Bakı, 2006, 103 s.
3. Əmrahlı L.Ş. Məktəbə psixoloji hazırlığın əsasları. Nərgiz.Bakı, 2006, 187səh.

Резюме.

Основные этапы развитии личности ребенка.

Сложные и важные психологические изменения случаются в течение первых 6-7 лет жизни ребенка. Ребенок начинает присваивать общественные правила и он становится ориентированным, чтобы выполнять обязанности как член общества. Ребенок воспринимает ровесников и взрослых как носитель определенных общественных функций.

Summary.

Basic stages of the development of the child personality.

Complicated and important psychological change happen during the first 6-7 years in life of child. Child begins to appropriate the social rules and he becomes directed to fulfill duties as member of the society. The child perceives coevals and adults as carrier of the definite social functions

## AQRESSİYANIN TƏBİƏTİNƏ PSİXOANALİTİK YANAŞMA

Adıgözəlova Gülnar
ADPU-nun II kurs magistrantı

*Açar sözlər:* aqressiya, psixoanaliz, instinkt.
*Ключевыи слова:* агрессия, психоанализ, инстинкт.
*Key words:* aqression, psychoanalytic, instinct.

Aqressiyanın təbiətini və formalaşmasına təsir edən səbəbləri izah etməyə çalışan nəzəri yanaşmaların müxtəlif olmasına baxmayaraq onları şərti olaraq 4 qrupa ayırmaq olar.

1.aqressiya anadan gəlmə şövq və meyl kimi(psixoanalitik yamaşma)
2. xarixi stimullarla fəallaşan təlabat kimi( frustrasiya nəzəriyyəsi)
3.idraki-emosional proseslər kimi
4. sosiallığın aktual təzahürü kimi(sosial təlim nəzəriyyəsi).

Birinci qrupa daxil olan nəzəri yanaşmaların bəzi fikirlərinin toqquşmasına
baxmayaraq hesab edirlər ki, aqressiya anadangəlmə instinktiv davranış formasıdır.

Onların fikrincə aqressiyanın yaranmasının başlıca səbəbi onun genetik olaraq proqramlaşdırılmasıdır. Ətraf mühitdə baş verən istənilən hətta ən müsbət dəyişikliklər belə onun yaranmasının qarşısını ala bilməz

Psixoanliz insanı hər hansı bir energetik sistem kimi nəzərdən keçirir. Bu sistemdə enerji birinci halda hər hansı bir maneə olmadan müstəqil olaraq cərəyan edir, ikinci halda dolayı yollar təsbit edir və nəhayət çıxış yolu tapmadıqda toplanır. Enerjinin əsas mənbəyi "İd" hesab olunur. Bu altsistem "zövq" prinsipinə əsasən hərəkət edir, heç bir qadağa və norma qəbul etmir. "İd" öz istəklərini həm real hərəkətlərdə həm də fantaziyalarda reallaşdıra bilər. "İd" istənilən məntiq, mənəviyyat və sərvət meyllərindən kənardır.

Aqressiyanın psixoloji mexanizmlərinin müəyyən olunması ilkin olaraq Z.Freydin adı ilə bağlıdır.

Freyd yazırdı: İnsanlar təbiətcə- sevgi həsrətində olan, yalnız təhlükə yarandıqda özlərini müdafiə etməyə çalışan, mehriban və qayğıkeş deyildirlər. Əksinə olaraq güclü aqressiv meyl insan varlığının əsasını təşkil edir. Z.Freyd özünün bütün ilkin tətqiqatlarınad iddia edirdi ki, insan davranışı bütünlüklə həyat instinkti-Erosla bağlıdır. Aqressiya isə libidioz impulsların blokadasına və məhvinə yönəlmişdir. O zaman Freyd aqressiyaya insan orqanizminin ayrılmaz bir hissəsi kimi baxmırdı [4,s.34]

Lakin birinci dünya müharibəsindən sonra Freyd tədricən aqressiayanın təbiəti və mənbəyi ilə bağlı fikrini dəyişdiridi. O, ikinci əsas intink olan – Tanatosun( həyatın məhvinə və sona çatdırılmasına yönəlmiş instinkt) mövcudluğu fikrini irəli sürdü.

Freydin fikrincə insan davranışı, bu iki instinktin mürəkkəb qarşılıqlı təsirinin nəticəsi ilə müəyyən olunur. Həyat instinkti ilə ölüm instinkti arasında daim gərgin konflikt mövcud olduğu üçün digər mexanizmlər tanatosun enerjisinin "mən"-dən kənara yönəlməsinə xidmət edirlər.

Beləliklə, Z.Freyd insan davranışında iki başlıca instinkti fərqləndiridi. Həyat instinkti "Eros" və ölüm instinkti "Tanatos". Onun fikrincə aqressiya anadangəlmə xarakter daşıyır və öz başlanğıcını ölüm instinkti olan "Tanatos" dan götürür. Əgər Tanatosun mənfi enerjisi xaricə yönəlməssə o, insanın özünü məhfinə səbəb ola bilər.

Freydə görə aqressiya bioloji təbiətə malikdir və onu idarə etmək mümkün deyil, yalnız müəyyən sosial normalar vasitəsilə onun təsirini bir qədər azaltmaq olar.

K.Q.Yunqun baxışlarına əsasən aqressiya və aqressivlik psixi enerjidir və seksual formada da özünü biruzə verə bilər. Eyni zamanda psixi enerjinin də müxtəlif forma və vektorlara eyni zamanda libidioz formaya da malik aqressiya şəklində üzə çıxması mümkündür. Aqresiyya psixi enerji kimi həm filogenetik həm də ontogenetik köklərə malikdir, hansıki, həm fərdi həm də kollektiv təhtəlşüurda özünü göstərir.

Aqressiya haqqında analitik baxışlardan fərqli olaraq individual psixologiyanın banısi olan A.Adlerin fikirlərinə əsasən aqressiv davranışın əsasını insanların başqaları üzərində üstünlük əldə etmə meyli təşkil edir. Aqressiya-insanın bir bioloji varlıq kimi ətraf mühitə uyğunlaşa bilməməsinə və müxtəlif orqanların natamamlığına cavab olaraq formalaşır.

E.Fromm aqressiyanın təbiətinə təmamilə fərqli mövqedən yanaşırdı.

Fromun fikrincə aqressiya insanın mövcud olması üçün lazım olan normal şərtlərin pozulmasına cavab olaraq meydana çıxır. İnsan öz təbiəti əsasən aqressiv və dağıdıcı deyildir.O, öz tarixinin, öz azadlığının qurbanıdır.

O, "Анатомия человеческой деструктивности" kitabında neyrofiziologiya, heyvan psixologiyası, paleontalogiya, antropologiya və s. sahələrdən elmi faktlar gətirərək insan orqanizmində daim mövcud olan aqressiya instinktini təmamilə inkar edir.

Fromm insan aqressivliyinə biososial aspektdən yanaşırdı və aqressiyyanın bir-birinə zidd olan iki başlıca növünü fərqləndirirdi[5,s.143].

**1.** Müsbətkeyfiyyətli aqressiya- həm insanlarda həm də heyvanlarda mövcuddur, filogenetik köklərə malikdir, fərdin və növün qorunub saxlanılmasına yönəlmişdir. Həyata, həyati əhəmiyyətli maraqlara təhlükə yarandıqda özünü göstərir və təhlükə aradan qalxan kimi dərhal sönür.

**2.** Mənfikeyfiyyətli aqressiya- yalnız insana məxsusdur, bioloji adaptasiya xarakteri daşımır, filogenetik köklərə malik deyil.

Aqressiya təbiətini izah etməyə çalışan nəzəri yanaşmaların müxtəlifliyinə baxmayaraq aqressiv davranışın mexanizmləri, onun

yaranmasına təsir edən faktorlar bu gün də elmi psixologiyanı düşündürən başlıca problemlərdən biri olaraq qalır.


Ədəbiyyat siyahisi.

1.R.İ Əliyev.Psixologiya: Dərs vəsaiti. Bakı: Nurlan, 2008.

2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.

3.Берковиц Л. Агрессия: причины, последствия и контроль. - СПб.: прайм-ЕВРОЗНАК, 2001. - 512с.

4. Бэрон Р., Ричардсон Д. "Агрессия". - СПб.: Питер, 1999 - 352 с.

5. Фромм Э. Анатомия человеческой деструктивности. - АСТ., 2004. - 635с.

6. Бутовская М.Л. Современная этология и мифы о нарушенном балансе агрессии - торможения у человека. // Общественные науки и современность - 1999. - №4. - с.128 - 134.



Резюме

Рсихоаналитическая теория несмотря на многообразие подходов, исходит из того (и это объединяет эти теории и составляет их центральное звено), что агрессивность рассматривается ее сторонниками как врожденная инстинктивная форма поведения. Иными словами, агрессия проявляется потому, что она генетически запрограммирована. Следовательно, какие-либо, даже самые положительные, изменения в социальной среде не способны предотвратить ее проявление. Максимум, возможно, ослабить ее.



Summary

Supportes of the psycho-analytical theory look agression as innate instinktive behavior form. In other words, aqression arises because it is the genetic proqrammed.

Consequently, some, even the most positive, changes to social ambience not capable to prevent her(its) manifestation. The Maximum, possible, weaken her(it).

# STRESS VƏ SAĞLAM YAŞAMAQ

Qubadova Əminə Sudef qızı,
ADPU-nin II kurs magistrantı

*Açar sözlər:* stress, adaptasiya, gərginlik
*Key words:* stress, adaptation, tension.
*Ключевые слово:* стресс, адаптация, напряжение.

İnsan ətraf mühitdən təcrid edilmiş şəkildə fəaliyyət göstərmir. İnsanın bütün fəaliyyətində ictimai mühit müəyyən rol oynayır. İctimai mühit daim insana təsir edir, onun fəaliyyətini istiqamətləndirir. Lakin ictimai mühit insana daim müsbət təsir etmir. Təəssüf ki, yaşadığımız coşğun əsrdə bu mümkünsüzdür və heç kimə xoşagəlməz hadisələrdən uzaq olmaq müyəssər olmur. Adətən bizləri həyatda qəfildən haqlayan gözlənilməz hadisələrə, taleyin gözlənilməz zərbələrinə qarşı hazırlıqsız olduğumuzdan onlara qarşı dayana bilmir, çaşıb qalır, özümüzü itiririk. Məhz belə vəziyyətlərlə qarşılaşdıqda hər birimiz gərginlik keçirir, qorxu, qüssə və həyəcan bütün varlığımıza hakim kəsilir. Bütün bunlar isə sonda stressin yaranmasına gətirib çıxarır.

Stress adı altında xarici və daxili amillərdən yaranan, fizioloji və psixoloji hadisələrlə müşayiət olunan hədələyici vəziyyət başa düşülür. "İnsanın gözlənilməz gərgin şəraitlə rastlaşarkən keçirdiyi emosional halətdir. Yəni qəflətən təhlükəli vəziyyətdə və ya mürəkkəb şəraitdə təcili surətdə müstəqil qərar qəbul etmək lazım olarkən insanda özünü büruzə verən halətdir". [1,səh: 138] Stress halında insanın xarici aləmə adaptasiyası pozulur, mühit təsirlərinə qarşı cavab reaksiyaları dolaşıq olur, situasiyanı düzgün ayırd edərək özünüistiqamətləndirmə çətinləşir. Fərd üçün asan olan sadə məsələlərin həlli də mümkünsüz kimi görünür. Bu halda həyatın istənilən, ən əhəmiyyətsiz pozuntusu fərd üçün özündə məmnunluq yaratmaq cəhdinə qarşı böyük maneəyə çevrilir. Bütün bunlar özündə şəxsiyyətin böhranlı vəziyyətini əks etdirir. Gərgin psixoloji halət olan stress sivilizasiyanın xəstəliyidir. Müasir dövrdə stressorların sayı və təsir dairəsi xeyli genişlənmişdir. Bir psixoloji termin kimi "stress" sözü adi məişət həyatında, kütləvi informasiya vasitələrində daha tez – tez işlədilir. Stress orqanizmin təsir edən stressorlara qarşı müqavimətini gücləndirir, psixi və fiziki enerji potensialının maksimum səfərbərliyə alınmasını təmin edir.

Hans Selye stressin 3 əsas inkişaf mərhələsini ayırd edirdi.
I mərhələ - həyəcan və ya təhlükə mərhələsi. Orqanizmin adaptasiya olunmuş resurslarının səfərbərliyi bu mərhələdə baş verir.Bu zaman insan gərgin və ayıq vəziyyətdə olur. I mərhələ bir növ növbəti mərhələyə hazırlıq mərhələsidir. İnsan fiziki və psixi cəhətdən özünü çox yaxşı hiss edir, yüksək əhval – ruhiyyədə olur. Bu mərhələdə tez – tez psixosomatik kateqoriyaya daxil olan xəstəliklər təzahür edir. Əgər stressogen amil çox güclüdürsə və ya öz təsirini

davam etdirirsə, növbəti mərhələ - müqavimət mərhələsi başlayır. Bu mərhələdə adaptə olunmuş imkanların balanslaşdırılmış şəkildə sərf olunması həyata keçirilir. İnsan dəyişkən şəraitlərə uyğunlaşaraq optimal enerji sərf edir. O, çətinliklərin öhdəsindən gəlmək üçün müəyyən dərəcəyə qədər davamlı olaraq cəhd etməyə hazırıdır. Lakin bəzən bütün bu hərəkətlər insanda gərginlik yaradır. Stressor təkrar təsir etməyə davam edərsə, üçüncü mərhələ başlayır. Bu mərhələdə azalmış enerji ehtiyatı tükənir, fizioloji və psixoloji müdafiələr qırılır. III mərhələ vəziyyəti daha çox köməyə çağırışa bənzəyir. Bu kömək isə yalnız kənardan – ya dəstək alma, ya da stressorun aradan qaldırılması şəklində gələ bilər.

Stressin yaranması müxtəlif amillərlə - stressorlarla bağlıdır: iş yerini itirmək təhlükəsi, maddi çətinliklər, təlimlə və yaxud işlə bağlı yorğunluq və s. Stress yaradan amilləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- iş və vəzifə öhdəlikləri, bundan irəli gələn gərginlik və yorğunluq;
- təlimlə bağlı yüklənmə və gərginlik;
- iş yerini itirmə təhlükəsi və işin itirilməsi;
- maddi çətinliklər, ayrılıq və ya doğma adamları itirmə;
- həyat üçün təhlükəli xəstəlik, təbii fəlakətlər, müharibə;
- iş yerində, ailədə və qonşuluqda fikir ayrılıqları və konfiliktlər;
- insan hüquqlarının pozulması.

Əlbəəttə stress yaradan amilləri müxtəlifdir. Əsas cəhət insanın stressora necə münasibət göstərməsidir. Bəziləri üçün stressor sayılan amil digəri üçün bu effekti vermir. Hər bir insanda stressin yaranması onun sinir sisteminin fərdi xüsusiyyətlərindən asılı olaraq müxtəlif ola bilər. Psixoloji araşdırmalar göstərir ki, stressogen amillərə bizim fərdi reaksiyalarımız şəxsiyyətin xüsusiyyətlərindən: temperament tipindən, stressə davamlılıq səviyyəsindən asılıdır. [2, səh:57]

Stress halında insanın davranışı, sinir psixoloji vəziyyəti pozulur. Stress halında əvvəlki “emosional planlaşdırma”, onun da nəticəsində fəaliyyət və ünsiyyətin bütün sxemi pozulur. Güclü stress zamanı ümumi gərginlik yaranır və insanın davranışı qeyri – mütəşəkkil mahiyyət daşıyır, icra səviyyəsi kəskin şəkildə aşağı düşür. Stressin güclənməsi ilə bütün sahələrdə ləngimə, passivlik, fəaliyyətsizlik yaranır. Bəzən isə insanın nisbətən yüngül stress halı onun fəallığını yüksəldir, bütün gücünü səfərbər edir. Stress, eləcə də digər psixi gərginlik halından sonra, psixoanaliz nəzəriyyəsinə görə insanda katarsis ( ruhi təmizlənmə) baş verir və insan qəlbən rahatlıq tapır. İnsan stressin köməyi ilə mühitə adaptasiya olunur, qeyri – adi vəziyyətə uyğunlaşır və stress prosesində yaranan gərginlik aradan qaldırılandan sonra insan bəzən əvvəlkindən də gümrah olur.

Normal insanlar belə stress vəziyyətinə düşür, ondan çıxış yolları axtararaq çox zaman buna nail olurlar. Stresslə mübarizə onunla qarşı – qarşıya dayanan ümidin, səbrin psixofizioloji mexanizmi hesabına başa gəlir. Bu

mexanizmin özünün təbiətən mövcudluğu stressin psixoloji reallıq kimi mövcudluğunu sübut edir. Əgər səbr olmasaydı biz hər dəfə daha dərin böhranla qarşılaşardıq. Subyekt daim özünün mənəvi rahatlığı üçün mübarizə aparır. Bu səbəbdən hər dəfə üzləşdiyi stressi sərbəst şəkildə yox etməyi sınaqdan keçirir

Təəssüflər olsun ki, stressdən çıxmağın bəzi üsulları daha çox stressə səbəb olur. Məsələn, siqaretdən, spirtli içkilərdən stressdən çıxmaq üçün geniş istifadə olunur. Bu cür üsullar qısa müddət üçün insanı rahatlaşdırır. Eyni zamanda insanın sağlamlığına da ciddi ziyan vurur. Stressi aradan qaldırmağın əsas məqsədi sağlamlığı qorumaqdır. Məhz buna görə də stressi aradan qaldırmaq üçün düzgün, insan sağlamlığına zərər verməyən metodlardan istifadə etmək lazımdır.

Stressdən çıxmağın müasir və səmərəli vasitələrindən biri də psixoloq mütəxəssisə müraciət etməkdir. Praktik psixoloq çətin anlarda insana kömək edə biləcək ən etibarlı dost, arzuolunan şəxs və müvafiq professional imkanlara malik mütəxəssisdir. Stresslə mübarizədə, problemin həllində psixoloqa müraciət etməklə ixtisaslı yardım almaq mümkündür.Onu da qeyd etmək lazımdır ki, bir vaxtlar insanlar psixoloqa müraciət etməkdən çəkinirdilər. Bu isə problemin daha da dərinləşməsinə gətirib çıxarırdı. Bunun üçün psixoloji maarifləndirmənin yüksək səviyyədə aparılması vacib şərtlərdən biridir. Psixoloji maarifləndirmə sayəsində artıq insanların əksəriyyəti psixoloqa müraciət etməkdən çəkinmir. Bu isə problemin vaxtında və ixtisaslı mütəxəsislər tərəfindən həll olunmasına gətirib çıxarır.

İstifadə olunmuş ədəbiyyat:

1. Ə.S.Bayramov,Ə.Ə.Əlizadə. “Psixologiya” 2002.
2. B.J.Braham, “Ateş altında sakin kala bilmek, stress yönetimi”, 2004,223s.

Summary

Stress is one of the most-studied areas of psychology - mainly because it is such a big problem in modern society. Long-term stress supresses the action of the body`s immune system, making us much more vulnerable to colds, infections and more serious illnesses. Long-term stress also makes us very jumpy.

Резюме

Стресс - одно из наиболее изучавшее области психологии - поскольку это - такая большая проблема в современном обществе. Долгосрочный стресс подавляет действие иммунитетной системы, делающей нас более уязвимыми на холода, инфекции и более серьезные болезни. Долгосрочный стресс также делает нас очень нервными.

## DEPRESSİV NEVROZLU XƏSTƏLƏRDƏ ŞƏXSİYYƏT XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ MƏSƏLƏLƏRİ

Cavadnea İdris BDU-nun
II kurs magistrantı

Depressiv nevrozu dedikdə ilk növbədə onu xarakterizə edən başlıca cəhət əsasını psixi travmalar təşkil edən və psixi müayinə zamanı asanlıqla aşkar edilən depressiyanın olması xatırlanmış olur. Bu gün dünya əhalisi arasında psixi xəstəliklər somatik xəstəliklərlə bərabər, demək olar ki, kardioloji xəstəlilərlə eyni nisbətdə inkişaf etməkdədir. Böyük Britaniya tədqiqatçıları 2000ci illərin statistik göstəricilərinə əsasən psixi pozuntuların əhali arasında paylanmasına dair aşağıdakı qrafiki tərtib etmişlər.




Qeyd olunmuş say nisbətində olduğu kimi, depressiya, təşviş pozuntuları, fobiyalar xüsusən qadınlarda daha çox rast gəlinir. Həmçinin psixi pozuntuların, suisidal cəhdlərin yaşanmasını bilavasitə aşağı iqtisadi vəziyyət, işsizlik, tək yaşamaq kimi amillərlə əlaqələndirmişlər. Dünya statistikasında əhalinin psixi xəstəliklərdən əzab çəkməsi halı 1993-cü illə eyni səviyyə təşkil edir, lakin sağalma hallarının həmin illərlə müqayisədə artması faktı göstərilir. Medikamentoz müalicə və psixoterapeya əsasında bu əmsal 13%-dən 24%-ə yüksəlmişdir.

Azərbaycan Respublikasında əhali arasında psixi xəstəliklərin yayılması, ilk dəfə diaqnozun qoyulması, müalicə-profilaktika mərkəzlərində qeydiyyatda olması faktları say nisbəti isə aşağıdakı cədvəldə göstərilib.

Əhalinin psixi xəstəliklərlə xəstələnməsi

| | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İlk dəfə diaqnozu müəyyən olunmuş xəstələrin sayı, nəfər | 6 907 | 5 621 | 5 989 | 6 089 | 5 188 | 5 753 |
| əhalinin hər 100 000 nəfərinə | 86.8 | 67.1 | 70.5 | 70.8 | 59.5 | 65.2 |
| Müalicə - profilaktika müəssisə- lərində qeydiyyatda olan xəstə- lərin sayı, nəfər | 97 279 | 114 193 | 114 880 | 119 883 | 122 589 | 126 824 |
| əhalinin hər 100 000 nəfərinə | 1223.1 | 1362.7 | 1353.2 | 1393.5 | 1406.1 | 1436.7 |

Göstəricilərə nəzər saldıqda aydın olur ki, əhalinin müalicə- profilaktika mərkəzlərinə müraciəti, qeydiyyatı artır. Əlbəttə ki, bu isə öz növbəsində sağalma hallarının da artmasına təkan verir.

Depressiv nevrozun yaranması səbəbləri və inkişafına təkan verən amillər nədir? Depressiv nevroz şəxsin həll edə bilmədiyi uzunmüddətli psixoloji zərbə xarakterli hadisələrə, problemlərə cavab reaksiyası rolunu oynayır. Məsələn ailədə, iş yerində münaqişə, həyat yoldaşının alkoqol içkilərdən, narkoti maddələrdən istifadəsi, heç cür öz şəxsi həyatını qura bilməmək və s. Əlbəttə ki, ilk anlarda bu hadisələrə, problemlərə cavab reaksiyası qısa müddətli olsa da, zaman keçdikcə bu halların dəfələrcə təkrarlanması əhval-ruhiyyənin enməsi fonunda depressiv əlamətli nevroza səbəb olur. Bəzən həyəcan, təlaş və daha sonra isə nevrotik depressiya halları inkişaf edir. Pasiyentlərdə öz həyatına, gələcəyinə qarşı gileylər, özünə qarşı ədalətsiz xarakterli ideyalar formalaşır.

Xarici psixoloji ədəbiyyatlarda depressiv nevroz- dysthumia- neurotic depression kimi xarakterizə olunur, yunancadan tərcümədə "əhval –ruhiyyə xəstəliyi" kimi qeyd edilir. Belə ki, xəstəlik haqqında ilkin məlumatlar hələ qədim yunan mənbələrində göstərilmişdir. Həmin mənbələrdə bu, sanki mülayim məzmuna malik xronik depressiyanı xatırladırdı. Depressiyanın əsas formasından daha az müşahidə edilən və yalnız 3% pasiyentlərin davranış və qabiliyyətlərində köklü dəyişikliklər əmələ gətirə bilən bir xəstəlikdir. Dünya statistikasına əsasən qadınlarda depressiv nevroz əlamətlərinə kişilərə nisbətən daha çox rast gəlinir. Bu göstərici uşaqlarda da öz əksini tapmaqdadır.

Tədqiqat zamanı depressiv nevroz əlamətlərinin öyrənilməsi üçün İran İslam Respublikası, Ərdəbil şəhər, İsar xəstəxanasına 24 sentyabr- 24 dekabr 2010-cu il tarixlərində müraciət edilmiş və həmin xəstələr üzərində araşdırma həyata keçirilmişdir. Tədqiqat iştirakçıları 18-35 yaşlar arası 45 nəfər depressiv nevrozlu xəstə olaraq, 15-18, 19-30, 31-45 yaşlar əsasında üç qrupa bölünüblər.

Depressiv nevroz əlamətlərinin öyrənilməsi üçün ilk növbədə xəstələr üzərində psixoloji xarakterli müşahidə, daha sonra klinik söhbət və "Bek" depressiya sorğusu aparılmışdır.

Xəstələrin sosial demoqrafik göstəricilərini əks etdirən anket məlumatlar toplandıqdan sonra "Bek" depressiya sorğusu həyata keçirilmişdir.

21 mülahizə bəndindən ibarət olan bu sorğu E.Bek tərəfindən təşkil edildiyindən onun adını daşıyır. Təqdim olunan mülahizə bəndləri bilavasitə xəstənin gündəlik yaşamını, gələcəyə münasibətini, həyata dair fikirlərini, özünə və başqalarına qarşı münasibətini, digər insanların ona dair fikirlərini, yuxu və qida rejimi, problemləri nə dərəcədə həll etmək bacarığına qadir olduğunu, ünsiyyət bacarıqlarını əhatə edir. Geniş məzmuna malik mülahizələr sonda 0-4 bal arası qiymətləndirilir. Depressiyanın dərəcələri isə sonda toplanmış ballar əsasında yüngül, orta və yüksək şəklində fərqləndirilir.

Qeyd etmək lazımdır ki, xəstəlik gedişində heç bir patoloji əlamətlər hesab edilən sayıqlamalara, halüsinasiyalara rast gəlinmir. Lakin iqtisadi, sosial səbəblərlə yanaşı əlaqədar olduğu bir sıra psixi pozuntular da vardır ki, bunlar da aşağıdakılardır:

- ✓ təşviş pozuntuları;
- ✓ digər xəstəliklər fonunda cərəyan edən təşviş əlamətləri;
- ✓ stress halları;
- ✓ obsessiv-kompulsiv pozuntular;
- ✓ panika- təlaş halları;
- ✓ digər nevrotik pozuntular.

Belə ki, biz depressiv nevroz əlamətlərinə təşviş pozuntularında da, stress hallarında da, panika- təlaş hallarında da rast gələ bilərik. Qeyd olunan əlamətlər xroniki şəkil aldıqda artıq depressiv nevrozdan danışılır.

Yunancadan tərcümədə olduğu kimi bu xəstəlikdə pasiyentin əhval-ruhiyyəsi sanki ətraf mühitdən asılılıq təşkil edir. Əsasən axşam saatlarında daha çox depressiya əlamətləri müşahidə edilir. Bu şəxslərdə özünə qarşı inamsızlıq, kədər, utanc, hətta günah hissi də müşahidə edilməkdədir. Həmçinin psixoterapeyaya müsbət göstəriş verdiklərindən onların təlqini, inandırılması və yönləndirilməsi asan olur.

Enerji imkanlarının azalması, iş qabiliyyətinin tükənməsi, tez-tez yorulma halları fonunda motivasiya sferasında da əsaslı dəyişikliklər müşahidə edilir. Depressiya əlamətləri sırasında qeyd olunan ətraf aləmə, əvvəllər onlar üçün maraqlı olan mənbələrə marağın azalması bu xəstələrdə də rast gəlinir. Bir obyektdə uzunmüddətli diqqətin cəmlənə bilməməsi, qərar qəbul etməkdə çətinliklər, yuxusuzluq kimi simptomlar özünü qabarıq şəkildə biruzə verir və bu simptomlar motivlərin iearxiyasında da müvafiq təzahürlər meydana çıxarır. Emosional sferada baş verən bu tip düşkünlük, laqeydlik halları suisidal meylin yaranmasına da səbəb ola bilir.

Ədəbiyyat siyahısı

1. R.Ə.Cavadov, G.B.Tağıyeva “Ekstremal şəraitdə psixoloji xidmət”. Bakı, 2006
2. İsmayılov N.V. Psixatiriya . Bakı: 1992, 340 s.
3. İsmayılov F. K. Ziqmund Freyd. Bakı: Gənclik, 1994, 120 s.
4. İsmayılov F. K. Klassik psixoanalizin əsasları. Bakı: 2003, 348 s.
5. Şəfiyeva E.İ. Klinink psixologya. Bakı: 2002, s.125
6. Şəfıyeva E.İ. Psixofızologiya. Bakı: 1998, 63 s.

fars dilində mənbələr

7. 1-گروسي , فرشي, مير تقي (1380-2001) رويكردهاي نوين در ارزيابي شخصيت (كاربرد و تحليل عاملي در مطالعات شخصيت). تبريز: نشر جامعه پژوه - نشر دانيال.
8. 3- شرفي, محمدرضا (1381) روانشناسي نوجوان.
9. 4- جزايري, مهناز (1383-2003), تاثير ساختار خانواده بر تكوين شخصيت پيشرفته, پاياننامه كارشناسي ارشد, تهران, دانشگاه الزهرا (س), نشريه ريحانه, فصلنامه شماره 3, صفحات 71-65
10. 6- تقوي, كلانتري (1385-2006) مجموعه مقالات دومين كنگره سراسري آسيب شناسي خانواده در ايران, پژوهشكده خانواده- دانشگاه شهيد بهشتي.

11. www.mental-health.com /office for national statistic/
12. www.all-on-depression-help.com
13. www.azstat.com
14. www.upliftprogram.com

Резюме

Невротическая депрессия - форма депрессии, в которой капризы затронутых людей зависят от окружающей окружающей среды, такой как время суток - например, люди с этим условием могут чувствовать себя чрезвычайно подавленными в течение вечеров. Однако, полная серьезность депрессии не является чрезвычайной, и сокрушенные люди вообще страдают от умеренного, чтобы смягчить депрессию.

Люди, страдающие от этого типа валяния депрессии больше в сам, жалеют и чувствуют жалость к себе, который противоречит другим формам депрессии, где затронутые люди прежде всего страдают от вины, позора, затруднения, и т.д.

Людей, которые страдают от невротической депрессии, намного легче убедить и советоваться, главным образом, потому что они открыты для предложений и рациональной мысли. Другие невротические беспорядки включают одержимое навязчивое расстройство (OCD), пироманию, различные боязни, и определенные тревожные расстройства.

**Resume**

Neurotic depression is a form of depression in which the moods of affected persons depend upon the surrounding environment, such as the time of day - for example, people with this condition may feel extremely depressed during evenings. However, the overall severity of depression is not extreme, and the afflicted persons generally suffer from mild to moderate depression.

Persons suffering from this type of depression wallow more in self pity and feel sorry for themselves, which is contrary to other forms of depression, where affected persons primarily suffer from guilt, shame, embarrassment, etc.

People who suffer from neurotic depression are much easier to convince and counsel mainly because they are open to suggestions and rational thought. Other neurotic disorders include obsessive compulsive disorder (OCD), pyromania, various phobias, and certain anxiety disorders.


## XRONİKİ BÖYRƏK ÇATIŞMAZLIĞI XƏSTƏLİYİNİN VƏ ONUN MÜALİCƏSİ OLAN HEMODİALİZİN MAHİYYƏTİ


İmanova Şəhrizad Rafil qızı,
BDU-nun II kurs magistrantı



*Açar sözlər:* hemodializ, xroniki böyrək çatışmazlığı, etiologiya, patogenez, klinik mənzərə, psixoloji problemlər.

*Ключевые слова:* гемодиализ, хроническая почечная недостаточность, этиология, патогенез, клиническая природа, психологические проблемы.

*Key words:* hemodialysis, chronic kidney disease, ethiology, pathogenesis, clinical nature, psychological problems.


Son illərdə təbabətin vüsətli inkişafı xəstəliklərlə mübarizədə yeni imkanlar yaradır. Tibb elmində ən əlamətdar uğurlardan biri də böyrək çatışmazlığından əziyyət çəkən ümidsiz xəstələrin yaşamalarını davam etdirmək imkanı verən hemodializ üsulunun yaradılmasıdır.

Beləliklə, dializin bir forması olan hemodializ müalicə üsuludur. Hemodializ üsulu kəskin və xroniki böyrək çatışmazlığı xəstəliyindən əziyyət çəkən xəstələrin müalicə üsuludur. Deməli hemodializ üsulunun mahiyyətini aydınlaşdırmadan öncə xəstəliyin klinik mənzərəsini anlamaq vacibdir.

*Xroniki böyrək çatışmazlığı.*

Xroniki böyrək çatışmazlığı böyrəklərin inkişaf edən və proqressiv ağırlaşan funksional pozğunluğu olub, üremik zəhərlənmə ilə nəticələnir. Xroniki böyrək çatışmazlığı zamanı böyrəklər tədricən öz funksiyasını həyata

keçirmək qabiliyyətini itirir. Xroniki böyrək çatışmazlığı özündə xronik uremiya sindromunu, arterial hipertenziyanı, su-duz və turşu-qələvi münasibətləri pozğunluqlarını birləşdirən, bir çox nefronların məhvi və onların büzüşməsinə səbəb olan ağır xronik patologiyadır. (1)

*Etiologiyası.*

Xroniki böyrək çatışmazlığının yaranmasında böyrək və böyrək yollarının xroniki, anadangəlmə, irsi və qazanılmış xəstəliklərin rolu böyükdür. Xroniki böyrək çatışmazlığı ənənəvi olaraq azotemiya və ya uremiya ilə xarakterizə olunur. "Uremiya" termini ilk dəfə 1840-ci ildə Qiorri və L"heritner tərəfindən irəli sürülmüş, hərfi mənada "sidikli qan" deməkdir.

Xroniki böyrək çatışmazlığının yaranma səbəbləri:

1.Immunoloji faktor nəticəsində yaranan xəstəliklər:

a) qlomerulonefrit,

b) düyünlü periarterit,

c) qırmızı qurdeşənəyi və s. sistem xəstəliklər

2. İnfeksion-iltihabi xəstəliklər:

a) piolonefrit,

b) böyrək vərəmi və s.

3. Damar xəstəlikləri:

a) böyrək venalarının trombozu,

b) arteriyaların stenozu və s.

4. anadangəlmə və irsi xəstəliklər:

a) böyrəklərin hipoplaziyası,

b) polikistoz və s.

5. xroniki interstisial xəstəliklər ( sidik turşulu diatezlər.)

6. uroloji patologiyalar:

a) obsruktiv qüsurlar,

b) sidik taşı xəstəliyi

7. maddələr mübadiləsinin pozulması ilə əlaqədar xəstəliklər:

a) amilodioz

b) sistinuriya,

c) birincili hiperparatireodizm.

8. dərman preparatları və ağır metallarla zəhərlənmələr.(2)

*Patogenezi:* Böyrək çatışmazlığı zamanı böyrək parenxemiyasında struktur dəyişiklikləri əmələ gəlməklə nefronun atrofiyası və büzüşməsi baş verir. Bu proses üçün səciyyəvi xüsusiyyət- paranxima regenerasiyasının olmamasıdır. Bu zaman eyni zamanda immunoloji dəyişikliklər və hemokoaqulyasiyanın pozğunluğu müşahidə olunur.

Nəticədə, böyrəyin ifrazedici, qanı təmizləyici və yaxud hemostatik funksiyaları pozulur. Qanda azot mübadiləsi məhsulları: sidik cövhəri, sidik turşusu, ammonyak, aminturşular, kreatinin, quaninin çoxalır ki, bunları orqanizm böyrəkdənkənar yollarla ifraz edə bilmir. Bunun üçün də orqanizmdə

zəhərlənmə baş verir. Böyrəklərin qan yaratma fuksiyasında iştirakı da pozulur. Buda xəstələrin ölümünə səbəb olur. (1)

*Xroniki böyrək çatışmazlığının gedişi:* Lopatkin və Kuşinski 4 mərhələyə bölürdülər:

1. Latent
2. Kompensə olunmuş
3. Intermitə edici ( fasiləli)
4. Terminal.

Ümumiyyətlə xroniki böyrək çatışmazlığının 5 kliniki forması ayırd edilir.

1. Latent forma: bu formada xəstəlik gizli keçir, bəzən terminal yəni son mərhələyə qədər özünü biruzə vermir. Çox vaxt xəstəlik təsadüfi müayinələr zamanı müxtəlif ixtisaslı həkimlər tərəfindən aşkar edilir. S. D. Tomporskinin (1973) fikrincə, bu forma orqanizmin azotemiyaya, su- elektrolit balansı və turşu-qələvi tarazlığının pozulmasına tədricən uyğunlaşması ilə əlaqədardır.
2. Stabil forma. Bu forma üçün xarakterik olan böyrək funksiyasının dəyişikliyi uzun müddət müəyyən səviyyədə müşahidə olunur. Əmək rejiminin gözlənilməməsi, yanaşı xəstəliklər, müxtəlif infeksiyalar, əsas xəstəliyin kəskinləşməsi stabil formanı poza bilər.
3. Tədricən inkişaf edən forma: bu forma çox zaman qlomerulonefritlərdə, pielonefritlərdə və polikistoz zamanı müşahidə olunur. Bu mərhələdə xəstələrin uremik vəziyyətə uyğunlaşması müəyyən zaman kəsiyində baş verir.
4. Intermittəedici forma ( tez-tez kəskinləşən.) bu zaman xəstəlik kəskinləşmə və remissiyalarla müşahidə olunur. Belə forma üçün il ərzində bir neçə dəfə baş verən kəskinləşmələr xarakteriktir. Hər kəskinləşmə zamanı xəstəlik yüngül mərhələdən ağır mərhələyə, remissiya zamanı isə xəstəlik ağır mərhələdən yüngül mərhələyə keçir. Bu dəyişikliklər həm klinik simptomların, həm də böyrəyin funksional vəziyyətinə təsir edir.
5. Sürətlə inkişaf edən forma: xəstəliyin bu formasında kliniki təzahürlər sürətlə inkişaf edir və ayrı-ayrı mərhələri sezmək mümkün olmur. Nefrologiyada çox zaman bədxassəli qlomerulonefritlərdə bu forma müşahidə olunur.(2)

Beləliklə, XBÇ-ın təsnifatı böyrəklərin funksiyasının itmə dərəcəsini, xəstəliyin kliniki gedişinin ağırlığını obyektiv qiymətləndirməyə imkan verir, bu isə vaxtında məqsədyönlü konservativ, sonradan isə aktiv hemodializ müalicəsinə göstərişləri düzgün aşkar etməyə, lazım olduqda isə transplantasiyaya uyğunluğu müəyyən etməyə şərait yaradır.

*Müalicəsi:* Artıq qeyd etdiyimiz kimi xroniki böyrək çatışmazlığı xəstəliyinin müalicəsi dializ üsuludur. Bundan əlavə medikamentoz müalicə və pəhriz saxlamaqda müalicənin tərkib hissəsinə daxildir. Dializ 2 formada olur.

**1.** Hemodializ.

**2.** Peritoneal dializ.

Xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin müalicəsi üçün peitonal dializdən daha çox hemodializ üsulundan istifadə olunur. Çünki, hemodializ xəstəxana şəraitində mütəxəsislər tərəfindən aparılır.

Müasir hemodializin banisi Şotland kimyaçısı T. Çaham ( 1805-1869) hesab olunur. Belə ki, 1854- cü ildə öz eksperimentlərində o, sidiyin kristalloid hissəciklərinin yarımkeçirici membrandan suya keçməsini nümayiş etmiş və onun tezliklə təbabətdə istifadəsinin mümkün olması fikrini irəli sürmüşdür. 1913-cü ildə J. Abel ( 1857-1938) laborator heyvalar üzərində qanin təmizlənməsi üçün yarımkeçirici membrandan istifadə etmişdir.alim selloid borucuğu şüşə konteynerə yerləşdirmiş və bunu "süni böyrək" adlandırmışdır. 1924-cü ildə alman həkimi Georg haas ( 1886-1971) ilk dəfə insan üzərində hemodializ tətbiq etmişdir. Ilk seans 15 dəq. davam etmişdir. 1925-ci ildə ilk dəfə 35 dəq ərzində seans aparmış ancaq bu seans fəsadla nəticələnmişdir. 1930-cu ildən Holland alim Wellem Kolff bu sahədə tədqiqatlara başlamışdır. Doktor Kolff 1943-cü ildə ilk dəfə fraksion dializ aparmaqla xəstənin ömrünü 26 gün uzatmağa nail olmuşdur.(2)

Zaman keçdikcə hemodializ aparmaq üçün lazım olan aparat sadələşmiş və hemodializ üsulu daha da təkmilləşmiş və müasir formasını almışdır. Hemodializ aparatına "süni böyrək"də deyilir. Xroniki böyrək çatışmazlığı zamanı böyrəklərin ifrazedici və qan təmizləmə funksiyasının pozulması nəticəsində qanda toplanmış zərərli maddələr "süni böyrək" aparatı vasitəsilə zərərli maddələrdən təmizlənir. Bu "süni böyrək" aparatı vasitəsilə xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələr həyatlarını davam etdirə bilirlər. Hemodializ seansı həftədə 2-3 dəfə olmaqla 3-4 saat müdətində aparılır. Beləliklə hemodializ xəstələrin həyatlarının çox hissəni təşkil edir.

*Klinik mənzərəsi:* xəstələr ləng, apatik, yuxulu olurlar, dəriləri quru, üz şişkin olur, dəri qaşınmalarından şikayətlənirlər, əzələ zəifliyi inkişaf edir. Anoreksiya, öyümə, qusma, ağızda quruluq və xoşagəlməz hissiyyat, qida və su qəbulundan sonra narahatlıqlar XBÇ üçün xarakterik əlamətlərdir. XBÇ əziyyət çəkən xəstələr susuzluq problemi yaşayırlar. Onlar istədikləri qədər su qəbul edə bilməzlər çünki hemodializ seansına qədər qəbul olunan bütün su orqanizmdə toplanır və xəstəyə narahatlıq verir. Hemodializ zamanı orqanizmdən artıq su çəkildikdə xəstələrin eşitməsində problemlər yaranır. Bunlar xəstələrin bioloji cəhətdən yaşadıqları problemlərdəndir.(1)

Artıq qeyd olunduğu kimi, xroniki böyrək çatışmazlığı xəstəliyi uzunmüddət davam edən və getdikcə ağırlaşan bir xəstəlikdir, onun müalicəsi olan hemodializ prosesi isə xəstələrin həyat tərzi formasını alır. Çünki müalicə xəstələrin zamanlarının çoxunu alır.

Xəstəliyin xəstələrin orqanizmdə yaratdığı, müalicəsinin isə həyat tərzində yaratdığı dəyişikliklər, məhdudiyyətlər bir çox psixoloji problemlərin yaşanmasına səbəb olur. Xəstələr artıq həyatlarının gedişini hemodializ

cədvəlinə əsasən formalaşdırırlar. Xəstələr həm orqanizmdə, həmdə həyat tərzlərində yaşanan dəyişikliklərə uyğunlaşmaqda çətinliklər yaşayırlar. Bundan əlavə bu dəyişikliklər xəstələrin əmək qabiliyyətlərinin itirməsinə səbəb olur. Həm də hemodializ cədvəlinin ağırlığı da xəstələrin işləmələrinə mane olur. Bu səbəblərdən onlar maddi problemlər yaşayırlar və maddi cəhətdən başqalarından asılı vəziyyətə düşürlər. Bu xəstələrin özlərinə inamlarını, cəmiyyətdəki mövqelərinin itirilməsinə səbəb olur. Bütün bunlar xəstələrin depresiya və təşviş kimi psixoloji problemlər yaşamasına səbəb olur. Keçirilən bir tədqiqatlar zamanı xəstələrin əksəriyyətinin depresiya və təşviş yaşadıqları təsdiqlənmişdir. Xəstələr tez-tez intihara cəhd edirlər. Bundan əlavə xəstələr cinsi problemlərdə yaşayırlar. Xəstəlik müddəti artdıqca yaşanan psixoloji problemlərinin ağırlıq dərəcəsidə artır. Aparılan təqdiqatlar zamanı həm də sübut olunmuşdur ki, ailə və yaxınlarının dəstəyi olan insanlar hemodializə daha tez uygunlaşırlar və psixoloji çətinliklərə daha davamlı olurlar. (3)

XBÇ müasir dövrümuzdə artmaqda olan xəstəliklərdəndir. Ölkəmizdə də bele xəstələrin sayı artmaqdadır. Qeyd etdiklərimizdən aydın olur ki, bu xəstələr zaman keçdikcə hemodializin yaratdığı psixoloji problemləri xəstəliyin bioloji problemlərindən daha dərin yaşayırlar. Belə xəstələrə psixoloji dəstəyin verilməsi vacibdir. Bu səbəbdən hemodializ şöbələrində psixoloqun olması məqsədyönlüdür. Psixoloq fəaliyyəti isə çoxşaxəli olmalıdır. O həm xəstələrin, həm onların yaxınlarının, həm də tibbi personalın problemlərini öyrənməli. Onlara yardım etmək üçün fəaliyyətini bu istiqamətdə qurmalıdır.(4)

Beləliklə, XBÇ və hemodializ uzunmüddətli və xəstənin bütün həyatını təsiri altına alan bir xəstəlik və müalicə üsuludur. Bunun üçündə onun yaratdığı pozuntular həm bioloji, həmdə psixoloji səviyyədə olur. Bütün bunları nəzərə alaraq müalicə zamanı xəstələrin bioloji sağlamlıqları ilə yanaşı onların psixoloji sağlamlıqları da diqqət mərkəzində olmalıdır.

Ədəbiyyat:

1.Daxili xəstəliklər. Dərslik. Bakı – Şirvannəşr- 2004.

2.M. C. Cavadzadə, İ.M.Həmidov, F.H.Babayev. Xroniki böyrək çatışmazlığı. Çaşıoğlu 2007.

3.Baltaş, Zuhal. Sağlık psikolojisi. Remzi kitabevi, İstanbul:2000

4.Kentleşme, Kronik Hastalıklar ve Sosyal Hizmet. Kentleşme Sürecinde Sosyal Hizmet. 5-7 Kasım 1998, Ankara.

Hemodialysis and chronic kidney disease

The topic of this article is dedicated to the clinical nature of chronic kidney disease. This disease is one of the spreading in the present day. In this article there is considered the essence of hemodialysis as a one of the method of this disease’s treatment. It is also indicated psychological problems that probably may occur on patients during heavy and prolonged process of

hemodialysis. Also, there is noted necessity of psychological care on such patients.

Гемодиализ и хроническая почечная недостаточность

Тема данной статьи посвящена клинической природе хронической почечной недостаточности, болезни, которая является одним из распространяющимся в настоящий день. Рассматривается суть гемодиализа, как метод лечения этой болезни. Отмечается психологические проблемы, которые могут возникнуть у больных, в ходе тяжелого и продолжительного процесса гемодиализа. Также отмечается необходимость психологической помощи этим больным.

## TƏHSİIL SİSTEMİ VƏ YENİYETMƏNİN ŞƏXSİYYƏTİNİN İNKİŞAFI

Kazımova Z. C.,
BDU – nun II kurs magistrantı

*Açar sözlər:* yeniyetmə, təhsil sistemi, şəxsiyyət, ünsiyyət, emosional mühit, ideal müəllim, ideal şagird.

*Ключевые слова:* подросток, система образования, личность, общение, эмоциональная среда, идеальный учитель, идеальный ученик.

*Key words:* teenager, educational system, person, intercourse, emotional environment, ideal teacher, ideal schoolboy.

Bütün orta təsil boyunca məktəb uşağın inkişafında aktiv surətdə iştirak edir və onun bütün səyləri hər bir təhsil sisteminin ümumi məqsədi istiqamətinə yönəlmişdir. Təbii ki, həmin məqsəd - şəxsiyyətin tədrisi, tərbiyəsi və inkişafıdır.

Təəssüf ki, müasir məktəbdə bəzən bu komponentlərin qarşılıqlı münasibəti kompleks bir məsələ kimi nəzərdən keçirilmir. Hazırki zamanda, şagirdin intellektual və fərdi inkişafına olan diqqət disbalansı aydın şəkildə özünü biruzə verir. Bundan əlavə, «inkişaf» problemi çox vaxtı şüurlu şəkildə ayrı bir problem kimi qabardılmır, bilgi və bacarıqların yığımı kimi başa düşülür. Bütün bunlar hamısı müasir məktəbdə didaktik dominantlığın mövcud olmasını əks etdirir və məktəb təcrübəsində də həyata keçirilir. Eləcə də bu məsələ, müəllimliyin fərdi və kollektiv professional şüurunda xüsusi psixoloji köklərə malikdir.

Lakin, bəşəriyyətin məktəb inkişafı, həm fərdi və həm də fəaliyyət subyekti kimi yüksək inkişaf etmiş və açıq sistemli şəkildə şagirdlərin şəxsiyyətlərinin formalaşmasını nəzərdə tutur. Belə inkişaf səviyyəsində şagird öz biliyini inkişaf etdirmə, özünü tənzimləmə və öz müqəddəratını təyinetmə bacarığına malik olur.

Şəxsiyyətin belə formalaşması yalnız müxtəlif psixoloji komponentlərin inkişafı hesabına mümkün olur:

1) intellekt;
2) emosional mühit;
3) streslərə qarşı dözümlülük;
4) özünə inamlı olmaq və özünü qəbul etmə;
5) dünyaya qarşı pozitiv münasibət və digərlərini qəbul etmək;
6) müstəqillik və avtonomluq.

Bura həmçinin, özünün inkişaf motivasiyasının mühüm elementi kimi təhsilin inkişaf motivasiyası da daxildir.

*Yeniyetmənin məktəbdə ünsiyyəti.*

Müasir pedaqoci prosesin təhlili onu göstərir ki, yeniyetmə şagirdlərinin böyüklərlə etibarlı və uğurlu ünsiyyəti nadir hallarda qənaətbəxş olur. Bu vəziyyət yeniyetmədə yüksək həyəcanlılığın formalaşmasına, qeyri-adekvat və qeyri-sabit özünüqiymətləndirilməsinə gətirib çıxarır. Eləcə də, fərdi inkişafda mürəkkəblik və fərdlərarası münasibətlərin qurulmasında yaranan problemlər yeniyetmədə özünə inamsızlıq hissinin inkişafına gətirib çıxarır. Həmçinin, bu amillər həyati situasiyalarda öz müqəddəratını və oriyentasiyanı müəyyən etmək də maneçilik törədir.

Fərdlərarası qarşılıqlı əlaqənin pozulması nəticəsində müəllimlər və yeniyetmələr arasında məna maneəsi formalaşır, bu da öz növbəsində yeniyetmələrdə konfliktlilik, kobudluq və böyüklərə qarşı neqativlikdə biruzə verir. Müstəqil olaraq yeniyetmə bu maneəni aradan qaldıra bilmir. Bunun üçün o, lazım olan səviyyədə refleksivliyə malik olmur və öz növbəsində də baş vermiş halı düzgün təhlil etmə imkanından məhrum olur. Burada hər şey müəllimdən asılıdır.

Tədris sistemində yeniyetmənin şəxsiyyətinin inkişafı, yalnız onun şəxsiyətinin artıq formalaşmış tərəflərini əhatə etmir, eləcə də hələ cücərmə mərhələsində olan tərəfləri, başqa sözlə uşağın «yaxınlıqdakı inkişaf zonası»nı da əhatə edir.

«Yaxınlıqdakı inkişaf zonası uşağın sabahki gününü və onun inkişafının dinamik vəziyyətini müəyyən edir» (Vıqotski L.S., 1956).

Yeniyetmə üçün «yaxınlıqdakı inkişaf zonası» - özünüdərk, şəxsi özünütəşkil və özünü tənzimetmə, intellektual və fərdi refleksiya problemlər fəzasında böyüklərlə əməkdaşlıqdır. Məhz həyatın bu mərhələsində əqidə və mənəvi dəyərlər, həyati planlar və perspektivlər formalaşır, özünün, öz imkanlarının və qabiliyyətlərinin dərk edilməsi prosesi gedir, həyata ümumi baxış və insanlar arasında münasibətlər formalaşır və həyat müəyyən bir məna halını alır.

*İdeal müəllim.*

«Yaxşı» müəllim dedikdə «üzü yola» müəllim başa düşülməməlidir. Ən yaxşı müəllimlər bəzən elə ən tələbkar müəllimlər olurlar. Yaxşı müəllim təhsili maraqlı edir, o, uşaqları öz fənni ilə maraqlandıra bilir. Yaxşı müəllim şagirdləri həvəsə gətirir və onun xoş xatirələri həmişə qəlblərdə yaşayır.

Yeniyetmələr arasında keçirilən tədqiqatlarda səkkizinci sinif şagirdlərinə ideal müəlim obrazını təsvir etmək təklifi verilmişdir. Bunun üçün onlar müxtəlif intellektual və emosional keyfiyyətləri beynlərində canlandırmalı idilər. Onların fikrlərinə əsasən bu keyfiyyətlər müəllimin şəxsiyyətində ən mühüm keyfiyətlər hesab edilməlidir:

- intellektual: təhsildə kömək edir, maraqlı başa salır, müstəqilliyi və yaradıcılığı rəğbətləndirir, tərif etməkdə xəsislik etmir, böyük pedaqoci təcrübəyə malikdir.

- emosional: şagirdi başa düşür, ədalətli (səmimi), vicdanlı, ədəbli, şən (optimist).

Tədqiqatın nəticələrinə əsasən şəxsi keyfiyyətlər sırasında birinci yerdə ədalətlilik (səmimilik) dayanır, sonrakı sırada isə intellektual keyfiyyətlər müvafiq sıra üzrə düzülmüşdür: materialın maraqlı izah edilməsi, təhsildə kömək, eləcə də müstəqilliyi və yaradıcılığı rəğbbətləndirmə. Pedaqoci təcrübə fəaliyyətinin olması isə yeniyetmələr üçün böyük əhəmiyyət kəsb etmir.

Müəllimlər özlərində görmək istədikləri ideal pedaqoq obrazını belə təsəvvür edirlər. Onların fikirlərinə əsasən, birinci yerdə məktəblilərin müstəqilliyinin və yaradıcılığının həvəsləndirilməsi olmalıdır. Bundan əlavə, müəllimlərin fikirlərinə əsasən, müəllim üçün ədalətli olmaq çox vacibdir (ədalətli mükafatlandırmaq və cəzalandırmaq), həmçinin uşağı başa düşmək və onunla münasibətdə nəzakətli olmaq lazımdır. Bu zaman emosional əhval-ruhiyyə həlledici əhəmiyyət daşımır. Uşaqlar isə müəllimin düzlüyünə və səmimiyyətinə böyük əhəmiyyət verirlər. Bu onlar üçün sadəcə şəxsi keyfiyyət deyil. Bu, onların insanlara olan münasibətini əks etdirən müəyyən ölçüdür. Məhz bu yaşda qeyri-səmimilik və xəyanət hər şeydən ağır qəbul edilir. Məhz düzlük və səmimiyyət yüksək qiymətləndirilir, onların yoxluğu isə bəyənilmir.

Yeniyetmələrlə uğurlu qarşılıqlı münasibət qurmaq üçün yaxşı müəllim bunlara malik olmalıdır:

- ✓ emosional sabitlik
- ✓ emosional kamillik
- ✓ kommunikativ səriştəlilik

Tədqiqatların göstərdiyi kimi, həqiqətən ən yaxşı müəllimlər kollektivlə yola gedən, xoşbəxt şəxsi həyatı olan, ətrafdakıların sevgisindən və təqdiretməsindən istifadə edən müəllimlər hesab olunur.

Müəllimlər yeniyetmələrin sosial yetkinliyinin və eyniyyətinin inkişafında böyük rol oynayırlar. Müəllim və yeniyetmə arasındakı münasibət nə qədər yaxşı olsa, bu təsir bir o qədər güclü olar.

*İdeal şagird.* Müəllimlər arasında keçirilən təcrübədə onlara məktəbdə uğurlu təhsil üçün yeniyetmənin intellektual və emosional keyfiyyətlərini onların əhəmiyyətinə görə sıralamağı təklif etmişlər. Nəticədə müəllimlər arasında müəyyən edilmiş üstünlüklər üzə çıxmışdır. Xüsusiyyət siyahısında yeniyetmələrin növbəti xarakteristikası təqdim olunmuşdur:

- ✓ intellektual: hər şeylə maraqlanan, məsuliyyətli (qanacaqlı və intizamlı), təhsildə uğura can atan, müstəqil, yaradıcı, zirək;
- ✓ emosional: həssas, qayğıkeş, sadə, ədalətli, təşəbbüskar, ünsiyyətcil.

Şagirdlərin müstəqillik və yaradıcılığın təzahürü kimi intellektual keyfiyyətlərinə daha çox üstünlük verilir. Emosional keyfiyyətlər arasında birinci yerdə ədalətlilik (səmimilik) durur. Beləliklə, şagirdlər onlara münasibətdə müəllimlərinin hər şeydən əvvəl səmimi olmalarını istədikləri kimi, müəllimlər də şagirdlərdən eyni münasibəti gözləyirlər.

Yeniyetmələrin öz fikirlərinə əsasən, şagirdin malik olduğu ən mühüm xüsusiyyət ünsiyyətlilik və sadəlik olmalıdır. Yeniyetmələrin fikirlərindəki fərqlilik bu keyfiyyətlərdə özünü büruzə verir: həssaslıq (qayğıkeşlik), ədalətlilik, müstəqillik, yaradıcılıq təzahürləri, həmçinin, hər şeyi bilmək istəyi. Bu keyfiyyətlər uşaqlara nisbətən müəllimlər tərəfindən daha yüksək qiymətləndirilir.

Ümumiyyətlə isə müəllimlərin və yeniyetmələrin fikirlərinə əsasən orta məktəb şagirdinin ideal obrazı aşağıdakı formada özünü büruzə verir:

Müəllim gözündə şagird obrazı:

- ✓ müstəqil və yaradıcı
- ✓ ədalətli (səmimi)
- ✓ həssas (qayğıkeş)
- ✓ təşəbbüskar
- ✓ hər şeylə maraqlanan

Yeniyetmə gözündə şagird obrazı:

- ✓ ünsiyyətcil
- ✓ sadə
- ✓ təşəbbüskar
- ✓ düşüncəli
- ✓ təhsildə müvəffəqiyyətə cəhd edən

Müəllimin gözündə şagird obrazı yeniyetmənin tezliklə böyüməsini istəyən müəllimin səylərini əks etdirir. Onların mühüm keyfiyyət xarakteristikası yaşlı insanlarda qiymətləndirilən şəxsiyyət keyfiyyətlərini təzahür edən xarakteristikadır. Yeniyetmələr ideal şagird obrazını qiymətləndirərkən öz yaşıdları üçün vacib olan və məktəblilərin özlərində və öz yaşıdlarında görmək istədikləri keyfiyyətləri nəzərdə tuturlar.

Müəllim tərəfindən pis şagird qavranıldıqda onun şəxsi keyfiyyətlərinin neqativ qiymətləndirilməsi üstünlük təşkil edir, lakin əlaçı şagird qavranıldıqda

onun müsbət keyfiyyətləri daha çox qiymətləndirilir. Şagirdlərin bu cür stereotipləndirilməsi 76 %-dən çox hadisələrdə rast gəlinir. Məktəblilərin stereotip qavranılmasının əsas səbəbi budur ki, öz şagirdlərini müşahidə etmək və öyrənmək üçün müəllimlərin kifayət qədər dəqiq, konkret məqsədləri olmur. Qəyyumluğu altında olanlar haqqında az miqdarda məlumatla kifayətlənən müəllimlər konkret faktlara deyil, şagirdlərin davranışının subyektiv qiymətləndirilməsinə və özlərinin onlara olan münasibətinə əsaslanırlar.

İş təcrübəsi ilə müəllimdə şagirdlərin stereotipləşdirilməsi güclənir, mürəkkəb pedoqoji situasiyalarda onun oriyentasiyasını asanlaşdıran müəyyən sxematik konstruksiya yaranır.

*Yeniyetmələrin məktəb problemləri.* 5-ci sinifdən etibarən məktəblilərin təhsil və tərbiyəsində çətinliklər ildən-ilə artmağa başlayır. Hələ 50 il əvvəl pedoqoji ictimaiyyətdə oxşar tendensiya qeyd edilmişdir.

“5-ci siniflərin problemi” məktəblilərin azyaşlı yeniyetməlik dövrünə daxil olması və yeniyetməlik krizisinin, daha dəqiq desək, böhranöncəsi neqativ fazanın başlanması ilə şərtləndirilmişdir. Hal-hazırda “5-ci siniflərin problemi” artıq o qədər də kəskin xarakter daşımır. Müəllimlərin böyük əksəriyyəti hal-hazırda öz peşəkar səriştəliliyini azyaşlı yeniyetmələrlə iş prosesində göstərirlər, məktəblilərlə ünsiyyətdə bu və ya digər çətinliklərin yaranma səbəblərini bilirlər, bu çətinliklərin öhdəsindən gəlirlər.

Hal-hazırki dövrdə təhsil və tərbiyə planında əsas problem 8-9-cu siniflərdə oxuyan yeniyetmələrlə bağlıdır. Bu yeniyetmələr yeniyetməlik böhranının böhransonrakı pozitiv fazasını keçirlər. Məhz belə yeniyetmələrlə ünsiyyətdə müəllimlər tez-tez vəziyyətə hakim ola bilmirlər, öz peşəkar və şəxsi köməksizliyini göstərirlər.

Tədqiqatların göstərdiyi kimi 5-6-cı sinif şagirdlərinin əsas problemləri adi məktəb çətinlikləridir. Müəllimlərin fikirlərinə görə onlar “uzunmüddətli əməyə uyğunlaşmayıblar”, “özlərini idarə edə bilmirlər”, “müstəqil düşünməyə qadir deyillər” və s. Müəllimlər bu problemlərin yaranmasını adətən ibtidai məktəbin tam işlənməməsi ilə əlaqələndirirlər.

Ədəbiyyat:


1. Qədirov. Ə . Yaş psixologiyası. Bakı, Maarif, 2003
2. Rzayev. V . İ . Məktəblərdə idrak prosesinin formalaşması .
3. Əlizadə . Ə. Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı, Maarif, 1986
4. А. А. Реан. Психология подростка. Москва, 2004
5. Л. А. Регуш. Психология современного подростка. Санкт – Петербург, 2005


Система образования и развитие личности подростка

В статье автор рассматривает психологические особенности влияния системы образования на развитие личности подростка. Было подробно рассмотрено и в заключении систематизированы исследования, проведенные в этом направлении. Также в статье рассматривается развитие личности подростка в системе образования, выявляющиеся в этот возрастной период некоторые психологические проблемы рассматриваются как объект исследования и эти проблемы были выдвинуты на передний план как важный фактор в образовательно-воспитательном процессе.

The educational system and the development of personality of a teenager

The author discusses the psychological characteristics of influence the education system in the development of personality of a teenager. It was considered in detail and systematized in the conclusion of studies in this direction. Also, the article describes the development of personality of a teenager in the education system and some psychological problems which are formed in this age are treated as an object of study, and these problems were brought to the attention as an important factor in the educational-training process.

## UŞAQ VƏ YENİYETMƏLƏRDƏ OLAN DEPRESSİV POZUNTULAR

t.e.d F.N İsmayılov, ATU-nun Psixiatriya kafedrası,
G.A Quliyeva, magistrant, BDU-nun Psixologiya kafedrası

*Açar sözlər:* Depressiya, uşaq, yeniyetmə, simptom, psixoterapiya
*Ключевые слова:* Депрессия, ребёнок, подросток, симптом, психотерапия
*Key words:* Depression, child, adolescent, symptom, psychotherapy

1. GİRİŞ

Depressiya keçmiş dövrlərdən bu günə kimi tədqiq olunan ən geniş yayılmış psixi pozuntudur. Depressiya dedikdə, ruh-düşkünlüyü, yüksək halsızlıq, gərəksizlik hissi, intihara dair fikirlər, iştahanın azalması, yuxusuzluq, psixomotor tormozlanma və ya həyəcan, həmçinin müxtəlif somatik simptom və şikayətlərlə müşayiət olunan, əhval-ruhiyyənin enməsi ilə səciyyələnən psixi pozuntu nəzərdə tutulur[1]. İndiki dövrə kimi hesab olunurduki, depressiyadan yalnız yaşlı insanlar əziyyət çəkirlər. Eyni zamanda uşaq və yeniyetmələrlə işləyən mütəxəssislər də, belə bir fikrə gəlmişdirlərki, hər hansısa bir davranış dəyişilməsini patologiya ilə əlaqələndirmək olar[8]. Bu işin nəticəsində isə hər bir yaş dövrünün xüsusiyyətləri ayrı-ayrılıqda öyrənilmiş və təsvir olunmuşdur.

Nə zamanki depressiyanı ölçmək üçün valid və etibarlı alətlər tədbiq olunmağa başlandı, bu zaman gördülərki depressiv simptomlar uşaqlarda da rast gəlinir[3]. Həmçinin uşaq və yeniyetmələrdə unikal xüsusiyyətlər, o cümlədən yaşla bağlı risk faktorları, müalicəyə qarşı müxtəlif reaksiyalar, spesifik yanaşı gedən pozuntular da müşahidə olunmağa başlamışdır. Tədqiqatçılar üçün isə ən böyük problem, uşaqlarla necə ünsiyyət qurmaq, onlara hansı sualları vermək və onlarda baş verən davranışları necə izah etmək ilə bağlı idi [7]. Başqa bir problem də ondan ibarətdirki, hansı müxtəlif səbəblər onların depressiyaya düşməsinə gətirib çıxardır (valideyinin itirilməsi, zorakılıq, diqqətsizlik və təcrid olunmaq, xroniki xəstəliklər və həmçinin valideyinlərlə, həmyaşıdlarla, müəllimlərlə olan münasibətlər).

Tədqiqatlar göstərirki, bir və ya bir neçə faktorlar depressiyanın yaranmasına gətirib çıxarda bilər [4]. Məs: qızlarda uşaqlıq dövründə müşahidə olunan davranış problemləri yeniyetməlik dövründə depressiyaya çevrilə bilər. Eyni zamanda uşaqlarda rast gəlinən depressiv pozuntuları, yaş, mövcud olan maniakal pozuntular və ağırlıq dərəcəsi ilə öyrənmək lazımdır. Bütün depressiv pozuntuları  kontinum kimi təsəvvür eləmək olar. Ən yüngül depressiv reaksiyalar adaptasiya pozuntularına aiddir və onlar yalnız stress nəticəsində baş verir. Digər depressiv pozuntular isə distimiyadır, hansıkı bir ildən artıq davan edən yüngül depressiv simptomlarla keçir. Böyük depressiyalar isə ən ağır depressiv pozuntudur, hansıki bu zaman ruh düşkünlüyü ilə bərabər beş əlavə simptomlar da  olmalıdır. Digər ağır pozuntu bipolyar affektiv pozuntudur və burada biz həm depressiv epizodları, həm də maniakal epizodları müşahidə edə bilərik. İndiki  zamanda tədqiqatçıları əsasən iki sual maraqlandırır:

1. Uşaq depressiyası ilə böyüklərdə olan depressiyanı eyni vəziyyət kimi hesab etmək olarmı?
2. Uşaqlarda və yeniyetmələrdə baş veren depressiyaların mənşəyi eynidir yoxsa onları nə fərqləndirir?

Bəzi ölkələrdə uşaqalarda depressiya diaqnozu inkar edilmişdir və yalnız son 20 ildən az bir müddətdə bu diaqnoz istifadə olunmağa başlanmışdır. Cəmiyyət belə qəbul edirki, uşaqlıq dövrü problemsiz və xöşbəxt keçən  bir dövrdür və bu   dövrdə əhval-ruhiyyədə problemlər olmamalıdır. Həmçinin mütəxəssislər istəmirlərki, uşaqların bəzi davranış formalarına patologiya kimi baxsınlar [9,10]. Hal-hazırda da belə bir fikir varki, uşaqlıq dövründə olan davranış və emosional dəyişikliklər keçicidir və gələcəkdə onlar yoxa çıxacaq. 1946-cı ildə amerikalı psixoloq Spitz tədqiq etmişdirki, psixososial deprivasiya olan uşaqların emosional inkişafı ləngiyir. O, ilk dəfə olaraq görübki balaca uşaqlar psixi travmalar nəticəsində ölə bilərlər, baxmayaraqki onlarda həm ev, həm də yemək təlabatları kifayet qədər ödənmiş olur. O, bu sindroma anakliktik depressiya adını vermişdir. Çox təəssüfki onun bu ideyalarına 50 il ərzində diqqət yetirən olmamışdır.

60-cı illərə kimi psixologiyada ən çox psixoanaltik nəzəriyyəyə üstünlük verilmişdir. Bu nəzəriyyəyə əsasən depressiya Super Eqo ilə əlaqəlidir və uşaqlarda Super Eqo tam inkişaf etmədiyinə görə onlarda depressiya ola bilməz.

70-ci illərdə isə bihevioral nəzəriyyə daha ön plana çıxmışdır. Bu nəzəriyyədə koqnitiv və emosional qabiliyyətlərin inkişaf olunmamasına görə də uşaqlarda depressiya mövcud ola bilməzdi. Həmin situasiya yeniyetmələrdə də olub. Yalnız 1971-ci ildə ilk dəfə olaraq somatik xəstəliklərdən əziyyət çəkən yeniyetmələrdə ümidsizlik, qəm-qüssə, köməksizlik və digər depressiv simptomlar aşkar edilmişdir [5]. Onlar belə fikirləşirdilərki, bu böyüklərdə olan gizlənmiş depressiyaya bənzər bir haldır. Lakin sonra aydın olduki, bu yeniyetmələrdə olan depressiyanın xüsusi bir növdür, hansıkı böyüklərdə olan depressiyadan həm kliniki cəhətdən, həm gedişatından, həm də müalicəyə qarşı həssaslığına görə fərqlənir.

3. *uşaq və yeniyetmələrdə olan depressiyanin klinik əlamətləri*

Uşaqlıq dövrü çox dəyişkən bir dövürdür və hərdənbir bu dövrdə uşaqlar darıxa və qəmgin ola bilərlər. Adətən uşaqlar və yeniyetmələrdə qısamüddətli və yaşına uyğun emosional çətinliklər, əhval-ruhiyyənin dəyişməsi müşahidə olunur. Depressiyalı cavan insanlarda belə depressiv simptomlar normadan fərqlidir[6]. Uşaqlar və yeniyetmələr çətinliklə qeyd edə bilirlərki onlara nə pis təsir edir. Mənfi emosiyaların ifadə oluna bilməməsi onlarda əsəbilik və narahatçılıq yarada bilir, hansılarki, böyüklər bunu pis davranış kimi başa düşürlər. Depressiyalı uşaqlar xoşagələn fəaliyyətdən çəkinirlər, onlara etiraz edildikdə və özləri uğursuzluq göstərəndə isə həddsiz dərəcədə həsas olurlar. Depressiyalı uşaqlarda təfəkkür prosesi neqativ və pessimist olur. Onlar özlərinə qarşı çox sərt olurlar və öz şəxsi nailliyyətlərini azaldırlar. Gələcəyə isə onlar ümidsiz və bədbin baxırlar. Bu tip təfəkkür depressiv emosiyalari daha da artırır. Müxtəlif davranış problemləri meydana çıxır, o cümlədən məktəbə getməmək, öz fiziki vəziyyətindən şikayətlənmək, yuxu və yeməklə bağlı problemlər (bax cədvəl 1-ə).

CƏDVƏL 1 Uşaqlarda rast gəlinən tipik depressiv simptomlar

- Tez-tez baş verən qəmginlik və ağlamaq
- Ümidsizlik və köməksizlik
- Əvvəki xoşa gələn fəaliyyətə qarşı marağın və zövqün azalması
- Ölümlə bağlı mövzular haqqında fikirləşmək
- Daimi səbəbsiz sıxıntılar
- Sosial təcridolunma və ünsiyyət çatışmamazlığı
- Məktəbə getməmək və təhsildə müvəfəqiyyətsizlik
- Aqressiv davranış

- Özünü aşağı qiymətləndirmək və günahkarlıq hissi
- Etirazlara və uğursuzluqlara qarşı yüksək həssaslıq
- Əsəbilik, acıqlılıq və ya qəddarlıq
- Fiziki ağrılarla bağlı şikayətlər(baş ağrısı, mədə ağrısı)
- Diqqəti cəmələşdirməkdə çətinliklər
- Yuxu və yeməklə bağlı davranışın dəyişilməsi

Bütün bu simptomların eyni zamanda mövcüd olması vacib deyil. Lakin, 2 və ya 3 simptom müşahidə olunarsa, artıq bu zaman mütəxəssis yardımına ehtiyyac yaranır.

***2.1.*** *Məktəbəqədər yaşlı uşaqlarda olan depressiv əlamət və simptomlar.*

Luby və əmakdaşları qeyd etmişlərki, 1994-cü ildə buraxılmış tanınmış Amerika Psixoatrik Assosiasiyasının təsnifatı DSM-IV yalnız ağır depressiyadan əziyyət çəkən məktəbəqədər yaşlı uşaqları nəzərdə tutur [2]. Beləliklə, 3,5 və 6 yaşına qədər olan uşaqlarda müşahidə olunan yüngül və ya orta dərəcəli depressiv simptomlar bu təsnifatın meyarlarını əhatə etmir. Buna görə son illərdə bu uşaqlar üçün modifikasiya olunmuş meyarlar təklif olunmuşdur. Bu modifikasiyaların məqsədi ondan ibarətdirki, bu yaş qrup uşaqların inkişafı ilə bağlı affektiv pozuntuları aşkar etməyə imkan yaradılsın. Bildiyimiz kimi, depressiyanın düzgün diaqnozunu təsdiq etmək üçün 2 həftə vaxt lazımdır. Lakin modifikasiya olunmuş təsnifatda bu zaman meyarından istifadə etmirlər. Digər tərəfdən məktəbdə oxumaq meyarını oyun və fəaliyyət meyarı ilə, darıxmaq və depressiya terminlərini isə narazıçılıq və əsəbilik meyarı ilə əvəz etmişlər. Buna əsas səbəb olaraq, valideyinlərin gördüyü əlamətlərə əsaslanmaq olar. Bu uşaqlarla məşğul olan tədqiqatçılar hesab edirlərki, uşaqlarda olan depressiv simptomlar özünü xüsusi sindrom kimi büruzə verir. Bu yaş qrupunda depressiyanın əsas əlaməti anhedoniyadır, yəni, onlar öz xoşagələn fəaliyyətlərindən ləzzət ala bilmirlər. Digər vacib bir simptom isə, 98% məktəbə qədər yaşlı uşaqlarda rast gəlinən tezqıcıqlanmaq və kədərli olmaqdır. Keçmişdə klinisistlər hesab edirlərki, uşaqlarda depressiv simptomlar özünü gizli şəkildə büruzə verir, məsələn somatizasiya və reqressiya kimi [5]. İndiki zamanda isə tədqiqatçılar qeyd edirlərki, somatizasiya ilə birlikdə uşaqlarda ifadə olunmuş depressiv simptomlar da müşahidə oluna bilər [9].

***2.2.*** *Məktəbə gedən uşaqlarda olan depressiv əlamətlər və simptomlar.*

Depressiyanın əsas əlamətlərindən olan əhval-ruhiyyənin aşağı enməsi uşaqlarda nadir hallarda özünü büruzə verir. Bunun əvəzində isə onlarda biganəlik, marağın və zövqün itirilməsi, daimi olan yorğunluq, halsızlıq, narahatçılıq, əhval-ruhiyyənin dəyişilməsi, tez özündən çıxmaq, məktəbə getməmək, ictima fəaliyyətdən çəkinmək, əsasız fiziki şikayətlər etmək özünü

göstərir. Yalnız birbaşa suallar verildikdə onlar təsdiq edə bilərlərki, onlar qəmgin və xöşbəxt deyillər. Bu səbəblərə görə bu uşaqlarda depressiya başlandığı vaxtdan uzun müddət sonra təsdiq olunur. Başqa xəstəliklərdən fərqli olaraq, təşviş, diqqətin çatışmamazlığı və digər davranış problemləri depressiyalı uşaqlarda mütəxəssisin nəzərindən kənarda qalır. Digər tərəfdən isə uşaqlarda olan diqqətin yayınması, ajitasiya, valideyinlərə və müəllimlərə məlumat verirki, onlarda depressiya deyil, oxumaqla bağlı problemlər var. Həmçinin uşaqlarda eyni anda bir neçə pozuntular mövcud ola bilər.

***2.3.*** *Yeniyetmələrdə olan depressiv əlamət və simptomlar.*

Baxmayaraqki, yeniyetməlik dövründə gənclərdə əhval-ruhiyyənin dəyişilməsi tez-tez baş verir, bəzi yeniyetmələrdə isə depressiv epizodlar aşkar edilir. Yeniyetmələrdə olan depressiya onların ətrafdakılarla olan ünsiyyət və münasibətlərinə təsir göstərir. Bu yeniyetmələr ailə üzvləri ilə, dostları ilə, partnyorları ilə düzgün münasibət qurmaqda çətinlik çəkirlər. Həmçinin məktəb prosesində mənimsəmə qabiliyyətləri aşağı düşür, bu zaman onlar öz enerji və təşəbbüsünü itirirlər. Depressiyalı yeniyetmələr öz xarici görünüşlərinə fikir vermirlər və tez-tez səliqəsiz və çirkli geyimdə gəzirlər, onalrın hərəkətləri çox yavaş və səsləri monoton olur. Özlərini aşağı qiymətləndirdikləri üçün onlar etirazlara qarşı çox həssas olurlar. Bu tip uşaqlardan tez-tez özləri ilə bağlı bu kimi ifadələri eşitmək olar: mən pisəm, heç kəs məni sevmir və mən axmağam və s. Pis qiymətlər alanda onlar laqeyid münasibət bəsləyirlər. Həmçinin məktəbdənkənar fəaliyətlərə də onlar yetərincə maraq göstərmirlər. Adi yeniyetmələrdən fərqli olaraq depressiyalı yeniyetmələr gündüzləri, həmçinin axşamları erkən yatırlar. Tez-tez müəyyən tədbirlərdən qabaq( bayramlar, ad günləri və s.) onlar baş ağrısı və mədə ağrısından şikayətlənirlər. Eyni zamanda bu yeniyetmələrdə riskli davranışlar müşahidə olunur, onlar spirtli içkilər və psixo-aktiv dərmanlardan istifadə edə bilirlər, bunu isə onlar belə izah edirlərki bu müəlicəvi məqsəd üçündür.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Depressiyanın diaqnostika və müalicəsi üzrə klinik protokol.( Bakı 2009), 60 səhifə
2. American Psychiatric Association. Diagnostic and statistical manual of mental disorders, 4th edition. Washington, DC: American Psychiatric Association; 1994.
3. Agnold A, Erkanli A, Silberg J, et al. Depression scale scores in 8–17 years: Effects of age and gender. J Child Psychol Psychiatry 2002;43:105–63

4. Birmaher B, Ryan ND, Williamson DE, et al. Childhood and adolescent depression: a review of the past 10 years. Part I. J Am Acad Child Adolesc Psychiatry 1996b;35:1427–39.
5. Cytryn L, McKnew DH Jr. Proposed classification of childhood depression. Am J Psychiatry 1972;129:149–55.
6. Harrington R, Fudge H, Rutter M, et al. Adult outcome of childhood and adolescent depression: II. Links with antisocial disorders. J Am Acad Child Adolesc Psychiatry 1991;30:434–9.
7. Keren M, Tyano S. Depression in infancy. Child Adolesc Psychiatric Clinic N Am 2006;5:883–97
8. Kovacs M, Feinberg TL, Crouse-Novak MA, et al. et al Depressive disorders in childhood I: A longitudinal study of characteristics and recovery. Arch Gen Psychiatry 1984;41:229–37.
9. Luby JL, Mrakotsky C, Heffelfinger A, et al. Characteristics of depressed preschoolers with and without anhedonia: Evidence from melancholic depressive subtypes in young children. Am J Psychiatry 2004;161:1998–2004.
10. Meade M, Luby JL. Preschool depression. Child Adolesc Psychiatric Clinic N Am 2006;15:899–917.

## ДЕПРЕССИВНЫЕ РАССТРОЙСТВА У ДЕТЕЙ И ПОДРОСТКОВ

Настоящая статья посвящена рассмотрению депрессивных депрессивной патологии у детей и подростков. Во введении дается определение современного понимания депрессии и применение этой концепции в отношении детей и подростков. Следующий раздел статьи представляет собой обзор депрессивных симптомов характерных для детского и подросткового возраста. Последний раздел акцентирует внимание на различиях в проявлении депрессивной симптоматики в разных возрастных группах, включая детей дошкольного возраста, школьников и подростков.

## DEPRESSIVE DISORDERS IN CHILDREN AND ADOLESCENTS

The paper is aimed to consider depressive psychopathology in children and adolescents. A definition of depression as well as its application for childhood and adolescence is presented in the introduction of the article. The next section is a description of the most common symptoms of pediatric depression. The last section is focused on different manifestations of depressive disorders in the different age groups including preschool children, school children and adolescents.

# TAMAHKAR CİNAYƏTKARLARIN TİPOLOGİYASI VƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

dosent Aydan Səməndərova,
psixologiya kafedrası, BDU

*Açar sözlər:* tamahkar cinayətkarlar, tamahkar cinayətkarların tipologiyası, tipoloji xüsusiyyətlər, patoloji xüsusiyyətlər, kriminal motivasiya, cinayi ustanovka, dezadaptiv tip, oyunçu tip, ailə tipi.

*Ключевые слова:* korıstnıe prestupniki, tipoloqiə korıstnıx prestupnikov, tipoloqiçeskie priznaki, patoloqiçeskie priznaki, kriminalğnaə motivaüiə, kriminalğnaə ustanovka, dezadaptirovannıy tip, iqrovoy tip, semeynıy tip.

*Keywords:* mercenary criminals, typology of mercenary criminals, typological signs, pathological signs, criminal motivation, criminal installation, game type, family type.

Məlum olduğu kimi, kriminal psixologiyada tamahkar cinayətkarlar kateqoriyası, onların tipologiyası və psixoloji xüsusiyyətləri böyük maraq döğurur. Bu kateqoriyaya aid edilən cinayətkarlar təkcə temperament və xarakter xüsusiyyətlərinə görə deyil, onların kriminal davranışının əsasında dayanan motivlərə görə də yekcins deyillər. Bu baxımdan elmi ədəbiyyatda tamahkar cinayətkarların cinayi davranışın motivinə, cinayi ustanovkanın sabitlik dərəcəsinə və cinayətin xarakterinə görə müxtəlif tipologiyaları təklif edilir.

Cinayi davranışın motivinə görə tamahkar cinayətkarları aşağıdakı kimi təsnif edirlər (7, 210):

1. Həris tip- bu tip çox simic və hərisdir. Dəyərli şeyləri onları toplamaq naminə oğurlayır. Bu tipə aid edilən şəxslərin adətən daimi iş yerləri olur. Maraqlı cəhət odur ki, onlar iş yerində böyük hörmətə malik olurlar, onlara etibar edirlər.

2.Özünü təsdiqləyən tip-bu tip üçün cinayət törətmək həm özünə, həm də ətrafdakılara özünü təsdiq etməyin ən yaxşı yolu kimi nəzərdən keçirilir. Bu cür davranışın əsasında arzu edilən sosial rollar dəstini (biznesmen, mesenat, sadəcə çox varlı insan) ifa etməyə imkan verən müəyyən maddi səviyyənin mənimsənilməsi dayanır. Tamahkar cinayətlərin əsasında çox vaxt daxilən özünə inamsızlıq, aşağı özünüqiymətləndirmə durur. Bu baxımdan oğurluğa, qarətə görə məhkum edilmiş məhbuslar diqqəti cəlb edir. Tədqiqatlar göstərir ki, şəxsi mülkiyyəti qarət etmiş şəxslər arasında 2 qrupu fərqləndirmək olar. Birinci qrupa aid edilən şəxslərin cinayətləri öz psixoloji problemlərini həll etmək üçün müəyyən maddi dəyərlər əldə etməyə yönəlib.

Məsələn, bu yolla onlar öz qeyri-formal qruplarında avtoritet qazanır. Bir qayda olaraq onlar oğurluqla məşğul olan cinayətkar qrupa daxil olurlar. Bir çox hallarda həmin şəxslərin belə cinayətlər törətməsi onların oğurluğun törədilməsini qəbul edilən və bəyənilən qeyri-formal qruplara cəlb edilməsinin nəticəsi kimi nəzərdən keçirilir. Oğruların bu tipinə həm də müəyyən sabit qrupa daxil olmayan, lakin cinayəti özlərini təsdiq etmək üçün törədən məhbusları da aid edirlər. Belə hallarda oğurlanmış maddi dəyərlər onların özlərini təsdiq etmələrinə imkan verən müəyyən həyat tərzinin təmin edilməsinə yönəldilir (bahalı restoranlara getmək, bahalı geyimlər, müəyyən ünsiyyət dairəsinə daxil olmaq). Lakin bu halda şəxsi oğurluğa təhrik edən müəyyən etalon, referent qrupdan söhbət getmir. Nəzərdən keçirdiyimiz bu iki tip üçün ümumi olan cəhət odur ki, hər iki halda onların oğurluq etmələri özlərini təsdiq etmək və bu yolla ilk növbədə özünüqiymətləndirmə və daxili inamsızlıq ilə bağlı olan problemlərini həll etmək cəhdi durur.

Özünü təsdiq etmənin digər yolu şəxsiyyətdaxili problemi cinayətin törədilməsi yolu ilə həll etməkdir. Burada maddi dəyərlər sanki ikinci plana keçir, xüsusilə cinayətin törədildiyi an. Məsələn, cibgirlərdə. Bu halda cinayi davranış kompensasiya xarakteri daşıyır. Belə ki, əldə edilmiş maddi dəyərlər birinci dərəcəli əhəmiyyət kəsb etmir, baxmayaraq ki, çox vaxt şəxsi tələbatların ödənilməsi üçün istifadə edilir. Bu tip məhbuslar üçün cinayətin törədilməsi neqativ şəxsi keyfiyyətləri aradan qaldırmaq (məsələn, inamsızlıq, qorxu), iradi keyfiyyətlərini təsdiqləmək və özünüqiymətləndirməni yüksəltmək məqsədi daşıyır (8, 280) .

Belə bir yanlış fikir mövcuddur ki, bu kateqoriyadan olan cinayətkarların davranışının əsas motivi tamahdır. Lakin göründüyü kimi, psixoloji baxımdan istənilən cinayətin əsasında problemləri ekstremal yolla həll etmək cəhdi dayanır.

3.Oyunçu tip-bu tip psixoloji baxımdan ən mürəkkəbidir. Amerikan psixoterapevti Erik Bern hesab edir ki, cinayətkarlar arasında 2 tipi fərqləndirmək olar: mənfəət əldə etmək üçün cinayət törədənlər, cinayətin törədilməsinə oyun kimi baxan tip.

Oyunçu tip üçün xarakterik olan cəhət riskə daimi tələbatdır. Onlar üçün ən əhəmiyyətlisi cinayətin törədilməsi prosesinin özüdür. Oyun motivasiyasını dələduzlarda müşahidə etmək mümkündür.

4.Dezadaptiv tip- Bu tip tamahkar cinayətkarlarda sosial adaptasiyada ciddi pozuntular müşahidə olunur. Yəni onlar sosial mühitin şərtlərin uyğunlaşa bilmir. Onlar antisosial, çox vaxt isə tüfeyli həyat tərzi keçirir. Normal əlaqə və münasibətlərdən kənarlaşıblar. Çoxları spirtli içkilərdən asılı insanlardır. Bir qayda olaraq az dəyərli əşyaların oğurluğu ilə məşğuldurlar. Cinayət yolu ilə əldə etdikləri əşyaları və pulu spirtli içkiyə sərf edirlər.

Bu tipə aid edilən tamahkar cinayətkarların çoxu əvvəllər məhkum olunmuş, daimi yaşayır yeri, qeydiyyatı, iş yeri, ailəsi olmayan şəxslərdir.

Onlar sanki ümumi axına qoşulur. Öz talelərinə etinasızdırlar. Gələcək haqqında düşünmürlər. Bu tipin belə dezadaptiv davranışının əsasında tam şəxsi qeyri-müəyyənlik dayanır. Onlarda özləri haqqında sabit təsəvvürlər mövcud deyil. Davranışları digər insanlarla, qrupla, identifikasiyadan, eləcə də sosial qrupa daxil olmaqdan dərk edilməyən qaçmaq meyli ilə şərtlənir. Beləliklə, onların dezadaptiv davranışının əsası kimi sosial identifikasiya qorxusu və şəxsi özünütəyinetmə durur.

Dezadaptiv tamahkar cinayətkarların sosial təmasları səthidir. Hətta işə düzəldikdə belə, orada uzun müddət qərar tuta bilmirlər. İstənilən məsuliyyətdən qaçırlar. Başqa sözlə, onlar sanki cəmiyyətdən, sosial fəallıqdan kənarda yaşayır.

Adətən onların qanuni gəlir mənbəyi olmadığından oğurluq, müxtəlif mülkiyyət əlehinə cinayətlərlə gəlir mənbəyi əldə edirlər.

Bəzi müəlliflər bu tipə residivistləri, eləcə professional cinayətkarları aid edirlər. Onlar üçün tamah xarakterli cinayətlərin törədilməsi yaşamaq üçün vasitə əldə etməyin yeganə və əsas yoludur. Bu tipə aid edilən şəxslərin ailəsi və iş yeri olmur. Onların əksəriyyəti orta və daha yaşlı insanlardan ibarətdir.

5. Ailə tipi- Bu tipə adətən rüşvətxorlar və talançılar arasında rast gəlinir. Onlar cinayəti ailənin tələbatlarını ödəmək üçün törədir. Ailənin qidalanmasından tutmuş övladının təhsilinə qədər. Cinayət yolu ilə əldə etdiklərindən isə şəxsən özlərinə heç bir şey götürmürlər. Bu şəxslər işdə müsbət xarakterizə olunurlar. Ailələrinə, xüsusilə övladlarına çox bağlıdırlar. Cəmiyyət üçün böyük ictimai təhlükə kəsb etmirlər.

6. Alkoqolizasiya və narkomaniyaya meylli tip- bura spirtli içki və narkotik maddələrdən patoloji asılı olan insanlar aiddir. Onlar tamah xarakterli cinayəti bu maddələri əldə etmək üçün törədirlər. Bu tip dezadaptiv tipə çox yaxındır. Tamahkar cinayətkarların bu tipi üçün tələbat-motivasiya sisteminin dəyişikliyə uğramasıdır. Bu halda spirtli içki və narkotik maddə onlar üçün bütün dəyər və münasibətlərin ölçü meyarına çevrilir. narkotik maddədən və spirtli içkidən asılılıq artıqca bu motiv daha dominant rol oynamağa digər motivləri özünə tabe etməyə başlayır. Nəticədə, ailə, iş, dostlar tamamilə başqa məna kəsb etməyə, onlarla bağlı motivlər öz təhrikedici qüvvəsini itirməyə başlayır.

Ünsiyyət dairəsi də dəyişir. Artıq ünsiyyət tələbatı daha çox antisosial yönümlü qruplarda reallaşmağa başlayır ki, bu da dezadaptasiyanı daha da gücləndirərək insanın normal əlaqə və münasibətlərdən ayrılmasını daha da gücləndirir. Spirtli içki və narkotik maddələrdən asılı tamahkar tipin törətdiyi cinayətlər adətən böyük ictimai-təhlükə kəsb etmir. Bir çox hallarda onlarda xırda oğurluq, yaxud istehsalatda əhəmiyyətsiz qarətlər müşahidə edilir. Onlar cinayəti çox primitiv üsulla törədir. Çünki əvvəlcədən ona hazırlaşmır, cinayətin izlərini yox etməyə cəhd göstərmirlər.

Tamahkar cinayətkarların digər tipologiyası cinayətkar yönümün sabitlik dərəcəsinə əsaslanır. Burada tamahkar cinayətkarların 4 tipini fərqləndirirlər (6, 450):

1. Situativ tip-bu tipə aid edilən tamahkar cinayətkarlar əlverişli şəraitdən istifadə edərək cinayəti törədir. Bu cibgirlik, sərxoş insanların qarəti, dükandan oğurluq, hətta iş yerində kifayət qədər nəzarət olmadığından yaranmış əlverişli şəraitdən istifadə nəticəsində oğurluq və s. ola bilər.

2. Qeyri-sabit tip- bura aid edilən cinayətkarlar öz psixoloji simasına görə birinci tipi xatırladır. Lakin olar təkcə əlverişli şəraitdən istifadə etmirlər, həm də bir çox hallarda belə şəraiti özləri yaradırlar. Onların qeyri-sabitliyi bir qayda olaraq hüquqi davranışla qadağan edilmiş davranış arasında seçim edən zaman yaşadıqları tərəddüddə təzahür edir. Əksər hallarda seçim ikinci davranışın xeyrinə edilir. Bu tipin nümayəndələrinə iqtisadi fəaliyyət sahəsində cinayət törədənlər, eləcə də yaşıdlarının və böyüklərin təsiri altında cinayət töərmək cazibəsi qarşısında tab gətirə bilməyən gənclər arasında rast gəlmək mümkündür.

3. Qəddar tip- bura cinayət törətmək üçün fəal və məqsədyönlü şəkildə özləri şərait yaradan insanlar aid edilir. Onlar üçün şəraiti yaxşı bilmək, əvvəlcədən cinayətə hazırlaşmaq, iştirakçıların seçilməsi, eləcə də müəyyən cinayət əməlinin törədilməsində bacarıq və vərdişlərin olması xasdır.

4. Xüsusi təhlükəli tip- bura təkcə regional səviyyədə deyil, həm də regionlararası və beynəlxalq səviyyədə böyük fırıldaqlara imza atmış şəxslər aid edilir. Onlar nəinki cinayətin törənməsi üçün əlverişli şərait yaradırlar, həm də cinayətkar fəaliyyətlə uzun müddət və təhlükəsiz məşğul olmaq üçün sistem yaradırlar. Bu şəxslər bir çox cinayətkar birliklərlə əməkdaşlıq edir, hətta onun tərkibinə daxil olurlar. Bu kateqoriyaya aid edilən cinayətkarlardan bəziləri çox varlıdırlar, yaxşı əlaqələri var (o cümlədən hüquq mühafizə orqanlarında), siyasət aləmində xüsusi çəkiyə malikdirlər. Onların ifşa edilməsi çox çətindir.

Nəhayət, cinayət əməlinin xarakterinə görə tamahkar cinayətkarları belə təsnif edirlər (3.311):

1. Oğrular, oğurluğu özlərinə peşə etmiş şəxslər.
2. Soyğunçular, quldurluqla məşğul olanlar, hədə-qorxu ilə pul tələb edənlər, adam oğurluğu ilə məşğul olanlar,.
3. Rüşvətxorlar
4. İsrafçılar, talançılar, iqtisadi fəaliyyət sahəsində cinayət törədənlər
5. Digər tamah xarakterli cinayət törədənlər.

Tamahkar cinayətkarlar üçün hansı psixoloji keyfiyyətlərin xarakterik olması tərəfimizdən MMPİ metodikasının, eləcə də 16 amilli Kettel sorğusunun metodikasının köməyi ilə müəyyənləşdirilmişdir.

Məlum olduğu kimi, MMPİ sorğusu 3 qiymətləndirmə (L, F, K) , 10 əsas şkaladan ibarətdir(1,49):

L şkalası (yalan)-eksperimentatorun gözündə daha yaxşı tərəfdən görünmək cəhdini qiymətləndirmək;

F şkalası (etibarlılıq)-psixi vəziyyəti, gərginlik vəziyyətini, adaptasiya səviyyəsini qiymətləndirmək;

K şkalası (korreksiya)-sosial təcrübə, sosial normalar haqqınla məlumatlılığı müəyyənləşdirir, bu və ya digər xarakter xüsusiyyətlərini gizlətməyə səy edən insanları differensasiya etmək imkanı verir.

Əsas şkalalar:

1-ci şkala-həyəcanın somatizasiyası-öz səhhətinə görə narahat olma vəziyyətini;

2-ci şkala-depressiya-əzginlik, ətrafda baş verənlərə marağın itməsini, həyəcan xarakterli pozuntuları;

3-cü şkala-demonstrativlik, isteroidlik-isterik reaksiyalara, nümayişkar davranışa meyli;

4-cü şkala-impulsivlik-emosiyaların təsiri altında hərəkət etmək meylini;

5-ci şkala-qadınlıq-kişilik-ənənəvi kişi və qadının xarakter xüsusiyyətlərinin ifadə olunma dərəcəsini;

6-cı şkala-rigidlik-affekt vəziyyətində ilişib qalmanı, şübhələnməyə, kin saxlamağa meyli, şəxsiyyətlərarası münasibətlərə yüksək həssaslığı;

7-ci şkala-daim həyəcanlı reaksiyaların yaranmasına hazırlıq vəziyyətini;

8-ci şkala-təcridlik-ətraf aləm ilə psixi məsafə saxlamaq, özünə qapanmaq meylini;

9-cu şkala- aktivlik-insanın əhvalının, optimizminin, fəallığının ümumi səviyyəsini;

0-cı şkala isə-sosial təmas-ünsiyyətlilik və ya qapalılığı müəyyənləşdirir.

Tamahkar cinayətkarlar kateqoriyasından olan talançıların və oğruların MMPİ profili böyük maraq doğurur. Belə ki, talançılar müxtəlif sosial situasiyadakı dəyişmələrə daha çox uyğunlaşıblar, sosial norma və tələblərə yaxşı bələdləşirlər, daha təmkinlidirlər, öz davranışlarına yaxşı nəzarət etməyi bacarırlar. Onlara zorakı cinayətləri törədənlərə xas olan aqressivlik, impulsiv davranış xarakterik deyil. Talançılar daha ünsiyyətlidirlər, sosial təmasın yaradılmasında çətinlik çəkmirlər. Liderliyə, sosial tanınmaya cəhd edirlər. Onların MMPI profilinin nəticələri hüquq normalarına riayət edənlərə yaxındır.

Talançılarda MMPİ metodikasının 2-ci, 7-ci (depressiya, həyəcan) şkalalarında nisbətən yüksək, 9-cu şkalada isə aşağı nəticələr müşahidə olunur. Eyni zamanda yüksək nəticələr 4-cü, 0-cı və 8-ci şkalalarda da müşahidə edilir. Bu da impulsivliyi, təcridliyi, sosial təmasların inkişaf səviyyəsini əks etdirir.

Bütün bunlar depressiyadan, perspektivi pessimist qiymətləndirməkdən, daxili gərginlikdən, həyəcandan, ümumiyyətlə situasiyadan narazılıqdan, aktivliyin aşağı olmasından xəbər verir. Onların profili sabit xarakter xüsusiyyətlərini yox, aktual psixi vəziyyəti əks etdirir.

Oğruların profilində isə K şkalası üzrə göstəricilər yüksəkdir. Bu tip tamahkar zorakı tipə oxşardır. Fərq isə ondadır ki, oğrularda F şkalası, 4-cü, 6-cı, 7-ci, 8-ci, 9-cu şkalalar üzrə göstəricilər nisbətən aşağı, K şkalası üzrə isə yüksəkdir. Oğrular mühitə sosial baxımdan adaptasiya oluna bilirlər. Az impulsivdirlər, az rigiddirlər, affekt onlarda çox da sabit deyil. Daha labil və hərəkətlidirlər. Həyəcanları daha az ifadə olunub.

L şkalası üzrə də göstəricilər yüksəkdir. Onların davranışı plastiklik, qərar qəbulunda əminliklə xarakterizə olunur. Oğrular üçün mənəvi və hüquq normalarında yaxşı bələdləşmə xasdır. Baxmayaraq ki, onlar bu normaları qəbul etmir və şüurlu olaraq pozur.

Oğrularda ən aşağı nəticələr 7-ci şkala üzrədir. Bu da zəif həyəcan, çox ünsiyyətlilik, şəxsiyyətlərarası kontakt yaratmaq meylini göstərir. Onlar sosial mühitə daha çox uyğunlaşıblar. Onlarda törətdikləri əvvəlki əməllərə görə özlərini günahlandırmağa çox az meyl var. 2-ci, 6-cı, 7-ci, 8-ci və 0-cı şkalalar üzrə nəticələr aşağıdır.

Talançıların ən yüksək göstəriciləri də K şkalası üzrədir. Yəni onlarda davranışa yüksək intellektual nəzarət mövcuddur. Sosial statuslarına böyük diqqət yetirirlər. Daha çox adaptasiya olunublar. Labildirlər, onlarda zəif psixi gərginlik müşahidə olunur. 9-cu şkala üzrə göstəricilər isə aşağıdır. Bu da ki, affektiv fonun onların davranışına əhəmiyyətli təsir edə bilməməsindən xəbər verir.

16 amilli Kettel metodikasının nəticələri də maraqlıdır. Metodika aşağıdakı 16 faktordan ibarətdir (4,46):

I faktor (A) affektotimiya-şizotimiya (ünsiyyətli-qapalı).
II faktor (B) İntellektuallıq.
III faktor (C) Emosional sabitlik- emosional qeyri-sabitlik.
IV faktor (E) müstəqillik-tabeçilik
V faktor (F) (impulsivlik-təmkinlilik)
VI faktor (G) mənəvi standartların daxilən qəbul edilməsi-edilməməsi
VII faktor (H) sosial əlaqələrdə cəsarətlilik – utancaqlıq
VIII faktor (I) mülayimlik-kobudluq.
IX faktor (L) şübhələnmə-etibar.
X faktor (M) yaradıcı təxəyyül- işgüzarlıq.
XI faktor (N) düzlük-diplomatiya.
XII faktor (O) həyəcanlılıq-sakitlik.
XIII faktor (Q1) radikalizm-konservatizm.
XIV faktor (Q2) konformizm-nonkonformizm.
XV faktor (Q3) yuxarı və aşağı özünənəzarət.

XVI faktor (Q4) frustrasiyanın aşağı və yuxarı həddi

Şəxsi əmlakı qarət etmiş şəxslərlə keçirilən bu metodika nəticəsində məlum olmuşdur ki, bu cinayətkarlar kateqoriyasında C faktoru (emosional sabitlik-qeyri sabitlik) və G faktoru (mənəvi-etik normaların daxilən qəbul edilməsi-edilməməsi), üzrə göstəricilər aşağı, O faktoru (həyəcanlılıq-sakitlik) üzrə göstəricilər isə yüksəkdir. Müvafiq olaraq bu şəxslər üçün emosional cəhətdən yetkin olmamaq, emosional qeyri-sabitlik, əsəbilik, aşağı frustrasiya həddi, frustrasiyaya, stressə çox çətinliklə dözmə, maraqların qeyri-sabitliyi, əhvalın dəyişkənliyi, tez yorulma, nevrotik simptomlar xas olduğu aşkar edilmişdir.

Nəticələrin təhlili göstərir ki, bu qrup cinayətkarların davranışı situasiya ilə müəyyən olunur və müxtəlif təsadüfi amillərdən asılı olur. Onlar üçün vahid davranış xətti seçmək çox çətin olur. Əksər halarda bu insanlar öz tələbatlarının quluna çevrilir və onların qarşısını ala bilmir.

Eyni xüsusiyyətlər cinayətkar-residivistlərdə də müşahidə olunur. Bu cinayətkarlarda da emosional-qeyri-sabitlik müşahidə olunur. Onlar da mənəvi-etik normalara, tələblərə riayət etmir. Prinsipsiz, məsuliyyətsiz, şöhrətpərəstdirlər. Hər andan, fürsətdən istifadə edir və ondan mənfəət götürməyə çalışırlar. Onlar özlərini hər məsuliyyətdən azad hesab edirlər. Bu şəxslərdə çox narahatlıq, həyəcan, adaptasiyada psixoloji çətinliklər, depressivlik müşahidə olunur. Dövlət mülkiyyətini qarət etmiş cinayətkarlar qrupunda isə emosional-qeyri-sabitlik müşahidə olunduğu halda, G faktoru üzrə göstəricilər qanuna hörmət edən insanlarda olduğu kimidir. F, Q4, E faktoru üzrə göstəricilər isə aşağıdır.

Yəni F–impulsivlik-təmkinliliyi, E – müstəqillik-tabeçiliyi, Q4 – frustrasiyanın aşağı və yuxarı həddini bildirir. Bu kateqoriyadan olan cinayətkarlar o birilərinə nisbətən sosial mühitə bir qədər adaptasiya olunublar. Onlar öz davranışlarını cəmiyyətin tələblərinə uyğunlaşdıra bilir.

Nisbətən təmkinli, az impulsivdirlər. Əksər hallarda öz davranışlarını cəmiyyətin hüquqi normativ tələblərinə müvafiq qururlar. Onlar söhbət əsnasında özlərinin hüquqazidd əməl törətmədiklərini deyirlər və bu əməllərini belə izah edirlər: onsuz da o əmlak it-bat olacaqdı. Eyni zamanda şəxsi mülkiyyətdə olan əmlakı oğurlaya bilmək imkanını inkar edirlər. Deyirlər ki, heç vaxt başqasına məxsus olanı götürməzlər. Maraqlı cəhət odur ki, bu kateqoriya cinayətkarlar şəxsi əmlakın oğurluğunu cinayət hesab etdikləri halda, dövlət əmlakının oğurluğunu cinayət kimi qiymətləndirmirlər. Bununla yanaşı, tamahkar cinayətkarlarla keçirilmiş rəngli metaforalar metodikası, Şvarts metodikası, Reanın uğur qazanmaq və uğursuzluqdan qaçma metodikası və Orlovun nailiyyət qazanmaq tələbatının qiymətləndirilməsi metodikalarının nəticələri göstərir ki, tamahkar cinayətkarlar müəyyən maddi dəyərlər əldə etməklə şəxsi uğur qazanmağa çalışır. Onlar risk etməyi sevir, yenilik və bir daha parlaq emosiyaları yaşamaq onları cəlb edir.

Tamahkar cinayətkarlar daha fəal və təşəbbüskardırlar. Maneə ilə qarşılaşdıqda onu aradan qaldırmaq üçün yollar axtarırlar. Çox məqsədyönlüdürlər.

Leontyevin meodikasının nəticələri göstərir ki, bu kateqoriyadan olan cinayətkarlar gələcəklə bağlı daha optimist planlar qurur. İndiki və keçmiş həyatlarından məmnundurlar. Eyni zamanda hesab edirlər ki, həyatı öz nəzarətləri altında saxlaya bilməzlər. Öz həyatlarında baş verəcəkləri dəyişmək iqtidarında deyillər.

Şvarts metodikasının nəticələrinə görə, tamahkar cinayətkarlarda konformluq və ənənə ($p<0,01$), konformluq və mehribanlıq ($p<0,001$), ənənə və universalizm ($p<0,001$), müstəqillik və nailiyyət ($p<0,01$) kimi dəyərlər arasında müsbət asılılıq müşahidə olunur. Bu da onların həyatda daha çox müstəqilliyə və nailiyyət qazanmağa cəhd etdiklərini göstərir. Tamahkar cinayətkarlarda konformluq qrupda, cəmiyyətdə qəbul edilmiş müəyyən ənənələri bilmək və onlara riayət etməklə bağlı təzahür edir.

Rəng metaforaları metodikasının faktor təhlili əsasında isə tamahkar cinayətkarlarda 4 amili fərqləndirmək mümkündür:

1-ci amil özünə aşağıdakı dəyişənləri daxil edir: «mənim övladım», «uşaqlar», «mənim gələcəyim». Bu amil «Gələcək haqqında təsəvvürlər» və ya «Öz övladlarım» kimi nəzərdən keçirilə bilər.

2-ci amil: «uğursuzluq», «konfliktlər», «hədə», «cinayət», «kədər», «qorxu». Bu faktor «Stress-faktor» kimi adlandırıla bilər. 3-cü amil: «təbabət», «mənim evim», «Pul».

4-cü amil: «dostlar», «risk», «maraqlı məşğuliyyət».

Tamahkar cinayətkarlarda ailə həyatına, dost münasibətlərinə, azalıqdakı həyata cəhdi müşahidə etmək olar. Onları aktual tələbatları arasında öz şəxsi evinin olması, başqa insanlar üzərində hökmranlıq tələbatlarına da təsadüf edilir. Əmək fəaliyyəti onlar üçün bilik mənbəyidir və idarə etmək imkanı ilə bağlıdır. Öz vəzifələrinə neqativ münasibət bəsləyirlər. Müstəqilliyə can atırlar və həyatda sabitliyə nail olmaq üçün rəqabət aparırdar. Onlar təmin olunmuş bir həyat arzulayır. Özlərini təsdiq etməyə meyl edirlər.

Ümumiyyətlə, tamahkar cinayətkarların əsas psixoloji xüsusiyyəti onların tələbatlar sferasının deformasiyası ilə bağlıdır. Onların davranışında hipertrofiya olunmuş tamahkar təhriklər dominantlıq edir.

Oğrular zəgin kriminal təcrübəyə, sabit antisosial yönümə malikdirlər. Onların tələbat və maraqları çox məhdud və primitivdir, sosial dəyərlərdən təcrid olunub. Ailələrinin, ixtisaslarının, daimi iş və yaşayış yerinin olmaması, müxtəlif psixi anomaliyalar onların sosial dezadaptasiyasının daha da gücləndirir. Oğruların şəxsiyyəti onların kriminal mühitə sabit olaraq daxil olmaları, kiçik yaşlarından ailə tərbiyəsindəki nöqsanlar, davamlı situativ asılılıqla, onların tələbatlarının xroniki olaraq təmin edilməməsi ilə daha da deformasiya olunur.

Tamahkar cinayətkarların bütün kateqoriyası üçün təhrikedici mexanizm tamahkar təhriklərin sabitliyidir. Bu cinayət növündə xüsusi residivin yüksək səviyyəsi məhz həmin amillə izah edilir. Bununla yanaşı, aparılmış son tədqiqatlar göstərir ki, tamahkar cinayətlərin törədilməsində psixi anomaliyalar da az rol oynamır. Bu kateqoriyadan olan cinayətkarların bir qisminin məhkəm-psixiatrik ekspertizası nəticəsində anlaqsız olduğu, 36%-in mərkəzi sinir sisteminin üzvi zədələrindən əziyyəti çəkdiyi, 19%-in şizofreniyadan, 10%-in oliqofreniyadan, 10%-in isə psixopatiyalardan əziyyət çəkdiyi müəyyən edilmişdir.

Patoloji xüsusiyyətə malik oğruların əksəriyyəti natamam ailələrdəndir. Törətdiklərə əmələ tənqidi münasibətləri çox aşağıdır. Onlara həm də impulsivlik, emosional qeyri-sabitlik xasdır.

Beləliklə də biz tamahkar cinayətkarların əsas psixoloji keyfiyyətlərini nəzərdən keçirdik. Fikrimizcə, bu keyfiyyətlərin nəzərə alınması həmin kateqoriyadan olan məhbusların islahı işini daha effektiv qurmaq imkanı verər.


ßäÿáèééàò

1. Á.Ù.ßëèéåâ, À.Ô.Ñÿìÿíäÿðîâà. Ùöãóã ïñèõîëîýèéàñûíûí òÿäãèãàò ìåòîäëàðû. Áàêû, 2008, 156 ñÿù.

2. Àëèåâ Á.Ã. Ïñèõîëîãè÷åñêèå ìåòîäû èçó÷åíèÿ ëè÷íîñòè ïðåñòóïíèêà. Áàêó, 1997, 65 ñòð

3. Åíèêååâ Ì.È. Îñíîâû îáùåé è þðèäè÷åñêîé ïñèõîëîãèè.- Ì., 2003, 631 ñòð.

4. Ëè÷íîñòü ïðåñòóïíèêà: Ìåòîäû èçó÷åíèÿ è ïðîáëåìû âîçäåéñòâèÿ.-Ì., 1988, 112 ñòð.

5. Ñîá÷èê Ë.Í., Ñòàíäàðòèçèðîâàííûé ìíîãîôàêòîðíûé ìåòîä èññëåäîâàíèÿ ëè÷íîñòè: Ìåòîäè÷åñкое руководство. М.,1990, 250 стр.

6. Максимов С.В. Корыстная преступность. Гл XXVII в учебнике «Криминология» / под ред. В.Н.Кудрявцева и В.Е.Эминова. М., 2004. с.446-459

7. Мокрецов А.И., Новиков В.В. Личность осужденного: социальная и психологическая работа с различными категориями. Учебно-методическое пособие. – М.: НИИ ФСИН России, 2006. – 221с.

8. Ушатиков А.И., Казак Б.Б. Пенитенциарная психология. «Рязань», 2003, 758 стр.



## РЕЗЮМЕ

## ТИПОЛОГИЯ И ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ КОРЫСТНЫХ ПРЕСТУПНИКОВ

В повседневной деятельности пенитенциарных психологов значительную роль играет определение некоторых психологических

особенностей личности, отражающих типичные формы реагирования, механизмы приспособления и характер социального взаимодействия в среде. Полученная информация позволяет предсказывать и контролировать варианты ожидаемого поведения, выбирать оптимальные способы ориентированного контроля со стороны различных структурных подразделений уголовно-исполнительной системы.

В статье рассматривается типология корыстных преступников по трем признакам: по мотивам преступного поведения, по степени устойчивости преступной установки и по характеру преступных действий, такжеисследуется психологические особенности осужденных за корыстные преступления.

ÀÁÑÒÐÀÚÒ

## TYPOLOGY AND PSYCHOLOGICAL FEATURES OF MERCENARY CRIMINALS

In daily activity of prison psychologists the important place occupies definition of some psychological features of the persons, reflecting the typical forms of reaction, mechanisms of the adaptation and character of social interaction in the environment. The received information allows to predict and supervise variants of expected behaviour, to choose optimum ways of the focused control from outside various structural divisions of criminally-executive system.

In article the typology of mercenary criminals to three signs is considered: on motives of criminal behavior, on degree of stability of criminal installation and on character of criminal acts, also it is investigated psychological features condemned for profit-motivated crimes.

# GƏNCLƏRİN ƏXLAQİ-MƏNƏVİ SFERASINDA DEPRESSİV XÜSUSİYYƏTLƏRİN TƏZAHÜR FORMALARI

Əliyeva Humay Ayvaz qızı.
ADPU-nin I kurs magistrantı.

*Açar sözlər:* gənclik, əxlaqi-mənəvi sfera, fərdi şüur, psixi sağlamlıq, emosional pozuntular, depressiya, davranış motivləri.

*Ключевые слови:* юность, нравственная -моральная сфера, индивидуальное сознание, психическое здоровье, эмоциональные нарушение, депрессия, мотивы поведение.

*Key words:* youth, moral sphere, individual consciousness, psychological health, emotional disorders, depression, behavioral motives.

*Giriş.* Əxlaq insanların öz davranışlarında rəhbər tutduqları prinsip, forma və qaydaların məcmusu və onların həyatda bir-birinə, ailəyə, əmək kollektivinə, millətə, bütövlükdə cəmiyyətə olan münasibətlərin ifadəsidir. Psixoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, əxlaqi bilik və anlayışların mənimsənilməsi prosesi mürəkkəb xarakter daşıyır. Gənclərdə əxlaqi bilik və anlayışların inama çevrilməsi üçün həmin bilik və anlayışların davranış motivləri və onlara uyğun əxlaqi adətlər sistemində möhkəmləndirilməsi tələb olunur. [5, 114-116]

Gənclərin əxlaqi mənəvi sferası onların emosional vəziyyəti ilə bilavasitə əlaqədardır. Psixoloqlar gənclərin davranış təcrübəsini, praktik fəaliyyətini onların emosiyaları ilə əlaqələndirməyi vacib hesab edirlər. Emosional sferada baş verən problemlər əxlaqi hisslərin formalaşmasına mənfi təsir göstərir.

Müasir dövrümüzdə gənclər arasında yayılmış emosional problemlər sırasında depressiya xüsusi mövqeyə malikdir. Tədqiqatlar göstərir ki, depressiya gəncləşmiş xəstəliklər sırasındadır. [4, 56-58]

Depressiya ilk növbədə əhval-ruhiyyənin enməsi, nitqin, hərəki aktivlik sürətinin azalması ilə xarakterizə olunur. Bu zaman əhvalın enməsi o dərəcədə güclü ola bilər ki, hətta xəstədə suisidal meyllər də formalaşa bilər. Daha dəqiq formada depressiyanın əsas və əlavə əlamətləri aşağıdakı kimi fərqləndirilir.

Depressiyanın əsas əlamətləri:

- Pasiyent üçün qeyri-normal hesab edilən səviyyəyədək uzun müddət əhvalın enməsi
- Adətən pasiyent üçün xoş olan məşğuliyyətə aydın formada marağın və alınan zövqün azalması
- Demək olar ki, hər gün müşahidə edilən yorulma və güc tükənməsi.

Depressiyanın əlavə əlamətləri:

- Özünəinamın və özünüqiymətləndirmə hissinin enməsi
- Səbəbsiz özünütənqid və ya qeyri-adekvat günahkarlıq hissi
- Təkrarlanan ölüm və ya özünəqəsd fikirləri və ya intihar davranışı
- Düşünmə və fikir cəmləmə qabiliyyətinin azalması

- Tormozlanma və ya həyəcanla müşayiət olunan psixomotor fəallığın pozulması (subyektiv və ya obyektiv)
- İstənilən növ yuxu pozuntusu (yuxusuzluq və ya yuxuculluq-süstlük)
- Çəki dəyişkənliyi ilə müşayiət olunan iştahanın dəyişməsi (artması və ya azalması) [8, 22-24]

Depressiv simptomlar arasında yuxu pozuntusu və iştaha pozuntusu bəzən yanlış olaraq izah edilir. Belə ki, əsasən bu şəxslərdə iştahanın azalması, qidadan imtina xüsusi vurğulanır. Lakin qeyd etmək lazımdır ki, qida meylinin artması da müşahidə edilə bilir. Eləcə də yuxu rejiminin pozulması ilə meydana çıxan həddən artıq yuxuculluqla yanaşı, heç cür yata bilməmə halları da göstərilməlidir. Yuxusuzluq da depressiyanın əlavə simptomları sırasına daxildir.

TƏDQİQATIN MATERİAL VƏ METODLARI

Tədqiqat APU-da 15 yanvar- 15 fevral tarixlərində 40 nəfər arasında aparılıb. Tədqiqat iştirakçıları arasında 24 nəfər qadın, 16 nəfər isə kişi olmuşdur.

Tədqiqat materiallarına aşağıdakılar aiddir: Demoqrafik sorğu və "Bek" depressiya sorğusu. [2, 252]

Nəticələrin işlənməsi isə SPSS proqramı 16-cı versiyaları vasitəsi ilə həyata keçirilmişdir. Kəmiyyət göstəriciləri t- student meyarı vasitəsi ilə müqayisə olunmuşdur, keyfiyyət göstəriciləri isə Pirsonun $\chi^2$ və Mann-Whitney U-test ilə ölçülmüşdür.

TƏDQİQATIN NƏTİCƏLƏRİ

Tədqiqatda iştirak edən şəxslərdə gələcəyə münasibətləri, həyata baxışları, şəxsiyyətlərarası münasibətləri, bilavasitə özünə aid olan fikirləri, həmçinin yuxu, qida rejimi, fizioloji göstəriciləri və s. araşdırılmışdır. Nəticələr analiz edilərkən bu göstərilən əlamətlərin cinsindən, yaşından, sosial status və təhsilindən, həmçinin digər faktorlardan asılı olaraq necə müşahidə edilməsi araşdırılmışdır.

İlk növbədə cins amili ilə Bek sorğusu nəticələri- gənclərdə depressiya göstəriciləri arasında asılılıq araşdırılmışdır. Qadınlarda orta bal 21.3±9.8, kişilərdə isə 23.1±9.4 təşkil etmişdir. Daha sonra Mann-Whitney U-test ilə ölçülmüş və statistik əhəmiyyətə malik nəticələr alınmışdır. ($\chi^2$= 139, df= 38, p= 0.04) hesablamalara əsasən demək olar ki, gənclər arasında kişilərdə qaınlara nisbətən depressiyanın yayılma halları çoxdur.

Gənclərdə yaş artdıqca depressiv əlamətlərin nə dərəcədə artıb- azalması məsələsi də sual doğurur. Belə ki, yaş amili depressiv əlamətlərin təzahüründə təkan verici, yaxud müsbət istiqamətdə nizamlayıcı faktor kimi necə çıxış edir? Nəticələr araşdırıldıqda məlum olmuşdur ki, 17- 21 yaşlar arası gənclərdə depressiyanın orta göstəricisi 21.5±8.7, 22-27 yaşlar arası gənclərdə isə 23.5± 11.8 alınmışdır. T- student meyarı vasitəsi ilə müqayisə edildikdə t=-0.5, df= 38, p= 0.4 təşkil etmişdir. Bu nəticələrə statistik əhəmiyyətə yaxınlaşır. Statistik

nəticələrə əsasən demək olar ki, gənclər arasında yaş artdıqca depressiv əhval-ruhiyyənin də artması müşahidə edilir. Bu isə onların əxlaqi hisslərində, dəyərlərində, ümumiyyətlə mənəvi sferasında öz təsirini göstərir

Gənclərin sosial statusu ilə depressiv əlamətlər arası asılılıq ölçüldükdə məlum olmuşdur ki, aşağı sosial statusa məxsus gənclərdə depressiv göstərici 22.6± 9.14, orta sosial statusa məxsus gənclərdə 22.1±9.9, yüksək sosial statusa məxsus gənclərdə 22.6± 9.2 təşkil etmişdir. Nəticələr statistik əhəmiyyətə yaxınlaşır. ($\chi^2$= 0.3, df=2, p=0.8) Gənclərin sosial statusu onların mənəvi dəyərlərində, həyata baxışlarında müxtəlif formada özünü biruzə verir.

Hesablamalara əsasən isə demək olar ki, orta sosial statusa mənsub gənclərdə depressiv xüsusiyyətlər daha çox təsadüf edir və bu fərq onların əxlaqi-mənəvi sferasında da əksini tapır.

Diaqram 1. Depressiv göstəricilər və sosial status arası asılılıq.




Yüksək əxlaqi keyfiyyətlər insanların cəmiyyətin məqsədləri ilə müəyyən edilən praktik fəaliyyyətində formalaşır. Fəaliyyət prosesində cəmiyyətin nümunələri idealları təşəkkül tapır. Müxtəlif ədəbiyyatlarda göstərilmiş həmin məlumatların tədqiqat iştirakçılarında necə təzahür etdiyini öyrənmək üçün depressiv əlamətlər və şəxslərin məşğulluq amili arası asılılıq ölçülmüşdür. Tələbələrdə depressiya orta göstəricisi 21.8±8.8, işləyən gənclərdə 26.6±14.8, heç bir əmək sahəsində fəaliyyət göstərməyən şəxslərdə 15±5.6 təşkil etmişdir. ($\chi^2$=0.7, df=2, p=0.6) Statistik nəticələr göstərir ki, əmək fəaliyyəti göstərən gənclərdə depressiv əlamətlər daha çox müşahidə edilir. Bu isə fəaliyyətin düzgün seçilməməsi, düzgün təşkil olunmaması, müvafiq yaş dövrünə uyğun olmaması, həmçinin digər ailə problemləri ilə əlaqədar ola bilər.

Yaşayış amili gənclərin həyata baxışlarında, sərvət meyllərində, dəyərlər sistemində fərqli şəkildə özünü göstərir. Tədqiqat iştirakçıları arasında məskunlaşma amilinin depressiv əlamətlərə hansı formada təsir etdiyini öyrənmək üçün hesablama aparıldıqda məlum olmuşdur ki, şəhər mühitində yaşayan gənclərdə depressiya orta göstəricisi 21.5± 8.9, kənd mühitində

yaşayan gənclərdə isə 29.3± 16.1 təşkil edib. ( t= -1.3, df= 38, p=0.1) Alınan nəticələr statistik əhəmiyyətə yaxınlaşır. Tədqiqatda iştirak edən gənclərin çox kiçik bir hissəsinin kənddə yaşadığı faktı onların nəticələrində böyük fərqlə özünü göstərmişdir. Digər tədqiqat nəticələrinə əsasən şəhər mühitində yaşayan gənclərin psixi sağlamlığında müşahidə edilən problemlərin onların əxlaqi mənəvi sferasında da problemlərə səbəb olduğunu demək olar.

*Alınan nəticələrin müzakirəsi*

- Tədqiqat nəticələrinə əsasən demək olar ki, depressiya kişilərdə qadınlara nisbətən daha çox müşahidə olunur və bu onların mənəvi aləmində fərqli problemlərə səbəb olur.
- Depressiv əlamətlər daha gəncləşmiş xarakter daşıyır. 22-27 yaşlar arası gənclərdə isə depressiv əlamətlər daha qabarıq ifadə olunduğundan onların dəyərlər sistemində, həyata baxışlarında da fərqlər olduğu aşkara çıxır.
- Əmək fəaliyyəti gənclərdə tərbiyə edici istiqamətdə həll edici əhəmiyyətə malikdir. İş rejimi öz növbəsində bir sıra psixoloji problemlərə təkan verməsi səbəbindən işləyən gənclərin həyata baxışları və sərvət meylində müvafiq fərqlər üzə çıxır.
- Gənclərin mənsub olduğu şəhər və ya kənd mühitini ictimai şüuru onların fərdi şüurunda da öz əksini tapdığından demək olar ki, kənd və şəhərdə yaşayan gəncləri əxlaqi-mənəvi sferasında fərqlər yaşanır.

- Psixi sağlamlıq, şəxsiyyətlər arası münasibətlər, hansısa bir psixi xəstəliyin olması gənclərin əxlaqi şüurunun ifadəsində vacib təsirə malikdir. Bu səbəbdən demək olar ki, yüksək əxlaqi şüura malik gənclərin formalaşması üçün ilk növbədə onların psixi statusunda problemlərin yaşanmaması şərti ödənilməlidir.

Ədəbiyyat siyahısı


1. Bayrarom Ə.S. Əlizadə Ə.Ə. “Psixologiya”. “Çinar çap”, Bakı, 2002. 535səh.
2. Cavadov R. Ə., Tağıyeva G. B. “ Ekstremal şəraitdə psixoloji xidmət ” Bakı, ADPU, 2006. 258səh. 252
3. Əmrahlı L. Ş. “Psixoloji xidmətin əsasları” . Bakı, 2006. 284səh.
4. Hamilton M: A rating scale for depression. J Neurol Neurosurg Psychiatry 1960; 23: 56-62.
5. Həmzəyev M.Ə. “Pedaqoji psixologiya”. Bakı, 2003. 280səh.
6. Kazımov N.M. “ Tərbiyənin elmi-pedaqoji əsasları”. Bakı, 1983. 304səh.
7. Paşayev Ə.X., Rüstəmov F.A. “Pedaqogika”. (yeni kurs) Bakı, 2002. 585səh.

8. Sultanov M. Z., Gəraybəyli G., Qəmərlinski R. “ İnterpersonal psixoterapiya” – Bakı. 2010, 224 səh.
9. Кон И.С. “Психология ранней юности”. Москва, 1989. 314ст.
10. www.pubmed.com

Резюме

Когда мы говорим о морали молодости, их умственного здоровья, мы должны обратить вниманию их проблему. Одна из фактических проблем молодости - твердость, чтобы получать образование. Безработица является другой большой проблемой среди молодости. Трудность какое молодое лицо людей должно найти хорошую работу после окончания. Проблема безработицы лидирует в материальные проблемы. Проблема жилья все еще нерешенная. Они должны жить нерешенной жизнью в жестких условиях.

Некоторые из них имеют даже нигде, чтобы жить. Недостаток вашего собственного жилья мешает создавать молодых семейства.

Кроме того в этой статье, поговорил не только об их умственном здоровье, морали и депрессии, которые наблюдались в молодости. Депрессия может вызвать много проблемы и влиять мораль.

Resume

When we speak about youth’s morality, their mental health, we must pay attention their problem. One of the actual youth problems is hardness to get an education. Unemployment is another great problem among youth. Difficulty which young people face is to find a good job after graduation. Problem of unemployment leads to material problems. The housing problem is still unsolved. They have to live unsettled life in hard conditions. Some of them have even nowhere to live. Lack of your own dwelling prevents to create young families.

Family problems appeared in resent time in dysfunctional families where not enough love and warmth. Lack of attention from parents results in conflicts with children. Problem is also a generation gap. Every new generation is different from the one that preceded it. Today the differences are especially considerable. The adults always believe that they know best only because of their greater life's experience. Moreover in this article, have spoken not only about their mental health, morality and depression that observed in youth. Depression can cause a lot of problem and influence morality.

# ÖZÜNÜDƏRKETMƏ PROSESİ

Fətullayeva Aytən,
ADPU-nun II kurs magistrantı.

*Açar sözlər:* Özünüdərketmə, inkişaf, davranış.
*Ключевые слова:* Самосазнание, развития, поведение.
*Key words:* selfknowledge, progress, behavior.

Özünüdərketmə- insanın öz maraq və tələbatlarını, bilik səviyyəsini, arzu və istəklərini, davranış motivlərini habelə özünü hissedən və düşünən vir varlıq kimi dərk etməsi və qitmətləndirməsi prosesidir.

Bu proses insana özünü ətrah mühitdən seçmək və fərqləndirmək imkanı verir. Özünüdərketmə sosial xarakter daşıyır və bu proses insanların qarşılıqlı əlaqəsi olmadan formalaşa bilməz.

Qeyd etmək lazımdır ki, insanın bir şəxsiyyət kimi formalaşması və inkişafı özünüdərketmə prosesi baş vermədən mümkün deyildir. Özünüdərketmənin inkişafı şəxsiyyətin inkişafı ilə birbaşa bağlıdır. Psixoloqlar bu inkişafı bir neçə mərhələlərə ayırırlar.

1. Psixololaqların fikrincə bu mərhələ insanın “öz bədəninə sahib olması” və onda ixtiyari hərəkətlərin yarandığı dövrü əhatə edir.
2. Bu mərhələ uşaqların yeriməyə başladığı dövrdən təşəkkül edir. Bu zamnan onlarda özünəməxsus şəkildə müstəqillik formalaşmağa başlayır. Uşaqlarda artıq özünüdərketmənin primitiv əlamətləri meydana çıxır, öz “mən”i haqqında ilkin təsəvvürlər yaranır. Lakin bu mərhələdə insan özünü yalnız digər insanlarla qarşılıqlı əlaqə zəmində dərk edir. Yəni insanın özünüdərki ilk növbədə başqa insanların dərki vasitəsilə həyata keçirilir.
3. Bu mərhələdə özünüdərketmə nitqin inkişafı ilə birlikdə cərəyan edir. Uşaq nitqə yiyələndikdən sonra başqalarının hərəkətlərini öz istəklərinə müvafiq olaraq istiqamətləndirir və başqa insanlar vasitəsilə ətraf mühitə təsir göstərir. Uşaq davranışında baş verən bu dəyişikliklər, onun dərketmə səviyyəsinin eyni zamanda başqa insanlara münasibət və davranışının da dəyişməsinə səbəb olur. Lakin şəxsiyyətin inkişafı bununla məhdudlaşmır.

Daha sonralar insanın dünyagörüşü, sərvətlər toplusu, özünümüəyyənetmə və özünütəhlil və s. formalaşır və özünüdərketmə yeni xarakter kəsb etməyə başlayır.

Özünüdərketmə anadangəlmə xarakter daşımır o, fərdin inkişafının nəticəsidir.

Özünüdərketmə şəxsiyyətin strukturunun əsas komponentlərindən biri olub, elə bir daxili mexanizmdir ki, onun köməyi ilə insan nəyin ki, kənar təsiri qavramaqla kifayətlənmir, bununla yanaşı müstəqil şəkildə öz imkanlarını dərk edərək öz fəaliyyətini tənzimləyir. Nəticədə insan yalnız xarici mühiti əks

etdirmir, eyni zamanda özünü bu mühitdən ayıraraq öz daxili aləmini dərk edir(4,s.65).

Özünüdərketmə bir tərəfdən müəyyən mərhələlərdə şəxsiyyətin psixi inkişafını təsbit edir, digər tərəfdən ixtiyarı şəkildə insan davranışının daxili tənzimləyicisi kimi onun gələcək inkişafına təsir göstərir. O, şəxsiyyətin inkişafının əsas şərtlərindən biri olub xarici təsirlərlə şəxsiyyətin daxili vəziyyətini və onun davranış formalarını tarazlaşdırılmasına xidmət edir.

Müasir dövrdə özünüdərketmənin onlarla təsnifatı mövcuddur.

İ.İ Çesnakovaya görə özünüdərketmə-psixi proseslərin toplusudur, hansıki onların vasitəsi ilə insan özünü fəaliyyətin subyekti kimi dərk edir və onun özü haqqında təsəvvürləri "mən" obrazında əks olunur(3,s.83).

V.Q.Maralovun fikrincə özünüdərketmə- "mən" in bir subyekt kimi öz "mən"obrazını dərk etməsi fəaliyyətidir. Eyni zamanda "mən" obrazı bir subyekt kimi "mən" in strukturuna daxil olaraq özünüidarə funksiyasını yerinə yetirir".

Bir çox təsnifatlarda adətən özünüdərketmənin iki əsas cəhəti fərqləndirilir.

1. Özünüdərketmənin bir sosial varlıq kimi şəxsiyyətin əsas xüsusiyyətindən biri olması.

2. Özünüdərketmənin obyektinin dərk edən subyektin özü yəni insan olması.

Özünüdərketmənin əsas meyarları aşağıdakılardır.

1. İnsanın özünü ətraf mühitdən seçə, ayıra bilməsi və özünü müstəqil bir varlıq kimi dərk edə bilməsi.

2.Öz aktivliyinin dərk olunması." Mən öz "mən"imi idarə edirəm".

3. İnsanın özünü başqaları vasitəsilə dərk etməsi. " mənin başqalarında gördüyüm keyfiyyətlər mənin özümdə də ola bilər".

4. Mənəvi qiymətləndirmənin, refleksiyanın mövcudluğu, daxili təcrübənin dərk olunması.

Özünüdərketmənin əsas funksiyası insana əslində onun necə olmaısnı dərk etməyə və qiymətləndirməyə imkan verir.

B.Q. Ananyevin fikrincə özünüdərketmənin başlıca funksiyasını şəxsiyyətin davranışının idarə olunması təşkil edir.

L.S.Vqotski özünüdərketmənin strukturunda aşağıdakı əsas əlamətləri müəyyən etmişdir.

1. İnsanın özü haqqında bilikləri toplaması, onların vacibliyi və əlaqəliliyi.

2. Özü haqqında biliklərin dərinləşdirilməsi.

3.Psixologizasiya( insanın tədricən öz daxili aləmi haqqında təsəvvürlərə daxil olması).

4. İnteqrasiya (özünü vahid şəkildə dərk etmək)

5. İnsanın fərdiyyət olmasını dərk etməsi

6. Özünü, öz şəxsiyyətini qiymətləndirməsi ilə bağlı daxili mənəvi qiymətləndirmə meyarlarının və özünüdərketmənin fərdi xüsusiyyətlərinin inkişafı.

Vqotskinin fikrincə özünüdərketmənin strukturu insanın aid olduğu sosial mühitdən asılıdır.

İ.İ.Çesnakova özünüdərketməni üç komponentin vahidliyi kimi qəbul edir.

1. dərketmə( özünüdərketmə)
2. İnsanın özünə emosional-mənəvi münasibəti
3. şəxsiyyətin davranışının iradi-hərəki tənzimi.

V.V.Stolin özünüdərketmənin inkişafında üç mərhələni ayrıd edir.

1.Üzvi mərhələ- bu mərhələdə özünüdərketmə insanın fiziki "mən"ini əks etdirir və bura yalnız insanın yaşantıları daxildir( kefsizlik, əzginlik və yaxud gümrahlıq, yüngüllük, daxili əminamanlıq hissi və s.)

2. Fərdi mərhələ- bu mərhələdə "mən" obrazı fərdin ona verdiyi tələblərə uyğun olub olmamasını əks etdirir.

3.Şəxsi mərhələ isə insana onun mən konsepsiyasının vahidliyindən və tam formalaşmasında xəbər verir.

Özünüdərketmə olduqca mürəkkəb bir prosesdir və insanın bir şəxsiyyət kimi formalaşması və həyatda öz yerini və mövqeyini müəyyən edə bilməsi bu proseslə bilavasitə bağlıdır.

Ədəbiyyat siyahisi

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004
2.Швалб Ю.М. Целеполагающее сознание (психологические модели исследования). – К.: Миллениум, 2003. – 152с.
3.Рубинштейн С.Л. Основы общей психологии. – СПб.: Питер, 2004. – 713с.
4.Чеснокова И.И. Проблема самосознания в психологии. – М.: Наука, 1977. – 143с.
5.Соколова Е.Т. Самосознание и самооценка при аномалиях. личности. – М., 1989

Резюме

Самосазнание ето сложный просес в результате которого человек познает самого себя, образуется представление о себе в качестве субъекта действий и переживаний (образ Я) и складывается эмоционально-ценностное отношение к себе. Самосознание не изначальная данность, присущая человеку, а продукт развития.

Summary

The selfknowledge is the process of perceiving interests, wishes, emotions and sense of the hyman by himself. Selfknowledge does not attain innate character, it is a result of the man activities.

## AFFEKTİV POZULMALARIN SINDROMLARI VƏ ONLARIN SİSTEMLİ TƏŞKİLİ

Əliyeva Pərvin
BDU-nun II kurs magistrantı

*Açar sözlər*: affektiv pozuntu, maniakal sindrom, depressiv sindrom, hipomaniya, qarışıq affektiv epizod.
*Ключевые слова:* аффективное расстройство, психотерапия, терапевтический альянс, повторный эпизод.
*Keywords:* affective frustration, psychotherapy, a therapeutic alliance, a repeated episode.

Maniakal sindrom – şən, gümrah əhval-ruhiyyə, sakitləşməyən , kəsilməyən şadlıq, eyforiya, hərəki oyanıqlıq və assosiativ proseslərin tezləşməsilə müşaiyət olunan bir vəziyyətdir. Xəstə daim hərəkətdədir: rəqs edir, mahnı oxuyur, qəhqəhəylə gülür; fikirləri tez-tez bir-birini əvəz edir. Maniya zamanı təfəkkürdə xarici oxşarlıq və səslənməyə görə assosiasiyalar üstünlük təşkil edir. Assosiativ proseslərin tempinin get-gedə güclənməsi, “ideya axını”, bəzən də nitq dolaşıqlığı dərəcəsinə gəlib çatır (dolaşıqlı maniya).

Hərəkətlər canlı, tez, ifadəli olur. Xəstə hiperaktiv olur, hər şeyə qarışır, bir çox işə başlayır və, bir qayda olaraq, heç birini axıra çatdırmır. Sindromun inkişafıyla bərabər hərəkətlər məzmunsuzlaşır, mənasızlaşır (qeyri-məhsuldar maniya). Əsəbilik, tez qıcıqlanma, hirslənmə vəziyyətə yeni çalar qatır (qəzəbli maniya). Əksər hallarda yuksəlmiş, ekspansiv, acıqlı və ya şubhəli əhval muşahidə olunur və bu həmin fərd üçün anormal vəziyyət təşkil edir.

Maniakal xəstələr indiki zamandan çox gələcəylə yaşayırlar. Keçmişdən ancaq xoş xatirələri, yaxşı hadisələri yada salırlar. Maniakal epizod kəskin ifadə edilmiş səviyyədə əhvalın yuksəlməsi ilə xarakterizə olunur, bu səbəbsiz şənlikdən, deмək olar ki, nəzarət olunmayan həyəcana qədər dəyişə bilər və sosial adaptasiyanın əhəmiyyətli dərəcədə pisləşməsinə gətirib cıxara bilər. Bəzi maniakal epizodlarda yuksək əhval-ruhiyyədən daha cox acıqlanma və şubhəli munasibət muşahidə olunur.

Maniakal epizodlar adətən qəfildən başlayır və 2 həftədən 5 aya qədər davam edir (epizodun orta davametmə muddəti 4 aya yaxın təşkil edir).

Hipomaniya – yünguül dərəcəli maniakal epizod, bu zaman davranış və funksional adaptasiyada dəyişikliklər maniakal epizoda uyğun gələn səviyyədə kəskin ifadə olunmamışdır, eyni zamanda davametmə müddəti o qədər uzun deyil ki, bu vəziyyət siklotimiyaya aid edilsin. Hipomaniya əhvalın davamlı

yüksəlməsi, həddən artıq çalışqanlıq, yüksək fəallıq və kəskin nəzərə çarpan firavanlıq,zehni və fiziki məhsuldarlıq kimi xüsusiyyətlərlə səciyyələnən pozuntudur [1].

Depressiv epizodlar bipolyar affektiv pozuntu zamanı maniakal epizodlara nisbətən daha tez-tez rast gəlinə bilər. Depressiv sindrom qəmgin, kədərli, həzin əhval, hərəki bağlılıq, tormozlanma, assosiativ proseslərin zəifləməsilə gedən bir haldır. Depressiv xəstələr üçün həyata pessimist baxış, gələcəyə ümidsizlik, uğursuzluq və bəlalara düçar olma həyəcanı xasdır. Keşmişdən ən pis xatirələri, xoşagəlməz, ağır, kədərli hadisələri xatırlayırlar. Mimika qəmli, kədərli olur. Suallara gecikməylə, lakonik, sakit səslə cavab verirlər.Bəzən tam hərəkətsizlik, donmuş qəmli mimika müşahidə olunur (depressiv stupor). Bəzi hallarda isə hədsiz həyəcan, hərəki oyanıqlıq, bir küncdən digərinə vurnuxmaq, özünə əziyyət vermək cəhdləri müşahidə olunur (həyəcanlı depressiya).

Depressiv pozulmaların ifadə edilmə dərəcəsindən asılı olaraq, yüngül, orta, ağır və psixotik simptomları olan ağır depressiv epizodlar ayırd edilir.

Depressiv epizodların yüngül, orta hallarında xəstədə əhvalın aşağı düşməsi, işgüzarlıq və fəallığın azalması baş verir. Həmçinin, sevinmək, ləzzət almaq, maraqlanmaq, fikrini cəmləşdirmək kimi xüsusiyyətlər də aşağı düşmüş olur. Cüzi bir iş gördükdə kəskin yorulma baş verir. Adətən yuxu pozulur və iştaha zəifləyir. Hətta xəstəliyin yüngül formasında belə özünüqiymətləndirmək və özünəinam həmişə azalmış olur. Əksər vaxt xəstəni “özünün günahkar və faydasız olması” fikirləri narahat edir. Şəraitdən asılı olmayaraq somatik simptomlarla müşaiyət olunan əhvalın aşağı düşməsi müşahidə olunur. Bunlara insanı həvəsləndirən, ruhlandıran ətraf amillərə marağın itməsini, səhərlər, xüsusən də sübh tezdən güclənmiş depressiy anın yaranmasını, kəskin nəzərə çarpan psixomotor tormozlanmanı, həyəcanı, iştahanın itməsini, arıqlamanı və libidonun (cinsi meylin) aşağı düşməsisi misal göstərmək olar [2].

Psixotik simptomları olan ağır depressiv epizod diaqnozu sayıqlama, hallusinasiya və ya depressiv stuporun olması zamanı qoyulmalıdır.

Depressiya – həyəcan, yuksək halsızlıq, gərəksizlik hissi, intihara dair fikirlər, iştahanın azalması, yuxusuzluq, psixomotor tormozlanma və ya həyəcan, həmcinin muxtəlif somatik simptom və şikayətlərlə muşayiət olunan, əhval-ruhiyyənin enməsi ilə səciyyələnən psixi pozuntudur.

Depressiv pozuntu istənilən yaş dovrundə başlaya bilər. Lakin bununla yanaşı o daha cox 25-30 yaş arası başlayır. Depressiyalarda daha uzun muddət davam etməyə meyl muşahidə olunur (orta davametmə muddəti 6 aya yaxındır), lakin bu muddət nadir hallarda bir ildən artıq cəkir. O qəfildən (məsələn guclu stresslə əlaqədar) yarana bilər və ya bir necə gun və həftə muddətində tədricən inkişaf edə bilər. Bu zaman depressiyanın əlamətləri kimi həyəcan, təlaş tutmaları və ya ümumi narahatlıq muşahidə edilə bilər [3]. Depressiv epizodun davamlılığı bir necə aydan, bir necə ilədək tərəddud edir, mualicə olunmadan

yaşanan depressiya epizodları adətən 6 aydan 9 ayadək davam edir. Depressiya təkrarlanan (residiv verən) xəstəlikdir. Birinci epizoddan sonra residiv təhlukəsi 50%, ikinci epizoddan sonra 75%, ucuncu epizoddan sonra 90% təşkil edir. Residiv gostəriciləri 45 yaşdan yuxarı qruplar arasında xususilə yuksəkdir. Remissiya dovrundə insanların coxu ilkin hallarına qayıdırlar, lakin bəzi xəstələrdə qalıq əlamətlər də qeydə alınır. Demək olar ki, butun halların 20%-də, xususilə də adekvat mualicə ilə təmin olunmayan hallarda, depressiya xroniki xəstəliyə cevrilir və remissiya olmadan kecir. Depressiyanın ən ağır nəticəsi intihardır. Depressiyadan əziyyət cəkən şəxslərin 15-20%-i həyatlarına intiharla son qoyurlar. Depressiv pozuntu pasiyentin fiziki sağlamlığına mənfi təsir gostərə, yanaşı gedən somatik xəstəliyin gedişini ağırlaşdıra bilər. Bundan əlavə depressiya zamanı urək-damar patologiyalarının yaranması ehtimalı da artır [4].

Bipolyar pozuntunun birinci və ikinci epizodları arasındakı interval adətən 4 il və daha uzun muddət təşkil edir. Cox zaman ilk maniakal epizodun meydana cıxmasına qədər pasiyentlər bir necə depressiv epizod kecirirlər. Epizodların baş vermə tezliyi, remissiyaların və kəskinləşmələrin xarakteri xeyli muxtəlif olur, ancaq yaş otdukcə remissiyaların qısalmasına meyl muşahidə edilir. Mualicə almamış pasiyentlərin həyatı boyu 10-dan artıq maniakal və depressiv epizod qeyd olunur [5].

Qarışıq affektiv epizod klinik şəklin qarışıq olması və ya hipomaniakal, maniakal və depressiv simptomların sürətlə (bir neçə saat ərzində) dəyişməsi ilə xarakterizə olunur, həmin simptomlar ən azı iki həftə ərzində və bu vaxtın cox hissəsində movcud olmalıdırlar [6].


Резюме

Синдромы аффективных нарушений и их системная организация

Для депрессивного синдрома присущи колебания настроения в течение суток с улучшением общего состояния, уменьшением интенсивности депрессии в вечернее время, малой выраженностью идеаторной и моторной заторможенности. Для депрессий характерны также расстройства сна - бессонница, неглубокий сон с частыми пробуждениями или отсутствие чувства сна. Маниакальный синдром характеризуется повышенным настроением, ускорением ассоциативных процессов и чрезмерным стремлением к деятельности.



Summary

Syndromes of affective infringements and their system organization

People with major depressive disorder (MDD) experience periods of at least two weeks of symptoms that often include sadness, emotional heaviness, feelings of worthlessness, hopelessness, guilt, anguish, fear, loss of interest for

normal daily activities, social withdrawal, inability to feel pleasure, physical apathy, difficulty in concentrating, and recurrent thoughts about death. Manic episodes are characterized by hyperactivity, feelings of grandiosity or omnipotence, euphoria, constant agitation, obsessive work or social activity, increased sexual drive, racing thoughts and surges of creativity, distractibility, compulsive shopping or money spending, and sharp mood swings and aggressive reactions, which may include physical violence against others.

Ədəbiyyat:


1. Bipolyar affektiv pozuntunun diaqnostika və mualicəsi uzrə klinik protokol – 43 səh. 2009
2. İsmayılov N.V., İsmayılov F.N. «Tibbi psixologiya və psixoterapiya» Bakı 2008,415s.
3. Авербух Е. С. Депрессивные состояния. Л., 1962.
4. Ануфриев А. К. Скрытые эндогенные депрессии. Клиническая систематика.— Журн. невропатол. и психиатр., 1978, вып. 8, с. 1202—1208.
5. Ануфриев А.К. Патология общего чувства и аффективные расстройства с эквивалентами. – В кн.: Психосоматические расстройства при циклотимных и циклотимоподобных состояниях. М., 1979г., 8-24с.
6. «Аффективные расстройства; диагностика, лечение, реабилитация». Под ред. Кабанова М.М. Л., 1988г., 164с.


## TƏLİM SİTUASİYASINDA MÜƏLLİM - ŞAGİRD QARŞILIQLI MÜNASİBƏTLƏRİNİN BƏZİ MƏSƏLƏLƏRİ


Tağızadə Günel Adıgözəl qızı

BDU-nun II kurs magistrantı



*Açar sözlər:* təlim situasiyası; pozitiv münasibətlər; ünsiyyət stili; təlim subyektləri; münasibət tipləri; konyuktiv və dizyunktiv münasibətlər.

*Ключевые слова:* ситуация обучения; позитивные отношения; стиль общения; субъекты обучения ; типы отношений; конъюнктивные и дизъюнктивные отношения.

*Keywords:* learning situation; positive relations ; communication style; teaching subject ; types of realitions; conjunctive and disjunctive relations.


Pedaqoqların şagirdlərlə qarşılıqlı münasibətləri bir-birinə olan elə bir yönəlmədir ki, onların qarşılıqlı anlaşmasını şərtləndirir. Bu isə öz növbəsində davranışın qarşılıqlı korreksiyasına gətirir. Ümumilikdə təlim subyekt-subyekt münasibətlərinin formalaşması prosesidir. Təlim şəxsiyyətlərarası münasibətlər vasitəsilə başlayır və bitir. Müəllim - şagird qarşılıqlı münasibətləri təlim və

tərbiyə məsələlərinin həllində əsas rol oynayır. Təlim prosesində elə qaşılıqlı münasibətlərin yaradılması nəzərdə tutulur ki, burada hər iki tərəf qarşıya qoyulmuş məqsədlərə çata bilsin. Əməkdaşlığın əsasında bu prosesin iştirakçıları arasında pozitiv münasibətlərin saxlanması durur və əlbəttə, əməkdaşlıq qurulması üçün tələbat və əməkdaşların fəaliyyəti bir-birini məlumatlandıraraq həyata keçirməsi vacibdir. Beləliklə, təlim prosesində xüsusi psixoloji atmosfer yaranır ki, burada təlim subyektləri bir-biri ilə qarşılıqlı əlaqədə olur. Bu, fəaliyyət priyomlarının hesabına deyil, subyektlərin bir-birinə isiqamətlənmiş olmalarının nəticəsidir. L.S. Vıqotskinin dediyi kimi dostluq, qarşılıqlı inam, kömək əsasında qurulmuş əməkdaşlıq şəxsiyyətə özünü kəşf etməyə imkan verir. Təlim o vaxt effektli alınır ki, peadaqoq şagirdin fəaliyyətinə məharətlə rəhbərlik edir. Birgə fəaliyyətə sıx şəkildə qoşulmuş şagirdin şəxsiyyət keyfiyyətləri, əməliyyatlardakı müstəqilliyi bu cür əməkdaşlığın əsasını təşkil edir [ 5, 433].

Müəllimlə belə qarşılıqlı münasibətlərdə olan şagirdin daha aktiv və sərbəst olmaq imkanı yaranır. Bundan başqa, bu aktivliyi düzgün idarə etməklə şagird şəxsiyyətində müsbət yönümlü dəyişikliklərin baş verdiyini görmək olar.

Qeyd etmək lazımdır ki, təlim prosesindəki müəllim və şagird arasında münasibətlərin necə qurulacağı ünsiyyət və qarşılıqlı təsir vasitələrinin xarakterinə birbaşa təsir edir. İlk növbədə indiyədək kimi formalaşmış olan müəllim – şagird münasibətlərinin tipləri ilə tanış olaq. Onlar şərti olaraq 4 tipə bölünür.

Birinci tip – “müəllim-şagird” yüzilliklər ərzində təlim prosesinin aparıcı didaktik modeli olmuşdur. Bu model müəllim və şagird arasındakı bilavasitə əlaqəyə əsaslanır. Belə pedaqoji qarşılıqlı təsirin “prototipi” ana və uşaq arasındakı münasibətlərdir. Didaktik şagird-müəllim münasibətləri praktikada müxtəlif tədris formaları və metodları ilə müşaiyət olunur. Burada aktuallaşan münasibətlərə: mentor(mürəbbi) və şagird; “evdə məktəb” müəllimi və şagird ; tədrisin müxtəlif sahələrində ustad və şagird; xüsusi qayğıya ehtiyacı olan uşağa bərpaedici-pedaqoji, korreksiyaedici və tibbi proqram kontekstində fərdi olaraq tədrisin aparılması aiddir.

Müasir şəraitdə bu model müxtəlif forma və variantlarda müəllim və şagird arasında fərdi – didaktik əlaqə, yaradıcılığa və müstəqilliyə stimullaşdıran iş, fərdi olaraq təlim problemlərinin müzakirəsi və konsultasiyası kimi işlənir. Bu tip pedaqoji qarşılıqlı münasibətlərin ikilik (cüt )şəkilində dominantlıq xarakterikdir.

İkinci tip - “müəllim-auditoriya” – bu böyük sayda insan kütləsinə nəsihət vermə, təşviqat, mobilizasiya, maariflənmə məqsədi daşıyan dialoji formada müraciətdir. Auditoriya ilə ünsiyyətin əsas formaları çıxış, təbliğ, məruzə, mühazirədir. Burada materialın və yeni informasiyanın rasional və “ekonomik” təqdim olunması əsas rol oynayır. Bu tip təlim ali məktəb üçün səciyyəvidir.

Üçüncü tipə - "müəllim – qrup"- münasibətləri aiddir. Bu tip üçün vasitəsiz kommunikasiya xarakterikdir. Həmçinin kommunikasiyanın çoxtərəfli və qarşılıqlı münasibətlərin qabarıq əməkdaşlıq xüsusiyyətinə malik olması ilə seçilir.

Dördüncü tip üçün - " müəllim - təlim vasitəsi – şagird" distant təlim xarakterikdir. Burada təlim kompüter və digər texniki vasitələrlə həyata keçirilir [7, 278].

Qeyd etdiyimiz kimi münasibətlər ümumilikdə təlim və idraka yönəldir. Burada əsas şərt partnyorlar arasındakı münasibətlərdir. Qarşılıqlı münasibətlər öz növbəsində emosional, iradi, koqnitiv və praktik qarşılıqlı təsirin müxtəlif aspektlərini ifadə edir. Həmçinin bu aspektlər insanlar arasında psixoloji əlaqənin yaranmasında, bir-birlərinə informasiyanın ötürülməsində həlledici rol oynayır. Psixologiyada münasibət dedikdə obyekt və onun xassələrinin qarşılıqlı təsiri nəzərdə tutulur[ 1, 623]**.**

Şagirdlər tərəfindən təcrübənin mənimsənilməsi şəxsi münasibətlər xaricində mümkün deyil. Məhz münasibətlər çərçivəsində şagird müəllimin qiymətləndirməsini başa düşür. Həm də şagird özü də müəllimini qiymətləndirir. Müəllimə münasibət şagirdin uğurunu şərtləndirir. Pedaqoqa qarşı pozitiv münasibət təlimə marağı, şagirdlərin biliklərə yiyələnmə istəyini artırır, fəaliyyətə və əməkdaşlığa marağı güclənir. Belə qarşılıqlı proses olmasa şəxsiyyətin formalaşması baş verməz. Həmçinin bu zaman müəllim nəyin korreksiyaya ehtiyacı olduğunu, mənimsənildiyini və özünün nəyə əsaslanacağını müəyyənləşdirə bilir. Bu mənimsəmə prosesləri öz-özünə baş vermir. Formalaşan şagird şəxsiyyəti müəllimin dəstəyi nəticəsində digər insanların nəzər nöqtəsini, davranış və əməllərini nəzərə almağın vacibliyini öyrənir.

Şagirdin bütün şəxsiyyət keyfiyyətlərinin nəzərə alınması çox əsasdır. Bu, təlimin tempini və keyfiyyətini dəyişməyə imkan verən şərt kimi çıxış edir. Müəllimlə şagirdin əmədaşlığı təkcə tədris metod və vasitələrinin tətbiqindən ibarət deyil. Burada mənəvi əlaqə olmalıdır. Müəllim ötürdüyünün şagird tərəfindən qəbul edilməsinə, özününkiləşdirməsinə şərait yaratmalıdır. Bu mənəvi əlaqə emosional, qiymətləndirici və iradi xarakter daşıyır. Pedaqoji psixologiyada elə hallar məlumdur ki, şagirdlər heç də həmişə müəllimi qəbul etmirlər. Tədqiqatlar göstərir ki, şagirdin müəllimlə olan münasibəti şagird üçün çox önəm daşıyır [4, 244].

N.A. Berozovin və Y.L. Kolominskiy müəllimlərin şagirdlərlə ünsiyyət stillərini müəyyənləşdirməyə çalışmışdılar. Onlar ünsiyyət stillərini belə qruplaşdırıblar.

- Aktiv-müsbət
- Situativ
- Passiv-müsbət
- Passiv-mənfi

- Aktiv-mənfi

Uşaqlardan “Səni başqa sinfə keçirsələr, kimlə getmək istəyərdin: müəllimlə, dostlarınla, yoxsa tək?” Aktiv – müsbət ünsiyyət stili olan müəllimi şagirdlərin 74%-i , situativ olanı şagirdlərin 47%-i , mənfi olanı 36%-i , Passiv-mənfi-19%-i, nəhayət aktiv-mənfi ünsiyyət stili olan müəllimi 22% şagird “özü ilə götürmək” istərdi. Bu o deməkdir ki, şagirdlərlə əməkdaşlıq münasibətləri quran müəllim həm təlimə, həm dəm ümumilikdə məktəbə münasibəti bərqərar edir. Yuxarıda qeyd etdiyimiz və bu yöndə aparılan digər tədqiqatlar göstərir ki, heç də hər bir qarşılıqlı münasibət əməkdaşlığa və şagirdin özünüaktuallaşdırmasına təkan vermir. Demokratik başlanğıca – bərabərliyə, optimizmə, qarşılıqlı köməyə əsaslanan qarşılıqlı münasibətlər uğurlu ola bilər.

Demokratiyalaşmanın “sirri” – pedaqoq və şagirdlər arasında və ümumilikdə pedaqoji kollektivdə həmrəyliyin qazanılmasında, yaradıcı mikromühitin yaradılmasındadır. Belə münasibətlər o vaxt real olur ki, pedaqoqlar özlərinin daxili psixoloji yenidənqurma mexanizmələrini analiz edir, daha çox səmimi olmağa çalışaraq, şagirdlərinin müxtəlf fəaliyyət və şəxsiyyət cəhətlərini yaxşıya doğru dəyişdirməyə çalışırlar. Bu, şagirdlərlə münasibətlərin yaxşılaşmasına və mənəvi yaxınlığın yaradılmasına səbəb olur [ 2,18].

Müəllim və şagird ünsiyyətində peşəkar bilik və bacarıqlar mühüm rol oynayır. Öz fənnini yaxşı bildikdə və dərsə qarşı böyük həvəsi olduqda müəllim üçün müvafiq vasitələrdən istifadə etməklə əlaqə qurmaq çox asan olur. Heç də müəllimin yalnız akademik qabiliyyətləri və bilikləri məqsədəuyğun qarşılıqlı münasibətləri həmişə təmin etmir. Təcrübədə çox vaxt əksinə alınır: müəllim materialı, fənni yaxşı bilir, ancaq uşaqlarla münasibətləri alımır. Elmi faktların şərhi onu elə məşğul edir ki, ideya və anlayışlar dünyasına dalaraq nə görür, nə də eşidir.

Həmçinin müəyyənləşib ki, müəllim davranışın xarici obrazını sezir, ancaq onun motivini müəyyənləşdirməkdə çətinlik çəkir. Qeyd etmək lazımdır ki, davranışın yalnız xarici obrazının qavranılması konfliktlə nəticələnə bilər. Bu isə təlimə neqativ münasibətin yaranmasına səbəb ola bilər. Konfliktlərin çoxu müəllimlərin uşaqları başa düşmədikləri və sinifdəki qarşılıqlı münasibətləri düzgün qiymətləndirmədiyi zaman müşahidə olunur. Uşaqlarla ünsiyyət qura bilməyən müəllim nəticədə dərsin materialını izah edə bilmir və bu da öz növbəsində dərsin daha çox pozulmasına səbəb olur [3].

Ünsiyyətin idrak fəallığında rolu haqda bir çox təqdiqatlar aparılmışdır. Tədqiqatçılar qrupunun fikrincə ünsiyyət sayəsində koqnitiv proseslərin dinamikasında, problem situasiyanın dərk olunmasında və nəticələrin alınmasında dəyişiklik baş verir. Bundan başqa M.L.Lisina ünsiyyətin uşağın idrakı fəallığına təsirini öyrənərkən müəyyənləşdirdi ki, bu iki faktor bir-biri ilə əlaqəlidir. Ünsiyyətin intensivliyi özlüyündə idrak fəallığını şərtləndirmir. Əsas mahiyyət ünsiyyətin məzmunu və istiqamətidir. Əgər yaşlı uşağın

aktivliyini təqdir edirsə aktivlik, axtarış fəaliyyəti daha da artır ki, bu da problemin həllinə kömək edir. Ünsiyyət idrak fəallığını iki halda :şagirdin ünsiyyət materialına və insan davranışına diqqətin artırılmasına kömək etməklə artırıla bilər. Həmçinin sonuncu halda qavrayışın effektivliyi və kommunikativ siqnalların fərqləndirilməsi baş verir [6, 91].

Müəllim - şagird qarşılıqlı münasibətlərin digər bir növü afillasiya tələbatına istinad edərək belə qruplaşdırılır: konyuktiv və dizyunktiv. Konyuktiv qarşılıqlı münasibətlər - razılaşma, birləşməyə əsaslanaraq əməkdaşlıq kimi çıxış edir. Buraya müvazinətin, sakitliyin saxlanması, rəvan ton, zarafatlar, özünütənqid və özünüironiya, baxışlarla mübadilə, kontakda distansiyanın olmaması, qarşılıqlı kömək və s. aiddir. Dizyunktivə isə - sosial distansiyanın saxlanılması, yüksək tonlu intonasiyalar, səslənmələr, fikirlərlə mübadilənin olmaması, hörmətsizlik və kobudluq, hövsələsizlik və qərarsızlıq , müəllimi və ya şagirdi dəstəkləyə bilməmə, razılaşmama, əks tərəfi dinləyə bilməmə və əks tərəfi tənqid etmə, artıq yerə əlavə tələb, əmrlər irəli sürmək, birgə fəliyyətdəki şəxsi rolu qeyd etmə, ünsiyyətin dayandırılması, verbal və fiziki kontaktın olmaması və ya onun sıfra endirilməsi, soyuqluq, yadlaşma və s. aiddir. Dizyunktiv qarşılıqlı münasibətlər əməkdaşlığın əsasında dura bilməz. Ona görə ki, o şəxsə müstəqil, rahat, qorxsuz olmağa mane olur. Belə münasibətlər müəllim – şagird konfliktlərinə gətirib çıxarır ki, bu da hər bir şagirdə fərd kimi yanaşılmasına mane olur. Təcrübə göstərir ki, şagirdlər həmişə köməyə gələn, keçilən mövzu ilə uşaqların diqqətini cəlb edən, mövzunun praktik əhəmiyyətini izah edən, şagirdlərin fikrini başa düşüb razlılaşmağı bacaran, sakit və təmkinli olan, şagirdlərin yaxşı cəhətlərini qeyd edən müəllimə hörmət edirlər. Müəllim də daha çox xoş gələn və konyuktiv qarşlıqlı münasibətləri alınan şagirdlərin şəxsiyyəti və fəaliyyəti haqqında bunları qeyd edir: oxumaq həvəsi, dərsə səy göstərmə, çalışqan, ardıcıl, səmimi, həssas, ünsiyyətcil, nəzakətli, yaxşı mənimsəmə və müəllimi başa düşmə qabiliyyəti, tənqidi düzgün qavrama və yaşıdlarına müsbət təsir göstərmə qabiliyyəti olan şagird [4, 248 ]. Tədqiqatlar göstərir ki, müəllimin kommunikativ təsiri şagirdlərlə qarşılıqlı münasibətlərin tipindən asılıdır. Yaradılan mikroiqlim pedaqoqun şəxsiyyət keyfiyyətlərindən və fəaliyyətindən asılıdır. Bu da öz növbəsində şagirdlərlə konyuktiv və ya dizyunktiv münasibətlərə gətirir.

Müəllim-şagird münasibətlərinə kiçik bir ekskursiya belə onların təlim və tərbiyə üçün necə vacib olduğunu göstərir. Beləliklə, təlimdə yaxsı nəticəni o vaxt almaq olur ki, müəllim və şagirdlərin qarşılıqlı münasibətləri birgə fəaliyyət üçün optimaldır və bu münasibətlər hər iki tərəfdə qarşılıqlı xoş hisslər yaradır.

Ədəbiyyat

1. M.Ə. Həmzəyev. Psixologiya. Bakı; 2007
2. А.А. Леонтьев. Педагогическое общение М - Нальчик, 1996

3. Б.Г. Ананьев. Психология педагогической оценки. М; педагогика 1980 Т.2.
4. В.Ф. Казанская. Педагогическая психология. Питер, 2003
5. И .А. Зимняя. Педагогическая психология. М; Логос, 2001
6. М. И. Лисина. Формирование личности ребенка в общении. Питер, 2009
7. Н. В. Бордовская А. А. Реан. Педагогическая психология. Питер, 2002
8. Н.В. Клюевой. Педагогическая психология. М;2003

Rezume

The said article clarifies the essence of the teacher-pupil relations and deals with several kinds of relations in the education situation. Also the problem of how teacher-pupil mutual relations affect the pupil's attitude to both the lesson and education is touched upon in the said article. The main idea of the article is that positively established mutual relations-based education results in great success.

Резюме

В данной статье раскрывается сущность концепции отношений учитель-ученик и говорится о несколько типов отношений учитель-ученик в ситуации обучения. А также в статье дотрагивается проблема действия взаимных отношений учитель-ученик на отношение ученика соответственно как на урок так и на обучение. Основная идея статьи состоит в том что обучение основанное на позитивно построенные взаимные отношений дает хорошие результаты.

## TƏFƏKKÜR MƏDƏNİYYƏTİ VƏ MÜSTƏQİLLİYİ

Dos. R.Ə.Cavadov

Bu bir həqiqətdir ki, "çox bilmək", heç də "düşünməyi bacarmaq" demək deyildir. Hələ vaxtı ilə Heraklit demişdir ki, "ağlı biliklərin çoxluğu öyrətmir". Sanki bu fikri təsdiq edirmiş kimi E.D.İlenkov yazır: "Ağıl (müdriklik) özü –özlüyündə "bilik" deyil, təhsilin hafizəyə "qoyduğu" məlumatların məcmusu deyil, nə informasiya, nə də sözü –sözlə, termini – terminlə əlaqələndirən qaydalar yığınıdır. Bu biliklərlə düzgün fəaliyyət göstərmək bacarığıdır, həmin bilikləri real həyatın, obyektiv reallığın hadisə və faktları ilə əlaqələndirmək, başlıca isə müstəqil olaraq bu bilikləri artırmaq, tamamlamaq bacarığıdır – hər bir müdrik fəlsəfə ta qədimdən ağılı belə müəyyən edib". [1, s.9]

Burada iki cəhət diqqəti cəlb edir: a) “bu bilikləri real həyat hadisələri və faktları ilə əlaqələndirmək bacarığı”,b) “müstəqil olaraq bu bilikləri əldə etmək”. Hər iki cəhət təfəkkür müstəqilliyinin əsas göstəriciləridir. Buradan iki istriqamətdə nəticə çıxartmaq mümkündür.

Əvvəla, ali məktəbdə tələbələrin təlim fəaliyyətinin optimal surətdə təşkil etmək üçün təfəkkür müstəqilliyinin təşəkkülünə xüsusi diqqət yetirilməlidir. Çünki bu keyfiyyət cisim və hadisələrin mühiyyətini, onlar arasındakı qanunauyğun əlaqə və münasibətlərin açılmasında əsas rol oynayan təfəkkürün inteqral keyfiyyətidir.

Digər tərəfdən, tələbələrin təlim fəaliyyətini optimal surətdə təşkil etmək üçün onlarda müstəqil surətdə bilik əldə etmək, dərk etdiyi cisim və hadisələri bir-birilə tutuşdurmaq, onlara müxtəlif tərəflərdən yanaşmaqla bağlı yönəliş (ustanovka) yaratmaq mümkündür. Bunun üçün bir sıra zəruri şərtlərin gözlənilməsi vacibdir:

a) tələbələrə təqdim olunan elmi informasiyaların bəsitləşdirilməsinə yol verilməməli, əksinə onun problem xarakterini gücləndirməli,

b) informasiyaların dialoji formada –fikir mübadiləsi, rəy toqquşması formasında çatdırılması ön plana çəkilməlidir,

c) qarşıya çıxan problem və ya məsələnin təzadlı –ziddiyyətli cəhətlərinə, onların araşdırılmasına diqqəti artırmalı,

d) tələbəyə verilən sualların hər hansı biliyi yada salmaq, bərpa etmək, xatırlamaq istiqamətində deyil, informasiyaların seçilməsinə, qarşılaşdırlmasına, öz təfəkkür süzgəcindən keçirməyə, praktikada, real həyatda ondan necə səmərəli istifadə etmək olar istiqamətinə diqqət yetirilməlidir,

e) tələbələrin özlərinin saul verməsini, problem irəli sürməsini, bu və ya digər məsələ barədə öz fikir və mülahizələrini əsaslandırmasını stimullaşdırmaq lazımdır.

Lakin nəzərə almaq lazımdır ki, bu cəhətlər istər orta, istərsə də ali məktəblərdə gənc nəslin müəyyən bilikləri mənimsəməsini, yadda saxlamasını heç də inkar etmir Çünki, “öz –özlüyündə aydındır ki, mədəniyyət (mənimsənilmiş bililər ehtiyatı, ümumi həqiqətlər) nə qədər yüksək olarsa, ağlın özünü büruzə verməsi üçün bir o qədər böyük və geniş imkan olar. Əgər bu ehtiyatı müstəqil olaraq təkrarolunmaz situasiya ilə əlaqələndirmək qabiliyyəti (bacarığı) yolxdursa – ümumiyyətlə ağıl yoxdur, hətta, geniş bilik ehtiyatı olsa da, onun olmaması –ağılsızlıq var”.[1, s.15]

Gətirdiyimiz iqtibas bizim apardığımız tədqiqatlardan əldə etdiyimiz nəticələrlə tamamilə üst-üstə düşür.

Çox vaxt belə bir hal müşahidə olunur: məsələni, problemi həll etməyə çalışan adam mövcud bilikləri ilə düşdüyü situasiya arasında əlaqə yaradır, lakin bu əlaqə zəminində yürütdüyü mühakimə nisbətən dolayı yolla baş verir. Bu da artıq əməliyyatlar, çevirmələr, mühakimələr aparılmasına və uzun –uzadı

qaydaların tətbiq olunmasına səbəb olur. Nəticənin əldə olunması prosesi səmərəli hesab edilə bilməz. Heç şübhəsiz ki, yürüdülən mühakimənin əsaslandırılması onun sübutluluğu ilə əlaqədardır ki, bu da lazım gəldikdə şəxsiyyətin öz nöqteyi –nəzərində durmasını başqalarının məntiqindəki çatışmazlığı görməsini, müxtəlif fikirlər içərisindən ən adekvat olanını seçməsini və s. tələb edir. Yəni geniş bilik ehtiyarının olması vacib olsa da həlledici deyildir. Çünki bu halda bilik ehtiyatına münasibət, ondan yerində istifadə etmək, onu yeni şəraitə tətbiq etmək kimi mühüm məsələlər yaddan çıxarıla bilməz. "Zehni bilik ehtiyatları ilə zənginləşdirmək"faydalıdır, lakin həmin bilik ehtiyatlarına yaradıcı münasibət, onları müstəqil surətdə əldə etmək, lazım gəldikdə tətbiqini bacarmaq, fikri fəaliyyət, intellektual fəaliyyət mədəniyyətinin olmasını tələb edir. Belə bir təfəkkür mədəniyyəti fərdin ictimai təcrübəni dərindən mənimsəməsi, intellektual səviyyəsinin yüksəlməsi ilə əlaqədardır. Həm də burada çox ciddi qarşılıqlı asılılıq mövcuddur. Fərdin intellektual səviyyəsi yüksəldikcə onun ümumi təfəkkür mədəniyyəti də dəyişikliyə məruz qalır. Belə bir fikirlə razılaşmaq olar ki, "ağıl, intellekt ümumiyyətlə, yalnız bütün əvvəlki insan nəsillərinin əməyi ilə yaradılmış təfəkkür mədəniyyətinin fərdi mənimsənilməsi prosesində formalaşır.Əslində, ağıl tarixən inkişaf edən təfəkkür mənədiyyətinin təhsilin gedişində fərdin şəxsi nailiyyətinə, şəxsi malına çevrilməsindən başqa  bir şey deyildir". [1, s.21]. Burada diqqəti cəlb edən cəhətlərdən biri məhz, fərdin öz səyi sayəsində yüksək təfəkkür mədəniyyətinə sahib olmasıdır. Həm də belə bir təfəkkür mədəniyyəti fərdin öz şəxsi malına çevrilir. Bundan əlavə, həmin ideyada təfəkkür mədəniyyətinin həyat prosesində qazanılmasının zərurəti, mümkünlüyü qeyd edirlir. Bizim apardığımız eksperimentlərdən əldə edilən ən mühüm nəticələrdən biri tələbələrdə əlverişli şəraitdə təfəkkür müstəqiliyinin müəyyən səviyyəyə qaldırılmasının mümkünlüyüdür.Təbii ki, burada "təfəkkür orqanının yütkinliyi" də az rol oynamır. Yəni xarici və daxili təsirlərin köməyi ilə tələbələrdə təfəkkür müstəqilliyini inkişaf etdirməyin vacibliyi qənaətidir. Nəzərdən qaçırmaq olmaz ki, "gənclikdən doqmatik təfəkkürə, mücərrəd formullara hədsiz "ehtiram"göstərməyə öyrədilmiş adam, həmişə həyatla –onun üçün çox xoşagəlməz olan –toqquşmaya düçar olacaqdır. Elm onun mücərrəd formulları və qaydaları ilə onun üçün kor-koranə pərəstiş predmeti, həyat isə - mücərrəd həqiqətlə, bütöv həyatın konkretliyi arasındakı ziddiyəti həll etmək zərurəti qarşısında qoyulmuş isterik üçün başdan başa bəhanə olacaqdır. O, buna lap əvəldən öyrədilmədiyindən, yəqin ki, özünü itirəcək və ora-bura vurnuxacaqdır". [1, s.59]

Bəs yetişməkdə olan nəsli belə bir vəziyyətdə qoymamaq üçün nə etmək lazımdır? Əlbəttə, bu sual daha çox ali məktəbdə təlim-tərbiyə prosesində tələbə gənclikdə təfəkkür müstəqilliyinin inkişaf etdirilməsinə müsbət təsir edən hansı yol və vasitələrdən istifadə edilməsilə bağlıdır. Belə mühüm yollardan biri tədris prosesində tələbələrin müstəqil işinə, onun

təşkilinə, planlaşdırılmasına və həmin işlərə müəllim tərəfindən edilən kömək və nəzarətin məzmun və mahiyyətinə xüsusi diqqət yetirməkdir.

Tələbələrin müstəqil işinə pedaqoji rəhbərlik müxtəlif yollarla həyata keçirilir. Bir sıra ölkələrdə bu prosesdə “tyutor” sistemi böyük rol oynayır. Tyutor sisteminin, yəni müəllimin müntəzəm fərdi –qrup məşğələlərinin mahiyyəti ondan ibarətdir ki, o himayəsində olan bir neçə tələbə ilə universitetdə təhsil aldıqları bütün vaxt ərzində müntəzəm surətdə məşğul olur. Həm də tyutorun himayəsində sayı 2-dən 10-a və ya daha artıq olan qrup ola bilər, lakin ideal hal tyutorun bir tələbə ilə məşğul olması hesab edilir.

Tyutor əslində müəllim deyil və o tələbələrin akademik və elmi sahələrdəki rəhbəri, tərbiyəçi hamisi kimi müxtəlif fənn müəllimləri ilə onlar arasında əlaqələndirici rolunu oynayır. Tyutorun təlim –tərbiyə prosesindəki rolunu qiymətləndirərək qeyd etməliyik ki, tələbə üçün yaxşı hamiçinin olması yaxşı mühazirəçinin dərsinə getməkdən daha vacibdir. Çünki lazım olan bilikləri elmi ədəbiyyatdan da almaq olar, amma düşünməyi və işi təşkil etməyi öyrədən adamla ünsiyyətdə olmağı heç nə ilə əvəz etmək mümkün deyil.

Tyutor kiçik qruplarla işlədiyi halda müsbət nəticə əldə etmək mümkündür ki, bu da tyutor sisteminin bahalılığı baxımından əlverişli deyil. Buna baxmayaraq onun müsbət didaktik xüsusiyyətlərinə görə öyrənilməsi diqqətəlayiqdir. Bir sıra İngiltərə universitetlərində bu sistemdən tərbiyə vasitəsi kimi istifadə olunur. Tyutor hamiliyindəki tələbələrlə öz kabinetində, auditoriyasında, idman meydançasında, dərnəkdə, ədəbiyyat cəmiyyətində və s. yerlərdə daimi ünsiyyətdə olaraq onların intellektual, fiziki və əxlaqi keyfiyyətlərinin inkişafına böyük təsir göstərir.

Qeyd etmək lazımdır ki, bizdə tyutorlar bir qədər fərqli istiqamətdə fəaliyyət göstərirlər və onların məhz məsləhətçi – müəllim rolunda çıxış etmək imkanları da yoxdur. Həmin funksiyanın öhdəsindən gələ bilmələri üçün tyutorların özləri də elmi – nəzəri və praktik səviyyədə müəyyən tələblərə cavab verməlidirlər.

Bir sıra xarici ölkə universitetləri və ali məktəblərində adətən mühazirədə elmin çox mürəkkəb problemləri, yaxud dərslikdə olmayan hissələr əhatə edilir. Qalan bütün məsələlər tələbələr tərəfindən müstəqil olaraq öyrənilir. Mühazirə fənnə maraq oyatmalı, tələbələri müstəqil işə yönəltməli, onların bu sahədəki fəallığını artırmalıdır. Təsadüfi deyildir ki, bir sıra inkişaf etmiş ölkələrin ali məktəblərində tələbələrin müstəqil işinə ümumi tədris vaxtının 60% -dən artıq hissəsi həsr edilir. Müəllim qabaqcadan tələbələrə xəbər verir ki, məhz hansı material, nə həcmdə və nə vaxta qədər işlənilib hazırlanmalıdır. Tələbənin idrak fəallığını artıran mühazirələrin yüksək keyfiyyəti bir sıra amillərdən asılıdır. Mühazirə materialının yaxşı mənimsənilməsini şərtləndirən mühüm amillərdən biri mühazirələrlə tələbələrin müstəqil işinin üzvi surətdə əlaqələndirilməsi, koordinasiyasıdır.

Praktik məşğələlərin məqsədi mühazirə materiallarını möhkəmləndirmək və tələbələrlə problemi kollektiv həll etmək qabiliyyəti, tənqidi təfəkkür və müstəqil işləmək bacarığı və vərdişləri tərbiyə etməkdir.

Təəssüf ki, bizim ali məktəb praktikamızda xüsusən də problemin kollektiv həlli məsələsinə kifayət qədər fikir verilmir. Bu, bir tərəfdən ixtisasa yönəltmək baxımından, digər tərəfdən, isə elmi –tədqiqat fəaliyyətini canlandırmaq, o sahədə tələbələrdə lazımı bacarıq və vərdişlər yaratmaq üçün vacibdir. Seminarların keçirilməsi forması müxtəlif ola bilər. Yaxşı olardı ki, belə seminar məşğələlərində tələbələr sayca çox az olsun (yəni kiçik qruplarla). Həm də bu zaman tələbələrin hansı problemlə bağlı ədəbiyyatı müstəqil seçməsinə, referatlar, məruzələr hazırlayaraq ümumin müzakirəsinə verməsinə diqqət artırılsın. Həm də yaxşı olardı ki, seminarları diskusiya şəklində aparılaydı. Onun məqsədi tələbələrdə müstəqil intensiv əqli fəaliyyət bacarıq və vərdişlərini, informasiyanı qiymətləndirmək, tərkibləşdirmək və tətbiq etmək, gələcək peşə fəaliyyətini hesaba almaqla problemi müzakirə etmək və optimal həllini tapmaq qabiliyyəti formalaşdırmaqdan ibarətdir. Təlim hər şeydən əvvəl, tələbələrin özlərinin səyinin nəticəsi olmalıdır ki, biliklərin səmərəli qazanılmasına, həmçinin də şəxsiyyətdə arzu edilən keyfiyyətlərin formalaşmasına gətirib çıxarsın. Professional hazırlığın yüksək səviyyəsini təmin etməklə yanaşı, təlim prosesi şəxsiyyətin inteqral keyfiyyətlərinin formalaşmasını, xüsusən də müstəqillliyin və təfəkkür mədəniyyətinin formalaşmasını təmin etməlidir.

Təlim prosesində müstəqil işin səmərəli təşkili eyni zamanda tələbələrin əqli keyfiyyətlərinin ümumən intellektual qabiliyyətlərinin inkişafı üçün mühüm şərtdir. Bu cəhətdən bütün təhsil illərində fərdi-qrup məşğələsi aparılması çox faydalıdır.

Tələbələrdə təfəkkür müstəqilliyini tərbiyə etmək üçün ali məktəb dövründə xüsusi istedadlı tələbələri bir qrupa yığıb onlarla daima fərdi məşğul olmaq üçün yüksək istedada malik professor və müəllimlərin seçilməsi və bu işə cəlb edilməsi də çox əhəmiyyətlidir. Belə tələbələri məcburi kurslarla yükləmək yox, onların istedadının maksimal inkişafına çalışmaq zəruridir. Bu, bir tərəfədn də təlimin fərdiləşdirilməsinə diqqəti artırmağı tələb edir. Bakı Dövlət Universitetində son zamanlar bu istiqamətdə müəyyən işlər aparılır və hesab edirik onlar öz bəhrəsini verəcəkdir. Təlim prosesini fərdiləşdirən vasitə kimi, qarşılıqlı təlimi qəbul etmək olar. Yuxarıda qeyd edildiyi kimi, bu, qarşılıqlı təlim iştirakçılarının tərəflərindən hər biri üçün istər ümumən təfəkkürün, istər sə də müstəqilliyin inkişafı baxımından olduqca faydalıdır.

Təfəkkür müstəqilliyinin inkişafı v ətərbiyəsi üçün müstəqil işlərin başqa növləri ilə yanaşı, qrup halında müstəqil iş forması da mühüm əhəmiyyət kəsb edir. Bu iş formasından 3-5 nəfərlik qruplarda istifadə etmək olar. Burada həm kollektiv surətdə məsələ həll etmək, həm də problemlə bağlı fərdi müstəqil iş zamanı qazanılmış nöqteyi –nəzərlərə görə müzakirə keçirmək olar. Unutmaq

olmaz ki, müasir təlim sistemi üçün tələbələrin fəallaşdırılmasının yeni forma və metodlarının axtarılması əsas məsələdir.

Tələbələrin aktiv idrak, yaxud da fikri fəaliyyəti isə təfəkkürün müstəqilliyini stimullaşdırmadan mümkün deyildir. Məlum olduğu kimi müstəqillik müxtəlif həyat situasiyalarının, xüsusən də məqsədyönlü təlim prosesinin təsiri altında formalaşır. Müasir pedaqogika belə bir mövqedən çıxış edir ki, müəllim təlim prosesini təşkil edərək və buna müvafiq surətdə onu idarə etməklə, qarşıya qoyulmuş məqsədə, o cümlədən də , öz yetirmələrində müstəqilliyin səviyyəsinə əsaslı təsir göstərə bilər.

Gənclərin müstəqilliyinin inkişafının iki yolu vardır:

a) təfəkkür müstəqilliyinin və müstəqil düşünmək və fəaliyyət göstərməyin ilkin zəruri şərtlərini xüsusi kurslarda formalaşdırmaq lazımdır;

b) bu keyfiyyəti təlim məşğələlərinin gedişində fasiləsirz olaraq inkişaf etdirmək lazımdır.

Burada iki mövqe aydın görünür: təlim məşğələlərinin gedişində bir sıra xarakterik bacarıqlar formalaşdırmaq, təlim –tərbiyə prosesinin inteqral hissəsi kimi şərh olunan təsirlər sistemi yaratmaq.

Təfəkkür müstəqilliyi təlimini ümumi tərəfindən qəbul edilmiş vacib məqsədlərindən biridir və ona nail olmaq üçün, səmərəli strukturada təşkil olunmuş və adi təlim-tərbiyə prosesi iə uyğunlaşan bir sıra tədbirlər həyata keçirmək lazımdır. Yəni, hər hansı səviyyədə təlim müstəqilliyə öyrədən elementlərə malik olmalıdır. Məlumdur ki, burada ən başlıca yeri müəllimin optimal professional fəaliyyəti ilə yanaşı, tələbələrin təlim motivləri və onların həqiqi istəyi, müstəqilliyi bir sərvət kimi qiymətləndirməsidir.

Ədəbiyyat:

1.Иленков Э.В. Учитесь мыслить смолоду. М,:Знание, 1977, 196 с.

2.Ростовецкая Л.А. Самостоятельность личности в познании и общении. Ростов-на –Дону, 1975, 318 с.

3.Стоунс С.Психопедагогика: психологическоя теория и практика обучения. М.Прогресс, 1984 , 567 с.

Резюме

В статье анализируются проблемы культуры и самостоятельности мышления. Обосновывается необходимость самостоятельности мышления для формирования культуры мышления. Изучаются пути и средства развития самостоятельности мышления у студентов.

Summary

Here are being analysed the problems of culture and the independence of thinking and being substantiated the necessity of the independence of thinking for the formation of the culture of thinking. There being learned the ways and means of the development of independence of students’ thinking.

# ŞAGİRDLƏRİN RİYAZİYYAT TƏLİMİNƏ MARAĞIN ARTIRILMASINDA FƏNLƏRARASI ƏLAQƏLƏRİN ROLU

Əli Sadiq oğlu Sadıqov,
AMİ-nin Ağcabədi filialı müəllim

*Açar sözlər:* Şagirdlər, riyaziyyat, təlim, fənlərarası əlaqə, maragın artırılması

*Ключевые слова:* учащиеся, математика, обучение, межпредметная связь, усиление внимания

*Keywords:* Puplis, mathematics, training, intersubject communication, attention strengthening.

Riyaziyyatın tədrisində ən aktual məsələlərdən biri tədris materialının ümumiləşdirilməsi, verilmiş biliklərin sistemləşdirilməsi, qazanılmış biliklərin nəzəri və təcrübi tətbiqinə nail olunmasıdır.

Şagirdlərin biliklərini tətbiq etmək bacarığının formalaşması müəllimin istifadə etdiyi metodlardan çox asılıdır. Müasir təlim metodları şagirdlərin riyaziyyat elminə marağının formalaşdırılmasında geniş imkanlara malikdir. Fəal təlim, şagirdlərdə müstəqilliyi inkişaf etdirir, elmi dünyagörüşünü formalaşdırır, məntiqi nəticə çıxarmağa şərait yaradır. Bu baxımdan "Yeni pedaqoji təfəkkürün formalaşması" tam aktuallığı ilə meydana çıxmış və təlimdə göründüyü kimi yeni forma və metodların yaranmasının önəmli etmişdir. Bu günkü məktəbin başlıca vəzifəsi şagirdlərin yaradıcı təfəkkürünün inkişafı kimi köklü bir problemi həll etməklə, onu bir şəxsiyyət kimi formalaşmasını təmin etməkdir. Bu məqsədlə tədris prosesinin optimallaşdırılması və inteqrasiyası şagirdlərin təlimə marağının müəyyən bir tərkib hissəsini təşkil edir. Riyazi qayda, qanun və qanunauyğunluqları ayrı-ayrı fənlərin tədrisi prosesində şagirdlərə öyrətməklə yanaşı, biliklərin diferensial formada tədrisi, fənlərin qarşılıqlı əlaqəsi şəklində öyrədilməsi daha yığcam və səmərəli olardı. Bunun üçün inteqrativ formada qurulan dərslər şagirdlərin idrak fəaliyyətinin formalaşmasında onların biliklərə marağın yaranmasında əsas rol oynayır. Fənlərarası əlaqənin həyata keçirilməsinin formaları, metodları, yolları haqqında nəzəri ədəbiyyat və məktəb təcrübəsi zəngindir. Lakin yeni axtarşlara da çox ehtiyac var. Fənlərarası əlaqənin təşkili zamanı şagirdlərin dünyagörüşü genişlənir, təlimə marağı artır, fənlərdən öyrənilmiş anlayışların məzmunu və həcmi dərinləşir, təlim zamanı müxtəlif fənlərdən qazanılmış biliklərə kompleks yanaşılır, ümumtəhsil fənlərindən öyrənilən biliklərin əhəmiyyəti aydın dərk olunur. Riyaziyyat təlimində fənlərarası əlqədən istifadənin imkanlarının tətbiqi məqsədilə aşağıdakı məsələləri nəzərdən keçirək:

Bu məqsədlə məsələyə iki aspektdən yanaşmaq olar:

1. Riyaziyyat fənninin digər fənlərə inteqrasiyası baxımından (müxtəlif fənlər arasında əlaqə yaratmaq).
2. Fənnin mövzusunun inteqrasiyası baxımından (bir mövzu ətrafında müxtəlif fənlərin birləşdirilməsi).

Bu zaman təlimin differensiyası və inteqrasiyası dialektik vəhdət halında özünü göstərir. Riyaziyyat elminin digər elmlərlə qarşılıqlı əlaqədə tədrisi çox əhəmiyyətlidir. Çünki, riyaziyyat elə bir elmdir ki, o öz çərçivəsinə sığınıb qala bilməz, digər elmlərin bütün qolları ilə qarşılıqlı surətdə bir-birindən faydalanmalıdır. Bir sözlə fənlər biri digərini tamamlamalıdır. Riyaziyyat bir sıra elmlərlə qarşılıqlı əlaqəyə girir ki, bunların arasında fizika, biologiya, kimya, coğrafiya, astronomiya, tarix və başqaları mühüm yer tutur. Ona görə də müəllim hər bir dərsə hazırlaşarkən öyrədəcəyi materiala aid şagirdlərə məlum olan və məlum olmayan faktları müəyyənləşdirməyi bacarmalıdır. Qazanılmış bilikləri sistemləşdirmək və ümumiləşdirmək nəticəsində şagirdlərin biliklərini vahid ideya ətrafında cəmləşdirir. Bu məqsədlə fənlərin proqramları müqayisəli şəkildə nəzərdən keçirilir və fənlərarası əlaqə yaradılan mövzular təyin edilir. Buna uyğun əlaqəli mövzular cədvəl halına salınır. Məsələn, V-VI siniflərdə təbiətşünaslıq, musiqi, informatika, tarix və s. VII-XI siniflərdə isə fizika, kimya, coğrafiya, astronomiya fənləri ilə əlaqə yaradılması mümkün olan mövzuları aşkar etməklə dərsin müxtəlif mərhələlərində şagirdlər qarşısında problem irəli sürülür. Həmin problemə digər fənlərdən aldıqları biliklər əsasında mühakimələr apararaq, ümumi nəticəyə gəlməklə, mövzunun motivləşməsi üçün zərurət yaranır.

Bu əlaqənin yaradılması bir neçə məqsəd üzərində qurula bilər. Məsələn: a) Mövzunu elmi şəkildə şagirdlərə dərindən və şürlu öyrətmək; b) Mövzunun öyrədilməsində şagirdlərdə müstəqil mühakimə yürütmək, ümumiləşdirmə və nəticə çıxarmaq bacarıqlarını inkişaf etdirməklə; c) Şagirdlərin dünyagörüşünü inkişaf etdirməklə, onlar həyat üçün mübariz vətəndaşlar yetişdirməklə; ç) Şagirdlərdə həyata maraq tərbiyə etmək, onları vətənpərvərlik tərbiyəsinə təsir göstərməklə.

Riyaziyyatın fizika ilə əlaqəsi. Şagirdlərin bilik bacarıq və vərdişlərini inkişaf etdirmək üçün riyaziyyatın fizika ilə əlaqəsi mühüm əhəmiyyət kəsb edir. V-XI siniflərin riyaziyyat kursunda həll olunan məsələlərin əksəriyyəti fiziki düsturlar əsasında həll olunur.

I. Riyaziyyatda hərəkətə aid məsələlər.

Şagirdlər bu tipdə məsələlər həll etməklə sürət, zaman və məsafə arasındakı asılılığı müəyyən edirlər, bunun da riyaziyyat və fizikada çox böyük əhəmiyyəti vardır. Bundan başqa belə məsələlər şagirdlərin fəza təsəvvürlərinin inkişafına kömək edir. Məlum olduğu kimi hərəkət məsələlərində 3 kəmiyyət iştirak etdiyinə və bunlardan hər biri məsələdə axtarılan kəmiyyət ola bildiyinə görə hərəkət məsələləri 3 növ olur:

Birincidən verilən zamana sürətə görə gedilən yol, ikincidə verilən yol və sürətə görə zaman, üçüncüdə isə verilən yol ilə zamana görə sürət axtarılır.

"Qarşı-qarşıya hərəkət", "Hərəkətin eyni zamanda müxtəlif zamanda başlanması", "Sürət", "Yol" və s. anlayışları konkret misallarla aydınlaşdıraq.

Məsələ. A və B şəhərlərindən eyni zamanda iki avtomobil qarşı-qarşıya yola düşdü. A şəhərindən çıxan avtomobil saatda 35 km, B şəhərindən çıxan avtomobil saatda 40 km yol gedirdi. Onlar bir saatdan sonra qarşılaşdılar. Şəhərlər arasındakı məsafəni tapın.

Sürəti tapmağa aid məsələlər: “Aralarındakı məsafə 610,2 km olan iki şəhərdən eyni zamanda qarşı-qarşıya iki avtomobil yola düşdü. Birinci avtomobilin sürəti ikinicinin sürətindən 15 km/saat çox idi. 4 saatdan sonra avtomobillər arasındakı məsafə 70,2 km oldu. Hər avtomobilin sürətini tapın.

Həndəsə məsələlərinin həllində cəbri tənliklərdən istifadə mühüm əhəmiyyət kəsb edir. Məsələ həlli prosesində vaxt itkisinin qarşısını alır və riyazi biliklərin şagirdlər tərəfindən təkrar edilməsinə şərait yaradır.

Məsələ: Qabarıq *ABCD* dördbucaqlısında *A* və *C* tərəflərindəki bucaqlar $90^0$ *BC=CD*, $AB+AD=8$-dir. ABCD dördbucaqlısının sahəsini tapın.

Həlli: $S_{BCD}=\dfrac{x^2}{2}$. $AB=y$ olsun onda $AD=8-y$ və

$$(8-y)^2+y^2=2x^2$$

$$64-16y+2y^2=2x^2$$

$$y^2-8y+8-x^2=0$$

$$y(8-y)=8-x^2$$

$$S_{ABD}=\frac{y(8-y)}{2}=\frac{8-x^2}{2} \quad \text{onda} \quad S_{ABCD}=S_{ABD}+S_{BCD}=\frac{8-x^2}{2}+\frac{x^2}{2}=4$$

olar. Cavab: 4

Fənlərarası əlaqə ilə yanaşı fəndaxili əlaqə də təlim keyfiyyətinin yüksəlməsinə səbəb olur: X-sinifdə üstlü tənliklərin həlli prosesində triqonometrik funksiyalardan istifadə şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirir.

Misal: $\dfrac{4^x}{3^x-1}=2$ tənliyinin həllini nəzərdən keçirək:

Həlli: Verilmiş tənlik üzərində aşağıdakı çevirmələri aparaq:

$$\frac{4^x}{3^x-1}=2 \Leftrightarrow 4^x=2\cdot 3^x-2 \Leftrightarrow 1=2\cdot\left(\frac{3}{4}\right)^x-\frac{2}{4^x} \Leftrightarrow \frac{1}{2}=\left(\frac{3}{4}\right)^x-\left(\frac{1}{4}\right)^x \Leftrightarrow \left(\frac{\sqrt{3}}{2}\right)^{2x}-\left(\frac{1}{2}\right)^{2x}=\frac{1}{2}$$

$$\Leftrightarrow (\cos 30^0)^{2x}-(\sin 30^0)^{2x}=\cos(2\cdot 30^0).$$

Göründüyü kimi x=1 olarsa, $\cos^2 30^0-\sin^2 30^0=\cos 60^0$ və x=2 olarsa, $\cos^4 30^0-\sin^4 30^0=(\cos^2 30^0-\sin^2 30^0)(\cos^2 30^0+\sin^2 30^0)=\cos^2 30^0-\sin^2 30^0=\cos 60^0$ olur.

Deməli, tənliyin həlləri x=1 və x=2 olur. Cavab: x=1; x=2.

Yuxarıda qeyd edildiyi kimi riyaziyyat fənni digər fənlərlə yanaşı coğrafiya fənni ilə də sıx bağlıdır. Riyazi tənliklərin həlli vasitəsilə Azərbaycan coğrafiyasının incə məqamlarına toxunmaq olur. Məsələn, sadə loqarifmik tənliklərin köməyi ilə bütöv Azərbaycan ərazisi, işğal olunmuş və işğaldan sonra qalan ərazi sahələri öz əksini tapır. Bu mərhələdə xüsusi işlənmiş Azərbaycan xəritəsindən istifadə olunur.

Misallar: $\log_{69,28}(86,6 - x) = 1$

$\log_{86,6}(69,28 + x) = 1$

$\log_{86,6}(x + 17,32) = 1$

$\log_{69,28}(x - 17,32) = 1$

$\log_{17,32}(86,6 - x) = 1$

VI sinifdə isə faiz və tənasüb anlayışının tədrisi prosesində Azərbaycanın kənd təsərüffatının müəyyən sahələri, biologiya və kimya fənninə inteqrasiya şagirdlərin hər tərəfli inkişafını təmin edir.

Məsələ 1. 10 milyon hektar torpaq sahəsini becərmək üçün təqribən 350 min at gücü lazımdırsa, 157,2 min hektar torpaq sahəsini becərmək üçün nə qədər at gücü tələb olunur?

Məsələ 2. 160 q qarışıqda 60%, 240 q qarışıqda isə 40% duz var. Onları bir qaba tökdükdə alınan qarışıqda neçə faiz duz olar?

Məsələ 3. 150 q qarışıqda 30% spirt, 250 q qarışıqda isə 70% spirt var. Onları bir qaba tökdükdə alınan qarışıqda neçə faiz spirt olar?

Məsələ 4. 3 dəqiqə müddətində 300 litr oksigen əmələ gətirən bitkini yarpaq sahəsi neçə $m^2$ bərabər olduğunu hesablayın.

Həlli: İnteqrasiya xarakterli məsələnin həlli üçün ümumi bilogiyadan şagirdlərin köməyi ilə fotosintezin yekun tənliyini tərtib edilir. Kimya fənnindən məlumdur ki, bütün qazların bir molekulunun həcmi 22,4 litrə bərabərdir. Qlikozanın nisbi molekul kütləsi 180q-dır. aşağıdakı kimi tənasüb quraq:

$6 \cdot 22,4l - 180q$ olarsa;

300*l*-*x* q olar. Onda $\frac{6 \cdot 22,4}{300} = \frac{180}{x} \Leftrightarrow x = \frac{300 \cdot 180}{134,4} \Leftrightarrow x = 402q$

Məsələnin məzmununa görə 402q 3 dəqiqə müddətində sintez olunan üzvü maddədir. Sintez olunmuş maddəni 1 saat üçün hesablayaq:

3 dəq.---402 q

60dəq.---*x* q olar. Onda $\frac{3}{60} = \frac{402}{x} \Leftrightarrow x = \frac{60 \cdot 402}{3} \Leftrightarrow x = 80,4(\text{q})$. Cavab: 80,4 q.

Fənlərarası əlaqələrin köməyi ilə göründüyü kimi fizika, kimya, biologiya və digər elmlərin ideyalarını mənimsəyirlər. Nəticədə biliklərin elmi sistemi

yaranır ki, bu da şüurluluğun yüksək səviyyəsi, sürətlə bələdləşmə qabiliyyəti möhkəm şəkildə səciyyələnir.

Ədəbiyyat


1. Mərdanov M.C., Yaqubov M.H. və b. V-XI siniflər üçün Riyaziyyat dərslikləri. Bakı, 2002-2010.
2. Mərdanov M.C., Mirzəyev S.S. və b. Həndəsə VII-XI siniflər üçün dərsliklər. Bakı, 2003-2007.
3. Adıgözəlov A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. Bakı, 2009
4. Adıgözəlov A.S., Əliyeva T.M. Riyaziyyatın tədrisində fənlər arası əlaqələrin tətbiqi. Bakı, 1993.
5. Ağayev B.Ə., İbrahimov Ə.Y., Kreymer A.Y. Səkkizillik məktəbdə riyaziyyatın tədrisi metodikası. I-II h., Bakı, 1972, 1973.
6. Tamoyev Ç.İ., Tamoyev Q.İ. Cəbr və elementar funksiyaların analizi. Bakı, 1988.
7. Məmmədov Ə.M., Şükürov R.Y. Elementar riyaziyyat. Bakı, 2010.
8. Махмутов М.И. Современный урок: Вопросы теории. М., 1981
9. Монахов В.М. Что такое новая информационная техналогия обучения? //Математике в шлоле, 1990, №2, с.47
10. Дидактика средной школы /Под ред. М.Н.Скаткина. М., 1982


Роль межпредметных связей в формировании интереса учеников к изучению математики


Али Садыг оглу Садыгов, преподаватель
Института учителей, Агджабеды



Одной из актуальных проблем в преподавании математики является обобщение материалов, налаживание ассоциаций на межпредметной основе. Применение на практике знаний по математике способствует формированию соответствующих навыков у учащихся. Современные методы обучения помогают развитию самостоятельности и логического мышления у учащихся.


Role of intersubject communications in formation of interest of pupils to mathematics studying


Ali Sadyg Sadygov, the teacher
Institute of teachers, Agdzhabedy



One of actual problems in mathematics teaching is generalization of materials, adjustment of associations on an intersubject basis. Application in practice of knowledge on the mathematician promotes formation of corresponding skills at pupils. Modern methods of training help development of independence and logic thinking in pupils.

# STRESS (HADS) VƏ İZTİRABIN XƏSTƏXANALIQ MİQYASININ ETİBARLI VƏ HƏQİQİLİYİ: (İRANIN STRESS VƏ İZTİRABLI XƏSTƏLƏRİ)

İdris Cavadnia
BDU-nun II kurs magistrantı

*Açar sözlər:* Etibarlıq, həqiqilik, iztirab, stress, xəstəxanalıq miqyası
*Ключевые слови:* надежность, реальность, тревога, стресс, больничный масштаб.
*Key words:* reliability, veracity, agony, stress, hospital scale.

Giriş:

Klinik işin həyata keçirilməsi və tədqiqat üçün bir sıra vasitələrə ehtiyac vardır ki, psixoterapevtik məsələlərin qiymətləndirilməsi və tədqiqi üçün lazım olan etibar və həqiqliyə malik olsun. Bu isə iş prosesinin dəqiq və düzgün nəticələrə varması deməkdir. Klinik iş üçün münasib ölçmə vasitələri arasından stress və iztirabın xəstəxanalıq miqyasının (Hospital Anxiety and Depression Scale) adını çəkmək olar. Bu vasitələr xəstəxananın ilkin xidmətlərinin müxtəlif hissələrində geniş tətbiq edilə və bu əlamətlər ilə xəstəxanaya müraciət edən şəxslərin psixi istiqamətlərini müəyyənləşdirə bilər. Misal üçün Panika adlanan pozuntu insanda əvvəlcədən müəyyən edilməyən ürək döyüntüsü və ya ürəyin ağrımasına gətirib çıxara bilər. Ürəklərində problemi olmayan və lakin sinələrinin ağrımasından şikayətlənən insanlar üzərində bu araşdırma işi həyata keçiriləndən sonra məlum oldu ki, onların stress qiyməti 8- dən yüksəkdir. Adətən bu cür insanlar həmin əlamətlərə görə həkimlərə tez- tez müracitə etməlli olur və bu isə öz növbəsində onların xərclərinin artmasına gətirib çıxarır. HADS miqyası ilk dəfə Ziqmund və Sneyt vasitəsi ilə ümumi xəstəxanalarda müalicə üçün müraciət edən qeyri yataq xəstələrinin psioxterapevtik pozuntularının ifrat forması tanıtdırıldı. Bu vasitələr bərabər formada qeyri- yataq xəstələrində stressi ölçə bilir. İndiyə qədər müxtəlif ölkələrin bir çox xəstəxanalarında HADS- ın etibarlıq və həqiqiliyi barəsində araşdırmalar aparılmışdır. Hards bildirdi ki, HADS vasitələri əzələ- sümük pozuntuları olan xəstələrdə stress və iztirabın kəşfi üçündə ifrat bir vasitə hesab edilsin. Lopez Alvenga da Mekiskalı kök xəstələr üzərində bu sınağı apardıqdan sonra bu klinik cəmiyyətdə stress və iztirab əlamətlərinin sınağında bu miqyası göstərdilər. Herrero Ispaniyada yaşlı olan qeyri yataq xəstələrdə stress və iztirabın xəstəxanalıq miqyasının etibar və həqiqiliyini möhkəm tibbi travma nəticəsi ilə (əsəblərin cərrahlıq bölmələri, nevroloji kardiologiya) əldə etdi. Muntəzəri davamlı olaraq xəstəxanaya müraciət edən xərçəng xətsələri üzərində miqyasın fasrca olan reseptini həyata keçirtdi. Kuijperin apardığı araşdırma işinə ürək xəstəliyi olmayan və sinələri ağrıyan xəstələr üzərində HADS miqyasının etibarlığı yoxlanıldı. Nəticələr göstərdi ki, bu miqyas yəni HADS

münasib həssasçılıq, etibarlıq və həqiqilik ilə ifrata varan vasitədir. Klinik tətbiqdən əlavə bu vasitələr diaqnoz hissədən başqası ilə istifadə edilən araşdırma işlərində istifadə edilə bilər. İndiyə qədər İranda sağlam qrup ilə müqayisədə stressli şəxslərdə bu vasitələrin etibarlığını ölçmək üçün pərakəndə formada araşdırmalarla həyata keçirildi. Bu araşdırma işində mötəbər metodologiyadan istifadə etməklə belə bir mühüm nəticəyə varmaq istəyirik ki, bizim vastələri kəsmə nöqtələri, daxili harmoniya, etibarlıq və həqiqilik əmsalına yiyələnməkdə kömək edə bilsin.

*Məqsəd:* İran psixoloq və psixoterapevtlərin araşdırma cəmiyyəti etibarlı və həqiqi ölçmə elementlərinə ehtiyacları vardır. Bu araşdırma işi anormal cəmiyyət ilə müqayisədə stressli və pərişan insanlarda HADS anketlərinin etibarlıq və normallaşdırılmasından ibarətdir.

"Ruzbe" xəstəxanasına müraciət edən 261 nəfər stressli və eyni sayda cinsiyyət baxımından bənzər olan sağlam insan bu araşdırma işində iştirak etdi. Etibarlıq dərəcəsini əldə etmək üçün xəstələr klinik müsahibədən sonra Varsi. D. S. M. mündəricatı əsasında onların stressinin dörd miqdarı müashibə aparan (psixoloq və psixoterapevt) vasitəsi ilə bir miqyas (10) əsasında kəmiyyət təsnifatı həyata keçirildi. Qiymətləndirənlər miqyaslardan əldə edilən qiymətlərdən xəbərsiz idilər. Habelə obyektiv bir meyarı əldə etmək və onun etibarlıq qiymətləndirməsində dəxaləti iki BAI və BDI sınağından istifadə edildi. Bundan əlavə sınaq və təkrar sınağın etibarlığını ölçmək üçün klinik nümunənin 10% - i üç gündən sonra təsadüfi olaraq seçildilər və yenidən qiymətləndirdilər.

Xəstəxanya müraciət edən 261 nəfər stressli və eyni sayda cinsiyyət baxımından eyni olan sağlam insan bu araşdırma işində iştirak etdi. Hər bir qrupda 123 (47/1%) kişi və 138 (52/9%) qadın iştirak edidi. Sınağın necə keçirilməsi üçün sınaq aparanlar ilk öncə təlimat verildi. Təlimatda sınaqda işirak edən şəxslə necə davranmaq, əməkdaşlıq üçün onda meyl yaratmaq, repondentin düzgün cavab verməsi və digər məsələlərə toxundu. Təlimatın daha effektli alınması üçün bir sıra texniki vasitələrdən də istifadə edildi. Yekun olaraq təlimat iki saatdan ibarət olan iki iclasda həyata keçirildi. Araşdırmanın icra amilləri Tehranın Ruzbə xəstəxanasının qeyri - yataq xəstələri bölməsinə müraciət etməklə psixoloq və psixoterapevtin göstərdikləri xəstələri bu araşdırma işində iştirak etməyə dəvət etdik. 261 stressli xəstə psixoloq və psixoterapevt tərəfindən klinik müsahibədən sonra nəzərdə tutulan sınaqları təkmilləşdirdilər. Etibarlıq dərəcəsini əldə etmək üçün xəstələr klinik müsahibədən sonra Varsi. D. S. M. Mündəricatı əsasında onların stressinin dörd miqdarı müashibə aparan (psixoloq və psixoterapevt) vasitəsi ilə bir miqyas (10) əsasında kəmiyyət təsnifatı həyata keçirildi. Bu qiymətlər və anketlərdən əldə edilən qiymətlər arasında bağlılıq əmsalı sınaqların etibarlıq əmsalını göstərdi. Habelə sınaq və təkrar sınağın etibarlığını ölçmək üçün klinik nümunənin 10% - i üç gündən sonra təsadüfi olaraq seçildilər və yenidən

qiymətləndirdilər. Ölçmə elementləri stress və iztirabın xəstəxanalıq (HADS) anketindən ibarət idi. HADS, ötən həftə ərzində xəstələrdə planlaşdırılan stress və iztirab dərəcəsindən xəbər verən 14 meyarlı özü məlumat verən bir vasitədir. Onun icra edilmə müddəti beş dəqiqədir və orada yoxlanışdan keçən insan 16 yaşdan başlayaraq qocalıq dövrünə qədər olan mərhələləri əhatə edir. Bu vasitələr yeddi hissəli stress alt miqyası və yeddi hissəli iztirablı alt miqyasdır ki, onların hər ikisində müsbət və yalan dioqnozların ehtimalını azaltmaq üçün cismi əlamətləri ixtisara salmışlar. HADS anketinin stress miqyasının ən az miqdarı xoş halətin olmamasının qiymətləndirilməsi üzərində təmərküzşləşmişdir. Beləliklə HADS anketi cismi xəstəliyi olan xəstələrdə stress və iztirab əlamətləri üçün müxtəsər və faydalı radikal vasitəni təqdim edir. Xülasə olaraq HADS miqyası ümumi xəstələrın qeyri yataq xəstələrində stress və iztirabı qiymətləndirmək və həyəcan pozuntusunun şiddətini müəyyən etmək üçün etibarlı bir vasitə hesab edilir. Sigmond Snaith təklif edir ki, ola bilsin ki bu miqyas digər qruplar üçün də mötəbər olsun, amma buna baxmayaraq bir qısa müsahibə yolu ilə təkmilləşdirilməsinə ehtiyac duyulur. Sınağın hər bir hissəsi 0-3 miqyası üzərində qiymətləndirilir. Buna görə də HADS anketinin stress və iztirablı alt miqyasları 0-21 arasında dəyişir. Hər iki alt miqyas üçün 0-6 arası qiymət adi və təbii, 8-10 arası qiymət yüngül, 11-14 arası orta və 15-21 arası şiddətli kimi nəzərdən keçirilir.

**BDI- nin stress anketi:** BDI 21 hissədən ibarət olan bir anketdir ki, stresssin tərif edilmiş əlamətləri o cümlədən qəmginlik, günah hissi, məhəbbətin itirilməsi, sosial guşəneşinlik və intihar fikirlərini dəyərləndirmiş olur. Bu vasitələr əvvəlki iki həftə ərzində xəstənin davranış və xasiyyətini ölçür və müalicə prosesinə cavab kimi qiymətləndirilə bilər. BDI anketi stress üçün özü məlumat verən ən geniş yayılmış vasitələrdən biridir. BDI anketi stressli psixoterapevt xəstələr vasitəsi ilə təkrarən müşahidə olmuş əlamət və baxışlar və müəyyən həddə isə stressli olmayan psixoetrapevt xəstələr əsasında müəyyən edilmişdir. Bu anketdə meyarlar stress şiddətini qiymətləndirmək üçün seçildilər və bir xüsusi stress nəzəriyyəsini göstərmək üçün nəzərdə tutulmamışlar. Stressin bu ölçmə miqyası dünyanın bir çox dillərinə tərcümə edilmiş və özünə etibar qazanmışdır. BDI meyarları dörd variantdadır və 0-3 miqyası üzərində qiymətləndirilir. Üzərində sınaq aparılan şəxs onun indiki halına uyğun gələn variantı seçməlidir. Beləliklə balların toplusu 0-63 arasında dəyişə bilər. Bu zaman isə ballar yüksəldikcə stressin şiddəti də artmış olur. Bu miqyasda stress şiddəti üçün Bek və Setiz tərəfindən təqdim edilən təsnifat isə aşağıdakı kimidir. (0-9) əlamətsiz, (10-18) yüngül stress, orta stress (19-29) və şiddətli stress (30-63).

*BAI, Bekin iztirab anketi:* 21 variantdan ibarət olan bu anket iztirabın yayılmış əlamətlərini əhatə edir. Üzərində təcrübə aparılan respondentlər cavab verərəkən ötən həftə ərzində öz əziyyətlərinin miqdarını onun qarşısındakı sutunu işarəməklə bildirirlər. Sualların imtiyazvermə üslubu ümumiyyətlə (0),

yüngül (1), orta (2) və şiddətlidir (3). Beləlikə 0 – dan başlayaraq 63- ə qədər fərdin qiymət əhatəsi bərabər olmalıdır. Anketlər əvvəlcədən tədqiqatçı tərəfindən tərcümə edildi və beş psixoloqa (rəy bildirmək üçün) təqdim edildi. Hər bir münsif psixloq anketin hər bir hissəsini ayrı- aırılıqda yoxlamaqla beş mətləbli bir miqyas əsasında hər bir hissəinin tənasüb miqdarını təsnif etdilər. Əgər uyğunluq miqdarı dörddən aşağı idisə bu sahədə mütəxəssisin nəzəri öyrənilir və tətbiq edilirdi. Ənənəvi statistik analiz üçün SPSS statistikası istifadəyə verildi. Alfay Kronbax statistik sınaqları, Perason və t- test bağlılıqlarından isitfadə edildi ki, onların hər birinizin izahı mətnin içərisində işarə edilmişdir.

*Nəticə:* Nəticələr göstərir ki, HADS, İranın klinik cəmiyyətində tətbiq üçün lazım etibara malikdirlər. BAI, BDI və HADS üçün bu araşdırmada təqdim edilən kəsmə nöqtələri onların müəllifləri vasitəsi ilə təqdim edilən nümunə ilə fərqlərə malikidr ki, onun izahı mədəni baxımdan olduğu üçün məqalənin sonunda qeyd edilmişdir.

Hər iki qrupun evlilik vəziyyəti 1 ci cədvəldə göstərilmişdir. Bu cədvəldə təqdim edilmiş informasiyalara görə bu qrupda subay xəstə qrup evli qrupdakı şəxslərdən daha çoxdur. Bu vəziyyət sağlam qrupda fərqlidir. Habelə 1 ci cədvəldə sağlam və xəstə qrupun təhsil durumu da öz əksini tapmışdır. Bu cədvələ görə təhsil baxımından iki qrupun vəziyyəti təqribən bənzərdir.

Araşdırmanın ilkin planlanmasına əsasən bu araşdırmada müxtəlif miqyaslarda xəstələrin qiymət bağlılığı və kliniki müsahibədən əldə edilən kəmiyyət qiymətləndirilməsi hesaba alınaraq miqyasların etibarlığı üçün bir əmsal rolunu oynadı. Bağlılıq əmsalının xülasəsi 2 ci cədvəldə verilmişdir. Müqayisə üçün xarici və həqiqilik meyarını əldə etmək üçün ilk öncə BDI (p<0/001, r=0/70) və BAI (p<0/001, r=0/72) klinik kəmiyyət qiymətləndirmə bağlılıq əmsalları hesaba alındı.

Cədvəl 1: Hər iki sağlam və xəstə qrupda təhsil səviyyəsi, subay və evlilərin % göstəricisi

| sınanlar | Xəstə | sağlam |
|---|---|---|
| subay | 152 | 36 |
| Evli | 109 | 225 |
| toplam | 261 | 261 |
| Orta təhsilli | 171 | 180 |
| Ali təhsilli | 90 | 81 |
| toplam | 261 | 261 |

Cədvəl 2: Klinik kəmiyyət qiymətləndirmə ilə stress və iztirabın ölçmə miqyasları qiymətləri arasında bağlılıq əmsalları

| | HAD-d | HAD-a | BDI | BAI |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| Kəmiyyət qiymətləndirilməsi | 0/59 | 0/53 | 0/70 | 0/72 |
| HAD-d | 1 | | 0/77 | |
| BDI | | | 1 | |
| HAD-a | | 1 | | 0/76 |
| BAI | | | | 1 |

*Müzakirə:*

Bu araşdırmanın əsas məqsədi İranlı stressli şəxslərində stress və iztirabın xəstəlik miqyasının vaciblik və norma göstəricilərinin təqdim edilməsidir. Bu işin metodologiyası elə planlaşdırılmışdı ki, İran cəmiyyətində bu sahədə aparılan sınaqların etibarlıq və həqiqilik dərəcəsini ölçmək olsun. Bu araşdırma işində stress və iztirabın miqdarı sahəsində klinik kəmiyyətin qiymətləndirilməsi bizə kömək etdi ki, BAI və BDI anketlərinin həqiqiliyini ölçmək ilə onları bərabər formada xarici meyar kimi istifadə edək və HADS altmiqyaslarının ölçü həqiqiliyi üçün zəmin hazırlamış olaq. Demoqrafik faktlar göstərir ki, iki qrup yəni xəstə və sağlam insanlar cinsiyyət, evlilik və təhsil baxımından bərabər və oxşardırlar. Belə nəzərə çarpır ki, bu halda iki qrupun müqayisəsi daha həqiqi nəticələrlə sonuclansın. Bu araşdırmada sağlam nümunə bizə sınaqların seçim etibarı barəsində xatircəmlik əldə etməyə kömək etdi. Nəticələr göstərdi ki BAI və BAD anketləri yaxşı etibarlıq dərəcəsinə malikdirlər. Bu nəticə hazırkı araşdırmada iki sınağın xarici meyar (external criterion) kimi rol ifa etməsi üçün zəmin hazırlayır.

*İstifadə edilmiş ədəbiyyat:*


1. Zigmond AS, Snaith RP. The hospital anxiety and depression scale.Acta Psychiatr Scand 1983; 67: 361-70.

2. Kuijpers PM, Denollet J, Lousberg R, Wellens HJ, Crijns H, Honig A. Validity of the hospital anxiety and depression scale for use with patients with noncardiac chest pain. Psychosomatics 2003; 44: 329-35.

3. Härter M, Reuter K, Gross-Hardt K, Bengel J. Screening for anxiety, depressive and somatoform disorders in rehabilitation-- validity of HADS and GHQ-12 in patients with musculoskeletal disease. Disabil Rehabil 2001; 23: 737-44.

4. López-Alvarenga JC, Vázquez-Velázquez V, Arcila-Martínez D, Sierra-Ovando AE, González-Barranco J, Salín-Pascual RJ. Accuracy and diagnostic utility of the Hospital Anxiety and Depression Scale (HAD) in a sample of obese Mexican patients. Rev Invest Clin 2002; 54: 403-9.

5. Herrero MJ, Blanch J, Peri JM, De Pablo J, Pintor L, Bulbena A. A validation study of the hospital anxiety and depression scale (HADS) in a Spanish population. Gen Hosp Psychiatry 2003; 25: 277-83.
6. Montazeri A, Vahdaninia M, Ebrahimi M, Jarvandi S. The Hospital Anxiety and Depression Scale (HADS): translation and validation study of the Iranian version. Health Qual Life Outcomes 2003; 1:14.
7. Lam RW, Michalak EE, Swinson RP, editors. Assessment Scales in Depression, Mania and Anxiety. UK: Info Ltd. 2007

Резюме.

Общество психотерапевтов İran должно исследовать измерение надежности в пациентах. Бизнес работы этого исследования анкетных опросов HADS по сравнению с неправильным общественным напряжением и беспокойством. 261 человек, кого оделся от пола точки зрения в напряжении и того же самого числа в бизнесе работы этого исследования. 123 (47/1 %) мужчины (мужчины) и 138 (52/9 %) женщины принимают участие в каждой группе.

Resume.

Iran psychotherapists society need investigate reliability measurement in patients. Work business of this investigating of the HADS questionnaires in comparison with abnormal society stress and anxiety. 261 persons whom dressed from point of view sex in the stress and the same number in the work business of this investigating. 123 (47/1%) men (males) and 138 (52/9%) women take part in the each group.

# НЕКОТОРЫЕ АСПЕКТЫ ПСИХОЛОГИИ СУИЦИДА

доц.Велиев М.В., б/м Мустафаев А.М.

*Ключевые слова:* суицид, самоубийство, мотив, мышление, душевное заболевание, суицидальный риск, профилактическая работа.

Самоубийство - одна из вечных проблем человечества, явление социальное и психологическое, а как общественный феномен - это не просто индикатор общественного здоровья, но и социально-психологический архетип, который в зависимости от характера его влияния в общественном сознании может непосредственно воздействовать на формирование суицидальных форм поведения личности.

По статистике, суицид занимает третье место среди причин смертности после несчастных случаев и убийств. В настоящее время среди погибших (убийства и самоубийства) зарегистрировано более чем в два раза лиц, совершивших самоубийство.

С давних времен проблема суицида рассматривалась Эпикуром, Платоном, Сократом, Вергилием и Овидием, Ф.Аквинским, А.Блаженным, Лао-Цзы, Конфуцием. Самоубийство изучали такие учёные, как А.Адлер, К.Юнг, К.Хорни, К.Меннингер и другими [9;38;37;24].

Разработкой собственных теорий по проблеме самоубийства занимались исследователи: З.Фрейд, предложивший теорию суицида, согласно которой выделил два вида влечений: один из них - инстинкт жизни -Эрос, а другой - влечение к смерти, разрушению и агрессии – Танатос [32]; К.Меннингер, исследовавший глубинные мотивы самоубийства [24]; Э.Дюркгейм, изучивший социальный контекст самоубийств [17]; Н.Фейбероу, описавший и исследовавший те формы саморазрушающегося поведения, которые ранее не относились к суицидальным, например, злоупотребление различными веществами, включая наркотики, алкоголь и табак; соматические болезни; преступления, проституция, делинкветное поведение; рискованные виды спорта [30]; Э.Шнейдман, рассмотревший психологические корни суицидальных явлений и привёл, основываясь на клинических наблюдениях типологию индивидов, играющих непосредственную роль в приближении своей смерти [35;36]; А.Камю, поставивший вопрос о связи самоубийства с мышлением индивида, заметивший, что все, когда-либо помышлявшие о самоубийстве, сразу признают наличие прямой связи между чувством разлада человека со своей жизнью и тягой к небытию[18]; А.Ф.Кони, указавший на ошибку в объяснении самоубийств увеличением душевных заболеваний [20]; Н.Бердяев, считавший, что осуждать нужно не самоубийц, а самоубийство как грех, духовное падение и слабость [15]; В.М.Карандашев, выделивший типы самоубийц,

основываясь на личностно-психологических особенностях [19]; Г.Чхартишвили, относивший творческие личности к группе высокого суицидального риска [34] и др.

Несмотря на многочисленные теоретические и экспериментальные исследования, проблема суицида до сих пор актуальна и требует дальнейшего изучения, поскольку в психологических концепциях нет единого подхода классификации причин, видов, факторов самоубийства, а также механизмов, условий и средств реализации психологического сопровождения личности, склонной к суицидальным формам поведения.

На протяжении человеческой истории проблему самоубийства решали вначале с технологических, позже с философских и нравственных позиций. С середины прошлого столетия, к выяснению привлекались знания из области психиатрии, антропологии, психологи и, правоведения и социологии. Проблема самоубийств – одна из самых беспокойных и мучительных в истории развития человечества.

Во-первых, в центре внимания лежит ценность человеческой жизни, соотношение жизни и смерти человека. И если мы говорим о том, что человек не выбирает время, место и условия своего рождения, то вопрос, связанный со смертью он решает сам.

Во-вторых, продолжаются споры о возможностях совершения самоубийства и его моральной оценке. Позиции, занимаемые в обществе, разные и неоднозначные.

В-третьих, из-за сложности данного явления существуют трудности в профилактической работе. Прежде всего, они связаны со специфичностью в суицидальных проявлениях, которая заключается в самобытности и многообразии самого человека.

В советские времена статистика по суицидам была закрыта. Сегодня этими цифрами готовы поделиться и милиция, и медицинские учреждения, и службы статистики, и т.п.. В начале XXI века ситуация с самоубийствами по-прежнему остается критической.

Даже показатели смертности на дорогах значительно уступают числу самоубийств. Треть всех суицидальных актов совершается в состоянии алкогольного опьянения.

Самоубийство (суицид) – акт поведения человека, совершенный в состоянии сильного душевного расстройства либо под влиянием психического заболевания, либо осознанный акт самоустранения из жизни под воздействием острых психотравмирующих ситуаций, при которых собственная жизнь как ценность теряет смысл.

«Самоубийство есть, прежде всего, сужение сознания. В момент самоубийства в большинстве случаев человек находится в состоянии психического расстройства. Психика его опрокинута и нарушено психическое равновесие, функция различения реальности поражается,

иерархия ценностей извращена и какая-нибудь одна, совсем не главная ценность делается единственной и абсолютной, сознание замутнен, и память парализована и удерживает лишь idée fixe самоубийцы» (подход русского философа Н. Бердяева).

Феномен суицида (самоубийство или попытка самоубийства) чаще всего связывается с представлением о психологическом кризисе личности, под которым понимается острое эмоциональное состояние, вызванное какими-то особыми, личностно значимыми психотравмирующими событиями. Причем, это кризис такого масштаба, такой интенсивности, что весь предыдущий жизненный опыт человека, решившегося на суицид, не может подсказать ему иного выхода из ситуации, которую он считает невыносимой.

Такой психологический кризис может возникнуть внезапно (под влиянием сильного аффекта). Но чаше внутренняя душевная напряженность накапливается постепенно, сочетая в себе разнородные негативные эмоции. Они накладываются одна на другую, озабоченность переходит в тревогу, тревога сменяется безнадежностью. Человек теряет веру в себя, в способность преодолеть неблагоприятные обстоятельства, возникает внутренний конфликт «неприятия самого себя», «самоотрицание», появляется ощущение «потери смысла жизни.

Факторы суицидального риска следует принимать во внимании при работе с суицидиентом. Очевидно, что вне зависимости от того, идет ли речь о законченном суициде или о незавершенной попытке, очень важен период жизни, предшествующий суицидальному акту. Этот период времени – предсуицид, который характеризуется особым психическим состоянием личности, которое обуславливает повышенную вероятность суицидального действия.

В предсуициде выделяются две фазы: предиспозиционная и суицидальная, которые, в свою очередь, обладают различной степенью выраженности внутренних и внешних форм суицидального поведения.

Внутреннее суицидальное поведение включает в себя пассивные суицидальные мысли, замыслы и намерения, а также соответствующий эмоциональный фон – суицидальные переживания.

Пассивные суицидальные мысли характеризуются представлениями, фантазиями на тему своей смерти без активной проработки планов действий, связанных с исполнением самоубийства.

Суицидальные замыслы – это активная форма проявления суицидальности, т.е. тенденция к самоубийству, глубина которой нарастает параллельно степени разработки плана ее реализации. Военнослужащим продумывается способ суицида, время и место его совершения.

Суицидальные намерения предполагают присоединение к замыслу решения и волевого компонента, побуждающего к непосредственному переходу к внешнему проявлению.

Структура суицидальных переживаний основывается на отношении к двум полярно противоположным ценностям: собственной жизни и смерти. Отношение к жизни в прдесуициде выражается в четырех основных формах:

1) в ощущении безразличия;
2) в чувстве сожаления о своем существовании;
3) в переживании его тягостности, невыносимости;
4) в отвращении к жизни.

Отношение к смерти, обычно выступает в формах:

1) страх смерти, хотя и сниженный в своей интенсивности;
2) ощущение безразличия;
3) чувство внутреннего согласия на смерть;
4) желание смерти.

Зачастую, суицидиенты углубляются в размышления о смысле жизни, неоднозначности человеческого существования. В некоторых случаях, эти размышления буквально завладевают человеком, неотступно преследуя его, что, конечно же, не должно расцениваться как проявление психического отклонения.

«В явном или неявном виде этот вопрос присущ самой природе человека,- писал В.Франкл. – Сомнения в смысле жизни, таким образом, никогда нельзя рассматривать как проявления психической патологии; эти сомнения в значительно большей степени отражают истинно человеческие переживания, они являются признаком самого человеческого в человеке. Эта способность сомневаться в значимости собственного существования больше выделяет человека среди животных, чем такие его достижения, как прямохождение, речь или понятийное мышление».

В рассматриваемом периоде у суицидиента возникает чувство, что его жизнь не имеет будущего, что в ней есть только прошлое. Жизнь воспринимается только ретроспективно. Он пытается найти утешение в воспоминаниях о приятных моментах из его доармейской жизни, но эти воспоминания, как правило, только отягощают восприятие настоящего, усиливая контраст между прошлым и будущим. Появляется ощущение внутренней пустоты и бессмысленности существования. Утеря смысла жизни является центральным звеном в суицидальном поведении.

Мысли о смерти, как правило, при этом носят налет теоретизирования, свойственного молодым людям в этом возрасте, без какого-либо желания умереть. Размышления на тему смерти могут приобретать форму художественных образов – в записных книжках, в

рабочих тетрадях изображаются рисунки, иллюстрирующие депрессивное состояние человека (гробы, кресты, виселицы и т.д.).

На фоне подобного рода состояний появляются суицидальные мысли, а позднее – и обдумывание способа суицида, «примеривание» к нему. Суицидальный период, начало которого связано с появлением суицидальных замыслов, длится вплоть до покушения на свою жизнь.

Переходу в суицидальную фазу пресуицида обычно способствует дополнительная ситуативная психотравматизация, которая еще более углубляет дезадаптацию и убеждает военнослужащего в неизбежности катастрофы. Само принятие решения о самоубийстве, даже в результате «обдумывания», свидетельствует о переживаниях необычайной глубины и силы.

Характерными особенностями поведения суицидиентов в этой фазе являются: замкнутость, стремление к уединению, вплоть до полной изоляции, утрата интереса к окружающему. Человек как бы отделен психологическим барьером от других людей, полностью поглощен своим «Я», своими мучительными переживаниями. Суицидальные тенденции в этой фазе в одних случаях развиваются стремительно, а в других медленно, с периодами усиления и ослабления.

Вместе с тем, отмечены и другие формы проявления поведенческих форм активности: расчетливость, решительность, хладнокровие («зловещее спокойствие») и даже агрессивность. Иногда принятие суицидального решения сопровождается суетливостью, двигательной возбужденностью, беспричинной веселостью. Однако, во всех случаях неестественность поведения сразу же бросается в глаза.

С большим постоянством у суицидиентв отмечается расстройства сна, разнообразные неврастенические или неврозоподобные вегетативные проявления: повышенная утомляемость, вялость, чувство бессилия и т.п.

Так, депрессивное состояние (в психологическом смысле) выявлено у многих обследованных суицидентов. Оно характеризуется тяжелыми, мучительными эмоциями и переживаниями – тревогой, тоской, отчаянием. Влечения и волевая активность резко снижаются. Почти всегда в различной степени выражены ощущение собственной неполноценности, недееспособности и самоотрицания. Появляется чувство вины и нередко – потребность в самообвинении.

Ощущение беспомощности перед лицом трудностей сочетается с чувством безнадежности. “Когда есть надежда, – писал Н.Бердяев, – можно перенести самые страшные испытания и мучения, потеря же надежды склоняет к самоубийству. Безнадежность означает невозможность представить себе другое состояние, она всегда есть дурная бесконечность муки и страдания. То есть предвосхищение вечных адских мук, от которых человек думает освободиться лишением себя жизни.”

В случае продолжительного предсуицида развитие суицидального поведения отчетливо проходит все описанные этапы. Однако эту последовательность можно обнаружить не всегда. При острых пресуицидах предиспозиционная фаза свернута и суицидальные замыслы и намерения появляются без предшествующих ступеней, характеризуясь усилением роли аффективных компонентов.

В ряде случаев перед попыткой самоубийства суицидиенты оставляют предсмертные записки. По материалам уголовных дел, такие записки оставляет каждый пятый-шестой суицидент. В оставленных записках обычно звучат идеи самообвинения и содержатся просьбы о прощении их близкими людьми. Иногда в записках обвиняются те, кто явился по мнению суицидента виновником его поступка.

В случае неудавшейся попытки в постсуицидальном периоде некоторое время может наблюдается сохранение суицидальных мыслей и намерений. При этом, как в прямой, так и в косвенной форме высказывается сожаление о сохранении жизни, об утрате ее ценности. Проявляется пассивное «согласие на смерть». Так реагируют главным образом те, кто считает невозможным свое возвращение в условия, которые привели их к суициду.

Вероятность попытки повторного суицида довольно велика. Считается, что у прибегавших к суицидальной попытке риск завершенного суицида на ближайший год увеличивается.

В основе суицидального поведения (независимо от его типологического своеобразия), лежит конфликт. В любом конфликте существуют, во-первых, объективные требования, предъявляемые ситуацией; во-вторых, субъективное осознание значимости, осмысление этих требований и степени их сложности для личности; в-третьих, оценка личностью своих возможностей для преодоления, снятия фрустрирующей ситуации; в-четвертых, реальные действия личности в такой ситуации.

В исследованиях были установлены такие объяснения и причины суицидального поведения, как измена мужа, конфликт со свекровью, шизоидная патология, алкоголизм, долги и т.п.

В общем, проблема суицидального поведения крайне актуальная проблема современной психологии. По нашему мнению, в ряду причин можно показать такие, как наследственные факторы, в нашем исследовании особенно были высветились алкогольные факторы, шизоидные наклонности, а также социальные семейные дисфункции-измена мужа, сварливая свекровь и другие. Кроме этого особенной характеристикой современных мужских суицидов является экономический бытовой фактор. Мужчины, отчаявшись от долгов, решаются на суицидальное поведение.

Очень интересная психологическая проблема суицидального поведения имеет много противоречий и нераскрытых узелков, которые требуют их интенсивного исследования, раскрытия, профилактики и предупреждения.

В молодости человеку свойственно относиться к жизни безответственно и легкомысленно, потому что кажется, что ее еще много впереди. Во многих случаях, по-настоящему жизнь начинают ценить только пожилые люди, инвалиды или смертельно больные, несмотря на все страдания, которые им приносит каждый день. Человеку для счастья нужно очень немного, нужно уметь наслаждаться каждым мгновением.

ЛИТЕРАТУРА


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı 2002.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı 2003.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı 2000
4. Əliyev B.H. Cinayət və mülki prosesdə məhkəmə- psixoloji ekspertiza problemləri. Bakı 1996.
5. Əliyev B.H. Emosional halların tədqiqi məsələləri. Dil və ədəbiyyat jurnalı. №2, Bakı 1998
6. Əlizadə H.Ə. Şagird kollektivində konfliktin əmələ gəlməsi və aradan qaldırılması. Psixologiya jurnalı, № 1-2, Bakı 2000
7. Şəfiyeva E.İ. Yeniyetmələrdə aqresiv davranış və sui-qəsd. Psixologiya jurnalı, № 1-2, Bakı 2000
8. Ñ. ß ì èðñàëèì îâà. ×ÿðè óøàãëàð. Áàêû2002
9. Адлер А. Практика и теория индивидуальной психологии. М., 1995. 9
10. Алиев И.Н. Актуальные проблемы суицидологии. Баку, 1987 г.
11. Аверин В.А. Психология детей и подростков. – С.-П., 1994.
12. Алданов М. Самоубийство. М.: Панорама, 1993. 414 с.
13. Амбрумова А.Г., Тихоненко В.А. Суицид как феномен социально-психологической дезадаптации личности // Актуальные проблемы суицидологии. М., 1978. С. 6-28.
14. Арьес Ф. Человек перед лицом смерти. М. Прогресс-Академия,1992. 528 с.
15. Бердяев Н. А. О самоубийстве. Психологический этюд. – Париж, Имка-Пресс, 1931 с. 21 15
16. Булацель П.Ф. Самоубийство с древнейших времён до наших дней: Исторический очерк философских воззрений и законодательств о самоубийстве. Изд. 2-е. СПб., 1900. 206 с.
17. Дюркгейм Э. Самоубийство: Социологический этюд. СПб., 1912. XXXII, 541 с. 17
18. Камю А. Бунтующий человек. М., 1985.
19. Карандашев В.М. Жить без страха смерти. М., 1988. 19

20. Кони А.Ф. Самоубийство в законе и жизни. М., 1974. 20
21. Лебедев В.И. Личность в экстремальных условиях. – М., 1987.
22. Леонтьев А.Н. Проблемы развития психики. М., 1975.
23. Личко А.Е. «Саморазрушающее поведение у подростков». Москва, 1991.
24. Меннингер К. Война с самим собой. М.: ЭКСМО-пресс, 2000, 480с. 24
25. Меновщиков В.Ю. Психологическое консультирование: работа с кризисными и проблемными ситуациями. М.: Смысл, 2002.с. 42-44
26. Рашидов С.Ф. Смысл жизни и страх смерти как обнаружение феномена самосознания // Фигуры танатоса: Символы смерти в культуре. СПб.: Изд-во С.-Петербургского университета, 1991. С. 39-46.
27. Руководство по телефонному консультированию. Под ред.Лешукова Е., Зуева А. – М.: НПО «ЭГОС», 1994. с. 7-8
28. Снайдер Р. Практическая психология для подростков. – М., 1995.
29. Трегубов Л., Вагин Ю. Эстетика самоубийства. – М., 1993.
30. Фейбероу Н. Многоликое самоубийство. М., 1999.
31. Франкл В. Человек а поисках смысла, М., Прогресс,1990 г., 368 с.
32. Фрейд З. Печаль и меланхолия. М., 1982.
33. Фромм Э. Анатомия человеческой деструктивности. М.: Республика, 1994. 448 с.
34. Чхартишвили Г.Ш. Писатель и самоубийство. М.: Новое литературное обозрение, 1999. 576 с. 34
35. Шнейдман Э. Душа самоубийцы. М., 1976. 35
36. Шнейдман Э. Смерть человека. М., 1993. 36
37. Хорни К. Невротическая личность нашего времени. М., 1993.
38. Юнг К.Г. Собрание сочинений. Психология бессознательного. М., 1994. 38

## SUISID PSİXOLOGİYASININ BƏZI ASPEKTLƏRI

M.V. Vəliyev, A.M. Mustafayev

Xülasə

Məqalədə suisidal davranışın mahiyyəti, onu doğuran səbəblərin psixoloji xüsusiyyətləri şərh olunur. Müəlliflər suisidal davranış haqqındakı nəzəriyyələrə elmi-psixoloji konteksdən yanaşaraq problemi təhlil etmişlər. Məqalədə suisidal davranışı yaradan faktorlar göstərilir, intihar edənlərin konfliktləri, psixoloji sarsıntıları qeyd olunur. Göstərilən işdə həmçinin toplanmış materiallar təhlil olunur, ümumiləşmələr aparılır, elmi nəticələr çıxarılır.

SOME ASPECTS OF PSYCHOLOGY OF A SUICIDE

M.V. Veliyev, A.M. Mustafayev

Summary

In article essential features of psychology of a suicide reveal. Authors, first of all, represent psychological essence of theories of suicide behaviour. Further factors of suicide risk are marked. The special attention is given to structure of suicide experience. It is told about feelings people inclined to a suicide. Are specified in conflicts which underlie suicide behaviour. In the conclusion results of the spent work are generalised.

## ÖZÜNÜTƏRBİYƏNİN TƏŞƏKKÜL VƏ İNKİŞAFININ PSİXOSOSİAL XÜSUSİYYƏTLƏRİ

Nəsibova Salatın Şaban qızı.
ADPU-nun II kurs magistrantı

*Açar sözlər:* tərbiyə, özünütərbiyə, yeniyetməlik yaş dövrü
*Ключевые слова:* воспитание, самовоспитание, подростковый возраст
*Key words:* Self-education, juvenile

Yeniyetmə dövrü ilə bağlı nəzərəçarpan baxışlardan biri – bu dövrdə özünütərbiyəyə olan güclü meyldir. Aktiv özünütərbiyə prosesi əsasən bu dövrdə başlayır və bu və ya başqa formada insanın ömrünün sonuna kimi davam edir. Yeniyetməlik dövründə özünütərbiyənin başlanğıcından söz açarkən biz , ilk növbədə o faktı nəzərə alırıq ki, 12-13 yaşına çatmış uşaqlar intellektual və şəxsi özünütəkmilləşdirmə imkanları haqqında fikirləşməyə başlayırlar və bu məqsədə çatmaq üçün şüurlu və istiqamətlənmiş səy göstərirlər. Özünütərbiyə müəyyən inkişaf yolu keçir. Əgər onun əsas yaş dövrlərini qavramağa çalışsaq , onda onun bütün yaranma yolu yaş mərhələləri üzrə aşağıdakı kimidir

*Birinci mərhələ* - fiziki və iradi özünütərbiyə,yeniyetməlik dövrü. Bu yaş dövründə yeniyetmənin fiziki və iradi özünütəkmilləşdirməsində məqsəd şəxsiyyətin xüsusi vasitə və məşqlərin istifadəsi ilə cəsarət , dözümlülük, özünüidarə, özünəinam və s. iradi keyfiyyətlərinin yaxşılaşdırılmasıdır.Eynilə bu fiziki inkişafa da aiddir.

*İkinci mərhələ* - əxlaqi özünütəkmilləşdirmə, erkən gənclik dövrü. Bu zaman ən çox rast gəlinən özünütərbiyə məqsədlərinin –özündə kübar şəxsi keyfiyyətlərin yaradılması anlamı, əxlaqlı , xeyirxah, köməyə hazır olmaq və s. kimi başa düşülən ruhi, mənəvi inkişafıdır.

*Üçüncü mərhələ* - peşəkar özünütərbiyə - orta və son gənclik dövrü (20-40 yaş arası). Həyatın bu dövrünə işgüzar fəaliyyətdə özünütəkmilləşdirmə dövrü kimi baxmaq olar, hansı ki, bu dövr insanda ümumilikdə peşəkarlıq üçün seçilmiş, peşədə iş üçün vacib olan keyfiyyətlərin, bacarıqların, vərdişlərin kompleksi ilə bağlıdır. Özünütəkmilləşdirmənin peşəkar məqsədi bu yaş dövründə meydana gələrək bir çox insanda möhkəmlənir və həyatında əhəmiyyətli məqsədlərdən olur.

*Dördüncü mərhələ* - sosial dünyagörüşlü özünütərbiyə, insan həyatının 40 – 45 yaşdan sonrakı ömrü. Burada özünütəkmilləşdirmənin məqsədi sosial pozisiyanın, dünyagörüşün, həyata müəyyən baxışın olmasıdır. Bəzən *beşinci mərhələyə* də rast gəlinir, humanistik psixologiyada insanın özünüaktuallaşdırmasının realizə olunduğu ali mərhələ kimi qeyd olunur.

İnsanın özünütərbiyəsinin inkişafında göstərilən mərhələlərdən ikisi yeniyetməlik və erkən gənclik dövrünə düşür. Bu dövrlərdə şəxsi özünütəkmilləşdirmə ilə məşğul olmanın uğuru, onun nəticələri insanın xarakterini şəxsiyyət kimi müəyyən edir.

Yeniyetməyə fiziki, iradi, əxlaqi özünütəkmilləşdirmədə necə daha yaxşı kömək etmək olar? İlk növbədə, uşaqların özünütərbiyəyə istiqamətini genişləndirmək və aktivləşdirmək lazımdır, onun ilk əlamətlərinin yaranmasından başlayaraq. Yeniyetməyə onun fiziki özünütərbiyəsində ən yaxşı əlbəttə ki, onun idmanla məşğul olması kömək edə bilər. Bu tapşırıqlarda şəxsiyyətin iradi keyfiyyətlərini yaratmaq da pis olmaz. İdmanla məşğul olmaq yeniyetmələrin inkişafında, onların şəxsiyyətində gözəl keyfiyyətlər yaratmaq üçün yaxşı məktəbdir. Bu vasitə heç də yeganə deyil və hər zaman insanın iradi inkişafını hərtərəfli təmin etmir. İdmanla məşğul olan zaman yaranan müəyyən iradi keyfiyyətlər heç də həmişə intellektual və digər fəaliyyətdə özünü göstərmir, həyatın əxlaqi sferasında avtomatik iradəni təmin etmir. Növbəti qanun mövcuddur: ilk növbədə şəxsiyyətin o iradi keyfiyyətlərini fəaliyyətin o sferasında yaratmaq lazımdır ki, hansı ki, onlar arasında birbaşa münasibət var və onlar praktikada özünü göstərəcək.

Yeniyetmənin özünütərbiyəsində böyük insanların maraqlı olması, xoş münasibəti, aktiv fəaliyyəti adətən ona öz gücünə inanmağa, bu yaş üçün xarakterik olan böhranlı dövrü və kompleksləri aradan qaldırmağa kömək edir. Yeniyetmələrin özünütərbiyəsində böyüklərin nümunəsi böyük rol oynayır. Bu yaş dövründəki uşaqlar adətən avtoritetli və önəmli böyüklərə və özlərindən yaşca böyük uşaqlara oxşamağa çalışırlar və onların şəxsi keyfiyyətlərini təqlid edirlər.

Özünütərbiyə ilə bağlı psixoloji – pedaqoji planda çətinliklər o zaman yaranır ki, böyük yaşlı məktəblilər özünütəkmilləşdirmədə əxlaqi problemlərlə üzləşir. Burda onlar bir çox ziddiyyətlər və problemlərlə qarşılaşırlar. Onlardan biri bu yaşlı uşaqların ədəbiyyatlardan və filmlərdən tanıdıqları cəngavərliyə, romantizmə və macəralara meylliliyidir. Müasir sosial şəraitdə bu cür səylər tez

– tez iqtisadi şəraitin doğurduğu proqmatik orientasiya ilə üzləşir. Əgər romantik ideal şəxsiyyətdə asketizm və davranışlarında sadəlik tələb edirsə, proqmatik isə əksinə dəbdəbəyə və rahatlığa meyillilik yaradır. Romantik orientasiya – yalnız qalmağı, proqmatik isə aktiv ünsiyyəti nəzərdə tutur. Birinci – taleyə baş əymək, ikinci isə mübarizədir. Real müasir həqiqətlə romantik idealların üzləşdiyi anların sayını uzatmaq olar. Özünütərbiyədə onlar arasında seçimin çətinliyi onunla əlaqədardır ki, gənclər proqmatik və ya romantik məqsədlərin birindən digərinin xeyrinə imtina edə bilmirlər. Bəs onları birləşdirmək olarmı? Olarsa necə?

Yeniyetmə yaşlı uşaqlarla işləyən tərbiyəçinin ilk tapşırığı ondan ibarətdir ki, uşaqlara proqmatik və romantik ideal və dəyərlərin bir – birləriylə uyğun olduğunu göstərmək və onların birinin xeyrinə digərindən imtina etmək lazım gəlmədiyini göstərməkdir, çünki romantikanı və proqmatikanı yüksək ruhi və material insan dəyərlərində birləşdirmək olar. Yeniyetmələrin bu istiqamətdə tərbiyəsi üçün onlara romantik macəra qəhrəmanlıq romanları ilə yanaşı iqtisadi ədəbiyyatı, xüsusilə bu sahədə olan tanınmış şəxslər haqqında bioqrafiq məlumatların olduğu kitabları oxumaq məsləhət olunur. Yeniyetmələrə praqmatik qəhrəmanlarda romantik keyfiyyətləri yox, əksinə romantik qəhrəmanlarda faydalı, işgüzar keyfiyyətləri axtarıb tapmaqda kömək etmək vacibdir.

Резюме

Одно из наиболее примечательных явлений, связанное с подростковым возрастом,— это сильная тяга к самовоспитанию. Самовоспитание проходит определенный путь развития. Первая ступень — *физическое и волевое самовоспитание*, подростковый возраст. Вторая ступень — *нравственное самосовершенствование*, ранний юношеский возраст. Третья ступень — *профессиональное самовоспитание* — средний и поздний юношеский возраст, начало взрослости (от 20 до 40 лет). Четвертая ступень — *социально-мировоззренческое самовоспитание,* период жизни после 40—45 лет. Иногда встречается и пятая ступень, соответствующая *постановке и реализации человеком цели самоактуализации,* отмеченной как высшая ступень личностного развития в гуманистической психологии.

Rezume

One of the views of a considerable period of a teenager -in this time with a strong tendency to self-education. According to the process of active self-education began in this period of his life until the end of this or any other form of human progress. During the opening speech the beginning of adolescence in

self-education, we take into account the fact that, first of all that, the age of 12-13 children begin to think about the possibilities of improvement of the intellectual and personal self-conscious and directed, and shall endeavor to achieve this goal. Self-education spending some way of development..

Ədəbiyyat siyahısı:


1. Р.С. Немов Психология в трех книгах Книга 2 Психология образования 2-е издание МОСКВА 1995 ,377 с.
2. Кон И. С. Психология ранней юности. Москва: Просвещение, 1980, 114 с.
3. Как воспитать волю и характер,Леонид Изотович Рувинский С. И. Хохлов.


## FƏLSƏFƏ

# SUFİZMİN TƏDQİQİ SAHƏSİNDƏ ŞƏRQ VƏ QƏRB SUFİŞÜNASLIQ MƏKTƏBLƏRİ


f.e.n. Ağabəyova Ülviyyə,

BDU-nun müəllimi



*Açar sözlər:* sufizm; Şərq; Qərb; sufişünaslıq

*Ключевые слова*: суфизм; Восток; Запад; суфиведение

*Key words:* mysticism; East; West; mysticism studies


Sufilik İslamda mistik dini-fəlsəfi dünyagörüşdür. Sufi təliminin əsasında insanın mənəvi, ruhi, nəfsani təmizlənməsi və kamilləşməsi durur. Sufilik dünya nemətlərindən əl çəkmək, insanların meyl etdiyi keçici ləzzətlərdən qorunmaq, Haqqa yönəlməkdir. Sufinin ali məqsədi Haqqın rəhmini qazanmaq üçün nəfsləri təmizləmək, Allah və peyğəmbərin əxlaqı ilə əxlaqlanmaqdan ibarətdir. Əsas məqsəd əxlaqı gözəlləşdirmək, nəfsi tərbiyə etmək, saleh əməllərə sahib olmaqdır.

Sufilər hesab edirdilər ki, ilahini intuitiv surətdə dərk etmək üçün Allaha təmənnasız ülvi məhəbbət göstərmək lazımdır.

“Sufizm” şəklində tərcümə edilən “təsəvvüf” anlayışının mahiyyəti haqqında müxtəlif fikirlər irəli sürülmüşdür. XI əsrin ortalarında yaşamış Hücviri qeyd edirdi ki, bir qrupa görə yun (suf) paltar geyindiyi üçün sufiyə “sufi” adı verilmişdir.

Digər bir qrupa görə (məsciddə və ya Allahın hüzurunda “saff-i əvvəl”də) “ilk sırada” dayandıqları üçün mütəsəvviflərə “sufiyə” adı verilmişdir.

Digərlərinə görə bu ad “safa”dan (saflıq) törəmişdir [2, s.30].

Islamın mistik cərəyanları haqqında bir çox əsərlər yazılsa da, sufilik mürəkkəb, qəliz, çoxşaxəli olduğuna görə, onu bütünlüklə qavramaq mümkün deyil.

Sufilik islamın ilk çağlarında yaranmış və XI əsrin ortalarında sürətlə yayılmağa başlamış, ayrıca müsəlman ideologiyası kimi meydana çıxmışdır. Bu təlim tarixən həm Şərqdə, həm də Qərbdə böyük marağa səbəb olmuşdur. Azərbaycanda da sufizmin yayılması və fəaliyyəti alim-tədqiqatçıların nəzər-diqqətini cəlb etmişdir.

Sufizmin tədqiqi tarixində iki istiqamət – şərq sufişünaslıq məktəbi və qərb
sufişünaslıq məktəbi fəaliyyət göstərir. Şərq məktəbi daha qədimdir. Bu məktəb X
əsrdən etibarən fəaliyyətə başlamışdır. Bu məktəbin nümayəndələri müxtəlif sufi təriqətlərinə mənsub olan sufi alimləri olmuşlar. Belə bir məktəbin əsası ilk dəfə XI əsrdə Əs-Süllami tərəfindən qoyulmuşdur. Klassik sufişünaslıq məktəbinin digər nümayəndələrindən Abdulla Ənsari (1006-1088), Əbul Qasim əl-Qureyşi (986-1074), Cüllabi (XI əsr), Fəridəddin Əttar (...-1231) və başqaları sufi məktəbləri, ordenləri, təkkələri, təriqətləri və sufi şeyxləri, müridləri haqqında maraqlı məlumatlar vermişlər [1, s.9].

XVIII əsrdən etibarən şərq sufişünaslıq məktəbində bir çox elmi-tədqiqat əsərləri meydana çıxmışdır.

Bu gün Azərbaycan, İran, Türkiyə, Pakistan, Hindistan, Orta Asiya, ərəb ölkələrində sufizmin tədqiqi sahəsində önəmli işlər görülür. Yusif Ziya, Səid Nəfisi, Hüseyn Nəsr, Yaşar Nuri Öztürk, Kamil Yılmaz, Könül Bünyadzadə, İzzət Rüstəmov kimi böyük alimlər sufilik haqqında dəyərli əsərlər yaratmışlar.

Avropalı mütəfəkkirlərin təsəvvüf düşüncəsiylə ilk qarşılaşmaları orta əsrlər dövrünə təsadüf edir. Təsəvvüf tarixindən Avropa ədəbiyyatına tanıdılan ilk sufi VIII əsrin qadın vəlisi Rəbiyyə əl-Ədəviyyə olmuşdur. Rəbiyyə əl-Ədəviyyə ilahi eşqin örnəkçisi kimi XII əsr Fransada saf eşq haqqında yazılmış bir əsərdə öz ifadəsini tapmışdı [2, s.24].

XVI-XVII əsrlərdə Yaxın və Orta Şərqə üz tutmuş avropalı səyyahlar Dönən Dərvişlər (Mövləvilər) və İnləyən Dərvişlərin (Rifailər) icra etdikləri maraqlı ayinləri haqqında əldə etdikləri bilgilərlə geri qayıtmışlar. 1638-ci ildə Rostock
Universitetinin böyük alimi Fabrikus misirli sufi İbn əl-Farizin (...-1235) şerlərini tərcümə etmişdir. Şərq mənəviyyatı haqqında bir çox bilgilər klassik İran poeziyasından edilən tərcümələr vasitəsilə Qərb dünyasına axmışdır. 1651-ci ildə Adam Olearius ilk dəfə Sədinin "Gülüstan" əsərini alman dilinə tərcümə etmişdir.

Artıq XIX əsrdə tarixi qaynaqlar və önəmli təsəvvüf mətnləri Avropa dillərinə tərcümə edilib nəşr olunurdu.

XIX əsrdə həm Şərqdə, həm də Avropada önəmli təsəvvüfi əsərlər nəşr

olunmağa başlayır. 1821-ci ildə ilahiyyatçı alman professoru F.A.Tolyuk "Təsəvvüf və ya əcəmlərin vəhdəti-vücud teosofiyası" adlı əsər yazır [2, s.25].

Qərb dünyasında Cəlaləddin Rumi qədər tanınan ikinci mütəsəvvif yoxdur. Mövlanadan ilham alan və Qərbdə "dönən dərvişlər" kimi tanınan Mövləvi təriqəti ilk dəfə Osmanlı imperiyasını ziyarət edən avropalı səyyahların diqqətini cəlb etmiş və ilk avropa şərqşünasları onun şerlərini tərcümə etmişlər.

1836-cı ildə alman şərqşünası, İran, türk və ərəb ədəbiyyatının yorulmaz tərcüməçisi Jozef von Hammer-Purqstal (1774-1856) sufizmə dair tədqiqatlar aparmış və ilk dəfə Nəsiminin bioqrafiyasını nəşr etdirmiş və onun həyat yolu, eləcə də yaradıcılığından bəzi nümunələrlə Avropa oxucusunu tanış etmişdir. O, Rumi irsinə geniş yer ayırmışdır. Rumi divanından edilən tərcümələr alman şairi Fridrix Rükertə (1788-1866) Rumi üslubunda qəzəllər yazmaq imkanı vermişdir. Daha sonralar Konstantin Brunner özünün fəlsəfi irsində Rükertin Rumi haqqındakı tərcümələrinə istinad etmişdir.

XX əsrin əvvəllərində şotlandiyalı ilahiyyatçı Vilyam Hasti, ingilis şərqşünasları E.H.Vinfeld və Cames B.Redhaus Rumi timsalında sufi ədəbiyyatından gözəl incilər tərcümə etmişlər [2, s.303].

Qərb sufişünasları sufiliyin başlanğıcı haqqında bir çox nəzəriyyələr irəli sürmüşlər.

E.H.Palmer "Oriyental mistisizm" (1867) adlı əsərində sufiliyin "arilər irqinin əsil dininin bir qolu" olduğunu irəli sürmüşdür. Alman yazarları arasında təsəvvüfün islam aləmində İrandan qaynaqlandığı fikrinə müxtəlif yanaşmalar vardır. Henri Corbin və Seyid Hüseyn Nəsrin qeyd etdiyi kimi, bəzi İran ünsürlərinin əsrlər boyu sufilikdə yaşadığı danılmazdır [3, s.19].

Bir çox ingilis mütəfəkkirlərinin fikrincə, sufilikdə neoplatonizmin təsiri duyulur. Neoplatonizm Yaxın Şərqi başdan-başa bürümüşdü. Hələ 840-cı illərdə Aristotelin və Platonun əsərləri ərəb dilinə tərcümə edilmişdi. 1898-ci ildə Cəlaləddin Ruminin lirik şerlərindən seçmələrə yazdığı ön sözdə Renold A. Nikolson qeyd edirdi ki, "neopaltonizmin girmədiyi yer yoxdur".

Nikolsona görə, təsəvvüfün ilk şəkli "İslamın öz övladıdır". Müsəlmançılıq qədim Şərq, neoplatonik və xristianlıq təsirlərinin güclü olduğu bir torpaqda (Suriya) yetişdiyinə görə, islam meydana gəldiyi ilk çağlarında bəzi təsirlərdən yan qaça bilməzdi [3, s.19].

Adalbert Mers, Arend Jan Vensink, Marqarit Smit kimi avropalı alimlər müsəlmanlarla xristianlar arasındakı əlaqələrin səbəbini araşdırmağa çalışmışlar. Alfred von Kramer (1863) və Reynhart P. Dozy (1869) təsəvvüfün inkişafında hind təsirlərinin olduğunu göstərmişlər. İqnaz Qoldziher islam təsəvvüf hekayələri ilə buddist hekayələri arasında yaxınlığı olduğuna işarə etmişdir. İsveç yepiskopu Tor Andrae yazırdı ki, Məhəmməd peyğəmbərə olan

hədsiz sevgi haqqında klassik mübahisələrə görə islam sufizminə borcluyuq [3, s.20].

İngilis alimi Martin Lings uzun illər sufiliyə maraq göstərmiş, bir neçə il Qahirə universitetində təhsil almışdır. O, “Təsəvvüf nədir?” kitabında təsəvvüfün mahiyyətini, təsəvvüfün keçdiyi tarixi yolu açıb göstərmişdir.

Avropa sufişünaslarından Annamariya Şimmelin yaradıcılığına xüsusi nəzər salaq. O, Almaniyanın Erfurt şəhərində dünyaya gəlmişdir. Hələ kiçik yaşlarından islam tarixi və islam mədəniyyəti ilə yaxından tanış olmuşdur. 1969-cu ildən təqaüdə çıxana qədər Harvard Universitetində Hind və müsəlman mədəniyyətinə dair mühazirələr oxumuşdur. Şimmelin əsas tədqiqat obyekti islam ədəbiyyatı və təsəvvüf olmuşdur. O, səksəndən artıq ədəbiyyat yazmışdır.

Annamariya Şimmel öz əsərlərində yalnız islam ölkələrində yayılmış sufi ordenləri, sufi təriqətləri haqqında deyil, eyni zamanda Türkiyə və İranda, Hindistan və Pakistanda mövcud olan təsəvvüf məktəbləri barədə müqayisəli fikirlər söyləmişdir.

Şimmelə görə təsəvvüf, geniş mənada müridin beyət etməsidir ki, bu da hər bir sufi təriqətində müxtəlif yollarla həyata keçirilən mənəvi qabiliyyətidir. Müridin beyət etməsi sufi təriqətlərində müxtəlif təmrinlərlə həyata keçirilir. Təsəvvüfi yolda atılan addım psixoloji, sosioloji və mədəni cəhətdən mükəmməl olmalıdır. Bu məsələlərlə bağlı fikirlər İsveçrəli alim Fritz Meier tərəfindən araşdırılmışdır.

Avropalı alimlərin təsəvvüflə bağlı fikirləri müxtəlif və rəngarəng olmuşdur.

Annamariya Şimmel “İslamın mistik boyutları” adlı kitabında Qərb sufişünaslarının araşdırmalarının tarixi xranalogiyasını vermişdir. O, Qərbdə təsəvvüflə bağlı araşdırmaların orta əsrlərə təsadüf etdiyini qeyd edir və göstərir ki, Katalonyalı alim və səyyah Ramon Lull (...-1316) ilk dəfə sufi ədəbiyyatına diqqət
göstərmişdir.

Annamariya Şimmel qeyd edirdi ki, sufizm və ya təsəvvüfə dair araşdırmalar aparmaq son dərəcə çətindir. Sufizmin tarixini və fenomenal cizgilərini açmaq asan iş deyil. Çünki sufilik meydana gəldiyi gündən uzun və dəyişkən bir tarixi yol keçmişdir. Sufilikdə bir-birindən fərqli ordenlər, təriqətlər yaranmışdır ki, onların hamısı haqqında dəqiq izahat vermək üçün bir insan ömrü bəs etməz.

Sufilik nədir? – sualına Annamariya Şimmel belə cavab verir: “Sufilik ibadət etmək, oruc tutmaq deyil, ixlasdır, ruhun comərdliyidir. Təsəvvüf insanın Allaha təmənnasız sevgisidir, pak eşqi və sədaqətidir. Sufilik nə bir şeyə sahib olmaqdır, nə də bir şey tərəfindən sahib olunmaqdır. Sufilik azadlıqdır, öz-özünü məhdudlaşdırmaqdır. Sufilər o insanlardır ki, Allahı hər şeydən uca tutarlar”.

Sufilər islam hüququ – şəriət, təsəvvüf yolu – təriqət, doğruluq yolu – həqiqət kimi təsəvvüfün üç mərhələsini qəbul edirlər.

Sufilərə zidd fikirlər də mövcud olmuşdur. Şibli (...-945) göstərirdi ki, “sufilik Allaha şirk qoşmaqdır. Bu fikirləri ilə o, insanları çaşqınlığa salırdı. Gözlərini yaradılan dünyaya bağlayan və yalnız Allahı düşünən zahidlər, tərkidünya həyat tərzi keçirənlər, eyni zamanda Allahdan çəkinirlər. Bu baxımdan Karakani “gerçək Sufi varolmayandır” – deyirdi [2, s.32].

Şimmel qeyd edirdi ki, sufiliyin ilk anlamı İslamın ilk sirri olan tövhidin (Allahın birliyinin) qəbul edilməsiydi.

Şimmel öz araşdırmalarında eşqə daha dərindən fikir vermiş və göstərmişdir ki, “təsəvvüfün əsas ideyası aşiq olmaqdır”.

Bütün müsəlman batini şairləri bu fikirdə olmuşlar: «Aşiq eşq yolunda olmaqdır ki, cənnət və ya cəhənnəmi düşünməsin. Allah – təala Davud peyğəmbərə belə səslənmişdir: “Hər hansı bir şey səni cənnətlə, hurilərlə həvəsləndirərsə, bil ki, o, səni özündən uzaqlaşdırır. Həm cənnət, həm də cəhənnəm yaradılmışdır, Allahdan qeyrisidir”» [2, s.52].

Rəbiyyə əl-Ədəviyyənin Allah eşqi mütləqdir. Onun zehnində hər hansı bir düşüncə və ya eşqə yer yoxdur. O, nə həyat qurdu, nə də dini həyatında Məhəmməd peyğəmbərə özəl yer ayırdı. Dünya onun üçün heçdir. Rəbiyyənin Tanrısına olan sevgisi sonsuzdur və bu sevgini o, heç kimlə paylaşmazdı. O, şer dili ilə Allaha belə səslənmişdir:

Ey könüllər Sultanı, yox bir bənzərin,
Mərhəmət et sənə gələn bu günahkar quluna.
Ey ümidim, sevincim, xoşbəxliyim,
Səndən başqasını könül necə sevsin?

Rəbiyyə belə bir mükəmməl eşqlə mövcudluğa son qoyub özündən getmişdir.

Rəbiyyə əl-Ədəviyyə Onunla birdir və tamamilə Onunladır. Rəbiyyə əl-Ədəviyyə Qurani-Kərimdəki “Allah onları sevər, onlar da Allahı” ayəsi barədə uzun müddət düşünmüşdür: “Məhəbbət əzəldən gəlib əbədi getmişdir [2, s.53].

Annamariya Şimmel yalnız ərəb ölkələrində deyil, eyni zamanda Şimali Hindistanda və Pakistanda yayılmış təsəvvüf təlimləri haqqında araşdırmalar aparmışdır.

Hind-Pakistan alt qitəsinin qərb əyalətləri, Sind və Multan əyalətlərinin şimal hissəsi 711-ci ildə ərəblər tərəfindən fəth edilmiş və islam dininin müstəmləkəsinə çevrilmişdir. Bu dövrdə müsəlmanlarla buddistlər və ortodoksal hinduizm ardıcılları arasında dini əlaqələr yaranmağa başlamışdır. Avropa qrumları Vedanta və Yoqanı təsəvvüf vasitəsilə islamlaşdırmağa çalışmışlar. Lakin həmin ideyalar bu gün öz reallığını itirmişdir.

İlk hindli sufilər yazılı ədəbiyyata böyük maraq göstərir, ərəb və fars sufilərinin əsərlərini, əsasən də klassik dövr sufilərinin əsərlərini öz dillərinə tərcümə edirdilər. İbn Ərəbinin teosofiyası Hindistanda populyar idi. Hind

sufiləri "Varlığın vəhdəti" ("Vəhdət əl-vücud") konsepsiyasının təsiri altında formalaşan təsəvvüf düşüncəci ilə Hind fəlsəfəsinin Vedanta təlimi arasında oxşarlıq cizgilərini görərək, İslam və hind düşüncələri arasında bir yaxınlıq yaratmağa
çalışmışlar.

Hind-Pakistan ərazisində Nəqşbəndiyyə təriqəti geniş yayılmışdı. Nəqşbəndiyyə Hindistanda 1600-cü illərə qədər sağlam bir təriqət olmuşdur. Bu təriqət XVII əsrdən başlıyaraq, XVIIIəsrin əvvəllərinə qədər Orta Asiyada da geniş yayılmışdı [2, s.354].

Sindi, Pəncab və Peştu dillərində təsəvvüf şerləri yaranırdı. Allaha olan sonsuz sevgi, alovlu eşq təsəvvüf əsərlərinin əsas məzmununu təşkil edirdi.

909-cü ildə Mənsur Həllac Sindin hər yerini dolaşmış və bu ölkənin ilahiyyatla bağlı məsələləri ilə tanış olmuşdur. Təqribən 1000-ci illərdə Qəznəvilərin Hindistanda ikinci dəfə müsəlman fəthi hind fəlsəfəsini araşdırmış Əl-Biruni (...-1048) kimi alimlərin, eyni zamanda kəlamçıların və şairlərin dünyagörüşlərini burada yaydı. Təsəvvüfün sağlamlaşdırılmasında böyük xidmətləri olmuş Əbu Nəsib əs-Sührəvərdinin müridi Muiniddin Çişti 1193-cü ildə Dehliyə getmişdir. O, Hindistanın mərkəzi və cənub bölgələrinin islamlaşdırılmasında mühüm işlər görmüşdür. Sonralar Çiştinin adı ilə bağlı təriqət Hindistanda geniş yayılmağa başlamışdır. Çişti vəlilərin yorulmaq bilməyən fəaliyyəti sayəsində bəsit və sadə təsəvvüf qaydaları, Allah sevgisi aşağı kastaya mənsub olanları maraqlandırmışdır. Həmin təriqətin üzvləri deyirdilər ki, sufi
dəniz kimi comərd, günəş kimi şəffaf, yer kimi sadə olmalıdırlar.

1265-ci ildə Hindistanda Fəridəddin təriqəti yayılır. Fəridəddin dərvişləri özlərini "Allahın qonağı" hesab edir və tək bir otaqda yaşayıb çalışırdılar. Əsas işləri namaz, niyaz, zəkatla bağlı kitabları şərh etməkdən ibarət idi [2, s.337].

İngilis şərqşünası M.Smit sufizmin Yaxın Şərq xristianlığından intişar tapdığını söyləyir. Lakin belə tədqiqatçılar öz fikirlərində tutarlı faktlar göstərə bilməmişlər. Buna görə də, bir çoxları sonralar sufizmin islam dünyagörüşü çərçivəsində formalaşdığını söyləməyə məcbur olmuşlar.

A.Masse "İslam" kitabında yazır: "Sufizm islam zəminində yaranmışdır".

Belə bir fikrə sufi nəzəriyyəçi alimlərinin heç birinin əsərində rast gəlmək
mümkün deyil.

Avropa tədqiqatçıları sufizmdəki "fəna" anlayışını buddizmdəki "nirvan"
istilahı ilə eyniləşdirməyə cəhd etmişlər. Lakin sufizmlə hind fəlsəfəsi arasında böyük fərqlər olduğu üçün belə bir müqayisənin aparılması düzgün deyil. Çünki o dövrdə sufi mütəfəkkirlərinin hind fəlsəfi təlimləri ilə tanışlığı barədə tarixi

Burada sistem bir neçə hissədən ibarət olan, daxili struktur quruluşa malik olan bütövlülük kimi qiymətləndirilir; əslində, bu gün də «sistem» həmin qismində işlədilir. Maddi sistemin özü də maddi obyektlərin məcmusu kimi başa düşülür. Ontoloji mənada sistem dedikdə daha bir məna nəzərdə tutulur: bu, ümumi təşkilatlanma prinsipləri və prosesləri üzərində qurulan bir bütövlülükdür. Ümumiyyətlə sistemi obyektlər məcmusu və xassələr məcmusu kimi fərqləndirmək olar. Lakin tədqiqatçıların hesab etdiyi kimi, hər iki mənada sistemin ontoloji tərifləri müəyyən məhdudiyyətlərlə uzlaşır: sistem əslində obyektin özü ilə eyniləşdirilir, bunu da ona görə etmək olmaz ki, varlığın hər bir ifadəsi müxtəlif və rəngarəngdir, məntiq onda tələb edəcək ki, hər bir formaya və təzahürə aid yeni bir sistem anlayışı yaradılsın, bu da mümkün deyil. Burada bir çıxış yolu var: həmin obyektdə müəyyən qaşılıqlı təsirlərin, əlaqələrin olması faktı qəbul olunmalıdır, lakin konkret forması axtarılmamalıdır, çünki burada hansı əlamətin və ya keyfiyyətin həmin proseslərdə iştirak etməsi vurğulanmayıb.

Beləliklə sistem kateqoriyasının ontoloji təsviri kifayət etmir, məhduddur, çünki tədqiqat metodologiyasından bizi uzaqlaşdırır. Sistem kateqoriyasının qnoseoloji tədqiqi daha faydalıdır, çünki onun mahiyyətinin öyrənilməsi yollarını bizə göstərə bilir. Tədqiqatçıların gəldiyi qənaətə görə, sistem probleminin öyrənilməsi iki istiqamət üzrə gedirdi: biliyin sistemliliyi və qanun, qanunauyğunluq problemi. Hər iki istiqamət elmi biliyin təşəkkül tapmasında olduqca böyük rol oynamışdı. Hələ qədim Yunan fəlsəfəsində sistemlilik sözündən istifadə olunmasa da, həmin prinsip bir elmi fənd olaraq, artıq Evklid, Platon tərəfindən geniş şəkildə istifadə olunmuşdur.

Bununla belə «sistem» anlayışının geniş istifadəsi XVIII əsrdən etibarən başlanmışdır. Həmin dövrdə biliyin sistemliliyi ilə bağlı üç tələb irəli sürülürdü:

1. biliklərin əsaslarının tam və əhatəli olması;
2. biliklərin sübütlar üzərində qurulması;
3. əldə edilən biliklərin bütövlülüyü.

Qeyd edilməlidir ki, biliklər sistemi deyiləndə, reallığın özünün xassələri və münasibətləri yox, onların (biliklərin) təşkilinin müəyyən forması nəzərdə tutulurdu.

Burada yalnız Hegelin xidmətini qeyd etmək olar ki, istisna olaraq o, universal biliklər sisteminin və universal dünya sisteminin yaradılması cəhdini həyata keçirmişdir bununla da sistemin qurulmasında ontoloji və qnoseoloji qarşıdurmanı aradan qaldıra bilmişdir. Sonrakı alimlərin səyləri nəticəsində dərketmənin ontoloji əsasları tamamilə kənarlaşdırılır, sistemin təhlili və qurulması ancaq dərketmə subyektin fəaliyyətinin nəticəsi kimi təhlil olunur.

Tədqiqatçılar, sistem proleminə maraq göstərərək, bir məsələdə çətinlik çəkirdilər: «sistem» nədir? Bu anlayışa nə daxil edilməlidir? suallara cavab axtarıb tapa bilmirdilər. Bununla belə artıq belə bir təsəvvür yaranmışdır ki, dünya hədsiz dərəcədə sonsuz və mürəkkəb obyekt olduğu üçün, onun yekun,

cəmləşdirici təsvir bir o qədər də aşlaşıqlı və sadə olmalı idi. Uzun sürən axtarışlar və tədqiqatlardan sonra belə bir qənaətə gəldilər ki, sistem ilə əlaqəli olan ilk növbədə aşağıdakı əlamətlərdir: bütövlülük, tamlıq və səbəb-nəticə əlaqələrin əsasında inkişafın təhlil edilməsi etimalı. Biliklərin sistemliliyi problemi tədricən öz əhatəsini daraldaraq nəzəriyyələr sistemliliyinə, formal nəzəriyyələrin tamlığı probleminə çevrilir.

Qeyd etmək lazımdır ki, elmdə sistemlilik prinsipi istifadə olunsa da, uzun müddət ərzində bir termin olaraq, bundan istifadə olunmurdu. Alimlərin, o cümlədən elm korifeyləri sayılan Pifaqor, Q.Qaliley, İ.Nyuton kimi tədqiqatçıların səyləri nəticəsində elmdə qanunauyğunluqla bağlı bir sıra ideyalar irəli sürülmüşdür:

- Hər hansı bir qanunauyğunluğun, qarşılıqlı əlaqənin yaradılması üçün kifayət edən və zəruri olan xassələr məcmusunun tapılması.
- Bu xassələr arasında riyazi asılılığın axtarılıb tapılması.
- Bu qanunauyğunluğun zəruriliyinin, təkrarlanmasının müəyyən edilməsi.

Bu cür qanunauyğunluqların axtarışı bəzən əsrlər boyu davam edirdi. Eyni zamanda həmin qanunauyğunluqların əsasları məsələsi də həmişə gündəmdə dururdu. Qədim dövrlərdə bu axtarış səbəbiyyət prinsipi kimi meydana gəlmişdir. Bununla belə artıq Pifaqorun teoremlərində biz dicər əsasların də olmasını, onların axtarış yollarını müşahidə edirik: səbəin mahiyyətini bildirməyən, lakin həmin göstəricilərin qarşılıqlı şəkildə asılı olması, qaşılıqlı şəkildə bir-birini müəyyən etməsi hallarını burada müşahidə edirik. Bu cür, xassələrin qanunauyğunluqlarına daxil edilmiş keyfiyyətlər bir növ qrupu təşkil edir ki, yalnız həmin qrup halında həmin xassələr özünü biruzə verə bilər. XX əsrdə yəqin etdilər ki, bu cür əlamətlər qrupu sistemin əlamətlərini bildirərək, «xassələr sistemini» təşkil edir. Məsələn, artıq çoxdandır ki, «düsturlar sistemi» anlayışı alimlər arasında qəbul olunmuş bir ifadədir. Bu cür xassələrin olması, onların sistem halında olub, daha ümumi mənada deyilən «sistem»ə daxil edilməsi zamanı dərk olunur. Məsələn, C.Klir sistemi dəyişənlər məcmusu kimi qiymətləndirir [6]; təbii elmlərdə isə ənənəvi olaraq dinamik sistem onu təsvir edən düsturlar sistemin olması kimi qələmə verilir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, bu cür tədqiqatların nəticəsində sistemin ən vacib əlamətlərindən biri olan özünütəyinetmə, özünümüəyyənetmə prinsipi işlənib hazırlanmışdır. Beləliklə, təbii elmlərin inkişafı nəticəsində sistemin vacib əlamətləri olan: xassələr toplusu tamlığı və bu torlunun özünümüəyyənetməsi – xüsusiyyətləri aşkar edilmişdir.

Beləliklə, sistemin təriflərində müxtəliflik və rəngarənglik elmi idrakın predmetinin formalaşması ilə bağlı mövcud müxtəlif mərhələlərin

xüsusiyyətləri ilə izah etmək olar. Sistem elmi biliyin predmetinin təsəvvüründə bir formadır, bu mənada fundamental mahiyyətli universal kateqoriyadır.

Ədəbiyyat


1. Князева Е.Н. Сложные системы и нелинейная динамика в природе и обществе. // Вопросы философии, 1998, №4
2. Заварзин Г.А. Индивидуалистический и системный подход в биологии // Вопросы философии, 1999, №4.
3. Филосо
4. фия: Учебное пособие для студентов вузов. / В.Ф. Берков, П.А. Водопьянов, Е.З. Волчек и др.; под общ. ред. Ю.А. Харина.- Мн., 2000.
5. Уемов А.И. Системный подход и общая теория систем. – М., 1978.
6. Садовский В. Н. Основания общей теории систем.- М., 1974
7. Клир Дж. Системология. Автоматизация решения системных задач.- М., 1990.
8. Флешиман В.С. Основы системологии. - М., 1982.
9. Балашов Е. П. Эволюционный синтез систем. - М., 1985.


## ПРИНЦИП СИСТЕМНОСТИ И СИНЕРГЕТИКИ В НАУЧНОМ ПОЗНАНИИ


Гусейнова Шалаля Мехман кызы, магистрант, II курс

Бакинский Государственный Университет



Сложные системы и нелинейная динамика в природе и обществе требует особого, системного подхода. В статье рассматриваются исторические аспекты формирования системного и синергетического подхода в исследовании сложных явлений, в том числе и общественных.


## SYSTEM PRINCIP AND SYNERGETRIC IN SCIENTIFIC KNOWLEDGE


Guseynova Shalalya Mehman, the undergraduate, II course

The Baku State University



Difficult systems and nonlinear dynamics in the nature and a society demands the special, system approach. In article historical aspects of formation system and синергетического the approach in research of the difficult phenomena, including public are considered.

# İNSANIN ÖZGƏLƏŞMƏSİNİN SƏBƏBLƏRİ VƏ TƏZAHÜR FORMALARI

Səlimova Ülviyyə,
BDU-nun II kurs magistrantı

*Açar sözlər:* insan, cəmiyyət, özgələşmə, ekzistensializm
*Ключевые слова:* человек, общества, отвыкнуть от своих, экзистенсиализм
*Key words*: man, society, to become a stranger, existentialism

Özgələşmə-insan fəaliyyətinin onun əməyinin, səylərinin, düşüncə və əməllərinin, məhsullarının hakim qüvvəyə çevrilərək ona qarşı durmasıdır. Bu qüvvələr prinsipcə insanın özü tərəfindən yaradılsa da, axır nəticədə onun üzərində hakimlik edir, bütünlüklə bəşəri mövcudluğu heçliyə çevirməyə yönəlir. Özgələşmə vəziyyətində: 1)insanın mövcudluğu üçün zəruri olan vasitələr başqalarına məxsus olur, yəni mövcudluq başqalarından asılı olan prinsiplərlə müəyyən olunur; 2)insanın arzularının predmeti, deməli, onun xoşbəxtliyi və taleyi ona məxsus olmayan, ondan kənarda olan, ondan asılı olmayan, onun üçün əlçatmaz qüvvələrin əlində olur; 3)heç şey öz təbii vəziyyətində olmur. Hər şey zahirən özü olur, əslində isə onun mahiyyəti başqaları tərəfindən müəyyən olunur. Başqa sözlə, belə halda dünya başı üstündə dayanır-hər şey özü deyil, nə isə başqa bir şey kimi mövcud olur; 4)insan üzərində qeyri-insani qüvvələr hökm edir, buna görə də onun fəaliyyəti həmin qüvvələrin təsirinə məruz qalır ki, bu da bəşəri mövcudluq və mahiyyəti sistematik olaraq korlanmağa məruz qoyur. Özgələşmə vəziyyətində bütün bəşəri münasibətlər antibəşəri xarakter alır-hamı bir-birindən asılı olur-“dövlətlilər kasıbların, kasıblar isə dövlətlilərin xidmətinə ehtiyacı olur.” (Russo) (3,səh10) Özgələşmə insan və cəmiyyət üçün faciə, çıxılmaz vəziyyət törədir, zamanın özünəməxsus xəstəliyi, insan, cəmiyyəti və bütün başqa ictimai təsisatların deformasiyasını törədən qüvvə kimi çıxış edir.

Özgələşmə insanla dünyanın, insanla insanın, cəmiyyətlə şəxsiyyətin, zəka ilə varlığın, dillə gerçəkliyin, insanla təbiətin, insanla mədəniyyətin, insanla texnikanın münasibətlərini pozan, onları yadlaşdıran və bir-birinə düşmən edən qüvvə kimi çıxış edir.

Özgələşmə insan fəaliyyətinin və onun nəticəsinin insandan uzaqlaşıb onun üzərində hakimlik edən və ona qarşı yönəldilən qüvvəyə çevrilməsidir. Özgələşmə insanın elə bir vəziyyətidir ki, bu vəziyyətdə onun əsas fəaliyyəti insanın həyatına və şəxsi xoşbəxtliyinə qarşı çevrilir, əmək və onun məhsulları bəşəri ideaalların həyata keçirilməsinə, insan azadlığını boğmağa yönəldilir. Marks özündən əvvəlki filosoflardan fərqli olaraq özgələşmə problemini xüsusi mülkiyyət, onun meydana gəlməsilə əlaqəndirirdi. Onun üçün xüsusi mülkiyyət özgələşmənin səbəbidir. Marks xüsusi mülkiyyətlə özgələşmə

arasında daxili vəhdət tapırdı: xüsusi mülkiyyət hökmən özgələşmə doğurur. O göstərirdi ki, hər cür əmək özgələşmiş əmək deyildir, ancaq xüsusi mülkiyyət doğuran əmək özgələşmiş əməkdir və ancaq bu cür əmək iqtisadi, siyasi, dini, mədəni, psixoloji və s. kimi özgələşmə hallarının səbəbi kimi çıxış edir.

İctimai münasibətlər Marks üçün cəmiyyətin və bəşəri varlığın fundamenti, onların əsasıdır. İctimai münasibətlərdən kənarda insan və cəmiyyət-ağlasığmazdır. ”Bu münasibətləri aradan qaldırarkən, siz bununla bütün cəmiyyəti məhv edirsiniz” deyə o yazırdı. (4,səh125) Başqa sözlə, insanın təbiətə, insana, maddi, etik, estetik və s. sərvətlərə münasibəti cəmiyyətin xarakterindən asılıdır. Cəmiyyət insanın mahiyyətinə uyğun ictimai təsisatlar, insanın inkişafı üçün bəşəri münasibətlər yarada bilirsə, onda insan insan kimi yetişir, insanla dünya arasında harmoniya yaranır, yəni insanla ictimai həyat arasında insanın ictimai təbiətinə uyğun münasibətlər, prinsiplər meydana gəlir.

Marks kapitalizmi “başı üstündə qurulmuş” bir dünya adlandırırdı. Xüsusi mülkiyyətin nəticəsində insanın dünyaya münasibəti öz təbii halından çıxır, əsrlərin əngəlliklərində itib gedir. Xüsusi mülkiyyət insanla təbiət arasında harmoniyanı pozur, insanla insan, insanla maddi və mənəvi aləm, insanla texnika arasında qeyri-bəşəri münasibət yaradır, insanı “simasızlaşdırır” onu “maşının əlavəsinə” çevirir. Marks göstərirdi ki, insanla dünya arasında əlaqə ictimai vəhdət, ictimai məzmun daşıyır.

Ekzistensialistlər özgələşmədən danışarkən Marksa istinad edirlər və az qala onun bütün xidmətini bu problemin qoyuluşu ilə əlaqələndirirlər. Lakin onlarda özgələşmə əvvəlcə bütün cəmiyyətlərdə insanın mütləq atributu hesab edilir, ikinci, onun sinfi və tarixi xarakteri inkar edilir.

Ekzistensialistlər sübut edirlər ki, elm, texnika, tərəqqiyə meyl bəşəri mövcudluğun ilkin, təbii, saf halını korlayır, insanı dəyişməyə məcbur edir. Onların fikrincə, ”dünya necə varsa elə odur, lakin insan nədirsə elə o deyildir”.

Ekzistensialistlər iddia edirlər ki, elm və mədəniyyətin inkişafı, müasir texnika insanın bəşəri keyfiyyətlərini məhv edir, onu şəxsiyyətsizləşdirir, amallarının həyata keçirilməsinə maneçilik edir, insanla dünyanın harmoniyasını pozur. Mədəniyyətin inkişafı, onların fikrincə, insanın zehnini “korlayır”,”total özgələşmə” əmələ gətirir. Buna görə də italyan filosofu R.Qvardianı sübut etməyə çalışır ki, ”müasir mədəniyyət həyata yox, elmə doğru riskdir”. Texnika guya “insanı özgələşdirir, axmaq vəziyyətinə salır, onu udmaqla hədələyir.” (6,səh53) Mədəniyyət, elm və texnika insanda yaradıcı enerjini məhv edir, onu yeni mədəni sərvətlər yaratmaq arzusundan məhrum edir. Bunun nəticəsidir ki, müasir insan daha yeni mədəni sərvət yaratmaq eşqilə yaşamır, o ancaq “əşyalara” sahib olmağa can edir. Müasir insan mədəni sərvətlərdən zövq ala, onlara qiymət verə, yenilərini yarada bilmir. Bu onu göstərir ki, müasir cəmiyyətdə kütləvi mədəni özgələşmə baş verir, insan mədəniyyətdən qidalanma duyğusunu itirir, özünün yaratdığı mədəni sərvətlərə

yad, biganə olur. Bunun nəticəsidir ki, insanla ətraf aləm, mühit, həyat, cəmiyyət arasında özgələşmə baş verir. İnsan özü ilə ətraf aləm arasında bir “ögeyləşmə” hiss edir. Dünya, həyat ona bir ”cəfəngiyat”, ”heçlik”, ”mənasızlıq” kimi görünür, çünki o nə dünyada, nə də həyatda bir cazibədarlıq, orijinallıq tapa bilmir.

Ekzistensialistlər iddia edirlər ki, müasir insanın varlığında fərdiliyin azalması-ictimai olanın güclənməsi prosesi baş verir. İnsan cəmiyyətdən qaçır, ona nifrət edir, fərdlə cəmiyyət arasında bir “ uçurum” var. Fərd hiss edir ki, cəmiyyət onu hər dəqiqə udmağa hazırdır. Cəmiyyət ona əks təsir edir, onun şəxsiyyətini korlayır, arzularını həyata keçirməyə imkan vermir.

Görkəmli psixiatr Z.Freyd yazırdı ki, ”bütün təbii cisimlərdən insana daha həqiqi təsir edən insanın özüdür.” Əsəb sistemi, onun sağlamlığı üçün dərmanlardan insanın olması və onun təsiri daha çox faydalıdır. Freydə görə, psixi xəstəlik, xüsusilə nevroz ünsiyyətin pozulmasıdır. Nevrozun nəticəsi, o yazırdı,” xəstənin real həyatdan ayrılması, onun gerçəklikdən özgələşməsidir” (5,səh82).

Fromm yazırdı ki,”indi hamı xəstədir”;buna görə də “əsrimiz xəstəlik epoxası adlandırıla bilər”.(7,səh146)Bunun nəticəsidir ki,indi hamı hər şeydən şikayətlənir:valideyn övladdan,övlad valideyndən,cəmiyyət şəxsiyyətdən,insan öz taleyindən vəs.Bu hala Freyd kütləvi nevrozun simtomu kimi baxır və göstərirdi ki,onun səbəbi mədəniyyətdədir.

Freyd izah edirdi ki, mədəniyyətdən irəli gələn tələblərin ödənilməsilə insanı xoşbəxt etmək olmaz. Mədəniyyət bəşəri mövcudluqda-psixi həyatda sıxışdırılmış arzuların ödənilməsi üçün nəinki şərait yaradır, hətta həmin arzuları sıxışdırma, boğma aləti kimi çıxış edir. Yeni mədəniyyət yeni qayda-mizan, norma, qanun və ya yeni tabu deməkdir. Onlar isə küll halında qeyri-şüurinin tələb etdiyi, can atdığı azadlıq, sərbəst fəaliyyət sferasının məhdudlaşdırılması məqsədi daşıyırlar.

Qərbin və Şərqin fəlsəfə tarixinin təcrübəsinin ümumiləşdirilməsi ekzistensialistləri belə bir qənaətə gətirmişdir ki, özgələşmənin və digər sosial bəlaların dəf edilməsi üçün insanı və insanlığı hərəkətə gətirmək, onları böyük bir inqilaba hazırlamaq lazımdır. Bu işə yeni ruhi qüvvə intellektual enerji mənbəyi tapmaqla başlanılmalıdır. Ümumi strateji baxımdan ən uğurlu cəhd-özünüdərkə apelyasiyadır. Başqa cərəyanlara mənsub olan filosoflardan da bu istiqamətdə addımlar atılmışdır.

Özünüdərk insanı dünyaya, dünyanı insana yaxınlaşdırır, onunla insanın dünyalaşması və dünyanın insanlaşması proses başlayır. Beləliklə, özünüdərk, insanla dünya arasında hər cür konfliktin, anlaşılmazlığın aradan qaldırılması üçün şərait yaradır; insan öz fəaliyyətində, həyat tərzində, özünə, dünyaya və başqalarına münasibətində əsl inqilab edir. Bu özünüinqilabiləşdirmə dünyanın insana münasibətinin inqilabiləşdirilməsilə nəticələnir ki, bu da bəşəri mövcudluğu qorxu altına alan sosial bəlaların kökünün kəsilməsinə, yer üzündə

xoşbəxtliyin bərqərar edilməsinə aparıb çıxarır. Özünüdərkdən sonra sosial bəlalar qala bilməz, çünki özünüdərk etmiş bəşəriyyət ona məxsus insan başqa növ insana-müdriyə çevrilir. Bu nəticə fraza deyil, xalis həqiqətdir. Çünki insan bəlaların kökünü-öz bədbəxtliyinin səbəblərini başqalarından axtarmağa adət etmişdir. Onun başına bu və ya digər bir iş gələn kimi dərhal təqsirkar axtarır-intiqamçıya çevrilir.

Bəşəriyyətin həyatında hər yeni mərhələ insan haqqında yeni təsəvvürün formalaşması-yeni insan fəlsəfəsinin yaradılması ilə başlayır. Başqa cür ola da bilməz, çünki epoxanın düyün nöqtəsi insandadır; o epoxanı inqilabiləşdirmə enerjisinin daşıyıcısı, onun səmt küləyinin istiqamətləndiricisidir.

Tarixin təcrübəsi sübut edir ki, fəlsəfənin diqqətinin insandan uzaqlaşması acı nəticələrə gətirib çıxarır. İnsanlıq qurtuluş yolunu onda görür ki, fəlsəfə yenidən insana doğru üz çevirir, onun hərəkət və fəaliyyətini yenidən özünə qaytarır. Xarici aləmin dərki sahəsindəki uğurlar insanı bir qədər məst etmiş, nəticədə zəka əsrindən sonra fəlsəfənin nəzər diqqəti insandan uzaqlaşmışdır. Bu da insanlığa baha başa gəlmişdir.

Ədəbiyyat siyahısı

1. F.Q.İsmayılov. İnsan və dünya. Bakı 1994. səh250
2. F.Q.İsmayılov. Müasir qərb fəlsəfəsi. Bakı1991, səh 307
3. А.И.Титаренко, Антидеи.М., 1984, с10.
4. Маркс К. и Энгельс Ф. Сочинение. Том3. стр3.
5.З.Фрейд. Очерки по психологии сексуалности. М-Л.,1921, С 82
6. E Le Technique et L”Homme, P. 1970, p 59
7. Fromm, the Sane Society, l., 1963, p. 146

Резюме

Причины отчуждения и формы проявления

В статъе звучит проблема отчуждения.Отчуждение-это продукт превращения человеческой деятелъности,его труда и стараний,его мыслей и его поступков в силовую властъ против его самого.Хотя в принципе,эти силы созданы самим человеком,в резулътате эти же силы властвуют над ним.

Summary

The reasons of alienation and the display form

In article the alienation problem sounds. Alienation-it a product of transformation human деятелъности, its work and diligence, its thoughts and its acts in power властъ against him. Though basically, these forces are created by the person, in резулътате the same forces dominate over it.

# FƏLSƏFƏDƏ YARADICILIQ PROBLEMİ.

Xələfova Kəmalə
BDU-nun II kurs magistrantı

*Açar sözlər:* Yaradıcılıq; İntuisiya; Mədəniyyət; Ənənə; Elm
*Key words:* Creation; Feeling; Culture; Tradition; Science
*Ключевые слова:*
Творчество; Интуиция; Культура; Традиция; Наука

Yaradıcılıq problemi bugünki günümüzdə o qədər böyük aktuallıq kəsb edir ki, o haqlı olaraq «əsrin problemi» hesab olunur. Yaradıcılıq heç də yeni tədqiqat predmeti deyildir. O, bütün dövrlərin yüksək təfəkürlü elm adamlarını maraqlandırmış və onlar "yaradıcılıq nəzəriyyəsini" yaratmağa cəhd göstərmişlər.

XIX – XX əsrlərin astanasında xüsusi tədqiqat sahəsi kimi "yaradıcılıq haqqında elm", "yaradıcılığın nəzəriyyəsi" və yaxud "yaradıcılıq psixologiyası" meydana gəldi.Elmi yaradıcılığın və yaradıcılıq psixologiyasının öyrənilməsindəki aktuallıq xüsusilə elmi fəaliyyətin təşkilindəki prinsiplərin optimallaçdırılması və intensivləşdirilməsi, həmçinin onun idarə edilməsi ehtiyacı ilə bağlı meydana çıxmışdır.

Yaradıcılıq yeni maddi və mənəvi dəyərlər yaradan, sosial əhəmiyyət kəsb edən və yeniliyə malik olan insan fəaliyyəti kimi müəyyən olunur.Yəni yaradıcılığın nəticəsində həmin vaxta kimi mövcud olmayan, yeni bir şey yaradılır.

Filosoflar yaradıcılığı materiyanın inkişafının əvəzolunmaz şərti kimi müəyyən edirlər.Yaradıcılıq – orijinal ideyaları doğurmaq və fəaliyyətin qeyri - ənənəvi üsullarını istifadə etmək əsasında subyektiv yeninin yaradılması prosesidir. Əslində, yaradıcılıq " İstənilən prinsipial yeni imkanı yaratmaq bacarığıdır" [1].

Yaradıcılıq intellektual qabiliyyət, erudisiya, uzunmüddətli hazırlıq tələb edən şəxsiyyətin fəaliyyətinin yüksək forması kimi xarakterizə olunur. Yaradıcılıq insan həyatının əsası, bütün maddi və mənəvi dəyərlərin mənbəyi hesab olunur.

Yaradıcılıq prosesində yüksəliş, sükunət və eniş dövrləri bir – birini əvəz edir. Yaradıclğın ən yüksək kuliminasiya nöqtəsi ilhamdır. İlhamın yaranmasının xarakterik cəhətləri sırasında xüsusi emosional yüksəlişi, fikrin, düşüncənin dəqiqliyini, subyektiv gərginliyin olmamasını xüsusi qeyd etmək lazımdır. Aşkar olunmuşdur ki, yaradıcı düşüncənin produktivliyi başlıca olaraq iradi cəhdlərdən asılıdır və daimi gərgin işin nəticəsidir.

Fəaliyyət yaradıcılıq kimi yaradılma, kəşf olan istənilən sahədə (elmi, bədii, siyasi və s.) çıxış edə bilər.

Yaradıclığı iki aspektdən nəzərdən keçirmək olar:

1. Psixoloji
2. Fəlsəfi

Fəlsəfə müxtəlif tarixi epoxalarda müxtəlif cür anlaşılan yaradıcılığın mahiyyəti məsələsini nəzərdən keçirir.

Yaradıcılıq problemi digər fəlsəfi problemlər kimi ilkin olaraq mifoloji və dini ənənələr istiqamətində müzakirə olunurdu.Yaradıcılıq Allahın labüd xüsusiyyəti, yoxdan yaradılma ( creatio ex nihilo ) kimi başa düşülürdü.

Yaradıcılıq cəmiyyətin və insanın fəaliyyətinin və aktivliyinin ən yüksək forması hesab olunur.Yaradıcılıq müxtəlif fəaliyyət növlərində özünü göstərən və şəxsiyyətin inkişafına yönəlmiş insan fəaliyyətinin tarixi evolusiya etmiş formasıdır. Məhz yaradıcılıq vasitəsilə tarixi inkişaf və nəsillər arasında əlaqə realizə olunur. O, yeni zirvələri fəth etmək üçün şərait yaradaraq daima insanın imkanlarını genişləndirir.

Yaracılıq fəaliyyətinin ilkin şərti kimi dəyişdirilməsi tələb olunan predmet haqqında biliklərin toplanması prosesi çıxış edir.

Yaradıcılığın əsasında fəaliyyət prinsipi, daha dəqiq desək əmək fəaliyyəti dayanır. Yaradıcılıq yalnız insan nəslinin fəaliyyətinin atributudur. İnsan dünyaya gəldiyi zaman onda yaradıcılıq qabiliyyəti yalnız imkan formasında mövcud olur. Yaradıcılıq təbiətin bəxşişi olmayıb, əmək fəaliyyəti nəticəsində qazanılmış xüsusiyyətdir.

Yaradıcılıq fəaliyyəti mədəniyyətin əsas komponenti, onun mahiyyətidir. Mədəniyyət və yaradıcılıq anlayışları bir-birilə sıx bağlıdırlar. Yaradıcılıqsız mədəniyyət haqqında danışmaq ağlasızmazdır,çünki məhz yaradıcılıq mədəniyyətin sonrakı inkişafıdır ( mənəvi və maddi ).

Yaracılığın subyekti öz məqsədini yalnız sivilizasiyanın tarixi təcrübəsi, bəşəriyyətin mənəvi təcrübəsi ilə qarşılıqlı fəaliyyətdə olmaqla realizə edə bilər.

Yaradıcılıq prosesində meydana çıxan mədəniyyətin müxtəlif keyfiyyət təbəqələri arasındakı qarşılıqlı fəaliyyət ənənələr və novatorluq arasındakı qarşılıqlı əlaqə məsələsini ön plana çıxardır. Belə ki, ənənənin inkişaf dialektikası ilə əlaqədə olmadan elmdə, incəsənətdə, texnikada novatorluğun təbiətini və mahiyyətini anlamaq, mədəniyyətdə, dildə, sosial fəaliyyətin müxtəlif formalarında innovassiyaların xarakterini düzgün izah etmək mümkün deyil. Ənənə yaradıcılığın daxili determinasiyalarından biridir. Ənənə yaradıcılıq aktının əsasını təşkil edərək yaradıcılıq subyektində müəyyən psixoloji ustanovkaları təlqin edərək, cəmiyyətin bu və ya digər tələbatlarını reallaşdırmağa səbəb olur. [6, 255 s.]

Elmi problemi düzgün şəkildə qoymaq üçün, hər şeydən öncə onu irəli sürən həyati faktları və məsələləri həll etmək üçün elmdə mövcud olan və əvvəlki tədqiqatlar tərəfindən toplanmış elmi faktları araşdırmaq lazımdır.

Tamamilə aydındır ki, istər həyatın özünün öyrənilməsi (elmi problemin həll olunması gərəkən praktikanın müəyyən sahəsi), həmçinin məsələnin

elmdəki vəziyyəti öncədən uzunmüddətli ön çalışmalar tələb edir.Bütün elmi tədqiqatlar birbaşa həyatdan götürülməsindən, laborotoriyada alınmasından, sənədlərdən əldə olunmasından asılı olmayaraq faktlara əsaslanır.

İstənilən elmi problemi həll etmək üçün faktların öyrənilməsi mütləqdir.

Yaradıcılıq bir qayda olaraq faktlardan deyil, problemin aşkar edilməsindən və onun həllinə inamdan başlayır. Yaradıcılığın kuliminasiya nöqtəsini yaradıcılıq prosesinə başlanğıc verən, problemin necə həll olunmasını müəyyən edən yeni, əsas, başlıca fikir və ideyanın əldə olunması təşkil edir. Şübhəsiz ki, belə yeni ideyalar hər bir şəxsə deyil, xüsusi hazırlığa malik və öyrənilən sahə ilə dərindən maraqlanan zəkaya, əqlə aşkar olur. Lakin elmi kəşflər və ixtiralar tarixindən məlum olur ki, təkcə elmi və texniki biliklər və düzgün ustanovkalar yeni ideyaları işləyib – hazırlamaq üçün kifayət deyil. Yaradıcılığı hər kəs tərəfindən tətbiq edilə biləcək dəqiq metodologiyaya çevirmək sahəsindəki indiyə qədər olan bütün cəhdlər uğursuzluğa düçar olmuşdur. Yaradıcılığı təmiz məntiqi prosedura çevirmək mümkün deyildir, bu isə o deməkdir ki, yaradıcılıq problemləri məntiqdən xaric olunmalıdır.

Yaradıcı düşüncənin necə fəaliyyət göstərdiyini bilmək onu tamamilə şüurlu şəkildə təşkil olunmuş xüsusi məşqlər təşkil etmək vasitəsilə inkişaf etdirmək və ən əsası yaradıcılıq fəaliyyətini kifayət qədər effektiv şəkildə idarə etmək imkanı verir. Ona görə də yaradıcılıq problemlərini elmin metodologiyası problemlərindən xaric etmək və onu yalnız yaradıcılığın psixologiyasına aid etmək rasional olmazdı.

Yaradıcılıq prosesi bir neçə mərhələdən keçir. A. Puankare yaradıcılıq prosesinin dörd fazasını fərqləndirir:

1. Hazırlıq
2. İnkubasiya və ya yetişmə
3. Fikir aydınlığı
4. Yoxlama

Yaradıcılığın birinci mərhələsi faktlardan başlanmır. Bu proses problemin dərk olunmasından başlanır. Problemi yaradan vəziyyət və faktlar bir qayda olaraq çoxlarına məlum olur. Lakin onları düzgün qiymətləndirmək və problemin analizi əsasında formula etmək imkanını yalnız çox az sayda hazırlıqlı insanlar əldə edirlər. Hiss etmək, tapmaq və problemi düzgün qoymaq yaradıcı düşüncənin əsas xüsusiyyətlərindən hesab olunur. Yaradıcı problemlər hər növdən olan texniki ixtiralarla bağlıdır. Yaradıcılıq problemlərinin mənbələrindən biri kimi çoxları tərəfindən həqiqət kimi qəbul edilən məsələlərin əslində yalnış olduğunun dərki çıxış edir. Məsələn, insanlar çox uzun zaman ərzində yalnışlığa yol verərək belə hesab etmişlər ki, kainatın mərkəzində Yer planeti dayanır. Hətta Ptolomeyin planetlərin hərəkətini izah edən sistemi bu düşüncələri inkar etmir, onları dəstəkləyirdi. Kopernik tərəfindən bu düşüncələrin yalnış olduğunun dərk olunması ona dünyanın geosentrik mənzərəsini yaratmaq imkanı verdi.

Həmçinin yaradıcılıq problemləri mövcud informasiyanın maraqlı və yeni ümumiləşdirilməsi metodunu yaratmaq cəhdindən də doğa bilər. Məsələn, Enşteynin xidməti eksperiment və ya təcrübələr aparmaqdan, yeni informasiyalar toplamaqdan deyil, hamıya və hər kəsə məlum olan informasiyalara yeni yanaşmanın işlənib – hazırlanmasından ibarət idi.

Yaradıcılıq problemi adi suallardan, məsələlərdən onunla fərqlənir ki, onun həlli üçün əvvəlcədən müəyyən olunmuş metod mövcud olmur. Bu metod həllin axtarılması prosesində üzə çıxır, əldə edilir.

Problemin həlli üçün mümkün yolların şüurlu axtarışı yaradıcılığın hazırlıq fazasının davamı hesab olunur.

Bügünki günümüzdə kompyuterlər yaradıcı düşüncənin yardımçıları kimi, xüsusilə, hesablama işlərinin həcmi insanın imkanlarını aşdığı hallarda müstəsna əhəmiyyət kəsb edirlər.

“ Yaratmaq – seçmək deməkdir, ayırd etmək deməkdir. ” [Пекелис В.Д. «Твои возможности, человек!» - М.: Знание, 1984]. Lakin yaradıcılıq prosesi digər proseslərdən onunla fərqlənir ki, problemin həlli üçün variantların axtarışı və qiymətləndirilməsi prosesinə intuisiya daxil olur. Yaradıcı ağıl, sanki avtomatik lazımsız kombinasiyaları kənarlaşdırır. Puankare yazırdı ki, lazımsız kombinasiyalar yaradıcı insanın ağlına belə gəlmir. Onun şüuru çərçivəsində həqiqətən lazımlı kombinasiyalarla yanaşı, sonradan kənarlaşdırdığı bir sıra digər kombinasiyalar da yaranır, lakin onlar da müəyyən dərəcədə xeyirli kombinasiya xarakteri daşıyır.

Yaradıcılıq prosesində şüurlu axtarış çox nadir hallarda problemin həlli ilə nəticələnir. Bir qayda olaraq belə bir an gəlib yetişir ki, bütün mümkün metodlar istifadə olunub, lakin nəticə yoxdur. Bu momentin dərk olunması anından yaradıcılıq prosesinin ikinci fazası – inkubasiya və ya yetişmə mərhələsi başlanır. Dyui yazırdı ki, uzunmüddətli intellektual işdən sonra ağıl sanki, həvəslə işləməkdən imtina edir, yeni fikirlərin yaranması prosesi dayanır. Problemdən bir müddətlik bu cür kənarlaşmanı adətən tədqiqatçının istirahəti kimi qəbul edirlər. Lakin Puankare yazırdı ki, böyük əminliklə demək olar ki, bu istirahət qeyri – şüuri şəkildə əldə olunmuş evristik seçimlə nəticələnən qeyri – şüuri işlə doludur.

Dyui qeyd edirdi ki, bu zaman material özü qruplaşdırılır, faktlar və prinsiplər öz yerlərini tutur və mahiyyət etibarilə problem həll olunur.

Yaradıcılıq prosesinin üçüncü mərhələsini problemin lazımi həllinin bir anda baş verən emosional dərki, insayt təşkil edir. “ Evrika ” tamamilə intuisiyaya aid edilir və bir çox hallarda məntiqi düşüncəyə əks qoyulur.[ Алексеев Н.Г., Юдин Э.Г. «О психологических методах изучения творчества.»- М., Наука, 1971]

Rus riyaziyyatçısı V. Steklov qeyd edirdi ki, “ yaradıcılıq prosesi qeyri – şüuri şəkildə baş verir. Formal məntiqin burada heç bir iştirakı yoxdur, həqiqət

əqli nəticələr sayəsində deyil, bizim intuisiya adlandırdığımız hiss nəticəsində əldə olunur. Həqiqət şüura heç bir sübutsuz daxil olur.”

Yaradıcı düşüncənin qeyri – şüuri işlə əldə etdiyi problemin həlli birdən o dərəcədə aydın dərk olunur ki, bu fikrin daha öncə ağıla gəlmədiyinə sadəcə təəccüb etmək qalır.

İntuitiv yolla əldə edilmiş həllin kritik qiymətləndirilməsi, onun doğruluğunun müəyyənləşdirilməsi və ya verifikasiyası yaradıcılıq prosesinin dördüncü fazasını təşkil edir. Yalnış intuitiv qərarlar adətən avtobioqrafik qeydlərdə göstərilməsələr də, intuisiya qeyd edildiyindən də çox hallarda yalnış nəticələrə gətirib – çıxardığından yoxlama mərhələsi çox vacib hesab olunur. Bu mərhələdə, yoxlama prosesində intuitiv yolla əldə edilmiş nəticələrə məntiqi forma verilir.

Ədəbiyyat siyahısı:

**1 .**Лук Л.И., «Мышление и творчество.» М.- Педагогика, 1976. 250 стр.

**2.** Алексеев Н.Г., Юдин Э.Г. «О психологических методах изучения творчества.»- М., Наука, 1971. 438 стр.

**3.** Пекелис В.Д. «Твои возможности, человек!» - М.: Знание, 1984. 391 стр

**4.** Батищев Г.С «Введение в диалектику творчества» РХГИ, 1997. 236 стр

**5.**Бердяев Н.А «Философия творчества, культуры и искусства.» М,1994. 320 стр

**6.**Гольдентрихт С.С «Творчество как философская проблема.» Сборник статей под ред. А.М.Коршунова, С.С.Гольдентрихта ,М, 1982. 255 стр.

**7.** Кутырев В.А «Осторожно, творчество! Вопросы философии.» 1994. 300 стр.

Резюме:

Творчество не является чем – то мистическим, это продолжение того, что вы уже знаете, или испытали. Творчество имеет много форм выражения, но эти формы могут быть ограничены в том, как они выполняются за счет ресурсов. Творчество также определяется по-разному на индивидуальной основе. Таким образом, язык творчества, является неточным. "Творчество" является повседневным термином, а не научным. Однако, наука, техника и технологии дали возможность развитию творчества в нашей повседневной жизни не только с точки зрения производства, но и с точки зрения увеличения возможностей.

Resume:

As an innate characteristic, creativity is not something mystical; it's an extension of what you already know or have experienced. Creativity has many forms of expression, but may be limited in how it is executed due to resources, be they natural or scientific. Not only is creativity limited, it is also defined differently on an individual basis. Thus, the language of creativity is imprecise.

"Creative" is an everyday term, not a scientific one. However, science, machinery and technology have enabled greater creativity in our daily lives not only in terms of production but also in terms of increasing capabilities.

## SİYASİ SOSİALLAŞMA MAHİYYƏTİ VƏ TƏZAHÜR FORMALARI

Hüseynova Vüsalə
BDU-nun II kurs magistrantı

*Açar sözlər:* Şəxsiyyət, fərd, ailə, sosiallaşma, siyasi sosiallaşma, şəxsiyyətin siyasi sosiallaşması.

Cəmiyyətin siyasi strukturunun təkmilləşməsi qanunauyğun, daimi və mürəkkəb prosesdir. Bu proses müxtəlif istiqamətlərdə və müəyyən amillərin təsiri altında inkişaf edir. Cəmiyyətin siyasi strukturunun məqsədyönlü inkişafı sistemində şəxsiyyətin siyasi sosiallaşması spesifik yer tutur. Siyasi sosiallaşma anlayışı daha geniş məzmuna malik olan sosiallaşma anlayışının təzahürlərindən biridir. Siyasi sosiallaşma mövcud cəmiyyətin siyasi stukturunun təkrar istehsalını, onun üçün xarakterik olan ictimai-siyasi münasibətləri, bu münasibətlərin inkişaf istiqamətini, həmçinin cəmiyyətin siyasi münsibətlərinin subyektinin- şəxsiyyətin spesifik keyfiyyətlərinin təkrar istehsalını səciyyələndirir.(4,s67) Siyasi sosiallaşmanın başlıca funksiyası şəxsiyyətin siyasətə marağıdır və siyasi sferada müəyyən hakimiyyət vəzifələrini yerinə yetirmək bacarığıdır. Siyasi sosiallaşmanın mexanizmi insanın və siyasi sistemin qarşılıqlı fəaliyyətinin bir neçə səviyyəsində fəaliyyət göstərir.

1) Sosial səviyyədə
2) Sosial-psixoloji səviyyədə
3) Şəxsiyyətdaxili səviyyədə

Sosial səviyyədə şəxsiyyətə makrososial amillər- işsizlik, kasıbçılıq, zorakılıq, terror, müharibə təhlükəsi, ekoloji partlayış və digər qlobal problemlər təsir göstərir. Sosial-psixoloji səviyyədə siyasi məqsədlər və sərvətlər böyük və həm də kiçik qrupları təmsil edən şəxsiyyətlərə sirayət edir. Şəxsiyyətdaxili səviyyədə isə şəxsiyyətin davranışını və şüurunu idarə edən tələbat, motiv, faydalı fəaliyyət yönümü, norma vəs. çıxış edir. (2,s522)

Şəxsiyyətin siyasi sosiallaşması ikitərəfli proses kimi nəzərdən keçirilməlidir. Həmin proses bir tərəfdən şəxsiyyətin siyasi informasiyaya, biliklərə yiyələnməsini, onun mövcud siyasi dəyərlərə qovuşmasını, sosial təcrübəni, normaları, vərdişləri mənimsəməsini, digər tərəfdən sosial-siyasi mühitdə fəal fəaliyyət hesabına fərdin mövcud ictimai münasibətlər sistemini sadəcə olaraq təkrar istehsalını deyil, həmçinin daha da inkişaf etdirməsini nəzərdə tutur. Şəxsiyyətin siyasi sosiallaşma prosesi mövcud cəmiyyətin real ictimai münasibətlərinin xarakterini mənimsəməklə məhdudlaşmır. Həmin

prosesdə bu və ya digər fərd siyasi həyata dair toplanmış təcrübəyə, onun xüsusiyyətlərinə, mövcud normalara, sərvətlərə, ənənələrə, siyasi mövqeyə yiyələnir. Nəticə etibarilə sosial qrupların və bütövlükdə cəmiyyətin həyatında iştirak etməyi şərtləndirən keyfiyyət- sosial-siyasi yetkinlik və qabiliyyət formalaşır. Siyasi sosiallaşma prosesində cəmiyyət insanı vətəndaş kimi yetişdirirsə, sosiallaşan fərd real mövcud siyasi struktura və ictimai münasibətlərə yaradıcı təsir göstərməklə cəmiyyətin özünü yeniləşdirir. Siyasət sferasında sosiallaşma şəxsiyyətin formalaşmasına və inkişafına mühüm təsir göstərir. Siyasi cəhətdən sosiallaşma insanın siyasi münasibətlərin və siyasi fəaliyyətin subyekti kimi yaranma prosesini əhatə edir. Siyasi sosiallaşma həm şəxsiyyətin, həm də cəmiyyətin siyasi mədəniyyətinə bilavasitə təsir göstərir.

Şəxsiyyətin siyasi sosiallaşması fasiləsiz proses olub, insanın şüurlu həyatı boyu davam edir. Çünki bir tərəfdən, hər bir insan siyasətin subyekti kimi, siyasi dəyərlərin daşıyıcısı kimi daim təkmilləşməyə, siyasi təsəvvürlərini, biliklərini zənginləşdirməyə möhtacdır. Digər tərəfdən isə, şəxsiyyətin siyasi baxışları, dəyərlər sistemi, qəbul etdiyi siyasi mövqeyi bu və ya digər amillərin təsiri altında dəyişir. Buna görə də siyasi sosiallaşmanın fasiləsizliyi insanın əvvəllər məmimsədiyi dəyərlərin, təsəvvürlərin, vərdişlərin yeniləri ilə əvəz olunması ya bütövlükdə, ya da qismən dəyişməsi kimi qavranılır.(1,s334-335) Fərdin siyasi mövqeyinin dəyişməsi, əvvəllər mənimsədiyi siyasi dəyərlərin yeniləşməsi siyasi sistemin təbiətində baş verən dəyişikliklərlə, insanın sosial statusunun, ictimai mövqeyinin və rolunun başqa səviyyəyə yüksəlməsi və ya enməsi ilə bağlıdır. Fərdin siyasi həyata uyğunlaşması, siyasi proseslərin iştirakçısı funksiyasını yerinə yetirməsi onun həyatının müxtəlif siyasi bilikləri, dəyərləri, normaları, davranış qaydalarını mənimsəyərək siyasi mövqeyini müəyyənləşdirdiyi ayrı-ayrı mərhələlərindən ibarət vahid prosesdir.

Müasir cəmiyyətdə şəxsiyyətin sosiallaşmasının başlanğıcı 3-4 yaş həddinə təsadüf edir. Siyasi həyata dair ilk təsəvvür ailədə, kütləvi informasiya vasitələrindən və yaxın əhatə dairəsindən əldə olunur. ABŞ tədqiqatçıları D. İston və İ. Denis şəxsiyyətin ilkin sosiallaşmasının 4 pilləsini göstərirlər:

a) siyasi həyat haqqında ilkin məlumatların qavranılması və bu məlumatların mənbəyi valideynlər, onlarin siyasi proseslər haqqında rəyi və hadisələrə münasibətidir. Bu pillənin subyekti kimi kiçik yaşlı uşaqlar iştirak edir.
b) siyasətin fərdiləşdirilməsi. Bu pillədə isə siyasətdə və hakimiyyətdə həlledici fiqurlar (prezident, liderlər) uşaq üçün siyasi sistemlə əlaqə yaradan vasitəyə çevrilir.
c) həmin siyasi obrazların “ideallaşdırılması”, yəni onlara münasibəti ifadə etmək əsasında bütünlükdə siyasətə şəxsi münasibətin formalaşması
d) mənimsənilmiş keyfiyyətlərin təsisatlanması. Bu pillə gəncin siyasi həyat haqqında təsəvvürlərinin əhəmiyyətli dərəcədə mürəkkəbləşməsi

və onun siyasətə daha müstəqil şəkildə qiymət vermək cəhdləri ilə səciyyələnir. (2,s527-528)

Fərdin siyasi sosiallaşmasına ilk təsir göstərən başlıca təsisat ailədir. Ailə üzvləri müəyyən sosial qrupa mənsub olmaqla təmsil etdiyi sosial qrupun marağını, tələbatını, siyasi fəaliyyət yönümünü əks etdirirlər. Ailə uşağın siyasət, hakimiyyət, dövlət və digər təsisatlar haqqında siyasi biliklərinin və təsəvvürlərinin əsasını möhkəmləndirir. Ailə əvəzolunmaz əxlaqi-siyasi tərbiyə ocağıdır, sosiallaşmanın mənbəyidir. Tədqiqatlar göstərir ki, ailə nəinki gəncin siyasi baxışlarını formalaşdırır, habelə onun siyasi proseslərin fəal və ya passiv iştirakçısı kimi yetişməsini şərtləndirir. Ailənin uşaqların siyasi sosiallaşmasına təsiri həm də özünü valideynlərə hörmət, valideyn nüfuzu uşaqlarda şəxsiyyətin nüfuzu haqqında ilkin təsəvvürlərin formalaşmasında da özünü göstərir. Ailə mühiti, ailə üzvləri arasında qarşılıqlı münasibətlərinxarakteri, problemləri həll etməyə yanaşma metodları uşağın xarakterində avtoritarizmə meylin, və ya daha mülayim davranış prinsiplərinin möhkəmlənməsinin, üsyankar, yaxud kompromisci şəxsiyyət ünsürlərinin kök atmasını şərtləndirir.

Siyasi sosiallaşmanın vasitələri sırasında siyasi sistemin yaratdığı təsisatların rolu xüsusi əhəmiyyət kəsb edir.(3,s86) Siyasi sistemin siyasi sosiallaşmaya təsiri vasitələri bunlardır:

a) təhsil müəssisələri
b) sosial normalar
c) hüquq normaları

Humanitar fənləri mənimsəməklə gənclər yeni siyasi biliklərə yiyələnirlər. Siyasi proseslərin bilavasitə subyektləri kimi insanın yeni keyfiyyət halına qədəm qoyması orta məktəbin yuxarı siniflərinə və ali məktəb illərinə təsadüf edir. Məhz buna görə də siyasi sosiallaşmanın bu vasitəsinin üzərinə xüsusi məsuliyyət düşür. Şəxsiyyətin siyasi sosiallaşması həm də siyasi həyata bilavasitə cəlb olunmaqla qeyri-rəsmi təşkilatlarda, müxtəlif cəmiyyətlərdə, siyasi partiyalarda və digər siyasi fəaliyyət formalarında yaxından iştirak etməklə başlanır. Siyasi sosiallaşmanın vasitəsi kimi sosial normaların əhəmiyyəti də böyükdür. Bu özünü cəmiyyət üçün gərəkli davranış formalarının müəyyənləşdirilməsində, fərdi davranışın ictimai məqsədlərə uyğun olması və ya onlara zidd gəlməsi probleminin aydınlaşdırılmasında özünü göstərir. Fərdin siyasi sosiallaşmasında hüquq normaları da xüsusi rol oynayır. Hüquq normaları insanın fəaliyyət azadlığını nəzərə almaqla eyni zamanda onun fərdi davranışının, şəxsi mənafelərini ödəmək istiqamətində fəaliyyətinin hüdudlarını müəyyənləşdirir.

Biz yuxarıda qeyd etdik ki, siyasi sosiallaşmanın ilk mərhələsi kimi insan siyasi sistemin və mədəniyyət normalarının mahiyyətini və əhəmiyyətini dərk etmədiyi halda uyğunlaşır. Bu uyğunlaşmada ən çox ailədə təzahür edir.(7) Şəxsiyyətin siyasi sosiallaş-masında gənclik dövrü də özünəməxsus əhəmiyyətə malikdir. Belə ki, artıq gənc fərdlər əldə etdikləri siyasi informasiyanı təhlil

edir, ideoloji mövqeləri müstəqil araşdırmaq səviyyəsinə yiyələnir. Gənclik dövründə fərd bir tərəfdən hakimiyyətlə qarşılıqlı fəaliyyət normalarını və qaydalarını mənimsəməklə, digər tərəfdən artıq öz fəaliyyət yönümünü, siyasi davranış və vərdiş keyfiyyətlərini müəyyənləşdirməklə özünü göstərir. Məhz bu mərhələdə insan həyatın mənası, ictimai həyatda yeri, siyasi inkişaf prosesinə münasibəti barədə vacib məsələləri özlüyündə həll etməyə ciddi səy göstərir.

Insanın siyasi sosiallaşması prosesinə kütləvi informasiya vasitələrinin də təsiri böyükdür. Bu onunla səciyyələnir ki, insanın siyasi cəhətdən sosiallaşmasının xarakterini və istiqamətini nəticə etibarilə siyasi mədəniyyətinin səviyyəsini müəyyən edir. Müasir dövrdə siyasi sosiallaşma prosesində 2 meyl təzahür edir. Həmin meyllərdən birincisi, şəxsiyyətin fəallığının artmasını, siyasət haqqında informasiyaya malik olduğunu, kütləvi siyasi davranışın və şüurun dəyişilməsini, əvvəllər siyasətdən uzaqlaşan adamların artıq siyasətə cəlb edildiyini sübuta yetirir. Ikinci meyl isə öz ifadəsini vətəndaşların siyasi özgələşməsində, onların fəliyyətsizliyində, rəsmi siyasətə inanmamasında, həmçinin siyasi təsisatları, partiyaları, dövləti zəif müdafiə etməsində tapır.

Siyasi sosiallaşma sisteminin təkmilləşdirilməsi və inkişafı onun funksiyalarının ahəngdar sürətdə əlaqələndirilməsi ilə bağlıdır. Şəxsiyyətin siyasi sosiallaşmasının funksiyalarının ən əsas məqsədi cəmiyyət üzvlərində yüksək siyasi mədəniyyətin və vətəndaşlıq ləyaqətinin formalaşmasına nail olmaqdan ibarətdir. Ən başlıca funksiyaları bunlardır: informasiya, sərvət yönümü, istiqamətverici-normativ, davranış-fəaliyyət.

Siyasi sosiallaşmanın informasiya funksiyasının mahiyyəti insanda geniş və dərin siyasi təfəkkürün, siyasi düşüncə tərzinin formalaşmasənə təmin etməkdir. Bunun üçün insan ən zəruri siyasi biliklərə yiyələnməklə ölkə daxilində, bütün dünyada baş verən siyasi hadisələrə dair məlumatları düzgün qiymətləndirməlidir. Informasiya funksiyası siyasi münasibətlər sferasına aid olan idraki vəzifələrin həllinə istiqamətlənir. Bu funksiyasının həyata keçirilməsi insanın yalnız sırf siyasi biliklərlə məlumatlandırılmasını deyil, həm də ictimai həyatın digər sferalarına aid olan zəruri biliklərin vətəndaşların şüuruna çatdırılmasını ifadə edir.

Siyasi sosiallaşmanın sərvət(dəyər) yönümü funksiyasının həyata keçirilməsi prosesində insan mövcud cəmiyyətdə tarixən qərarlaşan siyasi münasibətlər, sərvətlər və davranış sisteminə cəlb olunur, fərdlərdə müəyyən siyasi təfəkkür mexanizmi təşəkkül tapır. Bu funksiyanın köməyilə insanda idraki, davranış və emosional xarakterli xüsusi sərvət yönümü formalaşır. Sərvət yönümü funksiyası şəxsiyyətin siyasi mədəniyyətinin dünyagörüşü istiqamətini müəyyənləşdirir. Istiqamətverici-normativ funksiyasının siyasi sosiallaşma da mühüm əhəmiyyət kəsb edir. Bu funksiya şəxsiyyətin siyasi informasiyanı dərk etməsi və mənimsəməsi naminə onun müəyyən mövqeyə yiyələnməsini təmin etməyə istiqamətlənir, siyasi hadisə və proseslərə obyektiv

münasibətin formalaşmasına səmərəli təsir göstərir. (5,s234) Davranış-fəaliyyət funksiyası isə insanın şəxsiyyət-vətəndaş mövqeyinə yüksəlməsini, mövcud cəmiyyətin siyasi bilik, norma və prinsiplərini əməli fəaliyyət prosesində reallaşdırmağı özündə təcəssüm etdirir. Bu isə özünü siyasi fəallıqda təsdiqləyir. Siyasi mədəniyyət həmişə bu və ya digər formada siyasi fəaliyyətlə bağlıdır və bunsuz mümkün deyildir. (6,s52-54) Davranış-fəaliyyət funksiyası təkcə siyasi fəaliyyət istiqamətini deyil, həmçinin sosial davranış qaydalarına yiyələnməyə kömək edir. Sosial davranış təkcə fəaliyyət yox, fəaliyyətin istiqaməti ilə müəyyən olunur.

Siyasi sosiallaşmanın mühüm əhəmiyyət daşıyan tipləri də mövcuddur. Bunlar aşağıdakılardır:

- harmoniyalı (ahəngdar) tip- insanla hakimiyyət təsisatları arasında normal münasibətləri, cəmiyyətdə hökm sürən mövcud hüquqi qaydalara rasional və səmimi münasibəti, dövlət quruluşuna fərdlərin şüurlu rəğbətini, adamların hüquq və vəzifələrini düzgün dərk etməsini, kollektiv və cəmiyyət qarşısında məsuliyyətini, vətəndaşlıq borcunu dərk etdiyini ifadə edir.
- hegemon tip- insanın hər hansı “özgə” siyasi sistemə, siyasi qaydalara, hakimiyyətə neqativ, kəskin tənqidi münasibəti səciyyələndirir.
- plyuralist tip- insanın demokratik mahiyyətini, onun demokratik təfəkkür tərzini əks etdirir. Fərdin cəiyyətin digər üzvləri ilə hüquqca bərabərliyini, onların hüquq və azdalıqlarına hörmətini, özünün siyasi ehtiraslarını dəyişə bilmək və yeni siyasi dəyərlər qəbul etmək qabiliyyətini əks etdirir.
- münaqişəli tip- qruplararası mübarizə zəminində və qarşılıqlı asılılıqda olan mənafelərin bir-birinə zidd olması əsasında formalaşır. Siyasi sosiallaşmanın bu tipi onunla səciyyələnir ki, insan siyasətdə iştirakın məqsədini mənsub olduğu sosial qrupun loyal mövqeyinin qorunub saxlanmasında və həmin qrupu siyasi əleyhidarlara qarşı mübarizədə müdafiə etməkdə görür.
- konyuktur tip- insanın siyasi görüşlərinin, təsəvvürlərinin, inamının və davranışının elə bir şəraitdən asılılığını ifadə edir ki, o, bu şəraitdən təmənnalı məqsədlər üçün , öz məhdud mənafeyi naminə istifadə etməyə səy göstərir.

Siyasi sosiallaşmanın digər tipləri də mövcuddur. Bunlar bütövlükdə şəxsiyyətin təşəkkülünə imkan yaradır, bu isə insanın nəzəri və əməli, təbliğat və inzibati xarakterli siyasi fəaliyyətinə təkan verir.

Yuxarıda deyilənlərdən nəticə çıxardaraq belə bir qərara gəlmək olar ki, şəxsiyyətin siyasi dəyərləri, normaları, davranış qaydalarını mənimsəməsi və onları öz fəaliyyətində reallaşdırması hadisəsi siyasi sosiallaşma anlayışını ifadə edir.

Ədəbiyyat siyahısı

1. Əli Əhmədov, Həsən Şirəliyev "Politologiya" , Bakı-1997
2. Məcid Əfəndiyev "Siyasi elmin əsasları", Bakı-Siyasət-2004
3. Андреева Г.С. Сочиалъная психология. М,1980, ст 86
4. Философская энциклопедия. Т-5,М-1970
5. Политология. Под ред. Г. В. Полуниной
6. Бро. Ф. Политология. М.1992.
7. http: //www.toplumvesiyaset.com/yaziOku.php?id=37

Summary

In the article is spoken the essence of the political socialitization which one of the appearance forms of socialization is. From the moment of birth to maturity of the individual is here dealing with political knowledge, norms, behaviors, values and etc. In the article is dealing with function of the political socialization and the importance of this process is specially marking in the development system of the political structure of society and in the elucidation of the human's political position.

Аннотация

В статье отмечается, о сущности политической социализации, которая является одним из форм проявлении социализации. Здесь речъ идет о политических знаниях, норм, поведений, ценностях которые индивид овладевает с момента рождения до конца жизни. В статье отмечая функции политической социализации говорится о том, что этот процесс важен для системы развития политической структуры общества и для жизни человека.

## ŞƏXSIYYƏTIN SOSIALLAŞMASI.ŞƏXSIYYƏTLƏ SOSIAL MÜHIT ARASINDAKI MÜNASIBƏTLƏR

Əliyeva Ləman,
BDU-nun II kurs magistrantı

*Açar sözlər:* şəxsiyyətin sosiallaşmasi, sosial mühit, sosial-psixoloji münasibətlər

*Ключевые слова:* социализация личности, социальная среда, взаимодействие среды и личности.

Keywords: socialization of the person, the social environment, interaction of environment and the person.

Müasir elmi ədəbiyyatda birmənalı və hamı tərəfindən qəbul olunmuş vahid şəxsiyyət anlayışı demək olar ki, yoxdur. Şəxsiyyət anlayışının özünü dəqiqləşdirməyə ehtiyac vardır. Şəxsiyyət anlayışı ancaq ictimai münasibətlər

sistemində, fərdin öz sosial rolunu necə başa düşməsi, ona necə münasibət bəsləməsi və onu yerinə yetirməsi nəzərə alınmaqla düzgün mənalandırıla bilər. Bu baxımdam fəaliyyət, şüur və şəxsiyyət problemlərini qarşılıqlı əlaqədə nəzərdən keçirən L. N. Leontyevə haqq qazandırmaq olar: “ Şəxsiyyət olaraq doğulmurlar, şəxsiyyət olaraq təşəkkül tapırlar ”.

Şəxsiyyət olmaq üçün insan müəyyən inkişaf yolu keçməlidir .Sosial mühitlə qarşılıqlı əlaqədə olmayan uşağı hələ sözün əsl mənasında insan adlandırmaq olmaz .Bununla yanaşı hər bir şəxsiyyət onun daxili strukturunu təşkil edən xüsusiyyətlərə, keyfiyyətlərə malikdir.

Şəxsiyyətin xarakteristikası məsələsinə iki tərəfdən yanaşmaq olar:

1. Onun strukturu nöqteyi-nəzərindən;

2. Onun başqa insanlarla ünsiyyət, ətrafdakılarla qarşılıqlı fəaliyyət nöqteyi-nəzərindən.

Şəxsiyyətin sosiallaşması dedikdə şəxsiyyətin müəyyən sosial şəraitdə formalaşması, insan tərəfindən sosial təcrübənin qavranılması prosesi və bu prosesdə insanın bu sosial təcrübəni öz şəxsi dəyərlərinə çevirməsi, cəmiyyətdə və ya qrupda qəbul olunmuş davranış normalarının və şablonlarının öz seçimi nəticəsində şəxsi davranış sisteminə daxil etməsi nəzərdə tutulur. İnsanın düşüncələri, davranış normaları, mənəviyyat normaları mövcud cəmiyyətdə qəbul olunmuş normalarla müəyyən olunur.

Azərbaycan-Böyük Britaniya qarşılıqlı faydalı əməkdaşlığı və dostluğu həm də çox mühüm iqtisadi amillərlə şərtlənir. Bu baxımdan Böyük Britaniya Azərbaycanın təbii-coğrafı ehtiyatlarının işlənməsində və bununla respublika iqtisadiyyatının sürətlə yüksəlməsində çox geniş potensiala malik bir ölkədir. Onun həm böyük maliyyə imkanları. qabaqcıl texnologiyası, həm də bütün dünyada mühüm iqtisadi və dövbtlərarası siyasi əlaqələri mövcuddur. Bu dövlət nəinki təkcə Azərbaycanın neft ehtiyatlarının işlənməsi və dünya arenasına çıxarılması sahəsində, həmçinin neft kimyası, neft maşınqayırması, metallurgiya, emal sənayesi və s. Kimi mühüm əhəmiyyət kəsb edən sahələrin yenidən qurulması, Azərbaycan iqtisadiyyatmın dünya iqtisadiyyatı ilə inteqrasiya olunmasını sürəyləndirmək sahəsində ölkəmizlə səmərəli əməkdaşlıq imkanlarma malikdir.

Böyük Britaniya dövlətini Azərbaycanla iqtisadi əməkdaşlığa sövq edən bir sıra digər amillər də mövcuddur: əvvəla, Azərbaycanın əlverişli və əhəmiyyətli geosiyasi mövqeyi və Avropa-Qafqaz-Asiya nəqliyyat kommunikasiya əlaqələrinin mərkəzində yerləşməsi; ikincisi, MDB respublikaları arasında tam müstəqil siyasət yeritməsi, demokratik hüquqi və dünyəvi dövbt quruculuğu və bazar iqtisadiyyatı yolunu tutması; üçüncüsü, xarici siyasətdə Qərb, xüsusib də Avropaya meyl göstərməsi, regionda

Avropanın əsas nüruz və maraq dairəsinə çevrilməsi; dördüncüsü, əsasən Fransa və Almaniya ib six iqtisadi və siyasi əlaqə saxlayan İrana qarşı bu bölgədə alternativ geosiyasi əhəmiyyətli dövbt olması və s. bu amillər sırasındadır.

Böyük Britaniyanın nüflızlu fırma və şirkətlərindən "Kayzer injirinq", "Britiş Petroleum", "Zon-Braun" və s. şirkət rəhbərləri ilə aparılan danışıqlar zaman; Az'rbaycan iqtisadiyyatının potensial imkanları, neft məhsulları istehsalı və email, neft kimyası, neft maşınqayırması, elektrotexnika, yüngül sənaye və kənd təsərrüfatı məhsullarının emalı sahəsində əməkdaşlığın yolları, metod və istiqamətbrinin müəyyənləşdirilməsi üçün ikitərəfli ortaq maraqları müəyyənbşdirilmişdir.

Azərbaycan-İngiltərə münasibətbrinin yaxşılaşmasına yə bu iki dövbtin bir-birilə daha six əlaqələrə malik olmasına təkan verən əsas amilbrdən biri də 1994-cü il sentyabrın 20-də Xəzərdəki neft yataqlarınm istismarına dair Bakıda imzalanmış "Əsrin müqavibsi"ndə Böyük Britaniyanın çox nütuzlu nefl şirkətbrinin (Britiş Petroleum-BP başda olmaqla) iştirakı ola bilər.

Böyük Britaniyanın rəsmi dairəbri Azərbaycanla iqtisadi, siyasi mədəni əlaqəbrə xüsusi diqqət yetirdiyindən 1996-cı ildə Azərbaycan Respublikası hökuməti ilə İngiltərə hökuməti arasında investisiyaların təşviqi və qorunması haqqında sazış imzalanmışdır. Böyük Britaniya ilk Qərb dövbtidir ki, Azərbaycarta qoyulacaq maliyyə vəsaitinə dövlət zəmanət verir və bu ölkəyə hər cür investisiya qoyuluşunu alqışlayır. Məhz elə bunun nəticəsidir ki, hələ 1996-cı ilin ortalarma qədər Böyük Britaniyaya məxsus 50-yə yaxın müxtəlif şirkət və kompaniyalar Azərbaycanda neft, qaz, metallurgiya, rabitə, emal və s. sənaye sahələrində böyük layihələrin reallaşmasında yaxından iştirak etmişlər. Bu gün onların sayı müntəzəm olaraq artmaqdadır. Bunlarm içərisində nəinki təkcə Böyük Britaniyanın, hətta Avropada və dünyada məşhur olan "Kayzer injirinq", "Britiş Petroleum", "Zon-Braun", "Jordlayd" kimi kompaniyalar xüsusilə fərqlənirlər.

Böyük Britaniya kapitalmm payı Azərbaycanm idxal-ixrac əməliyyatlarında günü-gündən artır. İki ölkə arasında neft, kimya, metallurgiya və əlvan metalların istehsalı, ərzaq və xalq təbbatı məhsulları istehsalı və satışı ilə bağlı 17 müştərək müəssisə iştirak edir. Böyük Britaniya ilə yaradılan iqtisadi əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətbri daim artmaqdadır. Yuxarıda göstərdiyimiz kimi İngiltərə ib olan bu iqtisadi əlaqəbr Azərbaycanda bazar iqtisadiyyatınm hərətrəfli formalaşmasma güclü təkan verəcəkdir.

Dünyanın inkişaf etmiş və nüfuzlu dövbtbri kimi Qərbi Avropa ölkəbri də Qafqazda, o cümlədən Azərbaycanda xüsusi strateji siyasi və iqtisadi maraqlara malikdirbr. Onu da nəzərə almaq lazımdır ki, bu dövlətlər bütün dövbtbrdə öz maraqlarını qorumağa cəhd göstərən ölkəbr sırasında həmişə fəallığı ilə seçilmişbr. Təsadüfı deyildir ki, özünün regiondakı yeri və rolu, zəngin neft yataqları ib Avropa siyasətçibri və iş adamlarını əsrin əvvəllərində də, sonunda

da eyni dərəcədə özünə cəlb edən Azərbaycan Qərbi Avropa ölkəbrinin Qafqaz siyasətinin fəal iştirakçılarmdan biri olmuşdur.

Fransa Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra onun müstəqilliyini tanıyan ilk Avropa ölkələrindən biri olmuşdur. Fransa ib Azərbaycan arasmda siyasi sahədə olduğu kimi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə də geniş əlaqəbr yaranmışdır. Fransa dünya iqtisadiyyatında böyük iqtisadi potensiallara malik olduğu üçün Azərbaycan bu ölkə ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Hal-hazırda Fransanm "Elt-Akiten" və "Total" şirkətləri Xəzər dənizinin Azərbaycan sektorunda yerbşən "Lənkəran-dəniz" və "Talış-dəniz" neft yataqlarımn istismar edilməsində iştirak edir.

Hazırda Fransa və Azərbaycan arasında iqtisadi əməkdaşlıq sahəsində aşağıdakı müqavibbr mövcuddur:

1. Azərbaycan Respublikası və Fransa Respublikası hökuməti arasmda ərzaq
yardımı göstərilməsi haqqmda saziş;

2. Fransa və Azərbaycan Respublikaları hökumətbri arasında Bakıda Hövsan sutəmizləmə stansiyasmın genişləndirilməsi və yenidənqurma haqqmda maliyyə yardımı;

3. Fransa və Azərbaycan Respublikaları arasında investisiyaların qarşılıqlı stimullaşdırılması və qruplaşması barədə saziş;

4. Azərbaycan Respublikası hökuməti ilə Fransa Respublikası hökuməti arasında ikiqat vergiqoymanın aradan qaldırılması, gəlir və kapitala görə vergiləri ödəməkdən yayınmanm qarşısının alınması haqqmda konvensiya;

5. Gəncə avtomobil zavodunda "Renault" yük avtomobilbrinin yığılması ilə bağlı Azərbaycan Respublikası hökuməti ilə Fransa arasında saziş;

6. Fransa və Azərbaycan Respublikaları arasında hava nəqliyyatı sahəsində
sazış.

Bundan əlavə,2004-cü il yanvarın 22-də Paris şəhərində Azərbaycan Respublikasi hökuməti və Fransa respublikası hökuməti arasında Azərbaycan Respublikasının 19 mart 2004-cü il tarixli 606-İİQ saylı qanunu ilə təsdiq edilmiş "Gömrük hüquqpozmalarının qarşısınm alınması, təhqiqatınm aparılması, aşkar edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında" saziş imzalanmışdır. Sazişdə hər iki dövbt arasında gömrük hüquqpozmalarının qarşısmın alınması və bu sahədə müvafıq tədbirlərin həyata keçirilməsi, məlumat mübadibsi və texniki yardımların göstərilməsi ilə bağlı məsələlər tənzimlənir. Sazişin fəaliyyət dairəsi hər iki tərəfin gömrük ərazisi hesab olunur. Hər iki tərəfın gömrük idarələri gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılması məqsədib bu sazişin müəyyən etdiyi şərtbrə müvafıq olaraq bir-birinə yardım göstərilir. Bu yardım bir tərəfin gömrük idarəsi tərəfındən

gömrük rüsumları, vergibri, cərimə və ya başqa məbbğbrin digər tərəf adından yığılmasını nəzərdə tutmur.

Fransa-Azərbaycan iqtisadi-ticarət əlaqəbri keçən əsrin 90-cı illərinin sonlarından başlayaraq özünün sürətli inkişaf mərhəbsinə qədəm qoymuşdur. Fransa 2002-ci ildən başlayaraq Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarının siyahısında ilk beşlikdə yer alır. 2005-ci ildə Azərbaycanın əsas ticarət tərəfdaşları arasında Fransanın payı əmtəə dövriyyəsində 6,2%, idxalda 2,9 %, ixracda 9,4 % təşkil edir. Bu ilbr ərzində Azərbaycana idxal olunan məhsullar arasında əsasən müxtəlif avadanlıq və maşınlar, neft-qaz boruları, ərzaq məhsulları, kimya sənayesi məhsulları üstünlük təşkil edib. Azərbaycandan Fransaya ixracda neft və neft məhsulları (təxminən 90 %) üstünlük təşkil edir. Fransız kapitalınm iştirakı ib Azərbaycanda istehsal, xidmət və digər sahəbrdə 30-a yaxın şirkət fəaliyyət göstərir. Bunların arasında" Total Finna Elf', " Alcotel" ," Societk Generale" , " Gastel "," Entrepose"," Geoservice" və s. şirkətbrin göstərmək olar.

Azərbaycan və Fransa arasmda Fransa Hökumətinin " Yeni inkişaf edən iqtisadiyyətlər üçün fond (RFE) " proseduru çərçivəsində əməkdaşlıq həyata keçirilir. Bu prosedur çərçivəsində Fransa hökuməti hər il dünyanın 15-ə dək ölkəsinə müxtəlif məbbğbrdə maliyyə vəsaiti (güzəştli kredit şəklində) ib yardım

edir. Bu vəsaitlər yalnız qeyri-kommersiya, yəni sosial sahələri deyil, o cümlədən şəhər nəqliyyatını, ətraf mühiti (tullantı və su təchizatı layihələri və s.) əhatə edir. RPE proseduru ilə Fransa tərəfi ilk dəfə olaraq Hövsan qəsəbəsində sutəmizləmə qurğusunun yenidən qurulması məqsədilə Azərbaycan tərəfinə 35 milyon avro məbbğində güzəştli kredit vermişdir. Layihə ilə bağlı müvafiq hökumətlərarası protokol 14 may 2003-cü il tarixdə Bakı şəhərində Azərbaycan-Fransa iqtisadi Komissiyasmm üçüncü iclası çərçivəsində imzalanmışdır.

Azərbaycan Fransanın ticarət əlaqəbrinin ən çox inkişaf etdiyi Qafqaz ölkəsidir. Fransa-Azərbaycan ticarət mübadiləsi 2003-cü ildə 198 milyon avro təşkil etmişdir(ixrac-409 milyon avro və idxal-149 milyon avro). 2003-cü il Azərbaycan statistikasına görə Fransa Azərbaycanın Avropada üçüncü ticarot partnyoru olmuşdur. Neft sahəsi üstünlük təşkil edir, amma xalq tələbatı malları da artmaqdadır (kosmetika, geyim, mobil). 2004-cü ildə ticarət dövriyyəsində Fransanın payı idxalda 109,48 milyon dollar, ixracda 66,63 milyon dollar təşkil etmişdir. 2006-cı ilin yanvar-dekabr ayları ərzində Fransa Respublikasının Azərbaycan Respublikasının xarici dövriyyəsindəki payı 3,5 %, o cümlədən idxalda 1,06 %, ixracda isə 5,5 % təşkil etmişdir. Bu iqtisadi göstərici 2003-2004-cü illərlə müqayisədə xeyli aşağı düşmüşdür. 2006-cı ilin yanvar-dekabr ayları ərzində Azərbaycan Respublikasının Fransa Respublikası ilə ümumi ticarət dövriyyəsinin həcmi 403,3 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 55,8 milyon dollar, ixracın həcmi isə 347,5 milyon dollar təşkil etmişdir.

Bu dövr ərzində xarici ticarət saldosu 291,7 milyon ABŞ dolları təşkil etmişdir. 2005-ci ilin yanvar-dekabr ayları ilə müqayisədə Fransa Respublikası ilə ümumi ticarət dövriyyəsi 23,7 %, o cümlədən idxal 54,2 %, ixrac 14,6 % azalmışdır.

2006-cı ilin yanvar-dekabr ayları ərzində idxalın 22,5 %-ini maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatura, 19,9 %-ini kimya sənayesi məhsullan, 18,3 %-ini qara metallar və onlardan hazırlanan məmulatlar, 10,6 %-ini çap məhsulları, 8 %-ini ölçü, nəzarət, tibbi alət və aparatlar, 4 %-ini nəqliyyat vasitələri və hissəbri, 16,6 %-ini digər məhsullar təşkil etmişdir. Azərbaycanla Fransa arasında iqtisadi və ticarət əlaqələri inkişaf etməkdə davam edir və Azərbycanın idxal-ixrac əməliyyatlarında Fransa özünəməxsus yer tutur. Eyni zamanda Fransa ib səmərəli əməkdaşlıq əlaqələri qabaqcıl dünya texnologiyalarınm, investisiya və xarici kapitalın respublikamızın iqtisadiyyatma daha sürətlə daxil olması, qeyri-neft sektorunun inkişafının sürətbndirilməsi sahəsində geniş imkanlar açır.2010-cu ilin fevral ayı ərzində Azərbaycanın ümumi ixracında Fransanın payı 213797,40 min ABŞ dolları-6,65 % təşkil etmiş və 8-ci yeri tutmuşdur. Azərbaycanın Fransadan idxalında əsas yeri maşın və elektrik aparatlan, Elektrotexniki avadanlıqlar və onların hissəbri, nəqliyyat vasitələri və onların eytiyat hissələri, qara metallar və onlardan hazırlanan məhsullar, əczaçılıq

məhsulları və xalq istehlakı malları, ixracda isə xam neft məhsulları, aluminium və ondan hazırlanan məhsullar əsas yer tutur.

Beləliklə, Avropanın ən inkişaf etmiş ölkələrindən Böyük Britaniya, Almaniya, Fransa və İtaliya ilə Azərbaycanın iqtisadi əlaqələrinin getdikcə genişlənməsi həmAzərbaycanda bazar münasibətbrinin inkişafına, sivil təfəkkürə malik və bazar iqtisadiyyatının tələblərini düzgün dərk edən milli kadrların yerləşməsinə, gələcəkdə ağır maşmqayırmaya keçmək imkanları yaradan sivil yüngül sənaye sahələrinin yaradılmasına, həm də ölkəmizin regionlarınm tarazlı inkişafma şərait yaradacaqdır.

## Ədəbiyyat

1. H.Əliyev "Azərbaycan nefti dünya siyasətində" Bakı, 2007
2. İ.Əliyev "Strategiya", Bakı, 2003.
3. Ə.N.Ələkbərov, A.Ə.Əlizadə "Beynəlxalq marketinq", Bakı, 2008
4. G.Z.Yüzbaşıyeva, Z.S.Abdullayev. "Azərbaycanın neft və qaz strategiyası; problemlər və proqnozlar." Bakı, 2006
5. Maykl Porter "Konkurensiya " Moskva, Sankt-Peterburq, Kiyev, 2005
6. F.Kotler, K.L.Kotler "Marketinq, menecment ekspres kurs" Kiyev, Xarkov, Minsk.2008
7. "Ekonomiçeskaya teoriya" M, 2007

8. A.Saul, A.N.Şakaraliev "Orqanizaçsiyi predprinimatelskoy deyatelnosti" Bakı, 2006
9. Nüsrəddin Məmmədov "Azərbaycanda milli iqtisadiyyatın formalaşmasının xüsusiyyətləri" Bakı, 2009
10. "Azərbaycan Respublikasının dövbt neft fondu" Bakı, 2006
11. S.A.Lanasova, B.A.Açkova "Mejdunorodnaya politika i mejdunorodnoya otnoşeniya" M, 1999
12. "Sahibkarhğın əsasları". Bakı, 2008
13. Aleksey Kireyev "Mejdunorodnaya ekonomika" Kiyev, Xarkov, Minsk, 2006
14. H.N.M.Mustafayeva "Formirovanie makroekonomiçeskix proporsiyi transformiruemoy ekonomike" Bakı, 2005
15. 0qtay Məmmədli, Fazil Ismayılov "Bazar iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsi" Bakı, 2006
16. "Azərbaycanın xarici ticarəti" Bakı, 2007

## SOSİAL İŞ VƏ SOSİOLOGİYA

## P.A.SOROKİNİN SOSİAL STRATİFİKASİYA NƏZƏRİYYƏSİ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN SƏMƏRƏLİ TƏŞKİLİNİN METODOLOJİ ƏSASLARINDAN BİRİ KİMİ

Dosent T.B.Ağayev, dosent A.N.Məmmədova

*Açar sözlər:* stratifikasiya, cəmiyyət, siniflər, sosial bərabərsizlik, sosial müdafiə

*Ключевые слова:* стратификация, общество, классы, социальное нера-венство, социальная защита
*Keywords***:** stratification, society, classes, social inequality, social protection

P.A.Sorokinin nəzəri və elmi irsinin təhlil edilməsi onun sosial stratifikasiya və mobillik nəzəriyyəsinin bütün əsas müddəalarının böyük metodoloji əhəmiyyətini göstərir. Heç də təəccüblü deyildir ki, bu elmi irsdən bütün ölkələrin elmi institutlarının alimləri istifadə edir. Qlobal miqyasda baş verən obyektiv prosesləri əks etdirən elmi postulatların məcmusu kimi, sosial stratifikasiya və mobillik nəzəriyyəsi ideoloji fərqlər və milli sərhədlər üzərində yüksələn bir nəzəriyyəyə çevrilmişdir.
Sosial müdafiə sisteminin əhəmiyyəti nöqteyi-nəzərindən qeyd etmək lazımdır

ki, o, istər qlobal, istərsə də milli miqyasda sosial sabitliyin, yəni istənilən cəmiyyətin, o cümlədən Azərbaycan cəmiyyətinin milli təhlükəsizliyinin qorunub saxlanmasının ən mühüm və ya əsas amilidir. Göstərmək zəruridir ki, hazırda Azərbaycan Respublikasında bu sahədə fəallıqlar nəzərə çarpır, əhalinin sosial müdafiəsinin sistemli, kompleksli xarakterini, onun statusunu və funksiyalarını müəyyən edən qərarların qəbul edilməsi zamanı hakimiyyətin bütün strukturlarının rəhbər tuta bildiyi konsepsiya işlənib hazırlanmışdır.
Azərbaycan cəmiyyəti üçün sosial təhlükələr ilk növbədə vətəndaşların, qrupların, təbəqələrin və bütövlükdə cəmiyyətin sosial maraqları, tələbatları əleyhinə yönələn təhlükələrin istiqaməti ilə məüəyyən edilir. Müasir Azərbaycan cəmiyyətində proqressivlik edən sosial təhlükələrin bu növlərinin mənbəyini mülkiyyətin, gəlirlərin, nemətlərin və sərvətlərin bəzi hallarda ədalətsiz bölgüsü təşkil edir. Söyləmək kifayətdir ki, əhalinin sosial tələbatlarının tam təmin edilməməsi ölkə əhalisinin sayına görə öz miqyasları baxımından 60-70 faiz arasında tərəddüd edir. Uzun dövr ərzində işlərin belə vəziyyəti öz-özlüyündə, hətta sosioloji və demokratik nöqteyi-nəzərdən mürəkkəb demoqrafik situasiyanın kəskinləşməsinə gətirib çıxara bilər.
P.A.Sorokinin təsəvvürlərinə uyğun olaraq sosial stratifikasiya əhalinin məcmusunun iyerarxik dərəcədə bir növ siniflərə diferensiasiyasından ibarətdir ki, bu da öz ifadəsini yuxarı, orta və aşağı təbəqələrin mövcudluğunda tapır. Cəmiyyətin stratifikasiyasının əsasını və mahiyyətini hüquqların və imtiyazların, mülkiyyətin, məsuliyyətin və vəzifələrin qeyri-bərabər bölgüsü, sosial dəyərlərin olması və olmaması, bu və ya digər sosial qruplara hakimiyyətin təsir göstərməsi təşkil edir. Bununla yanaşı, Sorokin haqlı olaraq müəyyən etmişdir ki, cəmiyyətdə nəinki təbəqələr, siniflər müəyyən mövqe tutur və müəyyən zaman ərzində mobilliyə məruz qalırlar, həm də ayrıca fərd konkret həyat təcrübəsində öz təbəqəsinin və şəxsən özünün mövqeyindəki bütün dəyişiklikləri kəskin şəkildə hiss edir.

Sorokin özünün "Sosial stratifikasiya və mobillik" [2, 302] adlı əsərində yazır: "Əgər hər hansı cəmiyyət üzvlərinin iqtisadi statusu eyni deyildirsə, əgər onların arasında həm varlılar, həm də yoxsullar vardırsa, belə cəmiyyətin kommunist və ya kapitalist prinsipləri əsasında təşkil edilib-edilməməsindən, onun "bərabərlərin cəmiyyəti" kimi konstitusiya əsasında qurulub-qurulmamasından asılı olmayaraq, belə cəmiyyət iqtisadi cəhətdən təbəqələşmiş cəmiyyət kimi səciyyələndirilir. Heç bir etiket, pərdə və şifahi söyləmələr gəlirlərin, həyat səviyyəsinin müxtəlifliyində, əhalinin varlı və yoxsul təbəqələrinin mövcudluğunda ifadə olunan real iqtisadi qeyri-bərabərlik faktını dəyişdirmək və ya ört-basdır etmək iqtidarında deyildir".
Qrupun və fərdin iqtisadi statusu fluktuasiyanın iki əsas tipinə məruz qalır. Bu fluktuasiya tiplərindən biri iqtisadi tərəqqiyə, ikincisi isə iqtisadi tənəzzülə aid edilir ki, bu da müvafiq surətdə sosial qrupların və bütövlükdə onlara daxil olan fərdlərin varlanmasında və ya yoxsullaşmasında ifadə olunur. Təbii olaraq

Sorokini bu sıçrayışların və tənəzzüllərin hədləri də maraqlandırmış və o, sualı belə qoymuşdur: iqtisadi stratifikasiya fulktuasiyasının hədləri mövcuddurmu? O bu suala cavab verərkən qeyd etmişdir ki, ictimai inkişafın normal şəraitində bu fulktuasiyalar məhdud şəkildə mövcud olur. Çünki onlar cəmiyyətin və dövlətin özü tərəfindən məhdudlaşdırılır. Bununla yanaşı, yoxsulluq və varlılığın təyinatlarında ən radikal dəyişikliklər baş verir, onlar həmişə bölük fəlakətlər xarakteri daşıyır və son dərəcə əlverişsiz şəraitlərdə baş verirlər. Əgər bu zaman cəmiyyət məhv olmursa, o halda varlılıq və yoxsulluq arasındakı fərq cəmiyyətdə qeyri-sabitlik yaradır, yəni onu böhrana sürükləyir və o, müəyyən dövr ərzində məhv olmaq təhlükəsi qarşısında qala bilər. Bu zaman intellektual elitanı təşkil edən təbəqələrin müəyyən qrupu sürətlə yoxsullaşır ki, bu da böhranı daha da kəskinləşdirir və cəmiyyətdə qeyri-sabitlik yaradır. Ya inqilab, ya da islahatlar belə vəziyyətdən çıxış yolu ola bilərlər.

Azərbaycan tarixinin son onilliyi yeni stratifikasiya vəziyyətini yaşamışdır. Elita roluna iddia edən yuxarı sinif sosial piramidanın əlçatmaz zirvəsinə qalxmışdır. Bu sinif və ya təbəqə azdır, lakin o, qeyri-leqal yollarla Azərbaycanın milli sərvətlərinin böyük bir hissəsinin mülkiyyətçisi olmuşdur. Bu sərvətlərin müəyyən hissəsi əhaliyə tibbi xidmətin qüdrətli və pulsuz sistemini, əhalinin layiqli həyat səviyyəsini, onu sosial yardımı və Azərbaycanın bir zamanlar bu sərvətlərini yaratmış yoxsul hissəsinin özünün müdafiəsini təmin edən sosial müdafiə sisteminin yaradılmasına kifayət edərdi.
Yuxarıda göstərilənlərlə əlaqədar olaraq dövlət tərəfindən qanuni yollarla inkişaf etdirilən iqtisadi münasibətlərin legitimsizləşməsi orta sinfin formalaşmasında böyük çətinliklərə gətirib çıxarır. Orta sinif isə, müxtəlif meyarlara görə Azərbaycan Respublikası iqtisadiyyatının 20 faizə yaxın səviyyəsini təşkil edən kölgəli iqtisadiyyata 20 və ya 30 faiz xidmət göstərir. Kölgədə qalan orta sinif də öz növbəsində sosial müdafiə sisteminin formalaşmasına və Azərbaycan Respublikası cəmiyyəti təhlükəsizliyinin layiqli möhkəmləndirilməsinə onun töhfəsi olardı. Son dörd ildə orta sinfin müxtəlif tədqiqatçılar tərəfindən aparılan nəticələri göstərir ki, bu tədqiqatların orta sinfə xas olan istehlak və həyat tərzi stilini əks etdirmələrinə baxmayaraq, onu sosial məkanda lokallaşdırmaq son dərəcə çətindir.

Postsovet məkanına daxil olan bir çox ölkələrdə sosial gərginlik yoxsulluq həddindən aşağıda olan və ya yoxsulluq həddində olan fərdlərin və sosial qrupların artması hesabına da güclənir. Cəmiyyətin aşağı təbəqələrinin ali təhsilli mütəxəssislərdən tutmuş fəhlələrədək ixtisaslı zəhmətkeşlər, peşəkarlar təbəqəsinin gəlir səviyyəsi xeyli enmişdir. Digər tərəfdən, bəzi hallarda yuxarıya kriminal yollarla və ya yarımkriminal kanallarla istiqamət götürmüş azixtisaslı və savadsız fərdlər yuxarılara qalxmışdır. Bu, o deməkdir ki, cəmiyyətin normal həyat şəraitində elitanı ələkdən keçirən, seçən sosial ədalət prinsipi yararsız vəziyyətdədir. Bütün bunlar P.Sorokinin stratifikasiya nəzəriyyəsinin əsas müddəalarını real həyatda təcəssümünü ifadə edir.

Azərbaycan cəmiyyətinin islahatlaşdırılması insanın sosial sistemlə qarşılıqlı fəaliyyətində dəyişikliklərə gətirib çıxardı. Çünki heç kimə sirr deyil ki, sosial-iqtisadi dəyişikliklər prosesində, artıq qeyd edildiyi kimi, sosial müdafiə və sosial təminatla bağlı məsələlər son dərəcə kəskin xarakter alır.
Bu dəyişikliklər prosesində insanı mürəkkəb iqtisadi və sosial situasiyada qoyan problemlər yaranır və insan bu zaman özünü müdafiəsiz hiss edir. Bunu, xüsusən də əhalinin özünün və öz qohumlarının, uşaqlarının, valideynlərinin mühüm həyati tələbatlarını müvəqqəti, qismən və ya tamamilə müstəqil təmin etmək imkanını itirən kateqoriyası, habelə cəmiyyətin "işləyən yoxsullar" kimi sosial kateqoriyası hiss edir.

Lakin bütün bunlarla yanaşı əhalinin sosial-iqtisadi inkişafında müsbət meyllər də hiss olunur. XXI əsrin on ili ərzində aparılan uğurlu iqtisadi islahatlar nəticəsində bu dövrdə iqtisadi artım 4 dəfə, dövlət büdcəsi 15 dəfə, valyuta ehtiyatları 31 dəfə artmışdır. Nəticədə əhalinin yoxsulluq həddi 9,1 faizə enmişdir.[6]

Bu gün Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sistemində problemləri öyrənərkən, ölkənin sosial təhlükəsizliyini təmin edən ən mühüm sistemlərdən biri kimi onun quruluşunun, inkişafının və fəaliyyətinin bəzi mühüm müddəaları üzərində dayanmaq istərdik.
Həmin müddəalar qısaca olaraq aşağıdakılardan ibarətdir:
1. Əhalinin sosial müdafiəsi sisteminin fəaliyyət göstərməsindən ötrü onu islahatlaşdırmaq zəruridir və onu, ancaq dövlət səviyyəsində islahatlaşdırmaq olar. Yəni dövlət sosial müdafiə sistemini nəinki islahatlaşdırmalı, həm də onun fəaliyyət göstərməsinin qarantı olmalıdır.
2. Sosial müdafiə sisteminin fəaliyyət göstərməsi və inkişafı üçün hüquqi məkanın təkmilləşdirilməsi.
3. Ən yaxın onillik üçün dövlətin əhalinin sosial müdafiəsi sistemi sahəsində əsas məqsədlərini və vəzifələrini müəyyən edən dövlət sosial siyasətinin işlənib hazırlanması, qəbul olunması və təkmilləşdirilməsi.
4. Sosial siyasət və sosial müdafiə sisteminin işlənib hazırlanması zamanı beynəlxalq standartların və dünyanın aparıcı ölkələrinin milli sosial müdafiəsi sistemləri təcrübəsinin nəzərə alınmasının zəruriliyi.

5. Gəlirlərin formalaşdırılmasının səmərəli sisteminin işlənib hazırlanması. Bu sistemin əsasını minimum əmək haqqının mücərrəd həddi deyil, əməyin tətbiq edilməsi sahəsindən asılı olmayaraq, yerinə yetirilən işlərin nəticələrini və keyfiyyətini ifadə edən, habelə minimum yaşayış həddini və ya sosial minimumu təmin edən real məbləğ təşkil etməlidir. Belə ki, minimum yaşayış və sosial minimumun həddi xüsusi Qanunla həm natural formada, həm də pul formasında ifadə edilməklə müəyyən edilməlidir. Fikrimizcə, bu qanun, həmçinin də inflyasiya şəraitində bu hədlərə indeksasiya mexanizmi verməlidir.
6. Əhalinin sosial müdafiəsi sisteminə nəzarət və onu idarə edən səmərəli sistemin yaradılması. Həmin sistem aşağıdakı əsas funksiyaları yerinə

yetirməlidir:
- qüvvədə olan qanunvericiliyə uyğun olaraq sosial müdaifə sisteminə nəzarət və onu idarə etməkdən ibarət olan və qanunvericilik təşəbbüsünə malik olan qanunvericilik funksiyası;
- xüsusi məhkəmə orqanlarında – mülki məcəllənin, cinayət məcəlləsinin və digər məcəllələrin və qanunların tətbiq edildiyi sosial məhkəmələrdə məhkəmə qərarları yolu ilə münasibətləri tənzim etməkdən ibarət olan məhkəmə funksiyası;
- qanunvericiliyə və öz normativ aktlarına uyğun olaraq bütün səviyyələrdə və həlqələrdə sosial müdafiə sisteminin idarə edilməsindən və ya menecmentindən ibarət olan icra funkisyası.
7. Fikrimizcə, nəzarət sistemi aşağıdakı komponentlərdən ibarət olmalıdır: hüquqi nəzarət, təşkilati nəzarət, ictimai nəzarət və maliyyə nəzarəti. Maliyyə nəzarəti dövlət və təşkilatlar tərəfindən və vətəndaşlar tərəfindən vəsaitlərin götürülməsinə və ya sosial müdafiə sistemi əmlakının özgəninkiləşdirilməsinə yol vermir, cari maliyyə hesabatını və statistik hesabatı, habelə bütün səviyyələrdən olan əhalinin sosial müdafiəsi sisteminin maliyyə fəaliyyətinin müstəqil ekspertlər tərəfindən aparılan hər illik auditor yoxlamasını, həmin yoxlamanın nəticələrinin və yekunlarının kütləvi informasiya vasitələrində məcburi dərcini nəzərdə tutur.

**Ədəbiyyat**


1. Qərbi Azərbaycanda və ABŞ-da sosiologiya tarixi. B., «Turan», 2010 (müəlliflər kollektivi tərəfindən tərcümə).
2. Сорокин П.А. Человек. Цивилизация. Общество. М.: ИПЛ, 1992.
3. Мертон Р.К. Социальная структура и Анотия. Социологические исследование. М., 1992, №4, с. 91-96.
4. Лавриненко В.Н. Социология. М., Проспект, 2011.
5. Кравченко А.И. Социология. М., Проспект, 2006.
6. «Azərbaycan qəzeti», 2011-ci il, 15 yanvar.


Теория Р.А.Сорокина о социальной стратификации как одна из методологических основ эффективной организации социальной защиты населения

Резюме


В статье предпринята попытка проанализировать теоретическое и научное наследие Р.А. Сорокина, показать важное методологическое значение для наших дней основных положений его теории о социальной стратификации и мобильности. Согласно Р.А.Сорокину, социальная стратификация представляет собой дифференциацию населения на классы, слои в иерархической категории. Резкая стратификация (расслоение), различие между богатыми и бедными порождает нестабильность в обществе, то есть ведет его к кризису.

В статье также, при изучении проблем системы социальной защиты

в Азербайджане, отмечается необходимость проведения ряда реформ, обеспечивающих социальную безопасность страны.

R.A. Sorokin's social stratification theory as one of the methodological bases for effective organization of social protection of population

Resume

In the article attempt is made to analyze R.A.Sorokin's theoretical and scientific heritage and to show the important methodological value for our days of basic provisions of his social stratification and mobility theory. According to R.A.Sorokin social stratification represents differentiation of population on classes, layers in a hierarchical rank. Sharp stratification, difference between rich and poor generates instability in a society that conducts it to crisis.

In the article at studying problems of the social protection system in Azerbaijan also necessity of carrying out of some reforms providing social safety of the country is noted.

## AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ AİLƏDAXİLİ ZORAKILIQ VƏ GÖRÜLƏN TƏDBİRLƏR

Nəzərova Gülnar
BDU-nun II magistrantı

*Açar sözlər:* Azərbaycanda ailədaxili zorakılıq, həyata keçirilən tədbirlər-qanunlar, fərmanlar, sərəncamlar
*Ключевые слова:* насилие в семье в Азербайджане, осуществленных мерах - законы, декреты, заказы
*Keywords:* domestic violence in Azerbaijan, Implemented measures- laws, decrees, orders

Ailə zorakılığı Azərbaycanda gender əsaslı zorakılığın ən geniş yayılmış, lakin daha az etiraf edilən formalarından biri olaraq qalmaqda davam edir. Bu problem daha çox ailə üzvləri arasında güc münasibətlərinin iyerarxiyasını formalaşdıran patriarxal ailə strukturu ilə bağlı olaraq, bir sıra hallarda gücdən tabe etmə mexanizmi kimi istifadə etməyə, eyni zamanda, ailə münasibətlərini kənar müdaxilələrdən qorumağa xidmət edir. Buna görə də gender əsaslı zorakılıq mövzusu Azərbaycan kontekstində olduqca həssas yanaşma tələb edir. Həm beynəlxalq təşkilatların, həm də qeyri-hökumət təşkilatlarının hesabatlarında qeyd olunur ki, Azərbaycanda qadın hüquqları ən çox ailədə pozulur. Ailədə hüquq pozuntusu özünü daha çox qadına qarşı zorakılıq formasında göstərməkdədir. Qadınların statistik göstəricisində də ailə-məişət zorakılığına məruz qalmış qadınların birinci yerdədir. Ailə zorakılığı halları arasında fiziki və psixoloji zorakılıq halları üstünlük təşkil edir. Bu iki zorakılıq halının bir-biri ilə çox sıx əlaqəsi var. Cinsi

zorakılıq isə bütün dövrlərdə mövcud olsa da, müzakirəsi çox vaxt ailə hüdudlarından kənara çıxmayıb. Təzahür formasından, və ya qadınların bununla bağlı məlumatının az olmasından asılı olaraq bir çox hallarda cinsi zorakılıq qadınlar tərəfindən daha az etiraf edilir. Erkən nikah problemi məsələ ilə bağlı ən həssas mövzulardan biridir. Erkən nikah qanunvericiliyin müəyyən etdiyi minimal yaş həddini keçmədən qurulan bütün ailələri əhatə edir. Belə ailələrin sayı konkret bilinməsə də, dövlət rəsmilərinin, bu sahə ilə məşğul olan Qeyri Hökumət Təşkilatarının dilə gətirdikləri narahatlıqlar sayın hədsiz çox olduğunu deməyə əsas verir.

UNİCEF-in Azərbaycanda həddi-buluğa çatmayanlar arasında nikahların sayının artmasından narahatlıq ifadə edən hesabatında bildirilir ki, Azərbaycanda aparılan araşdırmalar bu təbəqədə hər 8 nəfərdən birinin 18 yaşına çatmamış evləndiyini və ya ərə getdiyini göstərir. Nikahda iki tərəf - kişi və qadın iştirak etsə də, "erkən nikah" dedikdə beyinlərdə qız uşaqlarının yetkinlik yaşına çatmamış ərə verilməsi canlanır. Bu əlbəttə təsadüfü deyil. Hərbi Xidmət Haqqında Qanunda son çağırış yaşının 26-dan 35-ə qaldırılması və hərbidən möhlət üçün 2 uşaq sayının 3-ə çatdırılması sırf əsgər olmamaq üçün erkən nikaha can atanların əl-qolunu bağladı. Çox təəssüf ki, Ailə Məcəlləsinə qızların nikah yaşı ilə bağlı təklif edilən dəyişiklər qəbul edilsə belə, vəziyyətin düzələcəyi haqda yekdil və qüvvətli inam yoxdur. [5]

Beynəlxalq təcrübədə zorakılıqlar siyahısında iqtisadi hallar da mövcuddur. Əgər iqtisadi zorakılığı götürsək, bizdə əksər hallarda pul kişilərdə olur. Düzdür, bu puldan qadın da xərcləyə bilər, amma nəzarət bir çox hallarda kişilərin əlindədir. Cinsi zorakılıq isə çox qapalı mövzu olduğu üçün Azərbaycanda demək olar ki, müzakirə olunmur. Ona görə də zorakılıqdan danışarkən daha çox psixoloji və fiziki zorakılıq qeyd olunur. Azərbaycanda Qadın Böhran Mərkəzinə müraciət edənlər arasında fiziki zorakılığa məruz qalmış qadınlar üstünlük təşkil edir. Azərbaycanda zorakılıqla üzləşmiş qadınların böyük bir qismi öz həyat yoldaşları tərəfindən döyülənlərdir. Belə zərif cins nümayəndələri ailə başçısı tərəfindən çoxsaylı işgəncələrə məruz qalırlar. Kişilər çox vaxt qadının bədənində iz qalmamaq şərtilə onlara işgəncə verirlər. Bəzən də ərləri tərəfindən işgəncə edilən qadınlara yaxın qohumları susması üçün təzyiq edirlər. Belə hallarda qadın döyülsə də, susmağa məcbur olur. Məcburiyyət isə bu zaman iki formada özünü göstərir. Birinci halda qadın fikirləşir ki, boşansa, yaxud polisə şikayət etsə, valideynləri onu qəbul etməyəcək, cəmiyyət düzgün başa düşməyəcək. İkinci halda isə, qadın düşünür ki, əgər boşansa, uşaqlarının gələcəyini təmin edə bilməyəcək. Qızı varsa, onunla gələcəkdə ailə həyatı quran olmayacaq. İqtisadi cəhətdən asılı olan qadın fikirləşir ki, boşansa, özü və uşaqları maddi sıxıntı çəkəcəklər. Zorakılıqla üzləşən qadınlar mübarizə aparmadıqları təqdirdə, susduqda və ya susmaları üçün onlara kənardan təzyiqlər olduqda, son anda bir neçə seçim qarşısında qalmalı olurlar. Əgər qadın daxilən hiss edirsə ki, artıq belə yaşaya bilmir, bu

zaman o, müxtəlif yollarla öz etirazını bildirir. Məsələn, həyat yoldaşından küsüb evdən çıxıb gedir və s. Bu cür vasitələrlə heç nəyə nail olmadıqda, ya boşanmaq üçün müraciət edir, ya da bütün psixoloji və mənəvi təzyiqləri qulaqardına vuraraq polisə şikayət edir. QKM-ə müraciət edən qadınlar əsasən belə qadınlardır. Əgər qadın bunları etmirsə, bu zaman iki yol ayrıcında qalır. Birinci yol özünə qəsd etməkdir. Belə hallara əksər rayonlarda rast gəlmək olur. Qadın döyülür, təhqir olunur və bunu həyat yoldaşının valideynlərinə və yaxınlarına da bildirir. Amma heç kəs kömək etmək istəmir. Hamı ona susmağı məsləhət görür. Bunlarla barışmayanda isə qadının həyat yoldaşına bəraət qazandırarlar. Nəticə isə acınacaqlı olur. [8]

Dövlət Statistika Komitəsinin məlumatına görə Məişət zorakılığı hallarının statistikası aparılmır. Ölkədə hər gün müxtəlif tipli zorakılıq halları baş verir. Zorakılıq və qətllərin geniş şəkildə vüsət alması artıq adiləşməkdədir. Şübhəsiz, bu cür neqativ halların artması cəmiyyəti narahat etməyə bilməz. Hər halda statistik rəqəmlər problemin gələcəkdə daha qorxunc fəsadlar törədəcəyindən xəbər verir. Ekspertlər isə ailədaxili zorakılıq və qətllərin geniş yayılmasını müxtəlif səbəblərlə izah edirlər. Statistik hesablamalara görə, dünyada 60 milyon qız uşağının doğulmadan məhv edilməsi qadınlara qarşı zorakılığın ilkin mərhələsi sayılır. Hər il Azərbaycanda yaşı 19-48 arası olan 100 qadın döyülməkdən ya şikəst olur, ya da dünyasını dəyişir. Araşdırma nəticəsində məlum olub ki, bu, əlacsız xəstəliklərdən ölən və yaxud nəqliyyat qəzalarında həlak olan qadınların sayından çoxdur. Belə ki, əcəli ilə ölməyən qadınların 73%-i həyat yoldaşı və qeyri-rəsmi nikahda olduqları kişilər tərəfindən qətlə yetirilir. Hər il 4 minə yaxın qadın evdə vəhşicəsinə döyülür, mindən çox qadın isə gündəlik zərbələrə məruz qalır. Ümumiyyətlə, qadınların 28%-i mütəmadi olaraq döyülür. Azərbaycanlı ailələrin 40%-də ər bir dəfə də olsa arvadını döyüb. Maraqlıdır ki, kişilərin əksəriyyəti günahı qadınlarda görür. Yəni “qadının günahı olmasa döyülməz”. Qadınlardan bəziləri də bu fikirləri bölüşür. Döyülən qadınların 45%-i hamilə və azyaşlı uşaq anası olduqları dönəmdə ərləri tərəfindən fiziki təzyiqlərə məruz qalırlar. Onların 38%-i ərlərinə bəraət qazandırır. Məişət zəminində baş verən bir sıra cinayətlər uşaqların gözü qarşısında baş verdiyindən, onların psixi inkişafına mənfi təsir göstərir. Ailədaxili cinayətlər arasında bacı və qardaş arasında olaylar üstünlük təşkil edir. Bu hadisələrin 65 faizi ölümlə nəticələnib. Son vaxtlar hamilə qadınların döyülərək və ya öncədən planlı şəkildə öldürülməsi halları kütləviləşib. Buna səbəb kimi qısqanclıq, cinayəti ört-basdır etmək, cinsi tamahkarlıq göstərilir. Bütövlükdə, hər il hamilə vaxtında öldürülən qadınların sayı 10-11 nəfərdir. Məlumatlara görə, bu qadınlar qeyri-qanuni hamiləlik faktı ilə barışmadıqları üçün vətəndaş nikahında yaşadıqları məşuqları tərəfindən qətlə yetirilib. [6]

Qadınların məruz qaldıqları zorakılıqların, o cümlədən ailədaxili zorakılığın aradan qaldırılması məqsədilə istər Milli, istərsə də və Beynəlxalq

Qanunvericilikdə kifayət qədər qanun nəzərdə tutulmuşdur. Bunlara misal olaraq Azərbaycan Respublikası Konstitusiyası (1995), Azərbaycan Respublikasının Əmək Məcəlləsi (1999), Azərbaycan Respublikasının Ailə Məcəlləsi (1999), Məişət Zorakılığının Qarşısının Alınması Haqqında Azərbaycan Respublikasının Qanunu (2010) göstərmək olar.

Məişət Zorakılığının Qarşısının Alınması Haqqında Azərbaycan Respublikasının Qanununa əsasən məişət zorakılığı yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması kimi izah edilir. Məişət zorakılığından zərər çəkmiş şəxs (bundan sonra - zərər çəkmiş şəxs) - bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumunun, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxsin ona qarşı qəsdən törətdiyi bu Qanunun 1.0.3-1.0.6-cı maddələrində nəzərdə tutulmuş hərəkətlər(fiziki və cinsi zorakılıq) nəticəsində fiziki və ya mənəvi zərər çəkmiş şəxs hesab edilir. Qanunda eyni zamanda zorakılığın digər növləri haqqında (iqtisadi,psixoloji) da məlumat verilir. Qanun 4fəsil, 20 maddədən ibarətdir. [3]

Ədəbiyyat siyahısı:


1. "Azərbaycanda Qadınlar Və Kişilər", Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı-2008
2. "Azərbaycan Respublikasının Konstitusiyası (12 noyabr 1995)". – Bakı-2010
3. "Məişət Zorakılığı Haqqında" Azərbaycan Respublikasının Qanunu (Qanunun qəbul edilib- 2 oktyabr 2010)
4. "Ailə Məcəlləsi Haqqında" Azərbaycan Respublikasının Qanunu (Qanunun qəbul edilib - 28 dekabr 1999)
5. www.genderbasedviolence.az/condocs//.../Article_statistics.doc
6. www.gender-az.org/index_az.shtml?id_doc=2176
7. az.**trend**.az/news/society/1587885.html
8. *http://www.525.az/view.php?lang=az&menu=29&id=16915&type=1*



**Резюме:**

Цель статьи чтобы определить подходы и стереотипы о насилии в семье в Азербайджане и обратить внимание на законодательство

**Resume:**

The goal of the article`s to determine approaches and stereotypes about domestic violence in Azerbaijan and to pay attention to the legislation

# QİYMƏTLƏNDİRMƏ TƏHSİLİN KEYFİYYƏTİNİ ÖLÇƏN AMİL KİMİ

Şəhla Vəliyeva, ARTPİ-nin böyük elmi işçisi

*Açar sözlər:* qiymətləndirmə, təhsil, təhsilin keyfiyyəti, pedaqoji monitorinq
*Ключевые слова:* оценивания, обучение, качество образования, педагогический мониторинг
*Keywords*: assessment, education, quality of education, pedagogical monitoring

Müstəqil Azərbaycan Respublikasında bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də müasir tələblər baxımından məqsədyönlü islahatlar aparılır. Bununla əlaqədar təhsilin keyfiyyətini şərtləndirən amillərə, ilk növbədə təhsilin məzmununa, müəllim hazırlığına və qiymətləndirmə sistemlərinə yenidən baxılması zərurəti yaranmışdır. Hazırda təhsil sahəsində geniş miqyas almış islahatlar çərçivəsində mühüm dəyişikliklərin, yeniliklərin həyata keçirilməsinə başlanmış və bu işlər uğurla davam etdirilir.

Yeni qiymətləndirmə sisteminin hazırlanması Təhsil Sektorunun İnkişafı layihəsində prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur. Təlim və tədris prosesinin təkmilləşdirilməsi, ölkə üzrə şagirdlərin nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi irəli sürülür. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur.

Təhsil sistemində qiymətləndirmə probleminə dair müxtəlif tədqiqatlar aparılmasına, onun nəticələrindən alınmış dəyərli təkliflər və mülahizələr irəli sürülməsinə baxmayaraq, onlar vaxtında pedaqoji ictimaiyyətə çatdırılmamış və alınmış nəticələrin tətbiqi təmin edilməmişdir. Azərbaycanda təhsil tədqiqatları sahəsində ilk dəfə M.C.Mərdanov, A.O.Mehrabov, R.A.Ağamalıyev və T.B.Qardaşov tərəfindən hazırlanmış 2003- cü ildə nəşr edilmiş "Təhsil sistemində monitorinq və qiymətləndirmə" adlı monoqrafiya məhz təhsil sistemində monitorinq və qiymətləndirmə probleminə həsr olunmuş, yeni qiymətləndirmə modellərinin işlənilməsi zərurəti elmi- pedaqoji cəhətdən əsaslandırılmışdır.

Ümumiyyətlə qeyd etməliyik ki, ictimai həyatın bir sahəsi kimi, məktəb sahəsi də dəyişib inkişaf edir, pedaqoji prosesl ə bağlı fikir və ideyalar da daim dəyişir, yeni motivlər kəsb edir, beynəlxalq təcrübə hesabına təkmilləşib zənginləşir. İndi zaman, pedaqoji prosesin hər bir iştirakçısından (şagirdlərdən, müəllimlərdən, valideynlərdən, təhsili idarəetmə orqanlarının işçilərindən və s. )

yeni tərzdə düşünməyi, fəaliyyət göstərməyi, təhsildə keyfiyyət dəyişiklikliyinə nail olmağı tələb edir. Uzun müddət ümumtəhsil məktəblərinin idarə edilməsi mərkəzləşmə sistemi əsasında formalaşmış, məktəb cəmiyyətdən ayrı düşmüş, onun fəaliyyətinin qiymətləndirilməsi, çox bəsit formada aparılmışdır. Bu halda ümumtəhsil məktəblərinin fəaliyyətinin qiymətləndirilməsi yuxarı təşkilatlar tərəfindən həyata keçirilir və məna etibarı ilə yoxlama xarakteri daşıyır, yalnız nöqsanların müəyyənləşdirilməsinə xidmət edir. Bu isə təhsil müəssisəsinin fəaliyyətində nəzarət sisteminin formalaşmasına gətirib çıxarır. Qeyd olunanlar bir daha təsdiq edir ki, ümumtəhsil məktəbində təlim prosesinin keyfiyyətinin yüksəldilməsinin, onun inkişaf etdirilməsinin ən səmərəli yollarından biri pedaqoji prosesin və onun bütün komponentlərinin qiymətləndirmə prosesinə cəlb edilməsidir.

Məlumdur ki, qiymətləndirmə- fəaliyyətin keyfiyyət göstəricilərinin dəyəri haqqında fikir yürütməyə imkan verir və təlim- tərbiyə prosesinin qiymətləndirilməsi onun ayrı-ayrı tərkib hissələrinin fəaliyyətinin səmərəliliyinin müəyyən göstəricilərə görə öyrənilməsi, müqayisəsi kimi başa düşülməlidir.

Ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün təlim- tərbiyə prosesinin nəticələrinin qiymətləndirilməsi vacib sayılan amillərdən biridir. Müşahidələr zamanı müəyyən olunmuşdur ki, hazırda ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün mövcud qiymətləndirmə sistemində aşağıdakı problemlər vardır:

- şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsində obyektivliyin, şəffaflığın və müstəqilliyin təmin olunmaması;
- şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsində biliyin keyfiyyət göstəricilərinin qiymətləndirmə meyarlarının olmaması;
- təlim prosesində şagirdlərdə formalaşdırılacaq keyfiyyətlərin (ümuminsani, milli- mənəvi və s.) məzmununun olmaması;
- didaktiv sistemlərin, pedaqoji texnologiyaların keyfiyyətinin qiymətləndirmə meyarlarının olmaması;
- müəllimin tədris prosesinə hazırlığının keyfiyyətinin müəyyənləşdirilməsi üçün meyarlar sisteminin olmaması;
- müəllimin tədris nailiyyətlərinin qiymətləndirilməsi üçün göstəricilərin olmaması;
- məktəb rəhbərlərinə nöqsanların aradan qaldırılması və keyfiyyətin yüksəldilməsinəköməklik göstərməyə yönələn təlim nəticələrinin müntəzəm qiymətləndirilməsi sisteminin olmaması;
- məktəbin tədris fəaliyyətinin qiymətləndirilməsi üçün meyarlar sisteminin olmaması;
- məktəbin tədris fəaliyyətinin qiymətləndirilməsinin vaxtaşırı monitorinqinin aparılması üçün meyarların olmaması [1-3].

Ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin şəffaf qiymətləndirilməsi üçün sadalanan meyarların dəqiq müəyyənləşdirilməsi vacib şərtdir. Ümumtəhsil məktəblərində qiymətləndirmə prosesinin mərhələlərini əyani olaraq aşağıdakı kimi şərh etmək olar. İlkin olaraq ümumtəhsil məktəbinin mövcud vəziyyəti araşdırılır və ona müvafiq olaraq ümumtəhsil məktəbinin fəaliyyət planı hazırlanır. Fəaliyyət planındakı tədbirlərə müvafiq işlər həyata keçirildikdən sonra məktəbin vəziyyəti qiymətləndirilir və onun fəaliyyətinin təkmilləşdirilməsi üçün yeni fəaliyyət planı hazırlanır.

Keçən əsrin sonlarından başlayaraq respublikamızda şagirdlərin biliyinin obyektiv qiymətləndirilməsi sisteminin yaradılması istiqamətində eksperimentlərə başlanılmışdır. Bununla əlaqədar "Ümumtəhsil məktəblərində şagirdin biliyinin 9 balla qiymətləndirilməsi sistemi" üçün əsasnamə hazırlanmışdır. Bu sistem şagird nailiyyətlərinin qiymətləndirilməsini daha dəqiq aparmaq istiqamətində müsbət nəticə kimi dəyərləndirilməlidir.

Aparılmış tədqiqatların nəticələri və beynəlxalq təcrübə göstərir ki, tədris prosesində şagirdin fəaliyyətinin müntəzəm sözlə və ədədlə qiymətləndirilməsi onun bütün dərs boyu fəallığını və inkişafını təmin edir.

İstənilən ölkədə elmin, mədəniyyətin, incəsənətin inkişafı, bütövlükdə xalqın intellektual potensialının formalaşma səviyyəsi cəmiyyətin inkişafının əsas göstəricisi olub, həmin dövlətin təhsil sistemi ilə təmin olunduğundan, bütün ölkələr birinci növbədə, öz təhsil sisteminin strukturunun, müddətinin, onun icbariliyinin, təlim nailiyyətlərinin qiymətləndirilməsi üçün yeni modellər qəbul edir, qiymətləndirmə şkalasının nisbi ölçüsünü müəyyənləşdirir və onların təkmilləşdirilməsi istiqamətində fasiləsiz olaraq sistemli iş aparır. Azərbaycan müstəqillik qazandıqdan sonra, təhsil sahəsində İslahat Proqramının tələblərinə uyğun, yuxarıda göstərilən istiqamətlərdə eksperimentlər qoyulmuş, orta ümumtəhsilin həm məzmununda, həm də yeni qiymətləndirmə modellərinin hazırlanması istiqamətində intensiv işlər davam etdirilir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). Bakı, 2006, 38 s.
2. A.O.Mehrabov Azərbaycan təhsil sisteminin müasir problemləri Bakı: Mütərcim, 2007.-448 s.
3. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., QardaşovT. Təhsil sistemində monitorinq və qiymətləndirmə. – Bakı, Çaşıoğlu, 2003, 416 s.
4. A.O.Mehrabov, İ.A.Cavadov. Ümumtəhsil məktəblərində monitorionq və qiymətləndirmə. Bakı: Mütərcim, 2007.-184 s.

5. Антипова В.М., Лаптева Г.с., Зембицкий В.М. и др. Мониторинг образовательной системы современной школы. Ростов: Изд-во РО ИПК и ПРО, 1999, 230

Резюме

Оценивание как инструмент в меру качества образования

В статье раскрывается сущность понятии оценивания деятельности, его критерия и объясняется их роль в процессе обучение. Исследован вопрос обеспечения качества образования. Предложены рациональные пути педагогического мониторинга и оценивания.

Summary

Evaluation as measure tool in educational quality.

In this article reveals the essence of notions as evaluation, its criteria and explains in the

process of education. Is investigated the question of supplying the quality of education. Is offered the rational ways of pedagogical and valuing.

## МЕСТО И РОЛЬ СМИ В ПОЛИТИКЕ

Джавадова Гюльнара Мирзамехти кызы,

магистрантка БГУ

*À÷àðñþçëÿð:* ÊÈÂ, øöóðóí ìàíèïóëÿñèÿ îëóíìàñû ìåòîäëàðû

*Ключевые слова:* Средства массовой информации, политика методы манипуляции сознанием.

*Keywords:* Mass media, a policy methods of manipulation with consciousness.

Информация является для политических явлений таким же базовым свойством, как вещество и энергия. В результате обладания должной информацией человек может обрести власть и расширить влияние, способствовать реализации своих интересов в политической сфере и т.д. Напротив, дефицит знаний, усвоение недостоверных сведений или же манипулятивное использование информации увеличивают издержки при принятии решений, расширяют зону рисков в деятельности институтов власти, качественно снижают возможности актора в политической сфере. К примеру, замалчивание деятельности той или иной партии в СМИ и тем самым минимизация ее участия в информационном процессе, по сути, означает и ее вытеснение из политического процесса в целом. К столь же негативным последствиям приводит и ситуация, при которой нужная информация не находит выхода в практических действиях людей

(например, когда решения принимаются не в соответствии с экспертной информацией, а вопреки полученным рекомендациям). [6, с. 402]

«Иметь важную информацию значить иметь власть; уметь отличать важную информацию от неважной означает обладать еще большей властью; возможность распространять важную информацию в собственной режиссуре или умалчивать ее означает иметь двойную власть», – пишут авторы крупнейшего современного учебного пособия по политологии ФРГ. [1, с. 60] Таким образом, получение нужной информации становится специфической, а участие в информационном обмене непременной целью любых политических акторов, заинтересованных во влиянии на власть.

Непосредственными носителями и, особенно, распространителями знаний и другой политически важной информации являются СМИ. Какие же политические задачи они решают в современном обществе?

NATO-Azərbaycan münasibətlərini tədqiq edənlərin və siyasi ekspertlərin əksəriyyəti NATO-nun Şərqə genişlənməsinə haqq qazandıraraq, belə genişlənmənin məhz təhlükəsizlik üçün vacib olduğunu arqument kimi irəli sürürlər. Lakin belə təhlükəsizliyin mahiyyəti və ya hansı tərəfin təhlükəsizliyinin nəzərdə tutulduğu adətən qabardılmır. NATO-nun son 15 ildəki hərbi əməliyyatlarının mahiyyəti göstərir ki, belə əməkdaşlıq heç də yerli əhalinin təhlükəsizliyinin qorunması məqsədilə həyata keçirilmir. NATO-nun Balkan yarımadasında və Əfqanıstandakı hərbi əməliyyatları da bu regionda ABŞ-ın gələcəyə yönəlmiş maraqlarından xəbər verir. Qərb imperializminin təcavüzkar siyasətinə müqavimət göstərə biləcək ölkələrin parçalanması və ya məhv edilməsi NATO-nun genişlənməsinin gizli məqsədlərindəndir. NATO-Azərbaycan əməkdaşlığı Azərbaycanın təhlükəsizliyinin təminatçısı kimi çıxış edə bilərsə, onda hər şeydən əvvəl mümkün təhlükələrin xarakteri təhlil edilməlidir. Yəni, Azərbaycan hansı ölkələrdən təhlükə gözləyir? Aydındır ki, Azərbaycanın indiki ictimai-siyasi vəziyyətində mümkün təhlükələr onun iqtisadi və siyasi maraqlarının toqquşduğu ölkələrlə daha ehtimallıdır. Beləliklə, təhlükələrin xarakterini və mahiyyətini düzgün dərk etmək üçün maraqların toqquşduğu sahələri müəyyənləşdirək.

Bu hər şeydən əvvəl Xəzərin neft və qaz yataqlarıdır. Nəzəri olaraq, deyə bilərik ki, bu sahədə Azərbaycanın maraqları transmilli neft şirkətləri ilə və onları himayə edən ölkələrlə, o cümlədən ABŞ, Böyük Britaniya ilə daha ciddi toqquşur. Xəzərin neft yataqlarının işlənməsi sahəsində isə Azərbaycanın maraqları digər Xəzəryanı ölkələrlə, neftə və qaza olan ehtiyacların ödənilməsində isə Gürcüstan və Türkiyə ilə toqquşur. Neft hasilatının dünya bazarında rəqabət gücünü nəzərə alarıqsa, Azərbaycanın neft istehsal edən digər ölkələrlə, xüsusilə Yaxın Şərq ölkələri ilə də maraqları nəzəri cəhətdən toqquşa bilər. Bəs, maraqların nəzəri cəhətdən belə toqquşması bu qüvvələr tərəfindən Azərbaycanın təhlükəsizliyinə hər hansı real qorxunu yaradırmı?

Öz neft ehtiyaclarını ödəmək üçün Türkiyə və ya Gürcüstan Azərbaycana heç vaxt açıq hərbi müdaxilə etməz. Türkiyə özünə müttəfiq hökumətin formalaşması üçün Azərbaycanın daxili siyasi həyatına hər hansı müdaxilələr edə bilər, lakin belə müdaxilə hərbi toqquşma səviyyəsinə qədər inkişaf edə bilməz. Gürcüstanın Azərbaycana təsir imkanları daha çoxdur. Çünki orada beş yüz mindən çox etnik azərbaycanlı yaşayır və onlar Gürcüstanın ictimai həyatına çətinliklə inteqrasiya edirlər. Gürcüstan azərbaycanlılarının Azərbaycana immiqrasiya etməsi ehtimalı çox böyükdür və bu proses artıq gedir. Azərbaycanın ixrac neft kəmərlərinin və Türkiyə ilə quru yolunun Gürcüstandan keçməsi də onun Gürcüstandan asılılığını xeyli artırıb. Odur ki, Gürcüstanın Azərbaycana hərbi müdaxiləsinə heç bir zərurət yoxdur. Azərbaycanın Gürcüstana ucuz qiymətə qaz satışı və ya BTC boru kəmərinə görə tranzit qiymətlərində güzəştə getməsi də Azərbaycan-Gürcüstan əlaqələrində ikincinin əhəmiyyətinin getdikcə artmasından xəbər verir.

Xəzəryanı ölkələrin, o cümlədən Rusiyanın və ya Türkmənistanın Azərbaycanla hər hansı bir sahədə, məsələn, Xəzərin neft-qaz ehtiyatlarının istifadəsində mübahisələri olarsa, bu ölkələrin dərhal hərbi vasitədən istifadəsi mümkünsüzdür. Belə ki, tərəflər hərbi müdaxilədən daha əvvəl hasilatın dayandırılmasını və Xəzərin statusunun dinc yolla müəyyənləşməsini seçə bilərlər. Bu ölkələr arasındakı maraqların hərbi toqquşması yalnız o zaman mümkün ola bilər ki, tərəflərdən hər hansı biri mübahisəli ərazilərdə hasilatı dayandırmaqdan kobudcasına imtina etsin və ya açıq-aşkar haqlı olmasın. Xəzəryanı ölkələrin hər birinə aid olan sektorlarda neft və qaz ehtiyatlarının kifayət qədər olduğunu nəzərə alsaq, tərəflərin bir-birinə müvəqqəti güzəştə getməməsi və Azərbaycanın haqlı olduğu hallarda mübahisələrin hərbi toqquşma səviyyəsinə çatdırılması qətiyyən inandırıcı deyil. Xəzəryanı ölkələr arasında Azərbaycana təsir imkanları daha çox olan Rusiyadır. Belə ki, Rusiya hökuməti orada yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan Rusiya yönlü etnik azlıqlar vasitəsilə Azərbaycan hökumətinə ciddi təsir imkanına malikdir.

Azərbaycan-İran münasibətlərinə gəldikdə isə İranın Azərbaycana məxsus olan hər hansı neft və ya qaz yatağına görə zor tətbiq etməsi və ya hərbi təcavüzü İran cəmiyyətində, həm də beynəlxalq aləmdə mənfi qarşılana bilər və belə təcavüz, onsuz da İrana güc tətbiq etmək üçün bəhanə axtaran Qərb ölkələri üçün "göydəndüşmə" olardı. Odur ki, Azərbaycanın haqlı olduğu hallarda neft və ya qaz yataqlarına görə bu ölkələr tərəfindən hər hansı mübahisəli məsələlərin hərb yolu ilə həllinə heç bir səbəb yoxdur, məhz buna görə dəAzərbaycan regional sülh üçün NATO-nun zor gücünə yox, regional əməkdaşlığa və ədalətli siyasətə əsaslanır.
Eyni vəziyyəti Azərbaycanda maraqları olan transmilli şirkətlərə və onları himayə edən böyük dövlətlərə, xüsusilə ABŞ və Böyük Britaniyaya aid etmək olmur. Belə ki, ABŞ-ın iki yüz illik yaranma tarixi belə hərbi təcavüzlərin açıq-

aşkar real ola bilməsinə işarə edir. Son 20 ildə Yaxın Şərqdə, Əfqanıstanda və Yuqoslaviyada baş verən hadisələr ABŞ-ın neftlə zəngin olan digər ölkələrə də istənilən vaxt hərbi təcavüz etmək imkanında olduğunu sübuta yetirir.

Azərbaycanın həllini gözləyən digər vacib problemi Dağlıq Qarabağdır. NATO-nun mahiyyətini diqqətlə öyrəndikdə və bu qurumun Şərqə genişlənməsinin, Qafqazdakı fəaliyyətinin əsas məqsədlərini araşdırdıqda məlum olur ki, Azərbaycanın NATO-ya qoşulması Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini nəinki mümkün etmir, əksinə, bu problemin uzun müddət üçün "dondurulmasını" stimullaşdırır. Belə ki, əgər Azərbaycan və Ermənistan NATO ilə əməkdaşlıq edəcəksə, NATO bu ölkələrin bir-biri ilə münasibətlərinə qətiyyən qarışmayacaq və Dağlıq Qarabağ probleminin "dinc yolla həllinin axtarılması" bəhanəsi ilə "dondurulması"nı daha məqsədəuyğun hesab edəcək. Çünki, NATO-nun Avrasiya Balkanları adlandırılan Cənubi Qafqazdakı əsas misiyası münaqişələri həll etmək yox, enerji təhlükəsizliyini təmin etməkdir.

Bu amilləri göz önünə alaraq Azərbaycan beynəlxalq arenada öz sözünü deyə bilən müstəqil dövlət olaraq, daxili siyasətinə hər hansı dölətin və ya beynəlxalq təşkilatın müdaxilə etməsinə yol vermir.

Ədəbiyyat siyahısı:


1. Кросс Ш.Вопрос о расширении НАТО:в поисках оптимального решения//США,1996,Н9,С.47-58
2. Тэлбот С. Для чего нужно расширять НАТО?//США,1999,Н11 ,С.49-5
3. Konrad Freytag .Shape Public Information Office//NATOs Nations and Partners for peace,Issue1/2001,pp/116-117/.
4. NATOs Eastern Dilemmas//Ed.by David G.Haglund et al.Boulder ?etc:1994,231p.


## Отношения НАТО и Азербайджана


Ибрагимли Мужган Мансум гызы
магистрант, БГУ



Резюме

Отношения между НАТО и Азербайджаном начались в 1992 году с присоединением Азербайджана к Совету североатлантического сотрудничества (переименованному в 1997 году в Совет евроатлантического партнерства – СЕАП). Сотрудничество поступательно развивалось вслед за присоединением Азербайджана в 1994 году к программе «Партнерство ради мира» и после того, как в 1997 году Азербайджан стал участвовать в Процессе планирования и анализа ПРМ. С того момента, как в 2005 году НАТО и Азербайджан разработали первый ИПАП, все больший упор делается на поддержку процесса реформ, осуществляемых в Азербайджане.

NATO and Azerbaijan relations

Muzhgan Mansum Ibragimli

The resume

NATO-Azerbaijan relations date back to 1992, when Azerbaijan joined the North Atlantic Cooperation Council (later renamed the Euro-Atlantic Partnership Council in 1997). Cooperation has steadily increased since Azerbaijan joined the Partnership for Peace programme in 1994 and its participation in the PfP Planning and Review Process since 1997. The focus on supporting Azerbaijan's domestic reform process has intensified since the development of Azerbaijan's first IPAP with NATO in 2005. A second, updated IPAP document was concluded in March 2008.

## SİYASİ TEXNOLOGİYALARIN BİR NÖVÜ KİMİ SEÇKİ TEXNOLOGİYALARI

Abbasova Pərvanə İsmayıl qızı,
BDU-nun magistrantı

*À÷àð ñþçëÿð:* Seçki texnologiyaları təşkilat,təbliğat,reklam və digərlərini nəzərdə tutur.

*Ключевые слова:* Технологии выборов включают в себе организацию, пропаганду,рекламу и другие.

*Keywords:* Technologies of elections include in themselves the organization, propagation, advertising and others.

Cəmiyyət həyatınım ən mühüm demokratik proseduralarından olan seçkilər seçki texnologiyaları vasitəsilə reallaşır.Seçki texnologiyaları - seçici texnologiyaları,informasiya-analiz texnologiyaları,reklam-imic texnologiyası,siyasi marketinq texnologiyaları,lobbiçilik və siyasi məsləhətşmə texnologiyası sayılır. [1.165].

Seçki kampaniyası deyəndə 2 aparıcı partiya,namizəd arasındakı siyasi rəqabəti və 2 rəqib – qrup maraqlarının mübarizəsini başa düşmək olar.Kampaniya terminini hər hansı bir qanun layihəsinin və ya ona edilən əlavələrin qəbul edilməsi zamanı müxtəlif maraq qruplarının apardığı mübahisələrinə bir-birinin əksi olan fikirlərinə rəğmən də tətbiq etmək olar.

Adətən namizədlər və ya onların ideyaları arasındakı rəqabət prosesi – ilkin seçkilər zamanı ortaya çıxır – yəni aparıcı partiyalar öz namizədlərini irəli sürərək seçki kampaniyasına qoşulur və 2-ci dərəcəli partiyaların namizədlərinə rəqabətə qoşulmaq üçün çox azacıq şans buraxırlar.

Dünyanın bütün inkişaf etmiş ölkələrində - o cümlədən ABŞ və digər ölkələrdə siyasi seçki kampaniyaları mühüm əhəmiyyət kəsb edir.Bu məqaədlə

seçki kampaniyalarının taktika və strategiyaları hazırlanmış,onun əsas məqsəd və vəzifələri müəyyən edilmişdir.Kampaniyanın mühüm vəzifələrindən biri ictimaiyyətə aşağıdakıları çatdırmaqdan ibarətdir- yəni:

**1.** İctimaiyyət bilməllidir ki,namizədliyi irəli sürülən şəxs kimdir.onun ictimai və siyasi mövqeləri hansı idealarla bağlıdır.

**2.** Onun oppenenti kimdir.

**3.** Onun ictimai polemikaya girəcəyi tərzdə toxunacağı problemlərin məzmunu nədən ibarətdir?

**4.** Onun adresantları – yəni seçiciləri kimdir,onun ideyaları və apardığı seçkiqabağı kampaniya elektoratın ürəyincədirmi?

Seçki kampaniyasını aparmaq üçün – göstöricilər bazasını yaratmaq məqsədi ilə tədqiqatlar zamanı obyektiv və subyektiv xarakterli bir çox analiz vasitələrdən istifadə olunur.Onların arasında aşağıdakıları qeyd etmək olar: *ictimai rəyin tədqiqi _ sorğuların keçirilməsi; keçmiş seçkilərin nəticələrinin analizi; birdəyişənli demoqrafiq analiz; çoxdəyişənli geodemoqrafiq (klaster) analiz; reprezantitiv qrupların intervyu edilməsi; elektron vasitələrlə analiz; ictimai rəyin monitorinqi; səthi modelləşdirmə (topologiya); qəza nəzəriyyəsi (katastrofa); məkan modelləşdirilməsi; regionun mühüm problemlərinin analizi; oppanentin kampaniyasının analizi.*

Seçki statistikasının analizini aparan mütəxəssislər adətən 4 əsas parametrə diqqət yetirirlər:

1. Cari regionda qeydiyyatdan keçmiş seçicilərin sayına;
2. Ötən seçkilərdə bu və ya digər xas partiyaya və ya namizədə səs vermiş seçicikərin sayına;
3. Əvvəl bir partiyaya tərafdar çıxıb,sonra o biri partiyaya səs vermiş seçicilərin sayına;
4. Səsvermə üçün qeydiyyatdan keçmiş seçicilərlə müqayisədə faktiki səs verməyə gələn seçicilərin sayına.

Bu cür analizin köməyi ilə bu və ya digər partiyaya,namizədə qarşı loyal mövqe tutan və əksər hallarda səsverməyə gəlməyən seçiciləri müəyyən etmək və onların üzərində əvvəlcədən işləmək olar.Bu kampaniya strategiyasının ən mühüm hissəsidir və bu halda ilk növbədə imkanlar səfərbər edib ilk öncə "fikirlərini" tez-tez dəyişən seçicilərin rəğbətini qazanmaq,onları inandırmaq lazımdır ki,bu partiya və ya bu namizəd daha böyük hörmətə və diqqətə layiqdir.Onların səsverməyə gəlmələri üçün imkan daxilində bütün vasitələrdən istifadə etmək lazımdır.

Seçki kampaniyasının strategiyası ilə məşğul olan mütəxəssislər seçicilərin həyatının bütün məqamları ilə,o cümlədən,onların siyasi maraqları,hal-hazırki vəziyyətdə siyasi mövqeləri,həyat şəraitləri və s. ilə daima maraqlandırmalıdırlar.

Bu həm seçki kampaniyaları vaxtı kommunikasiya prosesində forma və üsulların seçilməsini yaxşılaşdırır,həm də seçicilərin fəallığını yüksəldir.Seçki kampaniyasının keçirilməsində,oraya seçicilərin cəlb edilməsi istiqamətində bir qrup mütəxəssislər,yəni kommunikasiya və ya əlaqə mütəxəssisləri xüsusi rol oynayırlar.Bu kateqoriyaya aid mütəxəssisləri adətən siyasi məsləhətçilər də adlandırırlar.Öz seçkiqabağı kampaniyasını genişləndirərkən istər partiya,istərsə dəhər hansı namizəd olsun həmin kampaniyanı keçirmək yükünü öz üzərinə çəkmiı mütəxəssisin və ya mütəxəssislər qrupunun fəaliyyətlərini və xidmətlərini maddi cəhətdən ödəməli olurlar.Bu kömək həm telekanallarda,həm keçirilən sorğularda və s. öz ifadəsini tapa bilər [1.167].

Namizədin seçkiqabağı mübarizəyə qoşulmasıının rəsmi bəyanatından sonra iri miqyaslı seçkiqabağı kampaniya başlayır. Bu kampaniyalar dövründə həll ediləcək məsələlər çoxsaylı və rəngarəngdirlər.Buraya namizədin seçkiqabağı platformasının irəli sürülməsi də aiddir.Həmin platformada ölkənin və regionun mühüm problemlərinin həll edilməsi yönümündə,namizəd tərəfindən seçicilərə doğru yönəldilmiş müddəalar paketi öz əksini tapır.Seçki kampanyasının əsas məsələlərindən biri də - namizədin şəxsi keyfiyyətlərinin təbliğ edilməsi,onun əlverişli imicinin yaradılmasıdır.

Bu baxımdan seçkiqabağı kampaniyada təbliğat kampaniyası aparıcı rol oynayır.Təbliğat kampaniyası – ilk növbədə,nəzərdə tutulan tədbirlərin lazımınca yerinə yetirilməsi və dəyişməkdə olan situasiyaya adekvat reaksiyanən verilməsi deməkdir.Namizədin seçicilərlə təmasının dərəcəsinə əsaslanan təsnifatdan çıxış edərək,təbliğatı formasına görə: birbaşa və dolayıya bölürlər.Təbliğat kampaniyası dövründə hazırlıq mərhələsində hazırlanmış strateji məqsədlər və planlar gerçəkləşdirilir.Kampaniya eyni zamanda,namazədin özünün müsbət,rəqibinin isə mənfi imicinin yaradılmasına yönəldilə bilər.Seçki kampaniyasının təşkilatçıları kampaniyanın keçirilməsinin dəqiq planını hazırlayır və namizədin imicinin aktuallaşdırılması və reklam edilməsi məqsədi ilə KİV-ə,xüsusi ilə də televiziyaya müraciət edir.Bir saatda 15 dəqiqədən artıq reklam vermək olmaz.Mövcud qanunvericiliyin cızdığı çərçivəyə görə, ödənişsiz efir seçki təşviqatının davam etdiyi hər həftə üçün (cəmi 3 həftə)cəmi 3 saat olaraq müəyyən edilib və həmin müddəti ayırmaq vəzifəsi büdcədən maliyyələşən quruluşlardan yalnız birinin İctimai Televiziya və Radio Yayımları Şirkətinin üzərinə qoyulub.. Formanı efirdən istifadə edəcək siyasi partiya, namizəd özü müəyyənləşdirməlidir. Təcrübədə isə efir vaxtı bir qayda olaraq debatlara həsr edilir [5, 6.]

Seçici namizədliyi namizədliyi irəli sürülən şəxsi əvvəlcədən tanımalıdır. Namizədi əvvəlcədən tanımaq,onun ideya,fikir və məramları ilə əvvəlcədən tanışlıq seçiciyə düşünmək,götür – qoy etmək və düzgün yol seçib həqiqi namizədə səs vermək imkanı yaradır. Rusiyada seçki kampaniyası 4 ay, seçkiqabağı təşviqat kampaniyası 50 gün, Türkiyədə seçki kampaniyası 100 günə yaxın, seçkiqabağı təşviqat 55 gün,Almaniyada seçki kampaniyası 90 gün,

Polşada seçki kampaniyası və seçkiqabağı təşviqat 90 gün,Gürcüstanda seçki kampaniyası və seçkiqabağı təşviqat 60 gün,Macarıstanda 45 gün,İngiltərədə seçkiqabağı təşviqat 30 gündür.

Seçki Məcəlləsinə 2008-ci il iyunun 2-də reallaşdırılan, seçki kampaniyasının 120 gündən 75 günə,seçkiqabağı təşviqat kampaniyasının 60 gündən 28 günə endirilmişdir.2010 – cu il noyabrın 7 – də keşirilən parlament seçkisində yeni texnologiya tətbiq olunmuşdur.Seçki kampaniyasının müddətinin 60 gün,seçki təbliğatının müddətinin isə 23 günə endirilməsi layihəsini Yeni Azərbaycan Partiyası hazırlayıb.YAP əsasən xarici ölkələrin təcrübəsinə baxandan sonra belə qərara gəlib ki, seçki müddətini azaltsınlar.Seçki Məcəlləsinə dəyişiklikləri nəzərdə tutan layihə iyunun 9-da parlamentin hüquq siyasəti və dövlət quruculuğu komitəsindən keçib. Seçki Məcəlləsinə təklif edilən dəyişiklikdə seçki kampaniyasının, o cümlədən seçki təbliğatının müddətini azaltmaq, qeydə alınan namizədlərə dövlətdən 200 manat vəsait ayrılması qaydasını ləğv etmək nəzərdə tutulur. Sənəd iyunun 18-də parlamentin plenar iclasında müzakirə olunub.Seçki marafonunun 15, seçki təbliğatı müddətinin cəmi 5 gün azaldılması məqbul variantdır.Bu dəyişiklik Azərbaycanda seçki komissiyaları öz işlərini daha qısa müddətdə daha şəffaf və daha peşəkarlıqla yerinə yetirə biləcəklərinə olan inamdan irəli gəlir. Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi qeyri-hökumət təşkilatlarına parlament seçkilərində istifadə etmək üçün Elektron səsvermə və ictimai fikrin müəyyən edilməsi sistemini təqdim edib.

Yeni sistem seçicilərə şəxsiyyət vəsiqəsinin PİN kodundan istifadə edərək internet saytı vasitəsilə səs verməyə imkan verib.Bir vətəndaş-bir səs prinsipi ilə həyata keçirilən sistem səsvermə prosesinin tam anonimliyini təmin edir.Parlament seçkilərinin keçiriləcəyi seçki komissiyaları fasiləsiz telefon rabitəsi və internet şəbəkəsinə girişlə təmin olunmuşdur.Seçki prosesinin şəffalığının təmin olunması üçün bir sıra seçki məntəqələrində veb-kameralar quraşdırılmışdır. Səsvermənin gedişini online rejimində izləmək mümkün.Hər bir seçki məntəqəsindən məlumat dairə seçki məntəqələrinə, daha sonra isə Seçkilər məlumat şəbəkəsi mərkəzinə ötürülmüşdür.Səsvermə prosedurunun avtomatlaşdırılması üçün Milli Məclisdə səsvermə sisteminin avtomatlaşdırılması üçün yaradılan Seçkilər dövlət avtomatlaşdırılmış informasiya sistemindən istifadə olubdur.

Prezident seçkiləri ilə bağlı seçkiqabağı təşviqat səsvermə gününə 28 gün qalmış başlayır və səsvermə gününə 24 saat qalmış dayandırılır.İctamai teleradio verilişləri təşkilatlarınını seçkiqabağı təşviqat üçün ayırdıqları ödənişsiz efir vaxtının ümumi həcmi həftədə 3 saatdan az olmamalıdır [3. 2].

Seçki kampaniyasının idarə olunmasında *seçki strategiyasının* aparılması mühüm əhəmiyyət kəsb edir.Adətən hər hansı bir coğrafi bölgədə seçkilər keçirilərkən,onların əvvəlcədən məlum olan seçki məntəqələrində həyata

keçirirlər və demək olar ki,illər ərzində həmin seçki məntəqələrinin ünvanı dəyişilmir.Bu da mütəxəssislərin işini xeyli yüngülləşdirir.Qeyd edək ki,Azərbaycan Respublikası seçki dairələri - Mərkəzi Seçki Komissiyası tərəfindən qeydə alınmış seçicilərin hər hansı seçkili orqana nümayəndə seçməsi üçün Seçki Məcəlləsinə uyğun olaraq təşkil edilmiş ərazi vahididir.Əhali sayına görə təşkil olunmuş dairələr öz növbəsində məntəqələrdən ibarətdir.2010 – cu ilin əvvəlinə ölkə üzrə 5367 məntəqə var [4, 1]

Namizəd seçki kampaniyası həyata keçirilərkən üç amilin əsas olduğu vurğulanmalıdır: *"Vaxt, maddi pesurs və insan resursu.* Bunları düzgün bölən namizəd uğur əldə edə bilir.

ƏDƏBİYYAT

**1.** N.İbadov "Müqayisəli Politologiya" Bakı 2010

**2.** B.Y.Çirkin "Xarici ölkələrin konstitusiya hüququ" Bakı 2010

"Prezident Seçkisində KİV-lə seçkiqabağı təşviqatın aparılması qaydaları haqda" təlimat Bakı 2008 - ci il 25 iyul

**3.** Azərbaycan Respublikasının Seçki Məcəlləsi Bakı 2003 – cü il 27 may

**4.** ‘‘Reklam haqqında‘‘ Azərbaycan Respublikasının Qanunu Bakı, 1997-ci il 3 oktyabr.

Резюме

Политические технологии - процедуры, методы и средства действий, направленные к оптимальному и эффективному осуществлению политических целей и политических вопросов с помощью конкретного политического лица и использованные в строгой последовательности в определенном месте и определенное время.

Summary

Political technology are procedures, methods and means of activities directing to realizing political purpose and problems optimum and efficiently by the concrete political subject and using in strict sequence in the definite place and definite time.

# AZƏRBAYCANDA MÜXTƏLİF İDEOLOJİ YÖNÜMLÜ PARTİYALARIN SİYASİ MÜBARİZƏSİ

Qulamova Məryam
BDU-nun II kurs magistrantı

*Açar sözlər:* Plüralizm, Konservatizm, Transformasiya, Çoxpartiyalılıq, Siyasi ideologiya, Sosial demokratiya

*Ключевые слова:* Плюрализм, Консерватизм, Преобразование, Многопартийной системы, Политическая идеология, Социальная демократия

*Key words:* Pluralism, Conservatizm, Transformation, Multi-party system, Political ideology, Social democracy

Siyasi partiyaların çox olduğu ölkələrdən biri də Azərbaycandır. Bildiyimiz kimi, siyasi yönümlü partiyaların hər birininin öz prinsipləri və ətrafında birləşdiyi ideologiyası olur. Birləşmə və ya partiyalaşma üçün ideologiya ən mühüm amillərdən biri hesab olunur.

Partiyalar arasi mübarizə, birləşmə və ya ayrılma, konflikt və ya iş birliyi – bunların hər biri üçün həmin partiyaların ideoloji yönümü mühüm əhəmiyyət kəsb edir.

İdeya-siyasi, sosial-fəlsəfi ideyaların, dəyərlərin geniş qammasının "konservatizm", "liberalizm", "sosial-demokratiya!", "sol", "sağ" və ya digər qütbələrə bölünmüməsi qəbul edilmişdir. Əvvəlki fəsillərdə qeyd edildiyi kimi, adları çəkilən bu anlayışlar hələ XIX əsrdə Qərbin ictimai həyatında bərqərar olmuşdur. Bu anlayışlar özündə bir sıra istiqamətləri də birləşdirir. Məsələn, "sağlara" mötəqil mühafizəkarlar (konservatorlar), qatı mühafizəkarlar, sağ radikallar, faşıst görüşləri aiddir. "Sollara" isə kommunistlər, sosialistlər, sosial-demokratlar və b. aiddir.

Həm mühafizəkarlıq, həm liberalizm, həm də sosial-demokratiya heç də bu və ya digər partiyanın sadəcə proqramı deyil, dünyaya baxışlar sistemidir, şüur tipləri və siyasi-ideoloji istiqamətləridir. Və hər üç baxış konkret siyasi partiyalar tərəfindən əlaqələndirilir.

Yuxarıda adları çəkilən bu ideya-siyasi cərəyanlar ( marksist-leninçi nəzəriyyə istisna olmaqla) keçmiş sovetlər imperiyası dağılandan sonra Azərbaycan cəmiyyətinin transformasiyası prosesində bərqərar olmuşdur. Məlumdur ki, keçmiş SSRİ imperiyasının dağılması ilə hakim ideologiya kimi marksist-leninçi ideologiyanın da sonu gəlib çatdı. Müstəqilliyinin əldə etmiş keçmiş sovet respublikalarında ideologiya axtarışları başlandı. Fikir plüralizmi cəmiyyətin irəliyə doğru inkişaf etdirilməsi üçün nəzərdə tutulan ideya-siyasi, sosial-fəlsəfi konsepsiyalarla müşayiət olundu. Müxtəlif inkişaf modelləri irəli sürüldü. Ictimai fikir Qərb və Şərq inkişaf yolu arasında, milli, dini, liberal, mühafizəkar, sosial-demokratiya ideologiyalarının seçimi qarşısında qaldı.

Azərbaycanda 90-cı illərin əvvəllərində - milli-azadlıq hərəkatının yüksəlişi dövründə meydana çıxan millətçi-radikal qüvvələr, özünü vətənpərvər hesab edən qüvvələr Azərbaycanın öz inkişaf modelinə üstünlük verdilər. Beə ki, 1991-1992-ci illərin imperiyapərəst iqtidarından fərqli olaraq, 1992-1993-cü illərdə hakimiyyətdə olmuş milli-demokratlar milli dəyərlərimizin üstünlüyünü saxlamaq şərtilə Qərb inkişaf yolunu açıq cəmiyyət, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunu tutdular. Beynəlxalq mühafizəkar, liberalizm, sosial-demokratiya ideologiyaları ilə yanaşı, cəmiyyətdə kommunist, islam ideologiyası, turançılıq, türkçülük, azərbaycançılıq ideologiyaları da özünə yer tutdu. Beləliklə, azərbaycan cəmiyyətinin transformasiyası prosesində birpartiyalı sistem çoxpartiyalılıqla əvəz olundu. Keçmiş kommunist ideologiyası daşıyıcılarının əksəriyyəti yeni ideologiyaların daçıyıcılarına çevrildi, onların çox cüzi kommunist ideologiyasına sadiq qalaraq mübarizəsini davam etdirdi. Hazırda Azərbaycanda həmin qüvvələr üç kommunist partiyasında (AKP-1, AKP-2, AVKP) birləşmişlər [4. Səh 74].

Azərbaycanın hazırki inkişaf yolu mürəkəb olduğundan,əslində cəmiyyət böhran keçirdiyindən hakimiyyət uğrunda mübarizənin ideoloji əsaslara söykənməsi təbii prosesdir. Ideoloji mübarizə öz əhəmiyyətini yüksək inkişaf etmiş, sabit cəmiyyətlərdəitirir. Bu mənada Azərbaycanın transformasiyası prosesində hakim kommunist ideologiyasına son qoyulması ideologiyasızlaşma şüarı altında getmişdir. Lakin həmin ideologiyanın yerini çoxlu sayda ideologiyalar tutmuşdur. E.Frommun sözləri ilə desək, Qərbdə “sağlar”,”sollar”, “kommunizm”, “kapitalizm” kimi ənənəvi çeynənmiş sözlər öz əhəmiyyətini itirsə də, bizdə bu cərəyanlar özünə yenicə yer etməkdədir. Hazırda Qərbdə yeni ideoloji əsrin başlanmasına, insanların yeni istiqamət,yeni fəlsəfə axtarmasına baxmayaraq, Azərbaycan Qərb ölkələrindən inkişaf səviyyəsinə görə geri qaldığından siyasi hakimiyyət uğrunda sosial qrupların rəqabəti şəklində konfliktlərin mənbəyi kimi ideoloji fərqlər qalacaq, yəni “sağlar” və “sollar”, konservatorlar, liberallar, kommunistlər, sosial-demokratlar, millətçilər uzun müddət bir- birilə mübarizə aparacaqdır.

Azərbaycanda hazırda fəaliyyət göstərən, müxalifətin aparıcı partiyaları olan və milli-demokratik qüvvələröz ətrafında birləşdirən Müsavat Partiyası, Azərbaycan Xalq Cəbhəsi, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Demokratik Partiyası sağ mərkəzçi mövqedən çıxış edərək konservatizmideologiyanın daşıyıcısı kimi çıxış edirlər. Bu partiyanın mövqeyi yeni mühafizəkarların və “yeni sağların” mövqeyi ilə üst-üstə düşür. Məsələn, demokratiya haqqında fikirlərə diqqət yetirək: “Ümumi məktəb” nümayəndələri D.Eşer, M.Olson və F.Hayek belə hesab edirlər ki, demokratiya yalnız azad bazar iqtisadiyyatına əsaslanan cəmiyyətdə yaşaya bilər. Azərbaycanın sağ mərkəzçi partiyaları respublikanın azad bazar iqtisadiyyatına keçməsini ləngidən dövlət siyasətini (islahatların ləng getməsi, özəlləşdirmənin ardıcıl aparılmaması, iqtisadi qanunların qəbulundakı gecikmələr və qəbul olunan

qanunların işləməməsi) ən kəskin tənqid edən təşkilatlardır. Bu partiyalar dövlətçilik,millətçilik, hürriyyətçilik kimi prinsiplər əsas götürərək qəti mühafizəkarlıq deyil, sağ mərkəzçilik mövqeyindən çıxış edirlər. Azərbaycan "sağları" mö`tədil mühafizəkar mövqeyindən çıxış edərək olanı qoruyub saxlamaqla, yeniliin tərəfdarı kimi çıxış edirlər. Axı dünyanın dəyişkən olduğunu dərk edən mühafizəkarlar baş verən dəyişikliklərin heç də hamısını inkar edə bilmir, bu sahədə liberal cərəyanla rəqabətdə məğlubiyyətə uğramaqdan ehtiyatlanaraq tarixi şəraitə uyğun dəyişməyə məcbur olur. Bu mövqedən çıxış edən mühafizəkarlar azad bazar münasibətlərini, konsttusionalizmi, hakimiyyət orqanlarının nümayəndəlik və seçkili sistemini qəbul etməyə bilməzlər. Qeyd etmək lazımdır ki, 1993-cü ildən hakimiyyətdə olan Yeni Azərbaycan Partiyası da sağ mərkəzçi mövqedən çıxış edir [1. Səh. 47].

Liberalizm əsasən ABŞ-da müstəmləkə zülmdən azad olmaq uğrunda gedən burjua hərəkatı zamanı bərqərar olmuşdur. ABŞ-ın "İstiqlal Bəyannaməsi" vətəndaşların azadlıq və bərabərlik hüquqları, yəni liberalizm dünyagörüşünün əsasında duran, sonralar bütün qabaqcıl ölkələrin konstitusiyalarında öz əksini tapmış hüquqlar irəli sürülürdü. Siyasi liberalizm Böyük Fransa inqilabi zamanı daha bari surətdə təzahür etmişdir.bu zaman mütərəqqi burjua sinfi liberal görüşlərin bütöv sisteminə arxalanaraq vaxtı çatmış zəruri dəyişiklikləri həyata keçirdi. Müasir liberalizmin Proqram sənədində azadlıq prinsipinə insan və cəmiyyətə baxışların açarı kimi baxılır. Bu sənəddə göstərilir ki, "azadlıq" yalnız milli müstəqillik kimi,azad sahibkarlıq, bərabərlik mənasında başa düşülməməlidir. Azadlıq- insanın fərdi muxtariyyəti, seçmək hüququ deməkdir, daha yaxşı həyat səviyyəsini təmin edən, yetkin, effektli cəmiyyət üçün inkişaf yolunun seçilməsideməkdir. Azərbaycanın liberal partiyaları- Azərbaycan Liberal Partiyası, Azərbaycan Liberal-Demokrat Partiyası, "Əhrar" Partiyası öz Proqram məqsədlərində şəxsiyyətin azadlığı, fərdiyyətçiliyi, xüsusi mülkiyyətə sadiqliyi, azad sahibkarlığı əsas prinsiplər kimi götürürlər. Azərbaycanın siyasi arenasında öz nüfuzu ilə seçilən liberallar 2001-ci ilin fevral ayında "sağ" mərkəzçi partiyalarla (AXCP, Müsavat,ADR) siyasi blok yaratmışlar. Azərbaycanda 1993 və 1998-ci illərdə keçirilən prezident seçkilərində, 1995 və 2000- illərdə keçirilən parlament seçkilərində milli-demokratik qüvvələrdə, "sağ" mərkəzçi mühafizəkar partiyalarla yanaşı liberal partiyalar da aktiv iştirak etmişlər. Hazırda 2005-ci il parlament seçkiləri ərəfəsində Müsavat, AXCP və ADR- sağ mərkəzçi partiyalar "Azadlıq" seçki blokunda, ALP(liberal), AMİP(sağ mərkəzçi), ASDP(sol) partiyaları "Yeni siyasət" seçki blokunda birləşmişlər.

Sosilal-demokratiya ideologiyasının tarixən ilk mənbəyi marksizm olmuş, yəni o, marksizmdən bəhrələnmişdir. Bu ideya-siyasi cərəyanın sosial bazası əsasən əhalinin zəhmətkeş təbəqələri, ziyalılar və sahibkarların müəyyən hissəsidir. Marksizmdən fərqli olaraq müasir sosial-demokratizm reformist

cərəyan ideologiyasıdır. Məlumdur ki, marksistlər reformizmi fəhlə hərəkatında inqilabi, sinfi, siyasi mübarizəni inkar edən və kapitalizm cəmiyyətinə toxunmadan burjuaziya ilə əməkdaşlıq əsasında ayrı-ayrı islahat siyasəti yeridən, marksizmə zidd opportunist cərəyan, yəni sazişçi cərəyan kimi qəbul edirlər. Və buna görə də sosial-demokratiya həmişə marksizm tərəfindən kəskin tənqid atəşinə məruz qalmışdır. Fəhlə hərəkatında reformist xətt yeridən sosial-demokrat və sosialist partiyaları 1951-ci ildə Almaniyanın Frankfurt-Mayn şəhərində beynəlxalq birlikdə-Sosialist İnternasionalında birləşdilər. Hazırda həmin ittifaqda 80-dən çox partiya birləşir. Sosialist İnternasionalının ideoloji və siyasi əsasını reformist "demokratik sosializm" prinsipləri təşkil edir. "Demokratik sosializm" isə sinfi mübarizəni, sosialist inqilabını, proletariat diktaturasını inkar edir. Bu ideologiyaya görə sosializm yalnız "demokratiya", yəni kapitalistlər də daxil olmaqla cəmiyyətin bütün sosial təbəqə və qruplarının ahəngdar birliyi kimi mövcuddur. Bu doktrinaya görə, "xalis sosializm" cəmiyyətinə istehsal vasitələri üzərində ictimai mülkiyyət, fəhlə sinfinin rəhbər rolu, onun siyasi avanqardlığl, marksist-leninçi ideologiya xas deyil.

Azərbaycanda sosial-demokratiya ideyalarının daşıyıcı kimi Azərbaycan Sosial-Demokrat Partiyası, Azərbaycan Sosialist Partiyası, Azərbaycan Demokratik Sosialist Partiyası çıxış edirlər. Bu partiyalar öz fəaliyyətlərində sülh, hamanizm, insan haqları, iqtisadi rifah, ekoloji təhlükəsizlik kimi ümumbəşəri anlayışları rəhbər tutduqlarını bəyan etmişlər. Azərbaycan sosial-demokratları cəmiyyətin inkişafının dinc təkamül yolunun tərəfdarı, zorakı inqilablar yolu ilə onun dəyişdirilməsinin əleyhdarı kimi çıxış edirlər. Onlar çoxpartiyalılıq, demokratik parlament, müstəqil məhkəmə və güclü icra hakimiyyətinin tərəfdarı olduğunu və məqsədlərinin Azərbaycanda vətəndaş cəmiyyəti qurmaqdan ibarət olduğunu iddia edirlər. Həm də bu quruculuğun dərin islahatlar vasitəsilə təmin edilməsini məqsədəuyğun sayırlar. Onlar hazırda Azərbaycanın siyasi səhnəsində sosial bazalarının zəiflıyi ilə seçilirlər. Azərbaycanın sosial-demokrat partiyaları prezident (1998) və parlament (2000) seçkilərini baykot etmiş, Azərbaycançı Qüvvələr Birliyində (buna Vətəndaş Birliyi Partiyası, "Vəhdət", "Namus" partiyaları daxildir) mübarizələrini davam etdirdilər. Təbiidir ki, Azərbaycan mühiti kommunist və sosialist ideyalarından doyduğundan və sosial-demokrat ideyaları üçün yad hesab etdiyindən bu siyasi cərəyanların Azərbaycanın gələcək inkişaf modeli kimi təqdim etdikləri cəmiyyət quruculuğu imkanları çox azdır,

Müasir dünyanın siyasi həyatında blok və koalisiyaların yaradılması çox mühüm rol oynayır. Hakimiyyətə can atan, öz məqsədlərini reallaşdırmaq istəyən qruplar öz ətraflarında daha çox qüvvələrin toplanmasında maraqlıdırlar. Lakin demokratik dövlətlərdə bu proseslər nisbətən fərqli, daha sivil üsullarla həyata keçirilir. Demokratik partiyaların yaxından iştirakı ilə yaradılmış birliklər müəyyən edir. Siyasi blokların formalaşması üçün çoxpartiyalı sistem çox mühüm rol oynayır. Blokun və ya koalissiyanın tərkibi

əsasən iki elementdən ibarətdir: maraq qrupları və siyasi partiyalar. Həm maraq qrupları, həm də siyasi partiyalar mürəkkəb siyasi sistemdə dövlətlə vətndaş arasında vasitəçilik funksiyasını yerinə yetirsələr də məqsədləri, fəaliyyət metodları, iqtidara təsir resursları ilə bir-birindən fərqlənirlər. Maraq qruplarının və partiyaların bir-birinə və digər siyasi institutlara dair münasibətlərinin formalaşmasına təsir edən amillərə ideologiya, liderlik, elita, cəmiyyətdə mövcud olan zorakılıq və seçkilər aiddir.

Siyasi partiyaların Deyirmi Masası (1995) siyasi yönümündən asılı olmayaraq bütün təşkilatları bir araya gətirən məsləhət-məşvərət mərkəzi kimi yaradılmışdır. Dəyirmi Masanın qarşısında qoyduğu məqsəd vətəndaş həmrəyliyinə nail olmaqdan ibarət idi. Sonralar Dəyirmi Masaya daxil olan iqtidaryönümlü təşkilatlar o dövrdəki rejimin legitimliyini DM qəbul etmədiyi üçün həmin mərkəzdən uzaqlaşmışlar.

Məşvərət Məclisi (1997) H.Əliyev iqtidarının apardığı siyasəti dəstəkləyən partiyaların məşvərət və əməkdaşlıq mərkəzi kimi yaradılçışdır. “Sosialist Azərbaycanı” bloku (1997) isə ASDP və AKP-nin yaratdıqları blokdur. Bu blokun əsas məqsədi Azərbaycanda demokratik sosializm cəmiyyətinin qurulmasıdır.

2000-ci il parlament seçkiləri ərəfəsində müəyyən obyektiv səbəblər üzündən “Elçibəy-İsa Qəmbər” blokunun baş tutmaması, AXCP və Vəhdət partiyalarının iki yerə bölünməsi, AXCP-də “islahatçılar” və “klassiklər” arasında fikir ayrılığının yaranması nəticəsində baş verən böhranın Demkonqres blokunu iki yerə parçalanması həmin vaxt demokratik qüvvələrin vahid blokunun yaranmasına imkan vermədi. Nə 1998-ci il prezident seçkiləri, nə də ki, 2000-ci il parlament seçkiləri ərəfəsində demokratik qüvvələrin koalissiyasının şahidi olmadıq. Özünü siyasi partiya adlandıran ictimai-siyasi təşkilatlar seçicilərinə öz siyasi platformasını təqdim edərək nəinki mövcud strukturları tənqid etməli, habelə vəziyyətdən çıxış yolları göstərməli,sosial-iqtisadi böhrandan çıxmaq, həyati vacib məsələləri həll etməyin yollarını gpstərməlidir. Azərbaycanda 2003-cü il prezident seçkilərində müxalifət partiyalarından Müsavat partiyası belə bir məzmunlu, alternativ proqrama malik olduğunu nümayiş etdirmişdir [4. Səh. 62].

Siyasi sistemin varlığı onun subyektlərinin- dövlət institutları, partiyalar, ictimai təşkilatlar, elitalar, liderlər və bütün vətəndaşların fəaliyyət prosesidir. M.Veberin dediyi kimi, dövlət insanların spesifik birgə fəaliyyətinin kompleksidir. Siyasi fəaliyyətin subyektləri kimi şəxslərin təşkil olunmuş qrupları- parlament, partiya fraksiyaları, hakim qruplar(elitalar), hökümət, digər dövlət orqanları, bilavasitə siyasi sistemdə funksiya göstərən liderlər çıxış edir. Siyasi fəaliyyətin mahiyyətini insanların, insan cəmiyyətlərinin idarə edilməsi təşkil edir.

Siyasi fəaliyyətin konkret məzmunun dövlətin işində iştirak etmək, dövlət fəaliyyətinin formaları, vəzifə istiqamətlərinin müəyyən edilməsi,

hakimiyyətin bölgüsü, hökümətin fəaliyyətinə nəzarət, habelə suyasi institutlara başqa təsirlər etmək təşkil edir. Siyasi fəaliyyətin növləri də müxtəlifdir: dövlət hakimiyyəti institutları və siyasi partiyalar çərçivəsində siyasi funksiya göstərmək, peşəkar və qeyri-peşakar fəaliyyət, bu və ya digər sistemin möhkəmlənməsi və ya dağıdılmasına xidmət edənrəhbəredici və icraedici fəaliyyət, institusionallaşmış və ya institusionallaşmamış fəaliyyət (məsələn, ekstremizm), sistemli və ya qeyri-sistemli fəaliyyət.

Son olaraq onu qeyd edə bilərik ki,partiyaların siyasi fəaliyyəti müəyyən sosial qrupların marağının əsaslandırılması və müdafiə edilməsi, dövlət hakimiyyətinin konkret siyasətində onların reallaşdırılması ilə bağlıdır. İstənilən ideologiya və prinsip də bu konkret siyasət daxilində və siyasi fəaliyyətin həyata keçirilməsi nəticəsində ortaya çıxır və müəyyən qüvvəyə malik olur.

Ədəbiyyat siyahısı.

1. İsmayılov D. “Azərbaycanın transformasiya prosesində ideologiyalar: Konservatizm, liberalizm, sosial-demokratiya”
2. Əfəndiyev M. “ Siyasi elmin əsasları”
3. İsmayılov D. “Yeni dövrdə yeniliklərin mütləqləşdirilməsinin konservativ tənqidi”
4. Abbasov Ə.F. “Yeniləşən cəmiyyət. Müasir elmi paradiqma və idarəetmə”

Резюме

Эта статья о деятельности политических партий в режиме трансформации. Особое внимание отделено на борьбы партий различной идеологической ориентации. Здесь в том числе, нужно отметить важность политической идеологии, её роль в деятельности политических партий, в отношениях между сторонами и с правительством. Статья состоит из 6 страниц.

Summary

The article is about the activities of political parties of the conditions of transformation. Special attention is given to the struggle of different parties and ideological orientation. Here in particular, should note the importance of political ideology, its role in political parties, between the parties and the government. The article consists of 6 pages.

## MÜNDƏRİCAT

Шафиева Э.И. ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА НЕУСТАВНЫХ ВЗАИМООТНОШЕНИЙ В ВОИНСКИХ КОЛЛЕКТИВАХ.........................................................................3
Аллахъярова С. ПРОФИЛАКТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ В СЕМЬЕ НАРКОЗАВИСИМОГО ПОДРОСТКА.................................................8

Əliyeva G. Ə. AŞAĞI ƏTRAFLARI AMPUTASİYA OLUNMUŞ ŞƏXSLƏRDƏ İPT TƏDBİRLƏRİNİN PERSPEKTİVLƏRİ..........................14
İsmixanov M.A. MÜƏLLİMİN ÜNSİYYƏT QABİLİYYƏTİ........................21
Əliyeva P. AFFEKTİV POZUNTULU XƏSTƏLƏRLƏ BƏRPAEDİCİ TERAPİYANIN APARILMASI ÜÇÜN DƏYƏRLƏR ORİYENTASİYASININ ƏHƏMİYYƏTİ............................................24
Sayadova Z. İNKLÜZİV BAĞÇA VƏ İNKLÜZİV MƏKTƏBLƏRDƏ XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN TƏHSİLİ.............28
Hüseynova E. KİÇİK MƏKTƏBLİ YAŞ DÖVRÜNÜN XÜSUSİYYƏTLƏRİ.......................................................................32
Abdullayeva T. UŞAQ ŞƏXSİYYƏTİNİN İNKİŞAFININ ƏSAS MƏRHƏLƏLƏRİ............................................................................35
Adıgözəlova G. AQRESSİYANIN TƏBİƏTİNƏ PSİXOANALİTİK YANAŞMA..........................................................................38
Qubadova Ə. S. STRESS VƏ SAĞLAM YAŞAMAQ.............................41
Cavadnea İdris. DEPRESSİV NEVROZLU XƏSTƏLƏRDƏ ŞƏXSİYYƏT XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ MƏSƏLƏLƏRİ.............................44
İmanova Ş. R. XRONİKİ BÖYRƏK ÇATIŞMAZLIĞI XƏSTƏLİYİNİN VƏ ONUN MÜALİCƏSİ OLAN HEMODİALİZİN MAHİYYƏTİ..................48
Kazımova Z. C. TƏHSİIL SİSTEMİ VƏ YENİYETMƏNİN ŞƏXSİYYƏTİNİN İNKİŞAFI..............................................................53
İsmayılov F.N., Quliyeva G.A. UŞAQ VƏ YENİYETMƏLƏRDƏ OLAN DEPRESSİV POZUNTULAR..............................................................58
Səməndərova F.A. TAMAHKAR CİNAYƏTKARLARIN TİPOLOGİYASI VƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ.....................64
Əliyeva H. A. GƏNCLƏRİN ƏXLAQİ-MƏNƏVİ SFERASINDA DEPRESSİV XÜSUSİYYƏTLƏRİN TƏZAHÜR FORMALARI..........................................................................................74
Fətullayeva A. ÖZÜNÜDƏRKETMƏ PROSESİ....................................79
Əliyeva Pərvin. AFFEKTİV POZULMALARIN SINDROMLARI VƏ ONLARIN SİSTEMLİ TƏŞKİLİ.....................................................82

Tağızadə G. A. TƏLİM SİTUASİYASINDA MÜƏLLİM - ŞAGİRD QARŞILIQLI MÜNASİBƏTLƏRİNİN BƏZİ MƏSƏLƏLƏRİ.................85
Cavadov R.Ə. TƏFƏKKÜR MƏDƏNİYYƏTİ VƏ MÜSTƏQİLLİYİ.......90
Sadıqov Ə. S. ŞAGİRDLƏRİN RİYAZİYYAT TƏLİMİNƏ MARAĞIN ARTIRILMASINDA FƏNLƏRARASI ƏLAQƏLƏRİN ROLU....................................................................96
İdris Cavadnia. STRESS (HADS) VƏ İZTİRABIN XƏSTƏXANALIQ MİQYASININ ETİBARLI VƏ HƏQİQİLİYİ: (İRANIN STRESS VƏ İZTİRABLI XƏSTƏLƏRİ)..............................101
Велиев М.В., Мустафаев А.М. НЕКОТОРЫЕ АСПЕКТЫ ПСИХОЛОГИИ СУИЦИДА.................................................................. ..107
Nəsibova S. Ş. ÖZÜNÜTƏRBİYƏNİN TƏŞƏKKÜL VƏ İNKİŞAFININ PSİXOSOSİAL XÜSUSİYYƏTLƏRİ.......................115
Ağabəyova Ü. SUFİZMİN TƏDQİQİ SAHƏSİNDƏ ŞƏRQ VƏ QƏRB SUFİŞÜNASLIQ MƏKTƏBLƏRİ.....................................118
Эфендиев Ф.М. ОТ ХАОСА К САМООРГАНИЗАЦИИ БИОСИСТЕМ........................................................................125
Xələfova K. FƏLSƏFƏDƏ ŞÜUR PROBLEMİ....................................135
Hüseynova Ş. M. ELMİ İDRAKDA SİSTEMLİLİK PRİNSİPİ VƏ SİNERGETİKA........................................................................140
Səlimova Ü. İNSANIN ÖZGƏLƏŞMƏSİNİN SƏBƏBLƏRİ VƏ TƏZAHÜR FORMALARI........................................................................146
Xələfova K. FƏLSƏFƏDƏ YARADICILIQ PROBLEMİ.......................150
Hüseynova V. SİYASİ SOSİALLAŞMA MAHİYYƏTİ VƏ TƏZAHÜR FORMALARI........................................................................155
Əliyeva Ləman ŞƏXSİYYƏTİN SOSİALLAŞMASI.ŞƏXSİYYƏTLƏ SOSİAL MÜHİT ARASINDAKI MÜNASİBƏTLƏR............................160
Султанов А.Ш. О МЕСТЕ И РОЛИ БИРЖИ И БИРЖЕВОЙ ДЕЯТЕЛЬНОСТИ В РЫНОЧНОЙ ЭКОНОМИКЕ...........................164
Sarıyev K.A. MÜSTƏQİL AZƏRBAYCANIN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ.....................................170
Шихализаде С.Э. СУЩНОСТЬ ОТКРЫТОЙ ЭКОНОМИКИ............174
İslamova N. KORRUPSİYA-İQTİSADİ İNKİŞAF ƏLAQƏSİ...............180
Babaşov Z. H. ÝÅÍ ÈØÒß Ê ÐÀÐ ÈÑÒÅÙÑÀË ÐÅÑÓÐÑÈÀÐÛÂß ÀÌ ÈËÈß ÐÈ........................................................................184
Hüseynova A. “İQTISADİ TƏHLÜKƏSİZLİK” ANLAYIŞININ GÖSTƏRİCİLƏR SİSTEMİ..............................................................189
Filiyev R.M. AZƏRBAYCANIN İNKİŞAF ETMİŞ AVROPA ÖLKƏLƏRİ İLƏ İQTİSADİ ƏLQƏLƏRİ............................................................195
Ağayev T.B., Məmmədova A.N. P.A.SOROKİNİN SOSİAL STRATİFİKASİYA NƏZƏRİYYƏSİ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN SƏMƏRƏLİ TƏŞKİLİNİN METODOLOJİ

ƏSASLARINDAN BİRİ KİMİ.............................................................205
Nəzərova G. AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ AİLƏDAXİLİ ZORAKILIQ VƏ GÖRÜLƏN TƏDBİRLƏR.......................................210
Vəliyeva Ş. QİYMƏTLƏNDİRMƏ TƏHSİLİN KEYFİYYƏTİNİ ÖLÇƏN AMİL KİMİ.........................................................................................214
Джавадова Г.М. МЕСТО И РОЛЬ СМИ В ПОЛИТИКЕ.....................217
Məmmədova A.N., Ağayev T.B. ƏTRAF MÜHİT MÜRƏKKƏB STRUKTUR KİMİ..........................................................................................................225
Alıyeva S. Ə. CİNAYƏTKARLIĞIN MAHİYYƏTİ VƏ CİNAYƏTLƏRİN KATEQORİYALARI.........................................................................229
Османова А.Т.СИСТЕМА ПРОТИВОДЕЙСТВИЯ ТЕРРОРИЗМУ В АЗЕРБАЙДЖАНЕ И ЗА РУБЕЖОМ.................................................232
İbrahimli M.M. NATO- AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ.............236
Abbasova P. İ. SİYASİ TEXNOLOGİYALARIN BİR NÖVÜ KİMİ SEÇKİ TEXNOLOGİYALARI....................................................................240
Qulamova M. AZƏRBAYCANDA MÜXTƏLİF İDEOLOJİ YÖNÜMLÜ PARTİYALARIN SİYASİ MÜBARİZƏSİ..........................................245

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

MÜASİR DÖVRÜN AKTUAL
PROBLEMLƏRİ

Ali məktəblərarasi elmi əsərlər toplusu

BURAXILIŞ № 5

Elmi redaktor: prof. **H.Ə.Əlizadə**
Məsul katib: **dos. O. Hüseynli**

Kompüter dizaynı – **V.K.Musayeva**
Rəssam **- G.Məmmədova**

Çapa imzalanmışdır: 19 aprel 2011-cu il
Format: 70 ×100, 16/1
Şərti çap vərəqi – 16
Sifariş № 09
Tiraj – 100 nüsxə

# MÜASİR DÖVRÜN AKTUAL PROBLEMLƏRİ

BURAXILIŞ № 5, 2011

FƏLSƏFƏ
POLİTOLOGİYA
SOSİOLOGİYA
PEDAQOGİKA
PSİXOLOGİYA
İQTİSADİYYAT
MƏDƏNİYYƏTŞÜNASLIQ
SƏNƏTŞÜNASLIQ